İLHAM
ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## QIRX İKİNCİ KİTAB

## İYUL 2010 - OKTYABR 2010

AZƏRNƏŞR
BAKI - 2017

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2017**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Türkiyə, Özbəkistan respublikalarına və Amerika Birləşmiş Ştatlarına rəsmi səfərləri, həmçinin Türkiyə və Rusiya prezidentlərinin ölkəmizə səfərləri zamanı bu ölkənin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafına dair danışıqlarından bəhs olunur. Azərbaycan prezidenti bütün görüş və danışıqlarında Ermənistanın işğalçılıq siyasətini önə çəkmiş, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırmışdır.

Dövlət başçısının bölgələrə səfəri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri və ictimaiyyətin nümayəndələri ilə görüşlərinə dair materiallar da toplanmışdır. .

Bu cilddə, həmçinin ölkəmizə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşlərinə dair materiallar da dərc olunmuşdur.

**İSBN 978-9952-8100-7-3**

$$Я \frac{0801000000}{М - 651(07) - 2017}$$

**ББК - 32**

**© Azərnəşr, 2017**

## YUNESKO-nun BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyul 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 29-da YUNESKO-nun Baş direktoru xanım İrina Bokovanı qəbul etmişlər.*

*Xanım İrina Bokovanın YUNESKO-nun Baş direktoru kimi ilk səfərlərindən birini Azərbaycana etməsindən məmnunluğunu bildirən prezident İlham Əliyev onu bu yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etmiş və fəaliyyətində uğurlar arzulamışdır. Son zamanlar həyata keçirilən birgə işlərə toxunan dövlətimizin başçısı bu müsbət meyillərin davam edəcəyinə, Azərbaycan ilə YUNESKO arasında fəal əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə ümidvar olduğunu bildirmişdir.*

*Xanım İrina Bokova YUNESKO-nun Baş direktoru kimi fəaliyyətinin əvvəlində ölkəmizə səfər etməsinin önəmini vurğulamışdır. YUNESKO ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlığın olduğunu qeyd edən İrina Bokova rəhbərlik etdiyi təşkilatda YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevaya hamının çox böyük hörmətlə yanaşdığını demiş, onun mədəniyyət, musiqi, adət-ənənə, irs kimi ən əhəmiyyətli sahələrin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirmişdir.*

*Prezident İlham Əliyev YUNESKO ilə birgə həyata keçirilən layihələrin əhəmiyyətinə toxunaraq bu istiqamətdə mühüm planların olduğunu vurgulamış, YUNESKO-nun Baş direktorunun ölkəmizə səfərinin əməkdaşlığımızın inkişafına yeni təkan verəcəyinə ümidvar olduğunu bildirmişdir.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ RAYONUNA SƏFƏRİ

*29 iyul 2010-cu il*

*İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələ rayonuna gəlmişdir.*

*Ölkənin bütün regionları kimi, Qəbələdə də həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonun iqtisadiyyatı güclənmiş, əhalinin yaşayış səviyyəsi yüksəlmiş, şəhər və kəndlərdə quruculuq işləri geniş vüsət almışdır.*

*Rayonda yeni müəssisələrin fəaliyyətə başlaması, mövcud olanlarda yenidənqurma işlərinin aparılması Qəbələnin iqtisadi kompleksinin inkişafı baxımından mühüm amillərdir. Rayonda 2003-cü illə müqayisədə 2010-cu ildə ümumi məhsul buraxılışının həcmi xeyli artmışdır. Kənd təsərrüfatı məhsullarının artımı 2 dəfədən çox olmuşdur. 2003–2009-cu illərdə rayondakı 450-dən çox müəssisədə 8500-ə yaxın yeni iş yeri açılmışdır. Qəbələnin zəngin turizm potensialının reallaşdırılması üçün də dövlətimizin başçısının tapşırığına müvafiq kompleks tədbirlər həyata keçirilir. Bununla da böyük keçmişi olan Qəbələ yenidən öz tarixi şöhrətini bərpa edir.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin adını daşıyan parkda ümummilli liderin abidəsini ziyarət etdi.*

*Prezident İlham Əliyev Heydər Əliyev parkında aparılmış abadlıq və yenidənqurma işləri ilə tanış oldu.*

*Bildirildi ki, müasir görünüşü ilə diqqət çəkən parkın ərazisi 2 hektardır. Yenidənqurma işləri zamanı əsas diqqət ərazidə yaşıllıqların artırılmasına yönəldilmiş, xüsusi suvarma sistemi quraşdırılmışdır. Parkda rayon əhalisinin və şəhərə gələn qonaqların istirahətinin təşkili üçün bütün şərait yaradılmışdır.*

### «Gilan» konserv zavodunda yaradılan yeni istehsal sahələri ilə tanışlıq

*İyulun 29-da Azərbaycan prezidenti İlham Əliyev Qəbələdəki «Gilan» konserv zavodunda yaradılan yeni istehsal sahələri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 12 hektar ərazidə yerləşən zavodun istehsal gücünə və texnoloji avadanlığına görə Qafqazda analoqu yoxdur. Zavodda «Tetra Pak» xətti istismara verilmiş, xaricdən gətirilən avadanlıq quraşdırılmışdır. Müəssisənin iş prinsipi xammal qəbulundan başlayaraq hazır məhsulun qablaşdırılmasına qədər bütün prosesləri əhatə edir. 2007-ci ilin martında prezident İlham Əliyevin iştirakı ilə açılan bu zavodda təxminən 100-ə qədər müxtəlif növdə qablaşdırılmış məhsul istehsal olunur. Məhsullar «Jalə», «Bağdan», «Aycan», «Zolotoy sad» adlı təbii meyvə şirələri, müxtəlif tamlara malik «İce tea-Jalə» soyuq çayları, həmçinin meyvə dilimlərindən ibarət konservlərdir.*

*Dövlətimizin başçısı müəssisədə istehsal olunan məhsulların nümunələrinə baxdı.*

*Zavod ildə 700 min ton meyvə emal etmək, 210 min ton meyvə şirəsi hazırlamaq gücünə malikdir. Prezident İlham Əliyev istehsal prosesini izlədi, meyvə qəbulu bölməsi və şüşə qablara məhsul dolduran xəttə baxdı.*

*Sonra prezident İlham Əliyev zavodda aparılan yenidənqurma və genişləndirmə işlərini əks etdirən maketlə tanış oldu.*

## «Qafqaz Riverside» otelinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 29-da Qəbələdə «Qafqaz Riverside» otelinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və turizm obyekti ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, 2008-ci ilin avqustunda inşasına başlanılan beşulduzlu otel «Gilan Turizm» şirkətinə daxil olan ən böyük layihələrdən biridir.*

*Bildirildi ki, avanqard və modern arxitektura üslublarının sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında xaricdə hazırlanmış mebel və aksessuarlardan istifadə olunmuşdur. Burada 96-sı «Superior», 12-si «Junior suite», 6-sı «Deluks suite», 4-ü «Dupleks suite» və 5-i «Kral suite» olmaqla, cəmi 123 nömrə vardır. Nömrələrdə qonaqların istirahətinin yüksək səviyyədə təmin edilməsi üçün hər cür şərait yaradılmışdır. Bütün otaqlar rəqəmli seyf, minibar, havalandırma sistemləri, peyk televiziya antenası, beynəlxalq telefon xətti, kabelsiz internetlə təchiz edilmişdir. Otelin ərazisində yüksək standartlara cavab verən 38 kottec inşa olunmuşdur. Ailəvi istirahət üçün ideal şəraitə malik kottеclərdə amerikan mətbəxi qonaqların ixtiyarına verilmişdir. Qonaqlar gün ərzində otaq xidməti, faks-kseroks, örtülü avtodayanacaq, camaşırxana, ticarət mərkəzi, avtobus, tibbi yardım xidmətlərindən də faydalana bilərlər.*

*Restoranda qonaqlar Azərbaycan və dünya mətbəxinin ləziz təamlarını dada bilərlər. Oteldə sağlamlıq mərkəzi, sauna, türk hamamı, açıq və örtülü hovuz, idman zalı da yaradılmışdır. Qonaqlar asudə vaxtlarını bilyard və stolüstü oyun zallarında səmərəli keçirə bilərlər. Uşaqlar da unudulmamışlar, onların əylənməsi üçün oyun meydançası inşa olunmuşdur.*

## QƏBƏLƏ İKİNCİ BEYNƏLXALQ MUSİQİ FESTİVALININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*30 iyul 2010-cu il*

*İyulun 30-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qəbələdə keçirilən İkinci Beynəlxalq musiqi festivalının təntənəli rəsmi açılışı olmuşdur.*

*Prezident İlham Əliyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və ölkəmizdə səfərdə olan YUNESKO-nun Baş direktoru İrina Bokova mərasimdə iştirak etmişlər.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını, xanımını və YUNESKO-nun Baş direktorunu hərarətlə qarşılamışlar.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva festivalın açılışında çıxış etmişdir.*

### Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanım Baş direktor!

Əziz qonaqlar!

Azərbaycanın ən qədim şəhərlərindən biri olan Qəbələdə sizi səmimi-qəlbdən salamlayıram. Qəbələ təkcə Azərbaycanın yox, dünyanın ən gözəl guşələrindən biridir. Qəbələnin zəngin tarixi və əsrarəngiz təbiəti vardır. Yeni eranın əvvəllərində Qəbələ dünyanın ən qədim sivilizasiyalarından biri olan Qafqaz Albaniyasının paytaxtı idi. Əsrlər boyu burada müxtəlif dillərdə danışan, müxtəlif dinlərə, fərqli ənənələrə və mədəniyyətə malik olan insanlar yaşayıb. Təbii ki, hər bir dövr, hər bir mədəniyyət burada öz izini qoyub. Qəbələ torpağına qədəm

qoyan hər bir insan tarixin nəfəsini, əsrlərin ruhunu duyub hiss edir. Zaman keçdikcə dövlətlər, sivilizasiyalar, xalqlar və millətlər yaranır və yox olurdu. Dəyişməyən, əbədi olan bu dağların möhtəşəmliyi, çay və bulaqların aramsız axarı və əsrlərin şahidi olan ağacların səmaya doğru ucalmasıdır. Qəbələnin füsunkar təbiətinin özü elə bil ki, təkrarsız bir musiqi əsəri yaradır və bizləri bu əsəri dinləməyə dəvət edir.

Bu gün dünya xəritəsində Qafqaz Albaniyası artıq yoxdur. Lakin Qəbələ bu gün yenə də paytaxtdır – mədəniyyət, musiqi paytaxtı. Qəbələ Beynəlxalq musiqi festivalı artıq gözəl bir ənənəyə çevrilib. Bu festival günləri bu səhnədə dahi Azərbaycan və dünya bəstəkarlarının əsərləri səslənəcəkdir. Gənc ifaçılarla yanaşı, dünya şöhrətli musiqiçilər bu səhnəyə çıxacaqlar. Kamera, klassik, folklor, caz musiqisi səslənəcək, bölgədə olan musiqi məktəblərinin şagirdləri ilə ustad dərsləri keçiriləcək, peşəkarlıq əməkdaşlığı yaranacaqdır. Bir sözlə, bu günlər bizim hamımızı – həm tamaşaçıları, həm ifaçıları bir amil – musiqi birləşdirəcəkdir. Musiqinin dili tərcümə tələb etmir. Bu dil millətdən, dindən asılı olmayaraq hər kəs üçün aydındır.

Azərbaycan öz musiqi mədəniyyəti ilə hər zaman fərqlənir və Heydər Əliyev Fondu öz növbəsində, ölkəmizin musiqi irsinin qorunub saxlanması və təbliği yolunda bir sıra iri layihələr həyata keçirir. Mən bu sırada Beynəlxalq muğam festivalı, Mstislav Rostropoviç adına musiqi festivalı, Üzeyir Hacıbəyli, Dmitri Şostakoviç, Bülbül kimi dahi bəstəkarlar və ifaçıların yubileylərinə həsr olunmuş festivalları vurğulamaq istərdim. Qəbələ Beynəlxalq musiqi festivalı Azərbaycan və dünya musiqisinin, mədəni dəyərlərin qorunub saxlanmasında Heydər Əliyev Fondu tərəfindən atılan növbəti bir addımdır.

Bu gün mən xanım Bokovaya dərin minnətdarlığımı çatdırmaq istəyirəm. Xanım Bokova YUNESKO-nun Baş direktoru vəzifəsində öz ilk səfərləri sırasında ölkəmizə gəlib və bu gün bizimlə Qəbələ festivalında iştirak edir. Azərbaycan ilə YUNESKO arasında çox sıx əməkdaşlıq mövcuddur. Son illər

Heydər Əliyev Fondunun iştirakı və YUNESKO-nun dəstəyi ilə bir sıra iri layihələr artıq reallaşdırılıb. Mən bu sırada Beynəlxalq Muğam Mərkəzinin yaradılması, Beynəlxalq muğam festivalının keçirilməsi, mədəni və tarixi abidələrin bərpası, təhsil sahəsində olan layihələri vurğulamaq istərdim. Ümidvaram ki, xanım Bokovanın ölkəmizə səfəri bu əməkdaşlığın inkişafına güclü təkan verəcəkdir.

Cənab Prezident, gərgin iş qrafikinizə baxmayaraq bu gün burada olduğunuza görə Sizə minnətdaram. Əminəm ki, Sizin dəstəyiniz festivalın bütün iştirakçıları, xüsusilə də gənc ifaçılar üçün həddindən artıq önəmlidir.

Festivalda iştirak etmək üçün ölkəmizə gələn bütün qonaqları, istedadlı ifaçıları, musiqiçiləri səmimi-qəlbdən salamlayır, onlara təşəkkürümü bildirirəm. Mən sizin hamınıza Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm.

Festivalın təşkilində əməyi olan hər bir insana, o cümlədən Heydər Əliyev Fondunun komandasına və yerli administrasiyaya dərin minnətdarlığımı bildirirəm. Festival iştirakçılarına uğurlar arzulayıram və inanıram ki, möhtəşəm təbiət və dahi musiqinin qovuşması heç kimi biganə qoymayacaq və Qəbələ festivalı əsl gözəllik təntənəsinə çevriləcəkdir.

## YUNESKO-nun Baş direktoru İrina Bokovanın çıxışı

Hörmətli cənab Prezident!

Xanım Mehriban Əliyeva!

Zati-aliləri, xanımlar və cənablar!

Bu beynəlxalq festival üçün möhtəşəm səhnə olan qədim Qəbələ şəhərində bu axşam keçirilən qala-konsertdə sizinlə bir yerdə olduğumdan xüsusi məmnunluq duyuram. Dünyanın görkəmli virtuozlarının bir qisminin toplaşdığı bu festival yaxın və uzaq ellərdən gəlmiş musiqisevərlərin məşhur Azərbaycan musiqi mədəniyyətinin inciləri ilə tanış olması üçün müstəsna imkan yaradır.

İcazə verin, ilk növbədə, məni dərin hörmət və ehtiramla qəbul etmiş prezident Əliyevə səmimi təşəkkür edim və məmnunluq hissi ilə bildirim ki, Siz YUNESKO-nun prioritetlərini ölkənizin inkişafının təməl daşına çevirməkdə uğur qazanmısınız. Çox sağ olun, cənab Prezident.

Mən həm də Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya ən səmimi təşəkkürümü bildirmək istəyirəm. Sizi xoşməramlı səfirlər sırasında görmək bizim üçün, YUNESKO üçün şərəfdir. Sizin nailiyyətlərinizin miqyasını bir ad ilə əhatə etmək çətindir. Siz YUNESKO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız. Çox sağ olun, Mehriban xanım. Mən bu sözləri Sizin gənclərin işinə, təhsil və dialoq işinə sədaqətinizi nəzərə alaraq deyirəm. Siz ölkənin hər yerində musiqi məktəbləri açmısınız, bütün uşaqların, o cümlədən yoxsul ailələrdən olan uşaqların musiqi təhsili almasına imkan yaratmısınız. Tam əsasla deyə bilərik ki, əgər ölkənizin böyük mədəni irsi – şifahi ədəbiyyatın müxtəlif nümunələrindən başlamış müasir musiqi sənətinə qədər – dünyada böyük nüfuz qazanmışdırsa, bu, xeyli dərəcədə şəxsən Sizin dəstəyiniz və prezidenti olduğunuz Heydər Əliyev Fondunun fəaliyyəti sayəsində mümkün olmuşdur. Qəbələ festivalı çərçivəsində gənc musiqiçilər üçün ustad dərsləri təşkil edilir, ənənəvi, klassik, müasir musiqini və cazı əhatə edən proqram həyata keçirilir. Bu festival Azərbaycanın musiqi ruhunun və səxavətinin əksidir. İcazə verin, festivalın bədii direktorlarının xidmətlərini qeyd edim və London Kral Filarmonik Orkestrini, Yuri Başmeti, Boris Berezovskini və bir sıra digər görkəmli ifaçıları salamlayım, bu axşam öz dəyərli istedadlarını bizimlə bölüşdüklərinə görə onlara təşəkkür edim.

Biz Qafqaz Albaniyasının qədim paytaxtının yanındayıq. Vaxtilə bura Asiyanın, ərəb dünyasının, Avropanın kəsişdiyi məkanlarda dinamik ticarət, təhsil və mədəniyyət mərkəzi, çiçəklənən region olmuşdur. Xalqların və mədəniyyətlərin bu görüşünün əsas nəticəsi Azərbaycanın ustaddan şagirdə, nəsildən-nəslə keçən zəngin musiqi ənənələridir. YUNESKO

hesab edir ki, bu ənənələrin bir qismi ümumdünya irsinin inciləridir, onların qorunub saxlanması və populyarlaşdırılması üçün bütün tədbirlər görülməlidir. Belə nümunələrdən biri muğamdır. YUNESKO tərəfindən tərtib edilən bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilmiş bu janr fars, türk və ərəb ənənələri əsasında klassik poeziyanı və improvizasiyanı özündə birləşdirərək insanı vəcdə gətirən melodiyalar yaradır və nəticə etibarilə Azərbaycan ənənələrini təşkil edir. Bu siyahıya ölkənizin mədəni bənzərsizlik rəmzlərindən biri olan poeziyanı, dastanları, rəqsləri, vokal və instrumental musiqini birləşdirən aşıq sənəti də daxildir. Digər tərəfdən, Yeni il bayramı – hər il martın 21-də Azərbaycanda, habelə Türkiyədə, Hindistanda, İranda qeyd edilən Novruz bayramı əfsanələr, rəvayətlər, rituallar, dünyanın mədəni dəyərlərini, ailələr və icmalar arasında həmrəyliyi inkişaf etdirən festivallarla bağlıdır.

Xanımlar və cənablar, özünüifadənin bütün formaları çoxəsrlik tarixə malikdir. Bu gün də mövcud olan formalar qəlbimizin ən incə tellərinə toxunur, çox vaxt müasir meyillərin təsiri altında inkişaf edir. Bizim identikliyimizi formalaşdıran bu ənənələr varislik və mənsubluq hissləri doğurur. Əminəm ki, özünüifadənin çox zəngin musiqi formalarının, dünyanın digər mədəni ənənələrinin populyarlaşdırılması budəfəki festivala bənzər təşəbbüslər vasitəsilə qarşılıqlı anlaşmanın və dialoqun möhkəmlənməsinə imkan yaradacaqdır.

Biz sürətli sosial-iqtisadi dəyişikliklərlə səciyyələnən qloballaşma dövründə yaşayırıq və ənənəvi özünüifadə formalarının tükənməsindən, itirilməsindən ehtiyat edirik. Özünüifadə formalarının populyarlaşdırılmasının ən yaxşı yolu isə festivalların, mədəni mübadilələrin və digər layihələrin, bədii formaların öyrənilməsi və onların gənc nəslə çatdırılması üçün şərait yaradılmasıdır.

Azərbaycan identikliyində dərin kökləri olan, hər birimizin qəlbində estetik duyğular oyadan musiqi mənsubiyyətindən və əqidəsindən asılı olmayaraq bütün insanların yaxınlaşması üçün

ən yaxşı vasitədir. Sizin dahi şairiniz Nizami Gəncəvi XII əsrdə məhəbbət haqqında ölməz əsərlər yaratmışdır.

Mən istəyirəm ki, bu nüfuzlu beynəlxalq festival xalqların və mədəniyyətlərin müxtəlifliyinin rəmzi olsun, bu müxtəliflik sizin «Odlar yurdu» adlandırılan ölkənizi müxtəlif dövrlərin mədəni nailiyyətlərini nümayiş etdirmək üçün bir səhnəyə çevirsin.

Festivala başlamazdan əvvəl istərdim ki, musiqi sərrafı, əsl insanpərvər və indicə qeyd etdiyim kimi, YUNESKO-nun dostu olan xanım Mehriban Əliyevaya məhz bu bayram çərçivəsində bir daha xüsusi ehtiramımı bildirim.

Hörmətli xanımlar və cənablar, hörmətli xanım Əliyeva, icazə verin, Sizin bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşdırılması işinə sədaqətinizin, mədəniyyətlərarası dialoqun inkişafı naminə daim göstərdiyiniz səylərin, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfənizin, YUNESKO-nun ideallarına və məqsədlərinə sadiqliyinizin əlaməti olaraq YUNESKO-nun «Qızıl Motsart» medalını böyük məmnuniyyətlə Sizə təqdim edim.

* * *

*İrina Bokova YUNESKO-nun «Qızıl Motsart» medalını Mehriban xanım Əliyevaya təqdim etdi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Pakistan xalqına öz adımdan və Azərbaycan

xalqı adından dərin hüznlə başsağlığı verir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 avqust 2010-cu il*

## «AKKORD» QRANİT-MƏRMƏR ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*9 avqust 2010-cu il*

*Avqustun 9-da Azərbaycan prezidenti İlham Əliyev «Akkord» qranit-mərmər zavodunun açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizdə qranit və mərmər məhsullarının istifadəsinə artan tələbat bu istehsal sahəsinin genişləndirilməsi zərurətini yaratmışdır. Bu məqsədlə «Akkord» Şirkətlər Qrupu tərəfindən genişmiqyaslı tikinti-yenidənqurma işləri həyata keçirilmiş, daha müasir avadanlıqlarla təchiz olunan və geniş istehsal imkanlarına malik zavod inşa edilmişdir.*

*Dövlətimizin başçısı zavodun sərgi salonu ilə tanış oldu. Salonun girişində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif istehsal müəssisələrinin açılış mərasimlərində iştirakından bəhs edən fotostend də yaradılmışdır.*

*Prezident burada qranit və mərmərdən hazırlanmış məhsullara baxdı. Qeyd olundu ki, qranit-mərmər zavodunun Azərbaycanda 2 aqlay yatağı, Türkiyədə Bej mərmər ocağı, Ukraynada isə qranit yataqları vardır. Dövlətimizin başçısı qranit emalı sexinə gəldi və istehsal prosesinin başlanmasını bildirən düyməni basaraq sexi işə saldı.*

*Qeyd olundu ki, texniki göstəricilərinə görə yüksək keyfiyyətli məhsullar istehsal edilməsi məqsədi ilə zavodda avtomatik idarə edilən dəzgahlar quraşdırılmış, həmçinin zavodun bütün sexlərində ətraf mühitin qorunması məqsədi ilə sutəmizləyici sistem yaradılmışdır.*

*Zavodla yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## XƏTAİ RAYONUNDA YENİDƏN QURULAN PARKDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*10 avqust 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 10-da Bakının Xətai rayonu ərazisində Zığ yolunun kənarındakı 38, 40 və 42 nömrəli binaların yaxınlığında yerləşən, əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilən parkın açılışında iştirak etmişdir.*

*Parka gələn dövlətimizin başçısına məlumat verildi ki, uzun müddət baxımsız və yararsız vəziyyətdə olan bu istirahət guşəsində əsaslı təmir işlərinə cari ilin yanvarında başlanılmışdır. Ərazisi 2,3 hektara yaxın olan parkda qısa müddətdə görülən işlər buranın görkəmini tamamilə dəyişmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, parkda 2 yeni fəvvarədən ibarət kompleks yaradılmışdır. Parkın avtomobil yoluna yaxın hissəsində yerləşən fəvvarə kompleksinin uzunluğu 280 metrdir. Parkın ərazisinə 4 min kvadratmetrə yaxın tamet daşlarla yanaşı, Avropadan gətirilmiş qranit-mərmər döşənmişdir.*

*Parkda balaca sakinlərin istirahəti üçün də hər cür şərait yaradılmışdır. Bu məqsədlə xüsusi attraksionlar quraşdırılmış, idman və əyləncə meydançaları salınmışdır.*

*Sakinlərin asudə vaxtlarının səmərəli təşkili və mənalı istirahətinə xidmət edəcək parkda görülmüş işlərdən razılığını bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN SƏRHƏDÇİLƏRİNİN PEŞƏ BAYRAMI ƏRƏFƏSİNDƏ DÖVLƏT SƏRHƏD XİDMƏTİ AKADEMİYASININ AÇILIŞI MƏRASİMİ

*10 avqust 2010-cu il*

*Avqustun 10-da Azərbaycan sərhədçilərinin peşə bayramı ərəfəsində Bakıda Dövlət Sərhəd Xidməti Akademiyasının açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyev 2000-ci il avqustun 18-ni sərhədçilərin peşə bayramı kimi rəsmiləşdirmişdir. Elə bu səbəbdən də üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə 1992-ci il avqustun 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılmasından, sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş, Dövlət Sərhəd Xidmətinin təşkilinə qədər bütün proseslər ulu öndərin adı ilə bağlıdır.*

*Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılması barədə dövlətimizin başçısının 2007-ci il 12 iyun tarixli Sərəncamı da sərhəd mühafizəsi sisteminin təkmilləşdirilməsində mühüm rol oynamışdır. Bu akademiya Dövlət Sərhəd Xidməti üçün xüsusi ixtisaslı ali hərbi təhsilli zabit kadrların, komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, dövlət sərhədinin mühafizəsi və hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını təmin etmək məqsədi ilə yaradılmışdır. Akademiyada yaradılan şərait də təsdiqləyir ki, hər bir ölkənin dövlət müstəqilliyini və ərazi bütövlüyünü təsdiq edən amillər sırasında dövlət sərhədi və onun toxunulmazlığı mühüm əhəmiyyət kəsb edir.*

*Sərhədlərimizin toxunulmazlığının təmin edilməsinin və etibarlı qorunmasının çox aktual olduğu bir dövrdə Azərbaycan sərhədçiləri öz peşə borclarına sadiq qalaraq Vətənin keşiyində layiqincə dururlar. Çünki xarici təhdidlərin aradan qaldırılması kimi mühüm missiyanın yüksək səviyyədə həyata keçirilməsi Ali Baş Komandanın da diqqətində olan məsələdir. Sərhədçilərimiz Vətənimizin keşiyində hər zaman ayıq-sayıqdırlar və onlar prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasətin etibarlı əsgərləridirlər.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev Dövlət Sərhəd Xidməti Akademiyasının rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu. Məlumat verildi ki, akademiyanın binası 1 il 8 ay ərzində inşa olunmuşdur. Orijinal memarlıq quruluşu olan binada təlim-tədris üçün bütün şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev əsas korpusda xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinə baxdı. Burada ulu öndər Heydər Əliyevin və prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Dövlət Sərhəd Xidmətinin inkişafı ilə bağlı həyata keçirdikləri tədbirlərdən, dövlətimizin başçısının müxtəlif sərhəd qurumlarının açılışlarında iştirakından çəkilən fotoşəkillər nümayiş etdirilir. Qeyd olundu ki, prezident İlham Əliyevin 2005-ci ildə «Azərbaycan Respublikası dövlət sərhəd mühafizəsi sisteminin 2006–2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında Sərəncam imzalaması Dövlət Sərhəd Xidmətində quruculuq işlərinə böyük təkan vermişdir. Dövlətimizin başçısının bu qayğısı sərhədlərimizin daha etibarlı qorunmasında, maddi-texniki bazanın möhkəmləndirilməsində, müasir texnika, avadanlıq və ləvazimatlarla təminatında, kadr hazırlığında, şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsində, yeni sərhəd infrastrukturlarının yaradılmasında əksini tapmışdır.*

*Dövlətimizin başçısı 400 nəfərlik imtahan və xüsusi mərasim zallarında yaradılmış şəraitlə də tanış oldu.*

*Prezident İlham Əliyev akademiyanın binasının tikintisini əks etdirən fotolara baxdı. Sonra akademiyada tikinti prosesini əks etdirən videoçarx nümayiş olundu.*

*Akademiyanın inşası zamanı istifadə olunan tikinti materiallarına baxan dövlətimizin başçısı 55 metrlik tuneldə yaradılan şəraitlə tanış oldu.*

*Daha sonra Ali Baş Komandan sərhədçiləri salamladı və döyüş bayrağını akademiyaya təqdim etdi.*

*Akademiyanın döyüş bayrağı hərbi marşın sədaları altında meydana gətirildi.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

* * *

*Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev sərhədçilərə göstərdiyi diqqətə və akademiyanın yaradılması ilə bağlı verdiyi sərəncama görə prezident İlham Əliyevə təşəkkür etdi.*

**E l ç i n  Q u l i y e v:** Möhtərəm Prezident!

Cənab Ali Baş Komandan!

Azərbaycan sərhəd mühafizəsinin bu gününə və sabahına ünvanlanmış sərəncamınızın icrası üzrə inşa edilən Dövlət Sərhəd Xidməti Akademiyasının açılışı mərasimində Sizi salamlayır, bu qürurlu anları bizə yaşatdığınıza görə dərin minnətdarlığımızı bildirirəm.

Dövlət sərhədlərinin toxunulmazlığının təminatı məsələlərinə ali diqqətiniz sayəsində Dövlət Sərhəd Xidməti bu gün dinamik inkişafdadır. Bu inkişafın təməlində dahi öndərimiz Heydər Əliyevin müəyyən etdiyi milli sərhəd siyasətinin Ali Baş Komandanlığınız altında ardıcıl həyata keçirilməsi durur. Hər bir Azərbaycan sərhədçisi bu siyasətin gerçəkləşməsinin iştirakçısı olması ilə fəxr edir və qarşısına qoyulmuş tapşırıqları şərəflə yerinə yetirməyə daim hazırdır.

Cənab Ali Baş Komandan!

Sizin 2005-ci il dekabrın 27-də təsdiq etdiyiniz «Azərbaycan Respublikası dövlət sərhəd mühafizəsi sisteminin 2006–2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı»nın müasir sərhəd mühafizə infrastrukturunun yaradılmasında müstəsna əhəmiyyəti vardır. İcrası yaxın müddətdə yekunlaşan Dövlət Proqramı çərçivəsində Türkan qəsəbəsində Dövlət Sərhəd Xidmətinin sahil mühafizəsinin yeni bazası, aviasiya bazaları, «Sərhədçi» İdman Olimpiya Mərkəzi, Şüvəlan qəsəbəsində hərbi hissə, «Sərhədçi» istirahət mərkəzi, Xudat şəhərində yaşayış massivi, Horadiz, Şəki, Zaqatala, Şəmkir və Göytəpə sərhəd dəstələrinin qarnizonları, Astara rayonunda katerlər divizionu, Xızı rayonunda səhra təlim poliqonu, Novxanıda müasir atçılıq mərkəzi, Səngəçal qəsəbəsində mərkəzi anbarlar kompleksi, hərbi hissələrdə sərhəd komendantlığı və zastavası kompleksləri, ümumən dövlət sərhədində 589 bina inşa edilərək xidməti istifadəyə verilmişdir. Bakı şəhərində sərhədçi zabitlər üçün 264 mənzilli üç yaşayış binasının inşası yaxın müddətdə yekunlaşacaqdır. Tikinti-quruculuq işləri ilə yanaşı, sərhəd mühafizəsində müasir silahlar, avadanlıq, uçuş və üzmə vasitələri tətbiq edilməkdədir. Dövlət Sərhəd Xidmətinə həvalə etdiyiniz digər xüsusi tapşırıqların icrası üzrə ardıcıl tədbirlər həyata keçirilir.

Möhtərəm Prezident!

Hazırda Ali Baş Komandanın qarşısında duran hər bir sərhədçinin ən böyük arzusu və niyyəti təqdim etdiyiniz döyüş bayrağını şərəflə qorumaq, Prezidentinə, Vətəninə, xalqına ləyaqətlə xidmət etməkdir. Bu döyüş bayrağı altında sədaqət andı içən kursantların sərhədçi zabit kimi formalaşmaları üçün akademiyada tam şərait yaradılmış, güclü elmi-tədris bazası və yüksəkixtisaslı hərbi pedaqoji heyət formalaşmışdır.

Diqqətinizlə şərəfləndirdiyiniz Azərbaycan sərhədçiləri adından Sizə minnətdarlığımızı bildirir və göstərdiyiniz yüksək etimadı xidmətimizlə hər zaman doğruldacağımıza əmin edirəm.

## AZƏRBAYCAN PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN NİTQİ

*10 avqust 2010-cu il*

Əziz sərhədçilər, sizi Dövlət Sərhəd Xidməti Akademiyasının açılışı münasibətilə ürəkdən təbrik edirəm. Vətən uğrunda xidmətinizdə uğurlar diləyirəm!

Akademiyanın yaradılması böyük nailiyyətdir. 3 il əvvəl akademiyanın yaradılması haqqında imzaladığım sərəncam bu gün artıq reallığa çevrilib. Bu əzəmətli, möhtəşəm binada bizim gələcək sərhədçilər oxuyacaqlar, tərbiyə alacaqlar və peşəkarlıqlarını artıracaqlar. Burada oxumaq üçün bütün şərait yaradılıb. Ən müasir avadanlıq, ən gözəl, keyfiyyətlə tikilmiş korpuslar, istirahət etmək, oxumaq, yaşamaq üçün bütün şərait vardır. Akademiya qısa müddətdə və yüksək keyfiyyətlə tikilibdir və bu gün fəaliyyətə başlayır. Şübhə etmirəm ki, akademiyada oxuyan kursantlar gələcək fəaliyyətləri üçün lazım olan bilikləri burada alacaqlar. Bizə bütün sahələrdə bilikli, savadlı kadrlar lazımdır.

Bütövlükdə Azərbaycanda təhsil məsələlərinə böyük diqqət göstərilir. Minlərlə məktəblər tikilir, ali məktəblər təmir olunur, yeni ali məktəblər, akademiyalar yaradılır. Təhsil bizim gələcəyimizdir. Biz istəyirik ki, gənclərimiz bilikli, savadlı və vətənpərvər olsunlar. Dövlət Sərhəd Xidməti Akademiyasının yaradılması bu məqsədləri güdür.

Sərhəd hər bir dövlətin rəmzidir. Bayraq, gerb və himn kimi. Azərbaycanın sərhədləri lazımi səviyyədə qorunur. Sərhəd Xidmətinin formalaşması işində ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri vardır. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra, demək olar ki, sərhədlərimiz açıq idi.

Sərhəd infrastrukturu mövcud deyildi. Əvvəlki illərdə yaradılmış sərhəd infrastrukturu isə dağıdılmışdı. Sərhədlərdə heç bir infrastruktur yox idi. Ulu öndərin rəhbərliyi altında qısa müddətdə bütün sərhədlərimizdə tikinti-quruculuq işləri başlanmışdır, sərhəd mühafizə infrastrukturu yaradılmışdır və bu proses uğurla davam etdirilir. Qəbul edilmiş proqram əsasında tikinti işləri, demək olar ki, başa çatmaq üzrədir. Bütün sərhədlərdə lazımi səviyyədə texniki qurğular yaradılıbdır, dəstələr, qarnizonlar fəaliyyət göstərir. Bu gün Azərbaycan sərhədləri bütün istiqamətlərdə – quruda və dənizdə lazımi səviyyədə qorunur. Bu məsələyə biz böyük diqqət göstəririk. Mən bütün sərhədlərdə dəfələrlə olmuşam, şəxsi heyətlə görüşmüşəm, vəziyyətlə tanış olmuşam və tam əminliklə deyə bilərəm ki, sərhədlərimiz lazımi səviyyədə qorunur.

Sərhədlərimizin qorunması təhlükəsizliyimizin təmin edilməsi deməkdir. Təhlükəsizliyimizin təmin edilməsi üçün bütün tədbirlər görülür. Bu gün həm texniki vasitələr, həm mühəndis qurğuları, həm də avadanlıq baxımından Sərhəd Xidmətimiz ən yüksək səviyyədədir. Sərhəd Xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması və möhkəmləndirilməsi üçün mütəmadi qaydada ardıcıl tədbirlər görülür, avadanlıq, silah-sursat, texnika alınır və təchizat baxımından bizdə heç bir problem yoxdur. Lazımi səviyyədə maliyyə vəsaiti də ayrılır ki, bütün işlər yüksək səviyyədə görülsün. Mən görürəm ki, ayrılan maliyyə vəsaitindən çox səmərəli şəkildə istifadə olunur. Sərhədçilərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün əməli işlər görülür, evlər tikilir, istirahət mərkəzləri, idman qurğuları yaradılır.

Mən çox şadam ki, Azərbaycan Dövlət Sərhəd Xidməti bu gün dünya miqyasında özünə layiq yerini tuta bilibdir və Azərbaycanın sərhədlərinin qorunması işində böyük nailiyyətlərə çatıbdır.

Bütövlükdə Sərhəd Xidmətinin müasir quruma çevrilməsi istiqamətində çox böyük işlər görülübdür və bu gün Sərhəd Qoşunları çox güclü və çevik hərbi birləşmədir. Qarşıda duran

əsas vəzifələrdən biri odur ki, Sərhəd Qoşunlarının döyüş qabiliyyəti artırılsın. Bu məqsədlər üçün silah-sursat, texnikanın alınması prosesi davam edir və deyə bilərəm ki, Sərhəd Qoşunları istənilən anda Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün ordumuzla bərabər hərəkət etməyə hazırdır. 2 ildir ki, ardıcıl şəkildə keçirilmiş hərbi təlimlər və Sərhəd Qoşunlarının bu təlimlərdə fəal iştirakı bunun bariz nümunəsidir.

Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu etmək üçün bütün hərbi qurumlar vahid komanda altında birləşib Ali Baş Komandanın əmrləri ilə hərəkət edirlər. Lazım gələn anda bütün hərbi qurumlar bir yumruq kimi birləşib Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəklər.

Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Maliyyə imkanlarımız, hərbi xərclərimiz artır və hərbi xərclərimiz dövlət büdcəsində ən birinci yerdədir. Bu belə də olmalıdır, çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib, birinci mərhələsi başa çatıbdır. Ancaq müharibə davam edir. Biz hər an hazır olmalıyıq və hazırıq ki, öz torpaqlarımızı işğalçılardan azad edək.

Bir daha demək istəyirəm ki, bunu etmək üçün ilk növbədə hərbi güc lazımdır. Biz bu hərbi gücü yaradırıq, xeyli dərəcədə yaratmışıq və bu proses uğurla davam etdirilir. Azərbaycanın hərbi potensialının gücləndirilməsi üçün biz bütün səyləri səfərbər etmişik, maliyyə resurslarını cəmləşdirmişik ki, torpaqlarımızı işğalçılardan azad edək. Azərbaycan Ordusu və hərbi potensialı buna imkan verir. Biz istəyirik ki, məsələ dinc yolla, danışıqlar yolu ilə həll olunsun. Azərbaycanın danışıqlarda konstruktiv mövqeyi artıq reallıqdır. Qarşı tərəf isə vaxt uzatmaqla danışıqları pozmağa çalışır. Ancaq danışıqlar pozularsa, o zaman yeni vəziyyət yaranacaq və məsələnin hərbi yolla həlli məsələsi gündəliyə salınacaqdır.

Biz elə etməliyik ki, Azərbaycan hərtərəfli inkişaf etsin. Bu gün ölkəmiz, sözün əsl mənasında, intibah dövrünü yaşayır. Bütün regionlarda işlər sürətlə gedir. Bakı – gözəl şəhərimiz gözəlləşir, abadlaşır. Maliyyə imkanlarımız artır. Uğurlu neft siyasətimiz,

regionların inkişafı, bir sözlə, Azərbaycanın uğurlu yüksəlişi və bundan sonrakı illərdə dayanıqlı inkişafı reallıqdır.

Azərbaycan müstəqil ölkə kimi, böyük nailiyyətlərə çatıbdır. Biz müstəqil ölkə kimi, müstəqil siyasət aparırıq. Xalqımızın maraqlarını müdafiə edirik. Bu gün Azərbaycan dünya miqyasında böyük hörmətə malik ölkədir. Azərbaycan etibarlı tərəfdaşdır və regionda gedən proseslərdə fəal rol oynayan ölkədir. Biz bütün sahələrdə, bütün istiqamətlərdə işimizi konkret proqramlar çərçivəsində qurmuşuq. Bütün istiqamətlərdə inkişaf, tərəqqi vardır.

Ölkəmizin təhlükəsizliyinin qorunması üçün Sərhəd Xidmətinin çox böyük rolu vardır. Sərhədlərimiz dostlarımızın üzünə açıqdır. Ancaq Azərbaycana pis niyyətlə gəlmək istəyənlər buna nail ola bilməyəcəklər.

Ötən əsrin 90-cı illərini yaxşı xatırlayırıq. O vaxt Azərbaycanda sərhəd infrastrukturu yox idi və xaricdən erməni terror təşkilatlarının təşkil etdiyi terror aktları Azərbaycan dövlətini sarsıtmışdı. Nəyə görə? Çünki sərhədlərimizi o vaxt qoruya bilmirdik. Bu gün Azərbaycan sərhədləri lazımi səviyyədə qorunur. Bu bizə imkan verir ki, ölkə daxilində bütün işləri lazımi səviyyədə aparaq. Ölkə daxilində mövcud olan sabitlik, ictimai-siyasi asayiş, əmin-amanlıq bizim böyük nailiyyətimizdir. Biz bu vəziyyəti qorumalıyıq və qoruyacağıq. Azərbaycan xalqının firavan gələcəyini təmin edəcəyik. Azərbaycan dövlətinin möhkəmlənməsi üçün bütün tədbirləri görəcəyik.

Bir daha demək istəyirəm ki, Sərhəd Xidmətinin bu işlərdə böyük rolu və töhfəsi vardır. Sərhədçilər sərhədlərimizi müxtəlif yollarla pozmaq istəyənlərə qarşı mübarizə aparırlar, döyüşürlər və qələbə qazanırlar. Görülən bütün bu işlərlə bağlı mən Dövlət Sərhəd Xidmətinin bütün şəxsi heyətini təbrik etmək istəyirəm. Akademiyanın açılışı münasibətilə bir daha təbrik etmək istəyirəm. Sizə Vətən uğrunda şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram! Sağ olun!

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Çin xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 avqust 2010-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QUSAR RAYONUNA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ BAKI–RUSİYA FEDERASİYASI SƏRHƏDİ YOLUNUN ÜZƏRİNDƏ YERLƏŞƏN ŞABRAN DAİRƏVİ YOLU VƏ KÖRPÜ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*12 avqust 2010-cu il*

*Avqustun 12-də Azərbaycan prezidenti İlham Əliyev Qusar rayonuna səfəri çərçivəsində Bakı–Rusiya Federasiyası sərhədi yolunun üzərində yerləşən Şabran dairəvi yolu və körpü kompleksinin açılışında iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verərək bildirdi ki, Nəqliyyat Nazirliyinin sifarişi ilə Bakı–Rusiya Federasiyası dövlət sərhədi yolunun tikintisinə 2008-ci ilin martında başlanılmışdır. İnşaat işlərinə 7 min işçi qüvvəsi və 3 minədək xüsusi texnika cəlb olunmuşdur. Tikinti işləri mərhələlərlə aparılmışdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, körpünün inşa edildiyi ərazi sürüşmə zonası hesab edilir. Xarici mütəxəssislərin də yaxından iştirakı ilə aparılan müzakirələrdən sonra dairəvi yolun bir hissəsini təşkil edən 2 kilometrlik sürüşmə ərazisindən 4 milyon kubmetr torpaq daşınmış və digər tədbirlər görülmüşdür. Beynəlxalq əhəmiyyətli Bakı–Rusiya Federasiyası dövlət sərhədi yolunun üzərində yeni körpü kompleksinin inşa edilməsi ilə Şabran şəhərinin mərkəzində yaranan tıxac problemi həllini tapmışdır.*

*Prezident İlham Əliyev Şabran dairəvi yolu və körpü kompleksinin açılışını bildirən lenti kəsdi və inşaatçıları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sizi körpünün açılışı münasibətilə təbrik edirəm. Gözəl, nadir körpüdür. Bu, Azərbaycanda son illər ərzində tikilən körpülərin içərisində ən uzun körpüdür. Bu onu göstərir ki, Azərbaycan şirkətləri belə böyük layihələri icra etməyə qadirdir. Çox şadam ki, yerli şirkət bu işi böyük keyfiyyətlə görübdür. İndi yol həm rahatlıq gətirəcək, həm də bunun təhlükəsizlik baxımından böyük əhəmiyyəti vardır. Artıq Şabranın içindən yol keçməyəcək.

İndi bütün istiqamətlərdə yollar tikilir – kənd yolları, şəhərlərarası yollar, magistral yollar. Azərbaycanın inkişafına bunun çox böyük dəstəyi, köməyi vardır. Bunlar çox böyük maliyyə vəsaiti tələb edən layihələrdir. Yola qoyulan investisiyalar iqtisadi səmərəsini bəlkə 10 ildən, 15 ildən sonra verəcəkdir. Ancaq yol tikintisi hər bir bölgənin iqtisadi inkişafını şərtləndirən amillərdən biridir. Əminəm ki, bu yolun istismarı nəticəsində bütün şimal bölgəsində iqtisadi inkişaf, sənaye müəssisələrinin yaradılması, turizmin inkişafı daha da sürətlə gedəcəkdir. Quba–Qusar bölgəsində turizm potensialımız çox böyükdür, Azərbaycanda ən böyük turizm mərkəzi yaradılır – bu yolun yüksək səviyyədə olması, əlbəttə ki, turizmin inkişafına da kömək edəcəkdir.

Son illər Azərbaycanda yol tikintisinə çox böyük diqqət göstərilir və bu işlərlə məşğul olan bütün qurumlar – dövlət qurumları, özəl şirkətlər bütün işləri çox yüksək peşəkarlıqla görürlər. Bütün bu işlərə görə mən sizə minnətdarlığımı bildirmək istəyirəm, uğurlar arzulayıram. Əminəm ki, gələcəkdə Azərbaycanda yol tikintisi sahəsində hələ çox işlər görüləcəkdir. Bizdə bütün proqramlar, planlar, maliyyə resursları vardır. Bir şey qalır ki, bütün bu işlər yüksək keyfiyyətlə və qısa müddətdə görülsün. Bir daha demək istəyirəm, məni ən çox sevindirən odur ki, bütün işləri yerli şirkətlər, yerli fəhlələr, mühəndislər, işçilər görüblər. Əminəm ki, siz bundan sonra da bütün işləri yüksək keyfiyyətlə görəcəksiniz. Sağ olun.

## Bakı–Quba–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun əsaslı şəkildə yenidən qurulmuş 34 kilometrlik hissəsinin açılışı mərasimi

*Prezident İlham Əliyev avqustun 12-də Bakı–Quba–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun əsaslı şəkildə yenidən qurulan 131–165-ci kilometrlik hissəsinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə qədim Şabran şəhərinin maketi nümayiş etdirildi və aparılan arxeoloji qazıntılar, həmçinin Çıraqqala tarix və memarlıq abidəsinin maketi əsasında burada həyata keçiriləcək tədbirlər barədə məlumat verildi.*

*Nəqliyyat naziri Ziya Məmmədov Bakı–Quba–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 131–165-ci kilometrliyində görülən işlər və yeni layihələr barədə dövlətimizin başçısına ətraflı məlumat verdi.*

*Bildirildi ki, 34 kilometrlik bu yolun inşasına 2009-cu ilin iyulunda başlanılıb və tikinti 2 mərhələdə aparılıb. Nəqliyyat Nazirliyinin sifarişi ilə yenidən qurulan bu yolun torpaq yatağının eni 15 metr, hərəkət hissəsinin eni isə 7,5 metrdir. Yolun 2 hərəkət zolağı vardır və örtüyü asfalt-betondur.*

*Bakı–Quba–Rusiya Federasiyası sərhədi avtomobil yolunun yenidən qurulan 34 kilometrlik bu hissəsindəki 7 körpüdə təmir işləri aparılıb.*

*Prezident İlham Əliyev yolun müasir standartlara uyğun yenidən qurulmuş 34 kilometrlik hissəsinin açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı inşaatçıları təbrik etdi, tapşırıq və tövsiyələrini verdi.*

## Qusar şəhərində ulu öndərin abidəsini ziyarət

*Avqustun 12-də Azərbaycan prezidenti İlham Əliyev Qusar rayonuna gəlmişdir.*

*Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı Qusar rayonunda da hərtərəfli inkişafa təkan vermişdir. İstər rayon mərkəzi, istər kənd və qəsəbələr müasir görkəm alır. Ölkəmizin iqtisadi gücü artdıqca yenidənqurma və abadlıq işləri də sürətlənir. Yenidənqurma tədbirləri zamanı beynəlxalq təcrübə ilə milli üslubun üzvi şəkildə uzlaşdırılması diqqətdə saxlanılır. Füsunkar təbiətin qoynunda yerləşən Qusar rayonundakı müasir tikililər, sosial obyektlər, istirahət ocaqları və yaşıllıqlar birlikdə bənzərsiz mənzərə yaradır. Bütün bunlar ölkəmizdə həyata keçirilən kompleks yenidənqurma tədbirlərinin səviyyəsini dolğun əks etdirir.*

*Dövlətimizin başçısı əvvəlcə Qusar şəhərinin mərkəzindəki Heydər bağında ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ulu öndərin abidəsinin yerləşdiyi Heydər bağında geniş yenidənqurma və abadlıq işləri aparılmışdır. Burada müasir işıqlandırma sistemi və yeni oturacaqlar quraşdırılmışdır. Bağdakı yaşıllıq zolağı xeyli genişləndirilmişdir. Bu istirahət məkanında əhalinin asudə vaxtının səmərəli təşkili üçün hər cür şərait yaradılmışdır.*

## Samur–Həzrə yolunun əsaslı yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 12-də Samur–Həzrə yolunun açılışında iştirak etmişdir.*

*Qusar rayon ictimaiyyətinin nümayəndələri prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, prezident İlham Əliyevin 2009-cu il 27 avqust tarixli Sərəncamı ilə yolun yenidən qurulmasına dövlət başçısının ehtiyat fondundan 6,5 milyon manat vəsait ayrılmışdır. Bu*

*avtomobil yolu Qusar rayonunda geniş miqyasda tikinti-quruculuq işlərinin həyata keçirildiyi və turizm potensialının inkişaf etdirildiyi indiki zamanda müasir yol infrastrukturunun yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir. Uzunluğu 23 kilometr, hərəkət hissəsinin eni 7 metr olan bu yol 16 min nəfərə qədər əhalinin yaşadığı 27 kənd və qəsəbəni birləşdirir. Yol Samur qəsəbəsindən başlanır və Həzrə kəndindən sonra üç istiqamətdə – Həzrə–Mucuq, Həzrə–Sudur, Həzrə–Zeyxur istiqamətlərində davam edir. Samur–Həzrə yolunun yenidənqurmadan əvvəl tam dağılmaq üzrə olan 600 metrlik hissəsi 30 metr sola çəkilməklə yenidən salınmış, yol yatağı 12 metrə qədər genişləndirilmişdir. Yol boyunca bir sıra ərazilərdə istinad divarları tikilmiş, suötürücü borular qoyulmuş, yolun yatağı qaldırılmış və digər işlər görülmüşdür. Yolda 1000-dən çox siqnal dirəyi və 100 ədəd nişan qoyulmuşdur.*

*Əsaslı şəkildə yenidən qurulan Samur–Həzrə yolu ilə yaxından tanış olan prezident İlham Əliyev ölkənin yol infrastrukturunun müasirləşdirilməsinə dair növbəti tapşırıqlarını verdi.*

# QUSAR RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*12 avqust 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 12-də Samur–Həzrə yolunun açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Dövlət başçısı mərasim iştirakçılarını salamladı.*

**İlham Əliyev:** Mən sizi ürəkdən təbrik edirəm. Mən bir il əvvəl bu yolun çəkilişi ilə bağlı müvafiq sərəncam imzalamışdım. Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdı ki, bu yol tikilsin. Qusar sakinlərinin çoxsaylı müraciətlərini nəzərə alaraq, bütün bu işləri gördük və artıq yüksək keyfiyyətə malik olan yol istismara verilir.

İndi verilən məlumata görə, yol 16 min əhaliyə xidmət göstərəcəkdir. 27 qəsəbə və kənd bu yolun üstündə yerləşir. Yəni bu, insanlara rahatlıq verəcəkdir. Şəkillərdə göstərilir ki, əvvəlki yol hansı vəziyyətdə idi, insanlar əziyyət çəkirdilər. İndi isə bu gözəl yol uzun illər, onilliklər ərzində insanlara xidmət edəcəkdir.

Hesab edirəm ki, bu çox mühüm hadisədir. Bu onu göstərir ki, bizim yol-tikinti işlərimiz nəinki magistral yolları, eyni zamanda, kənd yollarını da əhatə edir. Kənd yollarının tikintisi gələcək illərdə daha geniş sürətlə aparılacaqdır. Magistral yollara gəldikdə, demək olar ki, əsas magistralların tikintisi uğurla davam edir. Bu gün Bakı–Quba yolunun bir hissəsi istismara verilibdir. Yüksək keyfiyyətə malik yoldur. Başqa istiqamətlərdə – Bakı–Rusiya, Bakı–Gürcüstan, Bakı–İran sərhədi yollarının tikintisi bu il və gələn il ərzində başa çatmalıdır. O ki qaldı kənd yollarına, onların da tikintisinə böyük ehtiyac vardır. Ən ucqar kəndlərdə də yol tikintisi davam edəcəkdir. Azərbaycanın bütün bölgələrində insanlar yaxşı yoldan istifadə etməlidirlər.

Yol inkişafdır, mədəniyyətdir. Yol olan yerdə inkişaf da olacaqdır. Qusar rayonunun və qonşu rayonların böyük turizm potensialı vardır. Yol olan yerdə biz bu imkanlardan daha da səmərəli şəkildə istifadə edəcəyik. Qusarda son illərdə çox sürətli inkişaf gedir. İnkişafın templəri məni qane edir. İqtisadi inkişaf, sənaye, turizm müəssisələrinin yaradılması – bütün bu sahələrdə işlər yüksək səviyyədədir. Son 5-6 ildə 17 məktəb tikilibdir, bir neçə məktəb təmir edilib, böyük xəstəxana tikilməkdədir.

Azərbaycanın turizm obyektləri arasında ən birinci yeri tutan Qusar–Şahdağ qış-yay turizm kompleksi tikilməkdədir. İndi orada gedən tikinti işləri ilə bu gün bir daha tanış olacağam. O kompleksin istismara verilməsi nəticəsində minlərlə yeni iş yeri açılacaq, rayon iqtisadiyyatına böyük investisiyalar qoyulacaq və beləliklə, Qusar rayonunun uzunmüddətli və uğurlu inkişafı təmin ediləcəkdir.

Biz bütün bu işləri planlı şəkildə aparırıq. Həm ölkənin iqtisadi inkişafına göstərilən diqqət, insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün aparılan tədbirlər, həm sosial proqramlar, maaşlar, pensiyalar, sənaye müəssisələrinin, turizm mərkəzlərinin tikintisi – bütün bunların bir məqsədi var ki, Azərbaycan vətəndaşları yaxşı, firavan yaşasınlar, dünyada mövcud olan ən yüksək standartlar Azərbaycanda istənilən sahədə tətbiq olunsun və beləliklə, ölkəmiz hərtərəfli inkişaf etsin. Regionlar inkişaf edir, paytaxt şəhərimiz inkişaf edir, rayon mərkəzləri gözəlləşir, abadlaşır – inkişaf budur!

Prezident kimi, Qusara beşinci dəfədir ki, səfər edirəm. Hər dəfə gələndə burada gördüyüm yeniliklər, inkişaf məni sevindirir. Əldə edilmiş bütün nailiyyətlərlə bağlı sizi ürəkdən təbrik edirəm. Demək istəyirəm ki, yolun tikintisi Qusar Rayon İcra Hakimiyyətinə tapşırılmışdır və mən görürəm ki, bu iş böyük keyfiyyətlə və zövqlə görülübdür. Növbəti illərdə, əlbəttə ki, digər kənd yollarının tikintisi üçün əlavə vəsait ayrılacaqdır. Azərbaycan dövləti güclü dövlətdir. Bizim güclü iqtisadiyyatımız, güclü maliyyə imkanlarımız vardır. Bu

imkanlar xalqımızın, bölgələrimizin inkişafına yönəldilib. Bir daha bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm.

Mənə yolun tikintisi ilə bağlı müraciətlər səslənəndə söz vermişdim ki, biz yolun tikintisinə nail olacağıq və yolun açılışında mən şəxsən iştirak edəcəyəm. Bu gün mən sizinlə bərabərəm. Təbrik edirəm.

**M ə s u d  Q ə d i m o v** (*Həzrə kənd orta məktəbinin müəllimi):* Möhtərəm cənab Prezident!

Bu gün Qusar rayonunun həyatında əlamətdar bir gündür. Biz bu günü səbirsizliklə gözləyirdik. Sizin Qusara hər gəlişiniz elimizin bayramına çevrilir, hər gəlişinizdən sonra bir neçə yeniliyin şahidi oluruq. Sizi bütün qusarlılar adından salamlayır və «Xoş gəlmisiniz!» – deyirik.

Möhtərəm Prezident! Sizin titanik əməklə respublikamızın inkişafını təmin etməyiniz, bölgələrdə yüksək inkişaf tempinin saxlanılması çox böyük işdir. Hazırda bütün bölgələr inkişaf edir, o cümlədən bizim rayonumuz da. Qusar rayonu, Sizin dediyiniz kimi, çox gözəlləşibdir. Biz fəxr edirik ki, Qusar rayonu respublikamızın ən gözəl guşələri ilə müqayisədə doğrudan da çox gözəl bir mənzərəyə malikdir. Bütün bunlar üçün Sizə minnətdarıq. Sizin köməyiniz olmasaydı biz belə gözəl şəraitə, inkişafa, rifaha malik ola bilməzdik. Rayonumuzda son illərdə tikilib istifadəyə verilmiş ən mühüm obyektlər, infrastruktur layihələri bilavasitə Sizin diqqət və qayğınız sayəsində ərsəyə gəlmişdir. Azərbaycan xalqının nə problemi var, hamısı həll ediləcəkdir.

Bu yolun tikintisinin doğrudan da belə sürətlə başa çatması bizi heyrətə gətirdi. Çünki bizim prezidentimizin sözü ilə işi vəhdət təşkil edir, verdiyi söz mütləq yerinə yetirilir. Özü də ən yüksək səviyyədə və ən qısa müddətdə.

Cənab Prezident! Bu yolun çəkilişi qısa müddətdə başa gəlsə də, çox keyfiyyətlidir. Allah Sizdən razı olsun! Bu yoldan istifadə edən 27 kəndin 16 minə qədər əhalisi Sizə minnətdardır. On illərlə onlar bu yolun həsrətində olublar. Siz onlara bu yol ilə bərabər, yeni həyat bəxş etmisiniz. Atalar deyib ki, yol

çəkmək, körpü tikmək dünyada ən savab işdir. Sizə ağsaqqallarımızın xeyir-duasını, minnətdarlığını, eləcə də bu yoldan istifadə edən, Şahdağın ətəklərinə qədər səpələnmiş 27 kəndin əhalisinin minnətdarlığını bildirmək istəyirəm. Yolunuz həmişə işıqlı olsun! Ömrünüz uzun olsun! Çox sağ olun, cənab Prezident!

**İ l h a m Ə l i y e v**: Xoş sözlərə görə sağ olun, sizə minnətdaram. Bunu hər dəfə deyirəm, mən Azərbaycanın inkişafı üçün çalışıram. Bölgələrə səfərlərimin məqsədi də məhz ondan ibarətdir ki, problemləri aşkar etmək, sizdən o problemləri eşitmək, hansı sahədə nə edilməlidir müəyyənləşdirmək, onları həll etmək və ondan sonra həllini tapmış məsələləri görmək və bərabər sevinməkdir. Məni ən çox sevindirən odur ki, Azərbaycanda hər gün hansısa bölgədə, hansısa rayonda hansısa müəssisə açılır, məktəb, xəstəxana tikilir, yol çəkilir. Budur əsas məqsədimiz. Görülən işlər bir neçə məqsədi güdür. Birinci növbədə, insanlar daha da yaxşı yaşasınlar, problemləri həll olunsun, yol çəkilsin.

İndi Qusar rayonunda qazlaşdırma prosesi sürətlə gedir. Mənə verilən məlumata görə, bir neçə kəndə yeni qaz xətləri çəkilmişdir. Bu proses davam etdirilir və göstəriş vermişəm ki, Qusarın kəndlərinə qaz təchizatı maksimum dərəcədə təşkil edilsin.

İnsanların sağlamlığı – Qusarda tikilən 230 çarpayılıq böyük xəstəxana, demək olar ki, burada bütün sağlamlıq problemlərini həll edəcəkdir, həm diaqnostika, müayinə, həm də əməliyyatlar, müalicə.

Məktəblər – mən qeyd elədim, 17 məktəb nə deməkdir? Bu bizim gələcəyimizdir. Həm uşaqlar yaxşı məktəblərdə oxuyacaqlar, həm də ki, bu, müəllimlərin iş şəraitidir. Ondan sonra Qusarda Olimpiya İdman Kompleksi tikilmişdir. Onun açılışında bərabər iştirak etmişdik. Bu da fiziki və mənəvi cəhətdən sağlamlıqdır. Xüsusilə Qusar əhalisi idmana çox meyillidir. Qusardan çox görkəmli idmançılarımız vardır və gənc nəsil də yetişməlidir. Onlar həm fiziki cəhətdən, həm mənəvi cəhətdən sağlam, vətənpərvər olmalıdırlar. Yəni bu, elə vətənpərvərlik tərbiyəsinin bir istiqamətidir.

Burada dağ turizm mərkəzi tikilir. Qusar dünya miqyaslı bir turizm mərkəzinə çevriləcəkdir. Orada görülən işlər dünyanın aparıcı ölkələrində görülən işlərdən zərrə qədər də geri qalmır və bəzi hallarda hətta üstün görülür. Çünki biz artıq onların təcrübəsini bilirik və o təcrübəni burada müasir səviyyədə tətbiq edirik. Bir-iki ildən sonra siz həm ölkə daxilindən, həm xaricdən buraya turistlərin axınını görəcəksiniz. Bu həm inkişafa aparan yoldur, həm də böyük gəlir gətirəcək bir sahədir. Dünyada ölkələr turistləri cəlb etmək üçün bir-biri ilə rəqabət aparır. Qusarı Azərbaycanın bir nömrəli turizm bölgəsinə çevirmək düşünülmüş və məqsədyönlü bir addımdır. Yəni, hər bir istiqamətdə görülən işlər cəmləşəndə böyük dəyər təşkil edir.

Növbəti illərdə Qusar rayonunun problemlərinin həlli üçün bütün lazımi tədbirlər görüləcəkdir. Yeni yollar çəkiləcək, kənd təsərrüfatının inkişafı, sahibkarların, fermerlərin işinin yüngülləşdirilməsi, sənaye müəssisələrinin tikilməsi üçün bütün işlər görüləcəkdir. Artıq görülən bu işlər ki var, bir rayonun timsalında onu göstərir ki, biz hər şeyə qadirik. Təki güclü iradə olsun, o da var, xalqla iqtidarın birliyi olsun, o da var və düşünülmüş siyasət olsun, o da vardır. Beləliklə, ölkəmiz qabağa gedəcək və dünyanın inkişaf etmiş ölkələri sırasına daxil ediləcəkdir.

Bir daha sizi ürəkdən təbrik edirəm və biz hələ tez-tez görüşəcəyik. Çünki Qusarda belə gözəl açılışlar hələ çox olacaqdır.

## Yuxarı Zeyxur sərhəd zastavası və Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Yuxarı Zeyxur kənd orta məktəbi ilə tanışlıq

*Avqustun 12-də prezident İlham Əliyev yeni inşa olunan Yuxarı Zeyxur sərhəd zastavasında olmuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev dövlətimizin başçısına raport verdi.*

*DSX-nin rəisi sərhəd zastavası və buradakı sərhəd mühəndis-texniki qurğular barədə prezident, Ali Baş Komandan İlham Əliyevə məlumat verdi.*

* * *

*Sonra dövlətimizin başçısı İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş Yuxarı Zeyxur kənd orta məktəbində oldu və burada kənd sakinləri ilə görüşdü.*

**İlham Əliyev**: Gözəl məktəbdir, şəraiti də, səviyyəsi də yaxşıdır. Bilirsiniz ki, bu yol çox bərbad vəziyyətdə idi. Siz hələ nisbətən yaxında yaşayırsınız. Amma uzaqda yaşayanlar gör nə əziyyət çəkmişlər. İndi 23 kilometr yeni yol çəkilibdir.

**Kənd sakini**: Cənab Prezident, uşaqlarımızın sevinci hədsizdir. Bizim kənd rayon mərkəzindən uzaqdır. Sizə hədsiz dərəcədə təşəkkürümüzü bildiririk ki, biz bu günü gördük, balalarımız artıq bu cür məktəbdə oxuyurlar. Mənim həyat yoldaşım 15 ildir o yuxarı kəndə səhər-axşam işə gedib gəlir, mühasib işləyir. Özüm də SDK-ya hər səhər-axşam gedəcəyəm bu yolla. Bir daha təşəkkürümüzü bildiririk. Çox sağ olun, var olun

**İlham Əliyev**: Mən sizin üçün işləyirəm, sizin üçün çalışıram. Sizin üçün hər şeyi edəcəyik.

**K ə n d  s a k i n i**: Allah Sizi qorusun! Siz ulu öndərimizin yadigarısınız. Biz inanırdıq ki, belə olacaqdır. O inamı Siz doğrultmusunuz.

**İ l h a m  Ə l i y e v**: Mən beşinci dəfədir ki, Qusara gəlirəm. Sonuncu dəfə gələndə söz vermişdim ki, sizin problemlərinizi həll edəcəyəm. Məni növbəti görüş gözləyir, turizm mərkəzində olacağam. Orada da böyük tikinti işləri gedir. Qusarı turizm mərkəzinə çevirmək üçün bütün işlər görülür. Bir-iki ilə Qusarda dünya səviyyəli bir turizm mərkəzi olacaqdır.

**S a k i n l ə r**: Çox sağ olun, cənab Prezident. Allah köməyiniz olsun!

## «Samur» gömrük buraxılış məntəqəsinin açılışı mərasimi

*Avqustun 12-də prezident İlham Əliyev «Samur» gömrük buraxılış məntəqəsinin açılışında iştirak etmişdir.*

*Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev dövlətimizin başçısına məruzə etdi.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və müasir standartlar səviyyəsində tikilmiş yeni gömrük buraxılış məntəqəsi ilə yaxından tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, inşasına 2008-ci ildə başlanılmış məntəqənin ümumi sahəsi 5 hektardır ki, bunun da 11 min 500 kvadratmetrində binalar və qurğular yerləşir. Gömrük məntəqəsinin ərazisində müvəqqəti saxlanc yerləri və anbarlar, yeməkxana, inzibati bina, kinoloji xidmət üçün otaq inşa edilmişdir.*

*Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev prezident İlham Əliyevə məlumat verdi ki, bu ilin 7 ayı ərzində «Samur» buraxılış məntəqəsindən 73 min 500 avtomobil keçmiş və 430 min ton yük daşınmışdır. Orta hesabla gün ərzində 4 minədək insan bu buraxılış məntəqəsindən istifadə edir.*

*Sonra prezident İlham Əliyev inzibati binanın 1-ci mərtəbəsində yerləşən VİP salonu ilə tanış oldu. Qeyd edildi ki, burada quraşdırılan xüsusi monitor vasitəsilə ölkəyə daxil olan avtomobilləri izləmək mümkündür.*

*Sərnişin-keçid zalına gələn dövlətimizin başçısına bildirildi ki, burada quraşdırılmış xüsusi cihazlar vasitəsilə sərnişinlərin yüklərini müşahidə etmək mümkündür.*

*Prezident İlham Əliyev binanın 2-ci mərtəbəsindəki xidməti otaqlara da baxdı. Dövlət Sərhəd Xidmətinin sərhəd-keçid məntəqələrindən keçən şəxslər barədə məlumatların toplandığı bazanı əks etdirən monitor barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Binanın 2-ci mərtəbəsinin foyesində ulu öndər Heydər Əliyev və prezident İlham Əliyevin dövlətçilik fəaliyyətini əks etdirən fotolardan ibarət stend vardır.*

*Dövlətimizin başçısı inzibati binanın 3-cü mərtəbəsində Heydər Əliyev Muzeyi ilə tanış oldu. Muzeydə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid çoxsaylı fotoşəkillər, kitablar və sənədlər nümayiş etdirilir.*

*Sonra dövlətimizin başçısı buraxılış məntəqəsinin Rusiya Federasiyası ilə sərhəd hissəsindən keçən körpüdə aparılan yenidənqurma işləri ilə tanış oldu.*

*Gömrük buraxılış məntəqəsi ilə yaxından tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Şahdağ qış-yay turizm kompleksində tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 12-də Qusar rayonuna səfəri çərçivəsində Şahdağ qış-yay turizm kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur*

*Dövlətimizin başçısına məlumat verildi ki, Şahdağ qış-yay turizm kompleksinin tikintisi dağ xizək idmanı, digər qış idman növləri ilə məşğul olmaq üçün geniş imkanlar yaradacaqdır. Ümumi sahəsi 2 min hektardan çox olan kompleksin tikintisi 4 mərhələdə həyata keçiriləcəkdir. Birinci mərhələdə vacib*

*kommunikasiya xətləri çəkiləcək, 11 qaldırıcı, xizək yolları, süni göl və qar avadanlığı quraşdırılacaqdır. 312 yerlik beşulduzlu, 346 yerlik dördulduzlu, 282 yerlik üçulduzlu otellərin və kiçik yaylaq evlərinin, kottecların tikilməsi planlaşdırılır.*

*İkinci mərhələdə qaldırıcılar şəbəkəsinin və idman qurğularının, kottecların tikintisi və bağların salınması nəzərdə tutulur. Üçüncü mərhələ isə əlavə xizək yollarının salınmasını və yaşayış zonasının genişləndirilməsini əhatə edir. Dəniz səviyyəsindən 2000 metr yüksəklikdə tikiləcək Mərkəzdə 5 min işçi çalışacaqdır.*

*Kompleksin ərazisində tennis, futbol və basketbol meydançaları, örtülü idman qurğuları, akvapark və hovuzlar olacaqdır. İstirahətə gələnlərə piyada, at ilə gəzinti və digər xidmətlər təklif ediləcəkdir. Kompleksdə müxtəlif uzunluqda 21 buraz yolu çəkiləcəkdir. Burada xizəkçilərin tam təchizatla xizək yolunun zirvəsinə çatdırılması üçün kürsü tipli qaldırıcı qurğulardan istifadə olunacaqdır. İsveçrənin «Swiss Town Consult» şirkəti tərəfindən kompleksin inkişafının Turizm və Texniki Konsepsiyası hazırlanmış, geoloji işlər aparılmışdır.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev prezident İlham Əliyevə kompleksə daxil olan mehmanxanaların dizayn və interyer elementləri, tikinti zamanı istifadə ediləcək materiallar barədə ətraflı məlumat verdi.*

*Prezident İlham Əliyev aşağı baza, yuxarı baza və işçilərin yaşayacağı binanın tikintisi ilə də tanış oldu. Aşağı bazada qısamüddətli, yuxarı bazada uzunmüddətli qonaqların qalacağı bildirildi.*

*Dövlətimizin başçısı kompleksə gələn yolun salınması və kommunikasiya xətlərinin çəkilməsi, tikintinin müasir standartlar səviyyəsində aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## «Qusar-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimi

*Prezident İlham Əliyev avqustun 12-də «Qusar-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*«Azərenerji» ASC-nin sədri Etibar Pirverdiyev prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, dövlətimizin başçısı respublikada 2010-cu ili alternativ enerji mənbələrinin istifadəsi və ekologiyanın yaxşılaşdırılmasında kəskin dönüş ili elan etmişdir. Prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli Sərəncamı ilə kiçik su elektrik stansiyalarının respublikada geniş tətbiq edilməsi məqsədi ilə xüsusi proqramların hazırlanması «Azərenerji» ASC-yə tapşırılmışdır.*

*Kiçik su elektrik stansiyalarının tikintisi bir tərəfdən, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə, digər tərəfdən isə ətraf mühitin sağlamlaşdırılmasına imkan verir.*

*Tikintinin 2011-ci ilin ikinci yarısında başa çatdırılması nəzərdə tutulur.*

*Layihənin icrası nəticəsində Qusar rayonunun Urva kəndi yaxınlığında inşa edilən su elektrik stansiyasında ildə 7 milyon kilovat/saat elektrik enerjisi istehsal olunacaqdır.*

*Prezident İlham Əliyev «Qusar-1» kiçik su elektrik stansiyasının təməlini qoydu.*

*Dövlətimizin başçısına inşası nəzərdə tutulan bənd tipli iki su elektrik stansiyası barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev inşaatçıları və energetikləri təbrik etdi, onlara tapşırıq və tövsiyələrini verdi.*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

Braziliyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan–Braziliya münasibətləri yüksələn xətt üzrə inkişaf etməkdədir. Əminəm ki, dost ölkələrimiz arasında istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Braziliya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2010-cu il*

## KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

Hörmətli cənab Sədr!

Milli bayramınız – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizi öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2010-cu il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Xalqlarımızı birləşdirən ənənəvi dostluq münasibətləri ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq üçün daim geniş imkanlar açır. Əminəm ki, bu imkanlardan səmərəli istifadə olunması məqsədilə bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə, hörmətli Emoməli Şərifoviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2010-cu il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MİNH ÇİETƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Vyetnam münasibətlərinin inkişafı, dostluq və əməkdaşlıq əlaqələrimizin genişlənməsi daim xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2010-cu il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–Özbəkistan münasibətləri əsrlər boyu bir-birinə qırılmaz tellərlə bağlı olmuş xalqlarımızın istək və iradəsindən qaynaqlanır. Əminəm ki, qarşılıqlı etibar və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin, çoxşaxəli dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə, hörmətli İslam Abduqəniyeviç, ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Özbəkistan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2010-cu il*

## LİVİYA İNQİLABININ LİDERİ, BÖYÜK LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

Zati-aliləri!

Milli bayramınız – Böyük inqilab günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Liviya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Liviya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2010-cu il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*16 avqust 2010-cu il*

*Avqustun 16-da Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülü qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyə prezidentinə raport verdi.*

*Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkiyə prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Abdullah Gülə, Türkiyə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*16 avqust 2010-cu il*

*Avqustun 16-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq bildirildi. Bu münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan dövlət başçıları Türkiyə prezidentinin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin genişlənməsinə töhfə verəcəyini vurğuladılar.*

*Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*16 avqust 2010-cu il*

*Avqustun 16-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Abdullah Gülün nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar! Mən sizi Azərbaycanda ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Sizin səfərinizin çox böyük əhəmiyyəti vardır. Biz bu gün artıq Sizinlə təkbətək görüşdə ikitərəfli münasibətlərin böyük hissəsini müzakirə etdik. Bir daha görürük ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri uğurla inkişaf edir, bütün sahələri əhatə edir və bu əməkdaşlığın çox gözəl nəticələri vardır. Həm ikitərəfli formatda, həm regional müstəvidə Türkiyə–Azərbaycan qardaşlığı və birgə fəaliyyəti çox önəmli bir amilə çevrilibdir.

Mən əminəm ki, səfər zamanı çox səmərəli müzakirələr keçiriləcəkdir. Həm nümayəndə heyətlərinin üzvləri bir-biri ilə əlaqədə olacaqlar və həm də biz gələcək birgə fəaliyyət haqqında planlarımızı müəyyən edəcəyik.

Bu əlaqələr müxtəlif sahələri əhatə edir. Əminəm ki, hər bir istiqamətdə gözəl nəticələr olacaqdır. Bir daha xoş gəlmisiniz!

**A b d u l l a h  G ü l:** Sağ olun. Təşəkkür edirəm.

Hörmətli qardaşım İlham Əliyevin dəvəti ilə bu səfəri həyata keçirməkdən böyük bir məmnunluq hissi duyuruq. Biz əslində öz vətənimizdə, ölkəmizdə, öz qardaşlarımızın arasındayıq. Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətləri, hamımızın bir millət olmaq ruhuna bağlılığımız hər şeydən əhəmiyyətlidir.

Bugünkü təkbətək görüşümüzdə bütün bunları nəzərdən keçirdik, məsləhətləşdik. Siyasi-iqtisadi məsələləri, regionla bağlı təhlükəsizlik məsələlərini Sizinlə bərabər müzakirə etmək çox faydalı oldu. Bu mövzularda Sizinlə vaxtaşırı fikir mübadiləsi aparmışıq. Türkiyə ilə Azərbaycan arasında münasibətləri adi protokol münasibətlərindən kənar görürük. Tez-tez görüşməyimizin, vaxtaşırı müzakirələr aparmağımızın həm xalqlarımız üçün böyük faydası olacaq, həm də bütün bölgəmizdə hər kəs görəcəkdir ki, Türkiyə ilə Azərbaycan daim hər sahədə çiyin-çiyinədir. Bu baxımdan bu səfərin çox faydalı olacağına inanıram.

Belə isti avqust ayında bu səfəri həyata keçirdik. Qışda da Azərbaycana çox səfər etdik. Xəzərin küləkli, dalğalı olduğu vaxtlarda da yığıncaq keçirdik, görüşdük. Amma bugünkü görüşümüzün, nazirlərimizin öz aralarındakı görüşlərinin çox faydalı olacağına inanıram.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*16 avqust 2010-cu il*

*Avqustun 16-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Abdullah Gül «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə»ni imzaladılar.*

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*Prezident sarayı*

*16 avqust 2010-cu il*

*Avqustun 16-da sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan və Türkiyə prezidentlərinin birgə mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar!

Cənab Prezident, mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Sizin səfərinizin çox böyük əhəmiyyəti vardır. Bu səfər nəticəsində əldə edilmiş razılaşmalar Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq münasibətlərinin inkişafı üçün çox mühüm rol oynayacaqdır.

Bizim dostluğumuzun, qardaşlığımızın böyük tarixi keçmişi vardır. Əsrlər boyu xalqlarımız bir yerdə, dostluq, qardaşlıq şəraitində yaşamışlar, həmişə bir-birinə dəstək olmuşlar. Bu gün ölkələrimiz arasındakı əlaqələr ən yüksək səviyyədədir. Bu əlaqələrin xüsusi əhəmiyyəti vardır və əlaqələrimiz bütün sahələri əhatə edir – siyasi, iqtisadi, mədəni sahələri. Bütün sahələrdə aramızda çox ciddi işbirliyi, əməkdaşlıq aparılır və bütün istiqamətlərdə yaxşı nəticələr vardır.

Sizinlə təkbətək görüşdə və nümayəndə heyətlərinin iştirakı ilə keçirdiyimiz görüşdə bütün bu məsələləri geniş müzakirə etdik, ikitərəfli münasibətlərimizi bir daha təhlil etdik, gələcək fəaliyyət haqqında fikir mübadiləsi apardıq və bir daha gördük ki, münasibətlərimiz, sözün əsl mənasında, qardaşlıq xarakteri daşıyır. Bu gün imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə böyük tarixi əhəmiyyətə malik olan sənəddir. Bu müqavilə gələcək fəaliyyətimizi müəyyən edir və bundan sonra, onilliklər ərzində Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq münasibətlərini müəyyən edəcəkdir.

Bu gün biz Sizinlə iqtisadi və siyasi sahədəki əməkdaşlığımızı müzakirə etdik. Bu yaxınlarda Türkiyə–Azərbaycan biznes - forumunun keçirilməsi iqtisadi sahədə çox mühüm bir hadisə idi. Biz nəinki qarşılıqlı yatırımların həcmini artırırıq, eyni zamanda, üçüncü ölkələrdə birgə sərmayə qoyuluşu haqqında ciddi fikir mübadiləsi aparırıq və əminəm ki, bu sahədə yaxşı nəticələr ola bilər.

Neft-qaz sahəsindəki əməkdaşlığımızın böyük tarixi vardır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri uğurla fəaliyyət göstərir və gələcəkdə bu fəaliyyət daha da geniş olacaqdır. Bu mühüm layihələr yeni vəziyyətin yaranmasına gətirib çıxarıbdır. Həm bölgədəki vəziyyətə müsbət təsir göstərir, həm də gələcək çoxtərəfli regional əməkdaşlıq üçün mühüm şərt kimi mövcuddur.

Bu gün bərabər həyata keçirdiyimiz dəmiryol layihəsi üzərində işləyirik. Bu yol Türkiyəni Azərbaycanla, Avropanı Asiya ilə birləşdirəcəkdir. Həm siyasi, həm iqtisadi maraqlarımız tam şəkildə təmin olunacaqdır. Buna bənzər digər layihələr danışıqlar mövzusudur və iki xalqın ortaya qoyduğu iradə sayəsində biz məqsədlərimizə çatacağıq.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr türkdilli ölkələr arasındakı əlaqələrə ciddi təsir göstərir. Keçən il Naxçıvanda keçirdiyimiz zirvə görüşü və o görüş zamanı əldə edilmiş razılaşmalar artıq reallaşır. Yaxın zamanlarda Türkiyədə

keçiriləcək növbəti zirvə görüşü də əminəm ki, çox uğurlu olacaq, türkdilli ölkələrin əməkdaşlığı daha da genişlənəcəkdir. Türk dünyasının birləşməsi üçün Türkiyə–Azərbaycan əlaqələrinin xüsusi yeri vardır.

Böyük öndər Mustafa Kamal Atatürkün kəlamı yadıma düşür. O demişdir ki, Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir ki, Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir. Bax, bu kəlamlar bizə yol göstərir və bu yolda biz çiyin-çiyinə irəliləyirik və böyük zirvələri fəth edirik. Müzakirə etdiyimiz məsələlər arasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də var idi. Bu barədə də biz çox geniş danışdıq və fikir mübadiləsi apardıq. Uzun illərdir ki, Azərbaycan torpaqları Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin salınıbdır, qaçqın-köçkün vəziyyətində yaşayır. Azərbaycanlılara qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır, beynəlxalq hüquq normaları pozulmuşdur. Beynəlxalq təşkilatlar – BMT, Avropa Şurası, ATƏT, İslam Konfransı Təşkilatı, Avropa parlamenti məsələnin həlli ilə bağlı çoxsaylı qətnamələr, qərarlar qəbul etmişdir və onların hamısı Azərbaycanın ərazi bütövlüyünün bərpasını qeyd-şərtsiz tələb edir. Əfsuslar olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi məsələnin həlli üçün imkan yaratmır. Lakin Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, buna bizim heç şübhəmiz yoxdur.

Fürsətdən istifadə edərək, Sizə və bütün qardaş türk xalqına Azərbaycana bu məsələ ilə bağlı daim dəstək verdiyinizə görə minnətdarlığımı, təşəkkürümü bir daha bildirmək istəyirəm.

Bir daha, əziz qardaşım, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Əminəm ki, səfəriniz çox uğurlu olacaqdır. Sağ olun.

## Türkiyə prezidenti Abdullah Gülün bəyanatı

Cənab Prezident, hörmətli qardaşım İlham Əliyev!

Hörmətli mətbuat nümayəndələri!

Qardaş Azərbaycana bu səfərimlə əlaqədar mənə, heyətdəki hörmətli nazirlərə, deputatlara və bütün heyət üzvlərinə göstərdiyiniz böyük qonaqpərvərliyə görə təşəkkür edirəm. Özümüzü evimizdə hiss edirik. Azərbaycana nə zaman gəlsək, daim bu hissləri yaşamışıq və hər gəlişimizdə Azərbaycanın inkişaf etdiyini, güclәndiyini, daha da irəliyə parladığını görmək bizi xoşbəxt etməkdədir. Sizin də dediyiniz kimi, biz bir millətin ayrı-ayrı iki dövlətiyik. Bu iki ayrı dövlətin bir millət anlayışına uyğun şəkildə həmrəylik, əməkdaşlıq və qardaşlıq hissləri ilə dolu olması vacibdir. Biz də bu anlayış çərçivəsində daim və tez-tez görüşürük, ətraflı məsləhətləşirik və əməkdaşlıq edirik. Bu həmrəyliyimizi və əməkdaşlığımızı davam etdirəcəyik.

Bugünkü səfərimdə Sizinlə təkbətək və geniş tərkibdə görüşlərdə bütün bu məsələləri müzakirə etdik. İkitərəfli əlaqələrimiz siyasi, təhlükəsizlik, iqtisadi və mədəni sahələrdə get-gedə inkişaf etməkdədir. Bunları daha çox inkişaf etdirmək üçün bu gün bir çox tədbirləri də müzakirə etdik. Daha çox qarşılıqlı iş qurmaları, qarşılıqlı sərmayə qoymaları üçün şirkətlərimizi qarşılıqlı olaraq təşviq edirik. Azərbaycan şirkətlərinin Türkiyəyə qoyduqları sərmayələrdən böyük bir məmnuniyyət duyuruq. Türk şirkətlərinin də buradakı uğurları ilə qürur duyuruq.

Siyasi sahədəki əlaqələrimiz də mühüm əhəmiyyət kəsb edir. Bunu eyni qaydada davam etdirəcəyik. Bu gün imzaladığımız strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə bunun ən bariz nümunəsidir. Bu müqaviləyə müvafiq olaraq həmrəyliyimizi gücləndirərək inkişaf etdirəcəyik.

Qafqazın sabit və təhlükəsiz bir bölgə olması üçün həyata keçirilməli olan tədbirlər barədə bu gün yenə ətraflı müzakirələr apardıq. Dağlıq Qarabağ probleminin həlli, Azərbaycanın işğal altındakı torpaqlarında işğalın sona çatdırılması – bütün

bunların Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını müzakirə etdik. Bunu müzakirə edərək, qısa müddət ərzində bu problemin həllinin zəruri olduğuna inanırıq. Milyonlarla köçkünün, qaçqının çox çətin şəraitdə yaşadığını bilirik. Əslində bütün dünya bu həqiqəti görməlidir. Uzun illərdir, 18 ildir ki, dünyada bu problemə kifayət qədər diqqət yetirilmədi. Ümid edirik ki, artıq bunun da zamanı gəlib çatmışdır və bütün bu məsələlər Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir.

Bu istiqamətdə fəaliyyətimizə və müzakirələrimizə davam edəcəyik. Çünki bu məsələni dondurulmuş şəkildə saxlamaq doğru deyildir. Dondurulmuş münaqişələr gözlənilmədən çox böyük problemə çevrilə bilər. BMT-nin müraciəti var, Sizin dediyiniz kimi, İslam Konfransı Təşkilatının, digər beynəlxalq təşkilatların hər zaman müraciətləri olmuşdur. Bu müraciətləri nəzərə alaraq, dost və region ölkələr, bu regionla tarixi əlaqələri olan bütün qonşu ölkələr problemin həlli istiqamətində son dərəcə fəal olmalı və kömək etməlidirlər. Ümid edirəm ki, əvvəlki illərdə bu istiqamətdə görülən işlər yenə intensiv qaydada davam edəcəkdir.

Türkiyə bu istiqamətdə fəaliyyətinə davam edəcək, şübhəsiz ki, Azərbaycan ilə daim fikir mübadiləsi aparacaqdır. Hörmətli Prezident, dəyərli qardaşım İlham Əliyev ilə daim fikir mübadiləsi şəraitində bu məsələlərin həlli üçün fəal səylərimiz davam edəcəkdir. Mən bu münasibətlə bütün azərbaycanlı qardaşlarıma Türkiyənin daim Azərbaycanın yanında olduğunu, həmrəy olduğunu və olmaqda davam edəcəyini bir də buradan bəyan etmək istəyirəm. Türk xalqının azərbaycanlı qardaşlarına olan sevgi və məhəbbət duyğularını burada bir daha bütün azərbaycanlı qardaşlarıma mətbuat nümayəndələri vasitəsilə bəyan etmək istəyirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**U ğ u r  A l ı c ı (TRT): Birinci sualım hər iki prezidentədir. İki ölkə arasında münasibətlər tarixi əlaqələrə bağlıdır. Bu çərçivədə viza rejiminin aradan qaldırılması məsələsi səfər zamanı müzakirə olundumu? Digər sualım isə Ermənistan ilə Azərbaycan arasındakı Dağlıq Qarabağ probleminin həllindəki son vəziyyətlə əlaqədardır. Ermənistanın nizamlanma prosesi ilə bağlı göstərdiyi diplomatik yol çözümsüzlüyə istiqamətlənibmi? Təşəkkür edirəm.**

**İ l h a m  Ə l i y e v**: Bu gün görüş zamanı gündəlikdə olan bütün məsələlər müzakirə olundu və çox ciddi fikir mübadiləsi aparıldı. Qeyd etdiyim kimi, bütün məsələlər çox səmimi və qardaşlıq şəraitində müzakirə olundu. Türkiyə ilə Azərbaycan arasında çoxsaylı müqavilələrin olması aramızdakı əlaqələrin inkişafı üçün hüquqi zəmin yaradır. Deyə bilərəm ki, bütün sahələrdə aramızdakı əlaqələri hüquqi sənədlər tənzimləyir. Viza məsələsi də bu gün müzakirə olundu. Bu məsələnin həlli üçün Azərbaycanda daxili prosedurlar keçirilməlidir. Bildiyiniz kimi, Türkiyə bütün türkdilli ölkələrlə vizaların birtərəfli qaydada qaldırılması üçün praktiki addımlar atmışdır. Biz bu addıma görə çox minnətdarıq. Ümid edirəm ki, bütün daxili prosedurlar başa çatandan sonra Azərbaycan tərəfindən də buna bənzər addım atılacaqdır.

O ki qaldı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə, mən deyə bilərəm ki, biz artıq həlledici mərhələdəyik. Çünki son 5-6 il ərzində aparılan danışıqlar müəyyən təkliflərin hazırlanmasına gətirib çıxarmışdır. Bu təkliflər Minsk qrupu tərəfindən rəsmi şəkildə Ermənistana və Azərbaycana təqdim edilmişdir. Təkliflər balanslaşdırılmış mahiyyət daşıyır. Təkliflərin qəbul olunacağı təqdirdə məsələnin dinc yollarla və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli mümkün olacaqdır. Təkliflərin mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın işğala məruz qalmış bölgələrindən Ermənistanın işğalçı qüvvələri çıxarılır və

Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıdırlar. Bununla bərabər, təhlükəsizliyin təmin olunması üçün bölgədə sülhməramlı qüvvələr yerləşdirilir. Ermənistanla Dağlıq Qarabağ arasında dəhlizin fəaliyyət göstərməsi və digər məsələlər nəzərdə tutulur. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Azərbaycan torpaqları işğal altından çıxır və beləliklə, Azərbaycanın ərazi bütövlüyünün bərpası təmin olunur.

O ki qaldı Dağlıq Qarabağın son statusuna, bu, gələcəyin işidir. Azərbaycan tərəfi dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağın Azərbaycandan kənarda heç bir statusuna heç vaxt öz razılığını verməyəcək və beynəlxalq hüquq normaları bu mövqeni müdafiə edir. Əgər Ermənistan tərəfi konstruktivlik nümayiş etdirərsə və beynəlxalq normalara hörmətlə yanaşarsa, beynəlxalq təşkilatların qətnamələrinə riayət edərsə və başqa ölkənin torpaqlarından öz işğalçı qüvvələrini çıxararsa, o zaman məsələ öz həllini tapacaqdır. O zaman Ermənistanla Azərbaycan arasında sülh yaranacaq, bütün kommunikasiyalar açılacaq və bölgəyə geniş mənada əməkdaşlıq gələcəkdir. Biz bunu arzulayırıq və Ermənistan tərəfindən konstruktiv addımları gözləyirik.

**A b d u l l a h G ü l:** Bəli, hörmətli Prezident izah etdi, onun dediklərinə mən də eynilə qatılıram. Viza ilə bağlı məsələni, təbii ki, müzakirə etdik. Hazırkı durumda Azərbaycanın bəzi mülahizələri vardır ki, bu məsələləri aidiyyati qurumlarımız müzakirə edəcəklər və ümid edirəm ki, bu iş yaxın zamanlarda başa çatacaqdır.

Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı şübhəsiz ki, çox geniş müzakirələr apardıq, son vəziyyəti cənab Prezident ətraflı şəkildə izah etdi. Əminik ki, biz Qafqazı sabit əməkdaşlıq bölgəsinə çevirəcəyik. Bunun üçün də problem həll edilməlidir. Bu münaqişə 18 ildir bu qaydada davam etmişdir, bundan sonra belə davam etməməlidir. Mütləq görüşmək, müzakirə aparmaq, bəzən açıq, bəzən gizli diplomatik fəaliyyət göstərmək lazımdır. Şübhəsiz ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bunu hər kəs

bilməlidir. Çünki BMT-nin tanıdığı sərhədlərin hər hansı şəkildə başqa bir ölkə tərəfindən işğalı nə beynəlxalq hüquq tərəfindən qəbul edilə, nə də hər hansı şəkildə müsbət qarşılana bilər.

**S e v i n c İ s g ə n d ə r o v a *(Space TV)*: Mənim sualım Türkiyə prezidenti cənab Abdullah Gülədir. Hörmətli cənab Prezident, bundan əvvəl mediada 2010-cu il sentyabrın 11–17-də NATO çərçivəsində Ermənistanda keçiriləcək təlimlərlə bağlı Türkiyə–Ermənistan sərhədinin açılması ehtimalı barədə məlumatlar getmişdi. Bu məsələyə münasibətinizi bildirməyi xahiş edirik. Təşəkkür edirəm.**

**A b d u l l a h G ü l**: Bu mövzunu bir az əvvəl də müzakirə etdik. Qafqazın sabitlik və əməkdaşlıq bölgəsinə çevrilməsi üçün bütün problemləri müzakirə etməyimiz, bunları sülh şəraitində həll etməyimiz vacibdir. Bütün bunlar bölgədə daha geniş əməkdaşlığa, bölgədə sərhədlərin açılmasına, yeni yolların çəkilməsinə, daha böyük iqtisadi fəaliyyətə imkan verəcəkdir. Bunun üçün hamımız birlikdə bu fəaliyyəti həyata keçiririk. Bəzən siz görürsünüz, açıq müzakirə edirik. Bəzən də sizin görmədiyiniz, səssiz, amma qətiyyətli fəaliyyətlə həll olunur.

Ümid edirəm ki, bölgədəki bütün problemlər həll ediləndən sonra daha geniş əməkdaşlıq məkanı ortaya çıxacaqdır. O zaman mövcud yollardan əlavə, yeni yollar, yeni dəmir yolları çəkiləcəkdir. Bu bölgə inanılmaz şəkildə çox cəlbedici əraziyə çevriləcəkdir və bölgədəki bütün xalqlar daha firavan yaşayacaq, daha xoşbəxt olacaqlar.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*16 avqust 2010-cu il*

*Avqustun 16-da «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söyləmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Sizi, əziz cənab Prezident, Azərbaycanda bir daha ürəkdən salamlayıram. Sizə bir daha «Xoş gəlmisiniz!» – deyirəm. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu, dostun, qardaşın səfəridir. Şübhə yoxdur ki, bu səfər Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərə çox müsbət təsir göstərəcəkdir. Gələcək əməkdaşlığımızın genişləndirilməsi üçün bu səfərin çox böyük əhəmiyyəti vardır.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr xüsusi xarakter daşıyır. Bu, iki dost, qardaş xalq arasında olan münasibətlərdir. Əsrlər boyu xalqlarımız bir yerdə yaşamışlar, yaratmışlar, həmişə bir-birinə dəstək, dayaq olmuşlar. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizi müstəqil ölkə kimi ilk tanıyan Türkiyə olmuşdur. O gündən bu günə qədər Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf etmiş, demək olar ki, bütün sahələri əhatə etmiş və bu gün strateji müttəfiqlik səviyyəsinə qalxmışdır.

Bu illərdə həm siyasi, həm iqtisadi, həm mədəni sahədə – bütün sahələrdə çox gözəl nəticələr vardır. Biz beynəlxalq təşkilatlarda daim bir-birimizə dəstək oluruq. Bütün beynəlxalq təşkilatlarda daim bir mövqedən çıxış edirik. İstər BMT, istər İslam Konfransı Təşkilatı, digər təşkilatlarda həmişə, bütün zamanlarda Türkiyə və Azərbaycan vahid mövqedən çıxış

etmişlər. Bölgədə gedən proseslərə də baxışlarımız eynidir, heç bir fikir ayrılığı yoxdur. Daim məsləhətləşmələr aparırıq və regional əməkdaşlığın dərinləşməsi üçün Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr həlledici rol oynayır. Məhz bizim irəli sürdüyümüz təşəbbüslər nəticəsində bu gün bölgədə tam yeni və müsbət vəziyyət yaranmışdır.

Regional əməkdaşlıq prosesləri müsbət istiqamətdə davam edir. Bizim tərəfimizdən irəli sürülmüş konkret layihələr öz bəhrəsini verir, bölgəyə rifah və təhlükəsizlik gətirir. Bunların içərisində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin xüsusi yeri vardır. Bu kəmər vasitəsilə bu gün bütün bölgədə əməkdaşlıq dərinləşir. Regional çərçivədə bu kəmərin tikintisində iştirak etmiş bütün ölkələr öz xeyrini götürür.

Bu kəmərin tikintisi nəticəsində bölgədə geosiyasi və geoiqtisadi vəziyyət müsbət istiqamətə doğru dəyişmişdir. Bunun ardınca Bakı–Tbilisi–Ərzurum qaz kəməri və digər layihələr dostluğumuzu, qardaşlığımızı daha da möhkəmləndirdi. Bu gün bu, artıq mövcud reallıqdır. Bu reallıq bütün bölgədə gedən proseslərə müsbət təsir göstərir. Bizim – Türkiyə və Azərbaycanın təsir imkanları genişlənir. Mən əminəm ki, gələcək illərdə bizim mövqeyimiz daha da möhkəmlənəcəkdir. Bu, artıq bir yoldur, bir dəhlizdir. Bu dəhliz bizə yeni layihələri həyata keçirməyə imkan verir. Bu gün biz Sizinlə bu barədə geniş fikir mübadiləsi apardıq. Gələcək illərdə birgə fəaliyyətlə bağlı bütün planlar nəzərdə tutulub və qarşılıqlı addımlar atılacaqdır.

Mən çox şadam ki, strateji müttəfiqliyimiz, münasibətlərimiz, bax, belə uğurla davam edir. Bu gün isə bu əlaqələrin gələcək inkişafı üçün çox mühüm və tarixi sənəd imzalanmışdır. Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanmışdır. Bu müqavilənin həyata keçirilməsi nəticəsində, şübhə yoxdur ki, Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri daha da möhkəmlənəcəkdir. Bu müqavilənin çox böyük

əhəmiyyəti vardır və əminəm ki, hamımız bu gözəl nəticələri görəcəyik.

Bu gün biz eyni zamanda, türkdilli ölkələrin birgə fəaliyyəti haqqında geniş fikir mübadiləsi apardıq. Bu məsələ ilə də bağlı mövqeyimiz üst-üstə düşür. Biz bütün məsələlərdə işlərimizi qarşılıqlı anlaşma əsasında qururuq.

Sizi, əziz qardaşım, Bakıda görmək bizim hamımız üçün böyük şərəfdir, böyük xoşbəxtlikdir. Sizi Azərbaycanın böyük dostu kimi tanıyırıq. Əvvəlki vəzifədə çalışdığınız dövrdə Siz Azərbaycanda dəfələrlə olmusunuz. Prezident kimi bir neçə dəfə səfərə gəlmisiniz. Mənim Türkiyəyə səfərlərim də mütəmadi xarakter daşıyır. Belə də olmalıdır. Biz bir ailənin üzvləriyik. Bizim tariximiz münasibətlərimizin bugünkü və gələcək inkişafı üçün əsas şərtdir. Bu, böyük, möhkəm təməldir. Bizi birləşdirən tarix, mədəniyyət, din, dil, siyasi maraqlar – bütün bu amillər nadir vəziyyət yaradır. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünyada analoqu olmayan münasibətlərdir. Bu münasibətlər nəinki ölkələrimizi gücləndirir, bölgədə və dünyada gedən proseslərə də müsbət təsir göstərir.

Bir daha Sizi və Sizinlə bərabər, Azərbaycana gəlmiş bütün bacı-qardaşlarımızı ürəkdən salamlayıram. Sizə və bütün türk xalqına xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

## Türkiyə prezidenti Abdullah Gülün nitqi

Hörmətli Prezident, dəyərli qardaşım İlham Əliyev!

Dəyərli qonaqlar!

Bu gün Azərbaycanda olmaqdan və bu rəsmi səfərdən böyük məmnunluq duyuram. Gəldiyimiz andan bəri mənə və heyətimə göstərilən yüksək dostluq, qardaşlıq və qonaqpərvərlik üçün Sizin şəxsinizdə bütün azərbaycanlı qardaşlarıma təşəkkür edirəm.

Azərbaycan müstəqilliyini bərpa etdiyi andan etibarən Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər daim bu səviyyədə, bu anlayışda və ruhda davam etməkdədir. Əvvəlki illərdə də bütün türk gəncliyinin könlündə və qəlbində Bakı və

Azərbaycan olmuşdur. Bəlkə o zaman bunları açıq ifadə edə, gedib-gələ bilmirdilər. Bu gün bunu bilirik ki, hər sahədə – siyasi, iqtisadi, mədəni, təhsil, təhlükəsizlik və müdafiə sahələrində, Silahlı Qüvvələrimizin birgə təhsili və bir-birilərinə köməyi sahəsində iki ölkə böyük bir həmrəylik içərisindədir. Beynəlxalq platformalarda daim iki ölkə sanki bir ölkə kimi hərəkət edir və hər ikisi bir-birini daim gözübağlı dəstəkləyir və dəstəkləməkdə də davam edəcəkdir.

Şübhəsiz ki, Azərbaycanın problemi Türkiyənin problemidir. Türkiyənin dərdi Azərbaycanın dərdi olacaqdır. Sizin uğurunuzla biz daim öyünəcəyik.

Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi sadəcə, sizin məsələniz deyil, hamımızın məsələsidir. Bu barədə birgə müzakirələr aparır, birgə fəaliyyət göstəririk. Qafqazda sabitliyin, sülhün və əmin-amanlığın bərqərar olması, işğalın sona çatması üçün Türkiyə əlindən gələn bütün səyləri göstərməyə davam edəcəkdir.

Bakıya hər gəlişimdə şəhərin həqiqətən çox dəyişdiyini və sürətli bir yeniləşmə prosesi içərisində olduğunu görmüşəm. Bu səfər də eyni şəkildə oldu. Bu səfər çərçivəsində Sizin Yay sarayında günorta toplantılar keçirdik, oradan Fəxri xiyabana, rəhmətlik atanız Heydər Əliyevin məzarını ziyarətə və Milli Məclisə görüşə gedərkən Bakıda gördüklərimiz həqiqətən bizi çox qürurlandırdı.

Birlikdə böyük layihələr həyata keçirdik. Bunları bir zamanlar yuxu adlandıranlar, «bunlar həyata keçməz» – deyənlər bu gün bunların iki ölkəni bir-birinə necə birləşdirdiyini heyrətlə görürlər. Enerji sahəsində neft-qaz kəmərləri, nəqliyyat sahəsində dəmir yolu – bütün bunlar çox böyük layihələrdir. Bakı–Tbilisi–Qars dəmir yolu sadəcə, üç ölkəni bir-birinə bağlamır, əslində Orta Asiyanı, Çini İngiltərəyə bağlayır. «Mərmərə Ray» xəttinin başa çatması ilə qatarlar birbaşa Bakıdan çıxacaq, La-Manş boğazını keçərək Londona yetişəcəkdir. Qazaxıstanın, Çinin bu layihəyə nə qədər böyük maraq göstərdiyini hamımız bilirik. Bunun təməlini birlikdə

Qarsda atmışdıq, inşallah, 2012-ci ildə də açılışını hamımız birlikdə həyata keçirəcəyik.

Sizin Türkiyədə, bizim burada qoyduğumuz sərmayələr hər kəsin gözünü qamaşdırır. Bütün bunlar hər kəsə bölgəni örnək göstərəcək fəaliyyətlərdir. Bunların hamısı ilə qürur duyuram. İnanıram ki, bu həmrəyliyimiz daha çox gözəl layihələrin ortaya çıxmasına səbəb olacaqdır.

Bu gün imzaladığımız strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə hər bir məsələdə həmrəy və bərabər olmağımızı nəzərdə tutur. Bu müqavilə bütün bölgə və dünya üçün çox önəmlidir. Bu müqavilədə nəzərdə tutulanlar sülh, sabitlik, əmin-amanlıq gətirəcəkdir və bunlardan da əlavə, böyük iqtisadi dirçəlişə səbəb olacaqdır.

Mən bir daha türk xalqının bütün azərbaycanlı qardaşlarına sevgilərini və məhəbbətlərini ifadə edirəm. Ramazan bayramınız mübarək olsun! Bu gözəl, mübarək aylar sadəcə, türk respublikalarına və islam ölkələrinə deyil, bütün insanlığa xeyir gətirsin.

Göstərdiyiniz yüksək qonaqpərvərliyə görə dostlarım və heyətim adından bir daha təşəkkür edirəm.

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 avqust 2010-cu il*

## SİNQAPURDA KEÇİRİLƏN YENİYETMƏLƏRİN I YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILAR VƏ MÜTƏXƏSSİSLƏRLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 avqust 2010-cu il*

*Avqustun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sinqapurda keçirilən Yeniyetmələrin I Yay Olimpiya oyunlarında iştirak etmiş idmançıları və mütəxəssisləri qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, mən sizi ürəkdən salamlayıram. Sinqapurda keçirilmiş Yeniyetmələrin I Yay Olimpiya oyunlarında qazanılmış böyük və inamlı qələbə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu həqiqətən böyük qələbədir, Azərbaycan idmanının təntənəsidir. Bu oyunlarda 204 ölkə öz idmançıları ilə təmsil olunmuşdur və Azərbaycan idmançıları bu gərgin yarışda komanda hesabında 11-ci yeri tuta bilmişlər. Bu həqiqətən böyük və tarixi nailiyyətdir. Azərbaycan artıq dünyanın aparıcı idman ölkələrinin sırasındadır. Bu qələbə onu göstərir ki, Azərbaycanda idmanın inkişafı üçün çox böyük işlər görülmüşdür. İdman hərtərəfli inkişaf edir. Həm kütləvilik artır, həm də idmanla məşğul olmaq üçün bütün imkanlar yaradılmışdır. Gənclərimiz, yeniyetmələrimiz idmana böyük həvəslə yanaşırlar. İdman bölmələrinə axın çox güclüdür. Bu, Azərbaycanda idman sahəsində aparılmış köklü islahatların nəticəsidir. Mən çox şadam və çox sevinirəm ki, idmançılarımız bu böyük qələbəni qazandılar.

Bu oyunlar tarixdə qalacaqdır. Hər bir Olimpiya oyunları idman sahəsində tarixi bir mərhələdir. Bu oyunlar isə yeniyetmələrin birinci oyunlarıdır. Siz öz adınızı bu şanlı tarixə yazdırmısınız. Komandamız oyunlarda cəmi 12 idmançı ilə iştirak edirdi. On iki idmançıdan səkkizi medal qazanmışdır. Beş qızıl, üç gümüş medal böyük və tarixi qələbədir. Mən sizi bu böyük nailiyyət münasibətilə ürəkdən təbrik edirəm. Əminəm ki, gələcəkdə də, artıq böyüklər arasında keçiriləcək Olimpiya oyunlarında ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz.

Azərbaycanın Dövlət himni Sinqapurda beş dəfə səslənmişdir, səkkiz dəfə bayrağımız orada ucalmışdır. Bu, böyük iftixar hissi oyadan bir hadisədir. Azərbaycan sürətlə, çox dinamik inkişaf edən ölkədir. Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılır, islahatlar keçirilir, ölkəmiz dünyadakı mövqelərini möhkəmləndirir, dünyada böyük və müsbət imicə malikdir. İdman elə bir sahədir ki, ölkələri dünya miqyasında təqdim edir. İndi o yekun nəticələr dərc olunandan sonra hər kəs görəcək ki, aparıcı ölkələrin sırasına öz gəncləri, öz idmançıları ilə Azərbaycan da daxildir.

Azərbaycanın çox şanlı və gözəl idman tarixi vardır. İdmançılarımız Olimpiya oyunlarında böyük qələbələr qazanmışlar. Hər dəfə medalların sayı artır. Birinci dəfə biz Atlanta Olimpiya oyunlarında müstəqil ölkə kimi iştirak etmişdik. Orada bir medal qazanıldı. Ondan sonra Sidneydə 3, Afinada 5, Pekində 7 medal qazanıldı. Əminəm ki, iki ildən sonra keçiriləcək London Olimpiya oyunlarında da idmançılarımız Vətənimizi ləyaqətlə təmsil edəcəklər.

Sizin qələbəniz onu göstərir ki, Azərbaycanda idmanın inkişafı çox düşünülmüş və məqsədyönlü şəkildə təmin edilir. Çünki gənc nəslin yetişməsi idman qələbələrinin əsas şərtidir. Əgər gənc nəsil idmançılar yetişmirsə, onda gələcək idman uğurlarından söhbət aparıla bilməz. Siz idmanımızın ümidlərisiniz. Sizin böyük gələcəyiniz vardır və elə etməlisiniz ki, bu qələbələr sizin üçün bir mərhələ olsun. Elə bir stimul olsun ki, əldə edilmiş bu gözəl nailiyyətlə kifayətlənməyəsiniz. Daim

peşəkarlığınızı artırmalısınız, daim məşq etməlisiniz, nizam-intizama tabe olmalısınız, məşqçilərin sözlərinə qulaq asmalısınız ki, gələcəkdə, bundan sonra uzun illər Azərbaycanı ləyaqətlə təmsil edəsiniz.

Bu qələbənin əldə olunmasında iştirak etmiş bütün insanları – idmançıları, məşqçiləri, idman mütəxəssislərini təbrik etmək, onlara minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycanda idmanla məşğul olan bütün qurumlar vahid mexanizm, vahid komanda kimi fəaliyyət göstərir. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar – idmana cavabdehlik daşıyan bütün bu qurumlar məqsədyönlü və əlaqəli şəkildə uğurlarımızı təmin edirlər. Azərbaycanda bütün idman qurumları bir-biri ilə sıx əlaqədədir. Heç bir qarşıdurma, heç bir qısqanclıq yoxdur, ola da bilməz. Çünki hamımız bir məqsədə qulluq edirik ki, o da Azərbaycanın idman şöhrətini ucaltmaq və daim beynəlxalq yarışlarda qələbə qazanmaqdır.

Sizin fəaliyyətiniz Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilir və bu qələbə layiqincə qiymətləndiriləcəkdir. Bu gün bu qələbənin təşkilində və əldə olunmasında iştirak etmiş bütün insanlar – həm idmançılar, həm onların məşqçiləri mükafatlandırılacaqlar. Bu da Azərbaycan dövlətinin sizə olan münasibətidir. Əlbəttə, bu münasibət ancaq mükafatlarla, maddi amillərlə ölçülmür. Baxmayaraq ki, bu da çox vacibdir. Bilməlisiniz ki, Azərbaycan dövləti sizi daim dəstəkləyəcəkdir. Azərbaycan dövləti ölkədə idmanın inkişafı üçün bütün lazımi tədbirləri görür və gələcəkdə də görəcəkdir.

Bir daha sizi ürəkdən təbrik edirəm. Sizə yeni-yeni qələbələr və uğurlar arzulayıram.

**N i c a t R ə h i m o v:** *(Yeniyetmələrin I Yay Olimpiya oyunlarının ağırlıqqaldırma üzrə qızıl mükafatçısı):* Möhtərəm cənab Prezident! Bu gün biz çox əlamətdar və tarixi anlar yaşayırıq. Sizinlə görüş biz idmançılar üçün əsl bayrama çevrilir. Sizin qarşınızda çıxış etdiyimə görə böyük qürur hissi keçirirəm. Bizimlə görüşünüz idmançılara Sizin ən dəyərli hədiyyənizdir.

Ölkəmizdə idmanın inkişafı, idmanda qazandığımız nailiyyətlər ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Həmin inkişaf Sizin diqqətiniz və qayğınız sayəsində bu gün davam etməkdədir.

Hörmətli cənab Prezident! Olimpiya idman komplekslərinin, stadion və məşq zallarının qısa bir müddət ərzində tikilib istifadəyə verilməsi biz idmançılara Sizin tərəfinizdən ən böyük hədiyyədir. Bunların nəticəsidir ki, biz idmançılar Yeniyetmələrin I Yay Olimpiya oyunlarında yüksək nailiyyətlər qazanaraq, Vətənimizi beynəlxalq arenada idman ölkəsi kimi bir daha tanıtdıq. Bu yarışda çox böyük dövlətləri geridə qoyaraq, 5 qızıl və 3 gümüş medal qazandıq. Bu yarışda yüksək səviyyədə çıxışlarımız Azərbaycanda idmanın çox böyük sürətlə inkişaf etdiyini bir daha sübut etdi.

Hörmətli cənab Prezident! Bu gün qazandığımız uğurlara görə Sizə minnətdarlığımızı bildiririk. Azərbaycan idmanının adını ucaltmaq üçün əlimdən gələni edəcəyimə söz verirəm.

**İlqar Abdulov** (*Yunan-Roma güləşi üzrə məşqçi):* Möhtərəm cənab Prezident! Bu gün bu görüşdə iştirak etdiyim üçün qürur hissi keçirirəm. İdmançılarımız Yeniyetmələrin I Yay Olimpiya oyunlarında uğurla çıxış etmiş, Azərbaycan bayrağını yüksəklərə qaldırmış, Vətənə qələbə ilə qayıtmışlar.

Sizi əmin edirəm ki, yetişdirdiyim idmançıların zəfər soraqları dünyanın bütün ölkələrindən gələcəkdir. Bu gün Azərbaycanda digər sahələrdə olduğu kimi, gənclərin möhkəm və sağlam inkişafı Sizin bizə göstərdiyiniz qayğı və diqqət sayəsində mümkün olmuşdur. Bunun üçün hər birimiz – bütün gənclər, bütün idmançılar Sizə dərin minnətdarlığımızı, səmimi təşəkkürümüzü çatdırırıq.

Cənab Prezident, bizi qarşıda daha böyük sınaq – Londonda keçiriləcək XXX Olimpiya oyunları gözləyir. Biz idmançılar və məşqçilər adından Sizi əmin etmək istəyirik ki, inşallah, idmançılarımız bu yarışdan da həmişə olduğu kimi, Vətənə üzüağ dönəcəklər.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Doğrudan da Azərbaycanda son illər tikilmiş, istifadəyə verilmiş olimpiya kompleksləri həm idmanın inkişafı, həm də kütləviliyin artırılması üçün böyük rol oynamışdır. Artıq bütün bölgələrdə gözəl, müasir olimpiya kompleksləri tikilibdir, bəzi rayonlarda tikinti davam etdirilir, bəzi rayonlarda isə növbəti illərdə olimpiya kompleksləri tikiləcəkdir. Bildiyimə görə, qaliblərin sırasında bölgələrdən olan idmançılar da vardır. Bu da çox gözəl göstəricidir və onu göstərir ki, təkcə paytaxtda deyil, bölgələrdə də artıq gözəl idmançılar, gənc idmançılar yetişir.

Sevindirici haldır ki, idmançılarımız bu medalları müxtəlif idman növlərində qazanmışlar. Bu medallar həm sərbəst güləş, Yunan-Roma güləşi, həm də ağırlıqqaldırma və boks üzrə yarışlarda qazanıldı. Bu onu göstərir ki, Azərbaycanda bütün idman növləri inkişafdadır. Bizim üçün ənənəvi olan güləş idman növü ilə bərabər, digər idman növləri də inkişafdadır. Bunu həm yeniyetmələrin bu Olimpiya oyunları göstərmişdir, həm də son illər ərzində müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında Azərbaycan idmançılarının uğurlu çıxışları təsdiq edir. Azərbaycanda hər bir sahədə olduğu kimi, idman sahəsində də inkişaf çoxşaxəlidir. Həm bölgələrdə inkişaf görünür, eyni zamanda, idmanın müxtəlif olimpiya və qeyri-olimpiya növlərində gözəl idmançılar yetişir.

Mən sizi bir daha ürəkdən təbrik edirəm. Bu qələbəni Azərbaycan xalqına bəxş etdiyinizə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha demək istəyirəm ki, biz sizdən yeni qələbələr gözləyirik. Sizin adlarınız artıq tarixdədir. Azərbaycan xalqı da artıq sizi yaxşı tanıyır. Siz elə etməlisiniz ki, daim ölkəmizi bütün yarışlarda ləyaqətlə təmsil edəsiniz. Bir daha sizi təbrik edirəm.

## MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 avqust 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli səfirlər, mən sizi və təmsil etdiyiniz ölkələrin bütün vətəndaşlarını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, mənim səmimi salamlarımı və təbriklərimi təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Ramazan ayı dünyada yaşayan bütün müsəlmanları birləşdirir. Biz elə etməliyik ki, islam ölkələri arasında mövcud olan dostluq, qardaşlıq münasibətləri daha da möhkəmlənsin, islam həmrəyliyi daha da güclənsin. Mən çox şadam ki, müsəlman ölkələrinin Azərbaycanda fəaliyyət göstərən səfirliklərinin sayı getdikcə artmaqdadır. Azərbaycan da müsəlman ölkələrində öz diplomatik nümayəndəliklərinin sayının artırılmasına çalışır.

Təmsil etdiyiniz ölkələr ilə Azərbaycanın çox sıx əlaqələri vardır. Bu əlaqələr getdikcə güclənir. Qarşılıqlı səfərlər təşkil edilir, iqtisadi əlaqələr genişlənir, bir sözlə, biz ikitərəfli müstəvidə həyata keçirilən tədbirlərdən çox razıyıq. Əminəm

ki, bu əməkdaşlıq və dostluq münasibətləri bundan sonra da uğurla davam etdiriləcəkdir. Biz öz növbəmizdə daim çalışırıq ki, islam həmrəyliyinin gücləndirilməsinə töhfəmizi verək. Bildiyiniz kimi, Bakıda İslam Konfransı Təşkilatının xətti ilə bir sıra mötəbər tədbirlər keçirilmişdir. Keçən il Bakı şəhəri islam mədəniyyətinin paytaxtı seçilmişdir. Bu il Bakıda İslam İnkişaf Bankının Direktorlar Şurasının yığıncağı keçirilmişdir. Bir sözlə, biz çalışırıq ki, müsəlman ölkələri arasındakı əlaqələr çoxşaxəli olsun, siyasi, iqtisadi, humanitar sahələri maksimum dərəcədə əhatə etsin. Biz daim bir-birimizi dəstəkləməliyik və bu dəstək çox güclü olmalıdır. Həm ikitərəfli əlaqələrdə, həm beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri hər zaman həmrəylik nümayiş etdirməlidirlər. Çətin anlarda biz daim bir-birimizin yanında olmalıyıq. Belə olan halda, dünyada gedən proseslərə müsəlman ölkələrinin təsiri daha da güclü olacaq, milli maraqlarımız daha da dolğun şəkildə təmin ediləcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində göstərdiyimiz səylər müsəlman ölkələri tərəfindən dəstəklənir. Biz bu dəstəyə görə bütün qardaşlarımıza minnətdarıq. İslam Konfransı Təşkilatı bu məsələ ilə bağlı dəfələrlə qətnamələr qəbul etmişdir və o qətnamələrdə Azərbaycanın haqlı mövqeyi dəstəklənir.

2 il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Dağlıq Qarabağ məsələsinə dair müzakirə olunan qətnamə müsəlman ölkələri tərəfindən dəstəklənmişdir. Bu dəstək qətnamənin qəbul olunmasında həlledici rol oynamışdır.

Bildiyiniz kimi, Azərbaycan torpaqları uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal və azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın həyatı yaşayır, ərazilərimizin 20 faizi işğal altındadır. Dağlıq Qarabağ və onun ətrafındakı bölgələrdən bütün azərbaycanlı əhali qovulmuşdur. Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə, bizim islam dininə məxsus olan bütün abidələr

dağıdılmışdır. Əfsuslar olsun ki, bu ədalətsizlik davam edir. Mən tam əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək və bu məsələ beynəlxalq hüquq normaları əsasında həllini tapacaqdır. Çünki bütün beynəlxalq hüquq normaları bizim tərəfimizdədir, bizim mövqeyimizi dəstəkləyir və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir.

Bu məsələni sülh və danışıqlar yolu ilə həll etmək üçün dünya ictimaiyyəti hesab edirəm ki, daha da ciddi tədbirlər görməlidir, işğalçı dövlətə daha da ciddi təzyiqlər göstərilməlidir və bu prosesin uğurla başa çatması üçün diplomatik səylər göstərilməlidir. Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır. Beynəlxalq birlik tərəfindən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır və bu o deməkdir ki, məsələnin istənilən yolla həll olunması Azərbaycanın daxili işidir, heç bir kənar qüvvə bu məsələyə müdaxilə edə bilməz.

Əziz səfirlər, əziz dostlar, siz Azərbaycanda yaşayırsınız, çalışırsınız, Azərbaycanı yaxşı tanıyırsınız və bilirsiniz ki, Azərbaycan xalqı təmsil etdiyiniz ölkələrə və o ölkələrdə yaşayan insanlara böyük rəğbətlə və hörmətlə yanaşır. Mən çox şadam ki, hər bir görüşümüzdə iştirak edən səfirlərin sayı artır və bu məni çox sevindirir. Mən ümid edirəm ki, gələcək görüşdə burada əyləşənlərin sayı daha da çox olacaqdır. Mən bir daha sizi qarşıdan gələn bu gözəl mübarək bayram münasibətilə təbrik edirəm. Sizə, sizin ailələrinizə cansağlığı, xoşbəxtlik, xalqlarınıza sülh, əmin-amanlıq, firavanlıq arzulayıram.

**İsmatilla Yerqaşev** *(Özbəkistanın Azərbaycandakı səfiri):* Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Bismillahir-rəhmanir-rəhim!

Hörmətli cənab Prezident! Müsəlman ölkələrinin Azərbaycanda akkreditə olunmuş səfirləri, nümayəndəliklərinin rəhbərləri və həmçinin öz adımdan Sizi müqəddəs Ramazan ayı və əl-Fitr bayramı münasibətilə təbrik edirəm.

Müqəddəs Ramazan ayında müsəlmanlar islam dünyasının qardaşlığını, dostluğunu və həmrəyliyini təcəssüm etdirən

mənəvi səyahətə çıxırlar. Əlbəttə, bizim ümmət islam dininin həqiqi dəyərlərinə, Allahın birliyinə, yaxşı əməllərə, həm də mötədillik, tolerantlıq və birgəyaşayış ideallarına sadiq qalır.

Bizim üçün müqəddəs olan bu ayda müsəlman ölkələrinin səfirləri adından Sizə və bütün Azərbaycan xalqına Allahın bəxş etdiyi nemətlər, habelə sülh və firavanlıq arzulayıram. Fürsətdən istifadə edərək bu müqəddəs bayram münasibətilə Sizinlə görüşmək imkanı yaratdığınıza görə Zati-alinizə təşəkkürümü bildirirəm. Sevindirici haldır ki, bu cür görüşlər, cənab Prezident, məhz Sizin sayənizdə ənənə halı almışdır.

Bizim üçün Azərbaycan sürətlə və inamla inkişaf edən, milli dəyərlərinə və imkanlarına arxalanan, dünya birliyinə inteqrasiya edən, ardıcıl və məqsədyönlü siyasət həyata keçirən və bu yolda böyük uğurlar qazanan bir ölkədir.

Müasir Azərbaycan beynəlxalq aləmdə yalnız artmaqda olan nüfuzu və iqtisadi uğurları ilə güclü deyil, ilk növbədə çoxmillətli xalqının birliyi və əlbəttə, zəngin mədəni, intellektual, yaradıcı potensialına görə güclü olub və güclü olaraq qalır. İnanıram ki, Azərbaycanın bütün əhəmiyyətli nailiyyətlərində Azərbaycan xalqının ümummilli lideri, nüfuzu ölkənin hüdudlarından kənarda da tanınan Heydər Əliyevin əvəzsiz rolu olduğunu söyləsəm, hamımızın ümumi fikrini bildirmiş olaram.

Biz Azərbaycanda müxtəlif sahələrdə həyata keçirilən uğurlu dəyişiklikləri və dinamik islahatları səmimi maraq və rəğbətlə izləyirik.

Möhtərəm Prezident, Sizin düşünülmüş və tarazlaşdırılmış siyasətiniz sayəsində Azərbaycan çətin şəraitdə inamla gələcəyini qurur, müstəqilliyinin və dünyada nüfuzunun möhkəmləndirilməsində böyük uğurlar əldə edir. Bu gün Azərbaycan haqlı olaraq, Cənubi Qafqaz regionunda stabilliyi və davamlı inkişafı təmin edən ölkədir.

Biz müsəlman dünyasının nümayəndələri kimi, Dağlıq Qarabağın işğalı nəticəsində çətin sınaqlara və itkilərə məruz qalan azərbaycanlı qardaşlarımızın kədərini bölüşürük. Xoş

haldır ki, müsəlman dövlətlərinin əksəriyyəti Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə, beynəlxalq hüququn prinsiplərinə uyğun və qaçqınların doğma torpaqlarına qaytarılması əsasında həllinin tərəfdarı olmaqla Azərbaycanı dəstəkləyir.

Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan tolerantlığın və sivilizasiyalararası dialoqun bariz nümunəsinə çevrilmişdir. Biz Azərbaycan Respublikasının müsəlman dünyası ilə əlaqələrinin dərinləşməsinə yönəlmiş səylərinin, o cümlədən İslam Konfransı Təşkilatındakı fəal iştirakının şahidiyik. Belə ki, yalnız dostluğu və əməkdaşlığı möhkəmləndirməklə müasir dünyanın çağırışlarına qarşı durmaq olar.

Cənab Prezident, icazə verin bir daha müqəddəs Ramazan ayı və qarşıdan gələn əl-Fitr bayramı münasibətilə Sizə səmimi arzularımı çatdırım və bugünkü görüşə görə təşəkkürümü bildirim. Sizə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram və Allahdan diləyirəm ki, qardaş Azərbaycan xalqına və islam ümmətinə yenilməz qüvvət, tərəqqi və firavanlıq bəxş etsin.

Əssalamü-əleyküm və bərəkətuhu.

**MALTA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CORC ABELAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Malta arasındakı dostluq əlaqələrinin genişlənməsi əməkdaşlığımızın inkişafı üçün yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2010-cu il*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, xalqlarımızın iradəsini əks etdirən dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, dövlətlərarası münasibətlərimizin inkişafı, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2010-cu il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Milli bayramınız – Krallıq elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı möhkəm dostluq və çoxşaxəli əməkdaşlıq münasibətləri daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, Səudiyyə Ərəbistanının qardaş xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2010-cu il*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Meksika arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 sentyabr 2010-cu il*

# DÖVLƏT BAYRAĞI MEYDANININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*1 sentyabr 2010-cu il*

*Sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılışı mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı təntənəli mərasimdə nitq söylədi.*

## Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün ölkəmizdə çox əlamətdar və tarixi bir gündür. Bu gün Bakıda Dövlət Bayrağı Meydanı açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Dövlət Bayrağı Meydanının açılışı həqiqətən tarixi və unudulmaz bir hadisədir. Bu meydan gözəl bir memarlıq abidəsidir. Meydanın üst hissəsinin sahəsi 3 hektara bərabərdir. Bütövlükdə ərazi isə 60 hektardır. Burada Azərbaycanın dövlət rəmzləri – gerbi, himninin mətni, xəritəsi təsvir edilibdir. Dövlət Bayrağı Muzeyi də fəaliyyət göstərəcəkdir. Meydanın ortasında isə Azərbaycanın Dövlət bayrağı ucalacaqdır. Bu

bayraq dünyada ən böyük və ən uca bayraqdır. Bayrağın hündürlüyü 162 metrdir və bu bayraq şəhərimizin hər bir yerindən görünəcəkdir. Məhz bu məqsədlə bu yer seçilmişdir. Bu yer, bu ərazi abadlaşdı. Gələcəkdə burada böyük parklar, dənizkənarı bulvar salınacaq, istirahət üçün gözəl şərait yaradılacaqdır. Artıq bu işlər başlanmışdır. Gələcəkdə burada salınacaq bulvar Bakı bulvarı ilə birləşəcəkdir.

Bayraq meydanının yaradılması üçün çox böyük tikinti, quraşdırma, quruculuq işləri görülmüşdür. Bütün bu işlərin əksər hissəsini Azərbaycan mütəxəssisləri, fəhlələri görmüşlər. Bu onu göstərir ki, bizdə olan güclü potensial hər bir sahədə özünü büruzə verir. Bu gün imkanlarımız o qədər böyüyüb ki, biz istənilən məsələni həll edə, istənilən memarlıq əsərini yarada bilərik. Meydanın yaradılması haqqında Sərəncam mənim tərəfimdən 2007-ci il noyabrın 17-də imzalanmışdır. Ondan dərhal sonra bütün işlər başlanmışdır. O gündən 2 il sonra, 2009-cu il noyabrın 17-də Azərbaycan Dövlət Bayrağı günü təsis edilmişdir.

Bildiyiniz kimi, Azərbaycan bayrağı, bizim üçrəngli bayrağımız 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə təsdiq edilmişdir. Məhz noyabrın 9-u Azərbaycanda bundan sonra hər il Azərbaycan Dövlət Bayrağı günü kimi qeyd olunacaqdır. Hər iki sərəncamın məhz noyabrın 17-də imzalanmasının səbəbi də çox məntiqli və aydındır. Məhz 1990-cı il noyabrın 17-də ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Azərbaycanda Dövlət bayrağı kimi qaldırıldı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda Dövlət bayrağı kimi təsdiq edildi. O vaxtkı Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı və tələb edildi ki, bu bayraq Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilsin.

O vaxt hələ Sovet İttifaqının dağılmasına bir ildən çox vaxt var idi. Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının Dövlət

bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir. O illər hamımızın yadındadır. O illər Azərbaycanın inkişafı, gələcəyi üçün həlledici illər idi. Azərbaycan dövlət müstəqilliyinə qovuşanda ölkədə proseslər çox mənfi istiqamətdə gedirdi. Ölkədə anarxiya, hərc-mərclik hökm sürürdü. Ölkənin inkişaf perspektivləri qeyri-müəyyən idi və Azərbaycan əslində, dövlət müstəqilliyini itirə bilərdi. Azərbaycan xalqının tələbi və müdrikliyi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə dəvət olunması nəticəsində Azərbaycanda bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı və inkişaf dövrü başlandı. Bu inkişaf dövrünün nəticələrini bu gün Azərbaycan vətəndaşları görürlər.

1993–2003-cü illər Azərbaycan üçün həlledici illər olmuşdur. Məhz o illərdə Azərbaycanda iqtisadi, siyasi sabitlik yaranmış, ölkə dünya birliyinə özünü təqdim edə bilmişdir. Biz beynəlxalq təşkilatlara üzv olduq. Azərbaycan bayrağı bütün beynəlxalq təşkilatlarda dalğalanmağa başlamışdır. Azərbaycan xarici tərəfdaşlarla çox uğurlu və qarşılıqlı hörmət əsasında münasibətlər qura bilmişdir. Ölkəmizə böyük həcmdə investisiyanın cəlb olunmasına nail ola bilmişdik. O proseslər bu gün də Azərbaycanın inkişafını təmin edir və onilliklər bundan sonra da Azərbaycanın uğurlu inkişafını müəyyən edəcəkdir. O 10 il ərzində Azərbaycan çox böyük bir yol keçmişdir və demək olar ki, dövlətçiliyin əsasları tam şəkildə qurulmuşdur. Bu gün Azərbaycan möhkəm əsaslar üzərində uğurla inkişaf edir. Ölkə daxilində gedən bütün proseslər müsbət istiqamətdə inkişaf edir.

Azərbaycanda daxili sabitlik, əmin-amanlıq, ictimai-siyasi asayiş uğurlarımızın əsas şərtidir. Biz iqtisadi, siyasi islahatları bu möhkəm əsas üzərində aparırıq. Ölkədə demokratikləşmə prosesləri çox uğurla gedir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilir. Keçən il və bu il dünyada hökm sürən iqtisadi və maliyyə böhranı böyük iz qoymuşdur. Buna baxmayaraq, Azərbaycan bu sınaqdan da şərəflə çıxa bilmişdir.

Ölkə qarşısında duran bütün vəzifələr, müəyyən edilmiş bütün proqramlar icra olunur. Ölkəmizin hər bir yerində quruculuq-abadlıq işləri aparılır, iqtisadi islahatlar davam etdirilir. Bu gün Azərbaycan inkişaf edən ölkədir.

Azərbaycanda iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır. Biz inkişaf etmiş ölkələrin sırasına daxil olmalıyıq və qarşımıza bu məqsəd qoyulubdur. Biz bu məqsədə çatacağıq. Azərbaycan beynəlxalq arenada özünəlayiq yerini tuta bilmişdir. Xarici tərəfdaşlarımızın, dostlarımızın sayı gündən-günə artır. Azərbaycan çox gözəl beynəlxalq imicə malikdir. Bizim bütün xarici siyasətimiz bir məqsədi güdür ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun, Azərbaycan dövləti güclənsin və Azərbaycan xalqı daha da yaxşı yaşasın.

Azərbaycanda görülən işlər nəinki ölkəmizin yaxın gələcəyini müəyyən edəcək, bax, bu gün yaradılan infrastruktur və həyata keçirdiyimiz layihələr on il, iyirmi il, otuz il bundan sonra özünü göstərəcək və Azərbaycan xalqına xidmət edəcəkdir. Bizim uğurlu enerji siyasətimiz Azərbaycanı dünya birliyi qarşısında etibarlı tərəfdaş kimi təqdim etməyə əsas yaratdı. Bu gün bu siyasət ölkə daxilində gedən proseslərə çox müsbət təsir göstərir. Biz, demək olar ki, bu sahədə qarşımızda duran bütün vəzifələri icra etmişik və sadəcə olaraq, əldə edilmiş nailiyyətlər əsasında gələcəkdə yeni layihələrin həllinə çalışırıq.

Biz iqtisadi cəhətdən özümüzü təmin edən ölkəyik. Heç bir xarici yardımdan asılı olmayan ölkəyik. Biz enerji təhlükəsizliyimizi təmin etmişik. Ərzaq təhlükəsizliyimizi təmin edirik və belə olan halda, Azərbaycanın gələcəyi haqqında yalnız bir fikir deyilə bilər: Azərbaycanın gələcəyi indiki vəziyyətindən daha da parlaq olacaqdır. Baxmayaraq ki, bu gün nəinki postsovet məkanında, bölgədə və ümumiyyətlə, ölkələr sırasında biz yüksək yerləri tuturuq, Azərbaycanda insanlar ildən-ilə daha da yaxşı yaşamalıdır. Bu məqsədlə bütün sosial proqramlar icra olunur, maaşlar və pensiyalar vaxtaşırı artırılır,

ölkə iqtisadiyyatının inkişafını təmin etmək üçün bütün tədbirlər görülür.

Bizim təbii ehtiyatlarımız vardır. Bu ehtiyatlar gücümüzü daha da artırır. Artıq böyük maddi imkanlarımız vardır. Biz nəinki xarici yardımdan asılı deyilik, lazım gələndə özümüz də yardım göstəririk. Bu da siyasətimizin yeni istiqamətidir. Bir neçə ildən sonra Azərbaycan beynəlxalq donor ölkəsinə çevriləcəkdir və bu məqsədə çatmaq üçün artıq konkret tədbirlər planı hazırlanır. İqtisadi və sosial sahədə elə məsələ yoxdur ki, Azərbaycanda həll olunmasın. Düzdür, bu gün hələ həllini gözləyən məsələlər çoxdur. Ancaq əsas odur ki, biz bu məsələlərin həlli yollarını bilirik.

Biz hamımız Azərbaycanın gələcəyi haqqında düşünürük və düşünməliyik, ölkəmizin təhlükəsizliyini təmin etməliyik, dinamik və sürətli inkişaf tempini saxlamalıyıq, beynəlxalq aləmdə mövqeyimiz daha da möhkəmlənməlidir. Regionda gedən proseslərdə Azərbaycan çox fəal rol oynayır. Bəzi hallarda həlledici rol oynayır. Bu nəinki bizə, bizimlə dostluq münasibətlərində olanlara da xeyir gətirir. Bu istiqamətdə daha da fəal addımlar atacağıq və beləliklə, ölkəmizin inamlı və uğurlu gələcəyini təmin edəcəyik.

Müstəqilliyimiz ən böyük sərvətimizdir, ən böyük xoşbəxtliyimizdir. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik həsrəti, müstəqillik arzusu ilə yaşamışdır. Uzun illər, onilliklər ərzində biz başqa ölkələrin tərkibində yaşamışdıq, azadlıqdan məhrum olmuşduq. Bu tarixi imkan, tarixi şans bir daha Azərbaycan xalqına 1991-ci ildə verilmişdir. Bayaq qeyd etdiyim kimi, biz o şansı, bu imkanı itirə bilərdik və əgər 1993-cü ildə Azərbaycan xalqı düzgün seçim etməsəydi, çox güman ki, itirəcəkdik. Bu gün isə müstəqilliyimiz artıq dönməzdir, əbədidir. 20 ilə yaxındır ki, müstəqil ölkə kimi yaşayırıq. Bütün çətin sınaqlardan üzüağ, şərəflə çıxmışıq, gözəl, möhkəm ölkə yaratmışıq. O ölkə ki, burada bütün azadlıqlar vardır. Təhlükəsizlik, sosial rifah, iqtisadi inkişaf templəri təmin edilir. O ölkə ki, burada bütün xalqlar, bütün millətlərin, bütün

dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Mehribanlıq, dostluq şəraitində yaşayırlar. O ölkə ki, burada milli-dini dözümlülük yüksək səviyyədədir və bu gün Azərbaycan bu məsələlərdə nümunə kimi göstərilir. Bu ölkəni biz yaratmışıq. Bu gün Azərbaycan öz gücünə arxayın olan, öz gücünə arxalanan, bütün tərəfdaşlar ilə münasibətləri qarşılıqlı hörmət və ehtiram prinsipləri əsasında qurmağa çalışan, dinamik inkişaf edən gənc və eyni zamanda, təcrübəli ölkədir. Azərbaycan artıq böyük bir regional amildir. Sabitlik, təhlükəsizlik və inkişaf amilidir. Bizim bütün təşəbbüslərimiz, irəli sürdüyümüz bütün layihələr səmərə verir, həm bizə, həm bizim tərəfdaşlara xeyir gətirir. O layihələri həyata keçirmək üçün nəinki böyük maliyyə imkanları, həm də güclü iradə, cəsarət və öz siyasətinə sədaqət lazımdır.

Biz bu gün müstəqil ölkə kimi yaşayırıq və böyük qürur hissi ilə yaşayırıq. Biz fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq. Biz müstəqil siyasət aparırıq. Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu, böyük xoşbəxtlikdir, böyük sərvətdir. Bizdən əvvəl nəsillər müstəqillik arzusu ilə yaşayırdı. Ancaq bu müstəqilliyi görmək bizə nəsib olubdur. Bu xoşbəxtlik bizə nəsib olubdur. Biz nəinki bu müstəqilliyi görürük. Biz bu müstəqilliyin möhkəmləndirilməsi üçün işlər görürük, fəaliyyət göstəririk, çalışırıq. Hər bir vətəndaş tutduğu yerindən asılı olmayaraq öz əməyi ilə hər gün ölkəmizi gücləndirməlidir. Öz əməli işlərimizlə, Vətənə sədaqətlə, görülən işlərlə, atılan addımlarla. Bu gün Azərbaycan cəmiyyətində bu həmrəylik, milli həmrəylik, milli səfərbərlik, vətənpərvərlik ruhu vardır. Biz gənc nəsli bu ruhda tərbiyə etməliyik ki, Azərbaycanda gənc nəsil peşəkar, vətənpərvər, Vətənə sadiq olsun. Çünki bütün dövrlərdə Azərbaycanın uğurlu gələcəyini biz təmin etməliyik.

Bir daha demək istəyirəm ki, bu gün atılan addımlar və irəli sürülən təşəbbüslər onilliklərdən sonra özünü göstərəcəkdir. Biz gələcəyə baxmalıyıq, gələcəyi düşünməliyik: 20 il, 50 ildən sonra Azərbaycan hansı yollarla inkişaf edəcəkdir?! Biz

ölkəmizin uğurlu inkişafını hansı resurslar əsasında təmin edəcəyik?! Biz bu barədə düşünürük və görülən bütün işlər həm bugünkü problemlərin həllinə, həm də gələcəyə yönəlibdir.

Bu gün ölkəmizin həyatında bir daha demək istəyirəm ki, tarixi, unudulmaz bir hadisə baş verir. Bu bayraq bizim milli dəyərimizdir. Söhbət ondan getmir ki, bu gün bu bayraq dünyanın ən hündür bayrağıdır. Bəlkə nə vaxtsa, bir neçə ildən sonra başqa yerdə bundan da hündür bayraq qaldıra bilərlər. Məsələ ondadır ki, bu Bayraq Meydanının yaradılması Azərbaycanın gücünü, öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızı göstərir. Əminəm ki, bir neçə aydan sonra ətrafda tikinti-quraşdırma işləri tamamlanandan sonra bu möhtəşəm meydan insanlarla dolu olacaqdır. Necə ki, bu gün bizim parklarda, dənizkənarı bulvarda minlərlə, on minlərlə insan hər gün gəzintiyə çıxır. Bax, bu meydanda, bu bayraq altında, milli rəmzlər ətrafında insanlar yığışacaqlar. Buradan gözəl Bakıya möhtəşəm bir mənzərə açılır, aşağıda gəzinti üçün gözəl yerlər vardır. Yəni Bayraq Meydanı Bakının bir mədəniyyət mərkəzinə, Azərbaycanın bir siyasi mərkəzinə çevriləcəkdir. Ölkəmizin mərkəzi olan Bakı şəhərində belə möhtəşəm meydanın yaradılması doğrudan da böyük hadisədir. Bizim bayrağımız qürur mənbəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan bayrağına! Yaşasın Azərbaycan!

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş terror aktları nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorun bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı mübarizəni hər cür dəstəkləyirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 sentyabr 2010-cu il*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*3 sentyabr 2010-cu il*

*Sentyabrın 3-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Rusiya prezidenti Dmitri Medvedevi və xanımı Svetlana Medvedevanı səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Rusiya prezidentinə raport verdi.*

*Rusiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Rusiya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Dmitri Medvedevə, Rusiya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*3 sentyabr 2010-cu il*

*Sentyabrın 3-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev ilə təkbətək görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Dmitri Anatolyeviç, bir daha Sizi Azərbaycanda salamlamaq istəyirəm. Xoş gəlmisiniz! Biz Sizi görməyə həmişə şadıq.

Bu, görüşmək, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün yaxşı imkandır. Münasibətlərimizin vəziyyəti bizi çox sevindirir. Bizim bir-birimizə tez-tez qonaq getməyimiz münasibətlərimizin yaxşı göstəricisidir.

Münasibətlərimizin gündəliyi çox genişdir. Biz müxtəlif istiqamətlərdə çox səmərəli işləyirik. Münasibətlərimiz səmimiliyi ilə fərqlənir. Bu, mehriban qonşular, dostlar, strateji tərəfdaşlar arasındakı münasibətlərdir.

Əminəm ki, ölkəmizə səfəriniz əlaqələrimizin gələcək inkişafı və uğurla irəliləməyimiz üçün çox əhəmiyyətli olacaqdır. Xüsusən ona görə ki, müzakirə edilməli məsələlər və qəbul edilməli vacib qərarlar vardır.

Bir daha Sizi ürəkdən salamlayıram. Xoş gəlmisiniz!

**D m i t r i M e d v e d e v:** İlham Heydər oğlu, çox sağ olun! Xoş sözlərə, nümayəndə heyətimizin artıq dünən hiss etdiyi qonaqpərvərliyə görə çox sağ olun!

Həqiqətən, münasibətlərimiz mehriban qonşuluq, dostluq və strateji münasibətlərdir. Ümidvaram ki, bu səfər zamanı cari məsələləri, ikitərəfli münasibətlərimizi, regional gündəliyi, beynəlxalq məsələləri müzakirə edə biləcək və əlbəttə, Sizinlə yetərincə uzun müddət müzakirə etdiyimiz və komandalarımızın üzərində işlədikləri çox mühüm sənədləri imzalayacağıq. Odur ki, bu gün bu baxımdan çox əhəmiyyətli gündür.

Gələcəklə bağlı mən tamamilə razıyam ki, bizim həm burada – Azərbaycanda, həm Rusiya Federasiyasında, həm də digər yerlərdə, müxtəlif sammitlərdə müntəzəm görüşməyimiz, ünsiyyətdə olmağımız uzun illər üçün sıx, möhkəm dostluq münasibətlərinin təminatıdır. Biz Rusiya–Azərbaycan münasibətlərini belə görürük.

## AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*3 sentyabr 2010-cu il*

*Sentyabrın 3-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha ürəkdən salamlamaq istəyirəm. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk.

Əminəm ki, bu səfərin çox yaxşı nəticələri olacaqdır. Biz dünən də, bu gün də münasibətlərimizin çox geniş əhatə dairəsi barədə Sizinlə hərtərəfli fikir mübadiləsi apardıq, ikitərəfli xarakter daşıyan bütün məsələləri, regional problemləri ətraflı nəzərdən keçirdik.

Görürəm, Siz bir daha yəqin etdiniz ki, münasibətlərimiz təkcə ölkələrimiz üçün deyil, həm də regionda cərəyan edən proseslər üçün vacibdir. Mən çox şadam ki, Sizinlə bərabər bu cür nüfuzlu nümayəndə heyəti – Rusiya Federasiyasının müxtəlif səviyyəli rəhbərləri gəlmişdir.

Bu münasibətlər bizim üçün çox əhəmiyyətli, çox qiymətlidir. Bu, strateji tərəfdaşlıq münasibətləri, dostlar arasında münasibətlərdir. Əminəm ki, bu səfərin çox yaxşı nəticələri olacaq, imzalayacağımız sənədlər isə münasibətlərimizin daha da inkişaf etməsi üçün çox möhkəm baza yaradacaqdır.

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Xoş gəlmisiniz!

**D m i t r i M e d v e d e v:** Bir daha sağ olun, hörmətli İlham Heydər oğlu, hörmətli azərbaycanlı həmkarlar!

Həqiqətən, biz sizinlə məhdud tərkibdə çox geniş fikir mübadiləsi apardıq. Bu çox faydalı oldu.

Qeyd etmək istərdim ki, bu yeni məkan danışıqlar aparılması üçün çox rahat, çox münasibdir. Belə ki, Azərbaycan tərəfi danışıqların səmərəli keçməsi üçün hər cür şərait yaratmış və bunu çox gözəl etmişdir.

Mənə belə gəlir ki, ənənəyə görə bizim hökumətlərarası komissiyaların məşğul olduğu bəzi iqtisadi məsələləri indi geniş tərkibdə müzakirə etmək olar, həmin komissiyaların rəhbərləri buradadırlar.

Regional təhlükəsizliyin təmin edilməsi məsələləri ilə yanaşı, əməkdaşlığımızın iqtisadi komponentinə daha artıq diqqət yetirmək olar. Keçən il böhranla əlaqədar, bizim ticarət dövriyyəsi üçün o qədər də sadə il olmamışdır – ticarət dövriyyəsi azalmışdır.

Bu il müsbət meyillər var, lakin, əlbəttə, həmin meyilləri möhkəmlətmək üçün biz lazım olan hər işi görməliyik. Yeni layihələrə başlamaq, yeni təmas nöqtələri tapmaq barədə fikirləşməliyik. Yeri gəlmişkən, Sizinlə təkbətək görüş zamanı biz bəzi ideyaları müzakirə etdik. Zənnimcə, indi həmin ideyaları həmkarlarımızla da bölüşmək olar.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*3 sentyabr 2010-cu il*

*Sentyabrın 3-də Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Rusiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Dmitri Medvedev «Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqavilə»ni imzaladılar.*

*«Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Rusiyanın «Qazprom» Məhdud Məsuliyyətli Cəmiyyəti arasında təbii qazın alqı-satqısı üzrə müqaviləyə 4 saylı əlavə Saziş»i Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və «Qazprom» Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyətinin sədri Aleksey Miller imzaladılar.*

*«Azərbaycan və Rusiya hökumətləri arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi haqqında Saziş»i Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov və Rusiyanın Təbii Ehtiyatlar və Ekologiya naziri Yuri Trutnev imzaladılar.*

*«Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin keçid xəttinin izahatı haqqında Sənəd»i Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov imzaladılar.*

## AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*3 sentyabr 2010-cu il*

*Sentyabrın 3-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Rusiya prezidenti Dmitri Medvedevin mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlərin tarixində çox əlamətdar gündür. Bu gün siyasi və iqtisadi xarakterli mühüm sənədlər – dövlət sərhədi haqqında, sərhədyanı Samur çayının su ehtiyatlarının bölünməsi və onlardan səmərəli istifadə edilməsi haqqında müqavilələr, habelə qaz sahəsində əməkdaşlıq sferasında kontrakta əlavə imzalanmışdır. Əminəm ki, onlar bizim münasibətlərin inkişafının çox mühüm istiqamətlərini uzun illər, qarşıdakı onilliklər üçün müəyyən edəcəkdir. Bütün bunlar bizim münasibətlərin dinamik və səmərəli inkişafının əyani göstəricisidir.

Biz münasibətlərimizi strateji tərəfdaşlar arasında, qonşular və mehriban dostlar arasında münasibətlər kimi səciyyələndiririk. Rusiya prezidentinin bugünkü səfəri, imzalanmış sənədlər, habelə apardığımız fikir mübadiləsi və danışıqlar bizim münasibətlərin dinamik, səmərəli və müsbət inkişafına əyani sübutdur. Biz bu münasibətləri çox yüksək

qiymətləndiririk. Əminəm ki, bütün istiqamətlər üzrə əlaqələrimizin gələcək inkişafı da bu günə qədər əldə edilənlər kimi səmərəli olacaqdır.

Ölkələrimiz arasında çox sıx siyasi qarşılıqlı əlaqə vardır, çox tez-tez görüşürük, əlaqə saxlayırıq. Rusiya kimi böyük bir dövlətin prezidentinin son üç ildə Azərbaycana üçüncü dəfə səfər etməsini xüsusi qiymətləndiririk. Mən də tez-tez Rusiyaya – Moskvaya və başqa şəhərlərə səfərlər edirəm. Bu bir-birimizə olan qarşılıqlı marağa, eləcə də bizim münasibətlərin mövzusunun çox geniş olmasına dəlalət edir.

Bizim münasibətlər ayrıca bir sahədə əməkdaşlıqla məhdudlaşmır. Bu münasibətlər çoxşaxəlidir – siyasi əlaqələri, iqtisadi kooperasiyanı, müştərək layihələri əhatə edir. Energetika sahəsində, neft-qaz əməliyyatlarında, elektrik enerjisi satışı, nəqliyyat sahəsində əməkdaşlıq böyük bir blok təşkil edir. Biz regional və dünya miqyaslı layihələr üzərində birgə işləyirik. Şimal–Cənub nəqliyyat dəhlizi artıq bu gün öz potensialını göstərir və hazırda Rusiya və Azərbaycan həmin dəhlizin çox mühüm tərkib hissələridir. Biz Xəzərdə əməkdaşlıq edirik. Biz Qafqaz regionunda təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində əməkdaşlıq edirik. Ölkələrimiz arasında hərbi-texniki və humanitar sahələrdə əməkdaşlıq fəal inkişaf edir. Bu istiqamətlərin hər biri barəsində konkret faktlar və konkret layihələr əsasında çox danışmaq olar.

Dünən mən Rusiya prezidentinin şərəfinə təntənəli ziyafət zamanı qeyd etdim ki, biz humanitar sahədə əməkdaşlığa xüsusi diqqət yetiririk. Bu sahədə bizim çox yaxşı nəticələrimiz vardır. Bu gün ikitərəfli əməkdaşlığımız artıq ikitərəfli formatı aşır və beynəlxalq humanitar layihəyə çevrilir. Bu il humanitar əməkdaşlıq sahəsində Bakıda keçirilən Rusiya–Azərbaycan forumunun müsbət təcrübəsi artıq yaxşı nəticələr verir. Biz bu gün razılığa gəldik ki, Rusiya və Azərbaycanın himayəsi altında keçirilən bu forum gələn il artıq beynəlxalq statusa malik olacaqdır. Beləliklə, humanitar sahədə əməkdaşlığımız artıq bu gün ikitərəfli formatı aşır və gələcəkdə bu sahədə əməkdaşlıqda

marağı olan ölkələrin və xalqların yaxınlaşması işinə xidmət edəcəkdir. Biz Azərbaycanda buna maraqlıyıq. Biz istəyirik ki, ölkəmizdə bütün xalqların nümayəndələri gələcəkdə də indiki kimi sülh, dostluq, qardaşlıq şəraitində yaşasınlar. Biz çox sevinirik ki, ölkələrimiz arasında humanitar əməkdaşlıq konkret real layihələrlə zənginləşir.

Başqa sözlə desək, münasibətlərimiz olduqca çoxşaxəli, çoxtərəflidir, praktiki olaraq bütün sahələri əhatə edir. Ən başlıcası isə bu gün dövlət sərhədi haqqında müqavilə imzalandıqdan sonra münasibətlərimizdə həll edilməmiş hər hansı məsələ qalmır. Həmin müqavilənin bu gün Bakıda bu cür təntənəli şəraitdə imzalanması münasibətlərimizin, niyyətlərimizin səmimiliyinə daha bir sübutdur. Bu müqavilə ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm mərhələdir. Energetika sahəsində də konkret addımlar nəzərdə tutulmuşdur.

Mən ilk növbədə, Rusiya prezidenti Dmitri Anatolyeviç Medvedevə ölkəmizə səfər etdiyinə, bugünkü razılaşmalara gətirib çıxarmış müştərək işə görə bir daha təşəkkür etmək və əmin olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında münasibətlər gələcəkdə də dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq ruhunda inkişaf edəcəkdir.

## Rusiya prezidenti Dmitri Medvedevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli həmkarlar!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Bu gün müstəqil dövlətlər olan Rusiya ilə Azərbaycanın münasibətləri tarixində həqiqətən çox əlamətdar gündür. Bu gün biz ölkələrimiz arasında mövcud olan mürəkkəb məsələlərdən sonuncusunu qapadıq. Azərbaycan üçün bu, sərhədin müəyyən edilməsi barədə ilk saziş, ilk müqavilədir. Ona görə də bu, gələcək münasibətlərimiz üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan prezidenti indicə bu münasibətləri iki strateji

tərəfdaşın səmimi dostluq münasibətləri kimi səciyyələndirdi. Təbii ki, mən bu fikrə tamamilə şərikəm. Münasibətlərimizin mahiyyətini kooperasiyamızın praktiki olaraq bütün sahələrində izləmək mümkündür. İndi mən həm iqtisadi əlaqələr barədə, həm təhlükəsizlik mövzularına dair əməkdaşlıq, regional, humanitar əlaqələr barədə danışa bilərdim. Lakin mən bu münasibətlərin xüsusi xarakterini hər şeydən yaxşı səciyyələndirən cəmi bir misal gətirəcəyəm.

Bildiyiniz kimi, bu il Rusiya Federasiyasına fəlakət üz vermişdir. Çoxlu yaşayış məntəqəsi yanmış, insanlar zərər çəkmiş, həlak olmuş, çoxlu evi alov bürümüşdü. Bu məqamda azərbaycanlı həmkarlarımız da bizə dost əlini uzatmış, bizim bir sıra yaşayış məntəqələrində yanğınların söndürülməsində iştirak etmişlər. Bu həqiqətən çox vacibdir. Xüsusən ona görə ki, bu cür fəlakətlər, adətən, gözlənilmədən baş verir və çox vaxt sürəkli xarakter daşıyır. Hətta payızda da yanğınlar tüğyan edir. Dünən bizim iki vilayət yanğından zərər çəkmişdir, yaşayış məntəqələrinə, insanlara ziyan dəymişdir. Əlbəttə, biz bunların hamısını hökmən bərpa edəcəyik. Lakin bu cür çətin şəraitdə – hətta inkişaf etmiş iqtisadi potensiala malik olan Rusiya kimi böyük ölkə də çətin vəziyyətə düşə bilər – yaxın dostlar kömək əlini uzadır. İlham Heydər oğlu, görülmüş işlərə görə bir daha çox sağ olun.

O ki qaldı gələcəyə, düşünürəm ki, gələcəyimiz çox yaxşı olacaqdır. Bizim çox perspektivli layihələrimiz vardır. Bu gün sərhədyanı Samur çayının su ehtiyatlarından birgə istifadə edilməsi barədə də müqavilə imzalanmışdır. Bu ehtiyatlar bizim müştərək sərvətimizdir və biz onlardan daha yaxşı istifadə etməyin yolları barədə fikirləşməliyik.

Energetika sahəsində əməkdaşlıq, əlbəttə, ən mühüm istiqamətdir. Lakin bu, yeganə istiqamət deyildir. Biz razılığa gəldik ki, bu məsələyə bəlkə də ayrıca bir görüş, dövlət başçılarının ayrıca bir zirvə toplantısını həsr etmək, bütün istiqamətlərdə vəziyyəti ölçüb-biçmək lazımdır. Xüsusən ona görə ki, artıq əlaqələr vardır. Bu əlaqələr, o cümlədən qaz

sferasında əməkdaşlıq sahəsində kifayət qədər fəal inkişaf etməyə başlamışdır. Neft, ticarət, elektrik energetikası sahələrində əməkdaşlıq da elə istiqamətlərdir ki, biz onlara həqiqətən daha artıq diqqət yetiririk.

Regional məsələlər həmişə gündəlikdədir. Biz bu barədə çox danışmışıq. Təbii ki, təhlükəsizliyin təmin edilməsi məsələləri barədə danışmışıq. Lakin ümid edirəm ki, mətbuat konfransının gedişində bu cür suallar veriləcəkdir. Zənnimcə, bu maraqlıdır. İndi təfərrüata varmayacağam.

Biz son zamanlar daha bir ümumi məkanda əldə edilmiş müsbət nə varsa hamısını qoruyub saxlamağın zəruri olmasından danışdıq. Bu, Xəzər məkanıdır. Ümid edirəm ki, irəlidə bu əməkdaşlığı dərinləşdirmək üçün imkanımız olacaqdır.

Humanitar sahə çox vacibdir. İndicə ikonaların verilməsi kimi rəmzi bir akt baş tutdu. Həmin ikonalar Azərbaycan ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilmişdir. Çox yaxşı haldır ki, bizim hüquq mühafizə idarələri arasında bu cür əməkdaşlıq inkişaf edir. Onu demək istərdim ki, Rusiyaya məxsus təbərrüklərin verilməsinə görə Azərbaycan tərəfinə bir daha təşəkkürümüzü bildiririk. Bu, dost jestidir və təbii ki, biz onu müvafiq şəkildə qiymətləndiririk.

Təhsil sahəsində mütəxəssislər, mədəniyyət xadimləri arasında ünsiyyəti davam etdirmək lazımdır. Məhz bu səbəbdən bu gün Azərbaycan prezidentinin irəli sürdüyü təşəbbüsü – Azərbaycanda keçirilən foruma beynəlxalq xarakter vermək təşəbbüsünü mən tamamilə bəyənirəm. Mənə belə gəlir ki, bura həm ikitərəfli humanitar məsələlərin, həmçinin siyasi əlaqələrin inkişafı məsələlərinin müzakirəsi üçün, həm də beynəlxalq miqyasda yaxşı məkandır. Xüsusən ona görə ki, bu işdə marağı olan tərəflər vardır – bizim qonşularımız da bu forumda iştirak etməyə hazırdırlar.

Beləliklə, bu həqiqətən əlamətdar səfərdir. Həm formal baxımdan əlamətdardır, çünki ölkələrimiz arasında qarşıdakı onilliklər üçün əməkdaşlığın təməlini yaradan çox mühüm

sənəd imzalanmışdır. Həm də qeyri-formal mənada, şəxsi ünsiyyət baxımından əlamətdardır, çünki bu cür ünsiyyət olmadan mehriban münasibətləri inkişaf etdirmək mümkün deyildir. Biz çox görüşüb, ünsiyyət saxlayırıq. Çox mehriban yoldaşlıq münasibətlərimiz vardır, ümid edirəm ki, bundan sonra da belə olacaqdır.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Bu gün imzalanan əlavə sazişə görə, «Qazprom»un gələn il alacağı Azərbaycan qazının həcmi artırılmışdır. Azərbaycan qazı Nabukko boru kəmərinin başlıca doldurucusu kimi nəzərdən keçirilir. Nabukko isə «Cənub axını»nın bilavasitə rəqibidir. Bu iki məqam bir-biri üçün ziddiyyət təşkil etmirmi? Bir tərəfdən, qaz sahəsində Rusiya–Azərbaycan münasibətləri möhkəmlənir, digər tərəfdən isə Azərbaycan rəqib layihədə iştirakdan imtina etmir. Ümumiyyətlə, qaz bütün layihələrə kifayət edəcəkmi? Sualım hər iki prezidentədir.**

**D m i t r i M e d v e d e v**: Bilirsiniz, biz iqtisadi maraqlarımıza diqqətlə yanaşmalıyıq. Biz anlamalıyıq ki, hər iki tərəfin mənafeləri mövcuddur. Bu maraqlar praqmatik xarakter daşıyır. Biz burada pul qazanırıq. Bu, normal haldır. İmkanlarımızı arzularımızla uyğunlaşdırmalıyıq. Bu birincisi.

İkincisi, bu gün biz Azərbaycan prezidenti ilə söhbət zamanı dedik ki, biz regionda sanballı oyunçularıq və maraqlarımız çox halda üst-üstə düşür. Çünki ölkələrimiz enerji ehtiyatlarının istehsalçıları və ixracçılarıdır. Buna görə də biz bir tərəfdən, razılığa gəlməliyik, digər tərəfdən isə kooperativləşməliyik. Həmkarlarımızın imzaladıqları qaz ticarətinin genişləndirilməsi haqqında müvafiq sənədlər bunu nümayiş etdirdi.

Üçüncüsü, ən müxtəlif layihələr mövcuddur. Burada Rusiyanın mövqeyi həmişə elə olmuşdur ki, biz hər hansı

layihələrə mane ola bilmərik və olmamalıyıq. Mənə elə gəlir ki, biz sadəcə, əməkdaşlığın ən maraqlı sahələrini ayırmalı, birgə layihələrin cəlbediciliyini nümayiş etdirməliyik. Gələcək layihələrə gəldikdə isə qoy mənfəət gətirən, tərəfdaşlarımız üçün maraqlı layihələr qalib gəlsin. Heç kim heç kimi heç nəyə vadar etmir. İqtisadi cəhətdən səmərəli layihələr olmalıdır. Gələcək üçün enerji sahəsində münasibətlər qurarkən mən buna əsaslanardım.

**İ l h a m  Ə l i y e v**: Mən də öz növbəmdə demək istəyirəm ki, Azərbaycan artıq 2007-ci ildən öz qazını beynəlxalq bazarlara çıxarır və Azərbaycanda hasil edilən qazın həcmi ilbəil artır. Ehtiyatlarımız yetərincə çoxdur. Azərbaycanda yalnız təsdiq edilmiş qaz ehtiyatı 2 trilyon kubmetrdən çoxdur. Potensialı isə biz real şəkildə təxminən 5 trilyon kubmetr həcmində qiymətləndiririk.

Buna görə də qaz bizə bir çox onilliklər kifayət edəcəkdir. Qaz sahəsində əməkdaşlığımız açıq və səmimi xarakter daşıyır. Biz bu sahəyə dostlarımız və tərəfdaşlarımızla münasibətlərimizi möhkəmləndirmək imkanı kimi baxırıq. Rusiya ilə bu sahədə əməkdaşlığımıza gəldikdə isə, bildiyiniz kimi, bu əməkdaşlıq nisbətən yaxınlarda başlanmışdır. Birinci sənədlər yalnız ötən il imzalanmışdır, lakin artıq qısa vaxt kəsiyində biz bu gün imzaladığımız müqavilə ilə Azərbaycan qazının Rusiyaya ixracının həcmini mahiyyətcə 4 dəfə artırırıq. Bu, böyük gələcəyi olan qarşılıqlı surətdə faydalı layihədir. Layihənin əhəmiyyətli üstünlüklərindən biri də budur ki, Azərbaycan ilə Rusiya arasında tranzit ölkə yoxdur. Biz qonşuyuq və bizi hazırda genişlənən qaz kəməri sistemi birləşdirir. Bizim tərəfimizdən Azərbaycan qazının Rusiyaya nəqli imkanlarının genişləndirilməsinə sərmayələr qoyulur.

Xatırlatdığınız başqa layihələrə və rəqabətə gəldikdə isə, biz qaz sahəsində fəaliyyətimizi hansısa əsaslandırılmamış rəqabət imkanı kimi nəzərdən keçirməmişik. Bu halda biz siyasi motivlərə deyil, yalnız iqtisadi və praktiki motivlərə əsaslanırıq. Bu gün Rusiya və Azərbaycan şirkətləri arasında qaz sahəsində

mövcud olan şərtlər bizi razı salır və mən ümid edirəm ki, Rusiya tərəfini də qane edir. Buna görə də əgər bütün maraqlı tərəflər buna məhz iqtisadi məqsədyönlülük nöqteyi-nəzərindən baxsalar və bu layihələrin süni şəkildə siyasiləşdirilməsi minimum səviyyəyə endirilsə, əminəm ki, bütün maraqlı tərəflərin mənafeləri nəzərə alınacaqdır. Bir daha demək istəyirəm ki, biz Rusiya ilə energetika sahəsində ikitərəfli əməkdaşlığımızı uzunmüddətli və strateji əməkdaşlıq kimi nəzərdən keçiririk və bu, təkcə qaz sahəsini əhatə etmir. Bu həm neft, həm də elektroenergetika sahələrinə aiddir. Gələcəkdə qarşılıqlı razılığa gəlsək, biz bütün energetika komponentləri üzrə Rusiyaya təbii ehtiyatların ixracını artırmaq niyyətindəyik.

**S u a l: Hörmətli Rusiya Prezidenti! Azərbaycan ictimaiyyəti Sizin Ermənistana bu yaxınlardakı səfərinizə və orada Gümrüdəki Rusiya hərbi bazası ilə bağlı müqaviləyə dəyişikliklər haqqında imzalanmış protokola böyük maraq göstərir. Bu da aydın məsələdir. Siz bunu necə şərh edərdiniz?**

**D m i t r i M e d v e d e v**: Çox sağ olun. Gizlətməyəcəyəm, biz Azərbaycan prezidenti İlham Heydər oğlu ilə bu mövzunu müzakirə etmişik. Şübhəsiz ki, Rusiya üçün burada, Qafqazda sabitliyin qorunub saxlanması çox vacibdir. Rusiya Qafqaz ölkəsi, Xəzəryanı ölkədir. Biz ən yaxın qonşumuz və dostumuz Azərbaycan ilə münasibətlər quranda məhz buna əsaslanırıq.

Buna görə burada sülh və asayiş olması hamımızın marağına uyğundur. Mənim Ermənistana səfərim zamanı qəbul edilmiş qərara, yəni Ermənistanda Rusiyanın hərbi bazasının olması haqqında müvafiq sazişin qüvvədə olması müddətinin artırılması məsələsinə də məhz bu mövqedən baxmaq lazımdır. Burada hər hansı gizli və ya başqa mülahizələr yoxdur. Həmin baza sülhü və asayişi təmin etməyə, sabitliyi qoruyub saxlamağa, bu gün mövcud olan bütün mürəkkəbliklərin azalmasına xidmət edir və bağlanmış saziş çərçivəsində imkanlarımızı və səlahiyyətlərimizi həyata keçirərkən biz məhz

bu mövqedən çıxış edəcəyik. Sazişdə heç bir prinsipial yenilik yoxdur, onun yalnız bir mənası var: həmin bazanın orada olacağı illərin sayı müəyyən qədər artırılır. Bütün imkanları burada – Qafqazda, Cənubi Qafqazda ümumi vəziyyətin sağlamlaşdırılmasına yönəldəcəyik. Mən öz tabeliyimdə olanlara – həmin bazanın təminatı məsələləri ilə məşğul olan müvafiq nazirliklərin, idarələrin rəhbərlərinə də məhz bu cür təlimatlar verəcəyəm.

Biz Azərbaycan prezidenti ilə bu barədə kifayət qədər ətraflı danışmışıq. Biz gələcəkdə də burada, bizim regionda təhlükəsizliyin təmin edilməsinə aid bütün məsələlər barədə fəaliyyətimizi, fikir mübadiləsini sıx əlaqələndirəcəyik.

**S u a l: Cənab Əliyev, Siz dediniz ki, Xəzəryanı problemlər həmişə Sizin diqqət mərkəzinizdədir. Xahiş edirəm deyin, Xəzəryanı dövlətlərin Tehran sammitində növbəti zirvə görüşünün Bakıda keçirilməsi haqqında qəbul edilmiş qərarın reallaşdırılması hansı mərhələdədir? Bu sammitin Bakıda çağırılmasına hər hansı maneələr varmı?**

**İ l h a m Ə l i y e v**: Biz həmin məsələni bu gün Dmitri Anatolyeviçlə müzakirə etmişik, sammitin Bakıda keçirilməsinə heç bir maneə yoxdur. Xəzər dənizinin delimitasiyası ilə əlaqədar məsələnin tənzimlənməsi barədə mövqelərimiz üst-üstə düşür. Bildiyiniz kimi, bizim milli sektorların ölkələrimiz arasında bölünməsi barədə müvafiq saziş imzalanmışdır. Hesab edirik ki, bu çox yaxşı formatdır və Xəzər dənizinin statusu ilə bağlı məsələnin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün möhkəm zəmin ola bilər.

Bu gün biz sammitin keçirilməsinin təxmini vaxtını da müzakirə etmişik və tərəfdaşlarımızla, Xəzəryanı bölgədəki qonşularımızla müvafiq məsləhətləşmələrdən sonra həmin vaxtı konkret müəyyən edəcəyik. Bildiyimə görə, bizim başa düşdüyümüz mənada məqsəd həmin sammitin keçirilməsini 2011-ci ilə təxirə salmamaqdan, onu ən yaxın aylarda, 2010-cu ildə Bakıda keçirməkdən ibarətdir.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Məlum olduğu kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsi regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün çox böyük əngəl yaradır. Siz bu məsələnin tənzimlənməsinin perspektivlərini necə təsəvvür edirsiniz?**

**İ l h a m Ə l i y e v**: Bizim fikrimizcə, bu məsələ ən tez bir vaxtda tənzimlənməlidir. Çünki danışıqlar prosesi artıq neçə illərdir ki, davam edir. 1992-ci ildə bu məsələ ilə məşğul olan Minsk qrupu yaradılmışdır. 1994-cü ildən atəşkəs haqqında saziş bağlanmışdır. O vaxtdan atəşkəs rejimi mövcuddur. Lakin bu illər ərzində münaqişənin tammiqyaslı tənzimlənməsinə təəssüf ki, nail ola bilməmişik. Azərbaycan əraziləri işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yeridilmiş, nəticədə Dağlıq Qarabağdan və Dağlıq Qarabağın ətrafındakı yeddi rayonun ərazisindən yüz minlərlə azərbaycanlı qovulmuşdur.

Beynəlxalq təşkilatların qətnamələri mövcuddur. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Həmin sənədlərdə işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması haqqında tələblər irəli sürülür. ATƏT-in Lissabon sammitinin qərarları, digər beynəlxalq təşkilatların qətnamələri mövcuddur. Münaqişə həmin qərarlar və qətnamələr əsasında, beynəlxalq hüququn normaları və prinsipləri əsasında tənzimlənməlidir. Bu, Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin Moskvada imzalanmış Birgə Bəyannaməsində də əks olunmuşdur.

Ərazi bütövlüyü prinsipinin xalqların öz müqəddəratını təyin etmək hüququ ilə əlaqələndirilməsi məsələsi, bizim fikrimizcə, həll edilə bilməyən məsələ deyildir. Xalqın təyini-müqəddərat hüququ ölkələrin ərazi bütövlüyünün pozulmasını nəzərdə tutmamalıdır və ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həyata keçirilə bilər. Biz hesab edirik ki, məsələnin məhz beynəlxalq hüququn norma və prinsipləri, beynəlxalq

təşkilatların qətnamələri əsasında həllini tapmaq lazımdır. Azərbaycan torpaqlarının işğal edilməsinə son qoymaq, yüz minlərlə məcburi köçkünün öz əzəli torpaqlarına qayıtmasına və sülh şəraitində yaşamasına imkan yaratmaq lazımdır.

Mən sizin sualınızdan istifadə edərək, Rusiya prezidentinə bu prosesdə fəal iştirakına görə təşəkkür etmək istəyirəm. Dmitri Anatolyeviçin təşəbbüsü ilə Rusiya, Azərbaycan və Ermənistan prezidentləri arasında altı görüş keçirilmişdir. Bu fakt özlüyündə misilsiz xarakter daşıyır.

Dmitri Anatolyeviçin iştirakı ilə tərəflərin yaxınlaşdırılması işində çox mühüm addımlar atılmışdır. Mən Rusiya prezidentinə təşəkkür etmək və ümidvar olduğumu bildirmək istəyirəm ki, gələcəkdə də bu istiqamətdə səy göstərəcəkdir. Mən inanıram ki, Rusiya prezidentinin şəxsi iştirakı çox müsbət rol oynayır və onun iştirakı ilə aparılan danışıqlar daha səmərəlidir.

**D m i t r i  M e d v e d e v**: Son illər Azərbaycan və Ermənistan prezidentləri arasında Rusiya prezidentinin iştirakı ilə görüşlərin sayı hədsiz çox olmuşdur. Bu yaxınlarda mən həmin mövzuda danışmışam. Bu, dərin, düşünülmüş müzakirələrdir və biz belə prosesdə yetərincə çətinliklər olduğunu anlayırıq. Danışıqlar davam edir və düşünürəm ki, əlaqələrin intensivliyi azalmamalıdır. Rusiya Minsk qrupu çərçivəsində vəzifələrini, həm də bu mövzuda ünsiyyəti davam etdirən qonşu ölkə kimi, mənəvi vəzifələrini yerinə yetirməyə hazırdır. Ümidvaram ki, ölkələrimizin xarici siyasət idarələrinin iştirakı və şəxsən bizim iştirakımızla bu cür məsləhətləşmələr davam etdiriləcəkdir.

Rusiya öz vəzifələrini hökmən yerinə yetirəcək və zəruri nəticənin əldə edilməsinə hərtərəfli kömək göstərəcəkdir.

# RUSİYADAN ÖLKƏMİZƏ QANUNSUZ GƏTİRİLMİŞ İKONALAR VƏ İNCƏSƏNƏT ƏSƏRLƏRİNİN PREZİDENT DMİTRİ MEDVEDEVƏ TƏQDİMETMƏ MƏRASİMİ

*3 sentyabr 2010-cu il*

*Sentyabrın 3-də Azərbaycan prezidenti İlham Əliyev Rusiyadan ölkəmizə qanunsuz gətirilmiş ikonaları və incəsənət əsərlərini prezident Dmitri Medvedevə təqdim etmişdir.*

**İ l h a m Ə l i y e v:** Bu ikonaları Sizə təqdim etmək istəyirəm. Rusiyadan qanunsuz çıxarılmasına cəhd göstərilmiş bu əsərləri Azərbaycan–Rusiya sərhədində bizim gömrük xidmətlərimiz aşkar və müsadirə etmişlər. Onları sərhəddən keçirmək istəyənlər isə məsuliyyətə cəlb olunmuşlar. Bu gün rus xalqının bu incəsənət əsərlərini Sizə – Rusiya prezidentinə təqdim edirəm. Onlar Sizin ölkənizdə saxlanılmalıdır.

**D m i t r i M e d v e d e v:** Çox sağ olun. Bu həqiqətən, əsl dost hərəkətidir. Rusiya üçün ikiqat xoşdur ki, Azərbaycan bir tərəfdən, cinayətkarları yaxalamışdır, digər tərəfdən isə bu əsərlər evə qayıdır. Biz hamımız bunu yüksək dəyərləndiririk. Bu həqiqətən, əsl dostluq jestidir.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*3 sentyabr 2010-cu il*

*Sentyabrın 3-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizə rəsmi səfərə gələn Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və xanımı Svetlana Medvedevanın şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli Svetlana Vladimirovna!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

Dmitri Anatolyeviç, Sizi və nümayəndə heyətinizi Azərbaycanda səmimi-qəlbdən salamlayıram. Sizin səfərinizə çox şadıq. Biz çox şadıq ki, son vaxtlar bu, Rusiya prezidentinin Azərbaycana artıq üçüncü səfəridir. Mən də Rusiyada çox tez-tez oluram. Münasibətlərimizin bu cür dinamik inkişafı ölkələrimizin necə sıx qarşılıqlı fəaliyyət göstərməsinin əyani sübutudur. İkitərəfli məsələləri, regional problemləri müzakirə etmək, yetərincə geniş, bir çox sahələri əhatə edən münasibətlərimizin gündəliyinə nəzər salmaq üçün həmişə yaxşı səbəb vardır.

Münasibətlərimiz çox möhkəmdir, onlar xalqlarımızın çoxəsrlik dostluğuna əsaslanır. Bu bizim üzərində dostluq, bərabərhüquqlu qonşuluq münasibətlərimizi qurduğumuz

möhkəm təməldir. Biz çox fəal siyasi dialoq aparırıq. Biz regional məsələlərdə fəal qarşılıqlı fəaliyyət göstəririk. Demək olar ki, regional xarakterli bütün məsələlərə dair baxışlarımız üst-üstə düşür, biz vahid mövqedən çıxış edirik.

Sizin səfəriniz çərçivəsində, hörmətli Dmitri Anatolyeviç, siyasi və iqtisadi xarakterli mühüm sənədlər imzalanacaqdır. Onlar gələcəkdə münasibətlərimizin möhkəmlənməsinə və bütün istiqamətlərdə inkişafına xidmət edəcəkdir. Biz çox şadıq ki, bu il iqtisadiyyatda böhranlı 2009-cu ilin mənfi meyillərini düzəldə bildik. Biz əmtəə dövriyyəsinin artmasını müşahidə edirik. Əminəm ki, artım davamlı olacaq və ona gətirib çıxaracaqdır ki, iqtisadi münasibətlərimiz çox keyfiyyətli və çoxplanlı olacaqdır. Əmtəə dövriyyəsinin strukturu yaxşılaşır və bu gün biz qarşılıqlı ticarətin birmənalı şəkildə böyük artımına səbəb olacaq layihələr üzərində işləyirik.

Biz təhlükəsizlik, regional əməkdaşlıq məsələlərində birgə fəaliyyət göstəririk. Biz dənizdə də, quruda da qonşuyuq. Rusiya və Azərbaycan iki Xəzəryanı ölkədir, iki Qafqaz ölkəsidir. Əlbəttə, regionumuzda baş verənlər bizi narahat edir və həyəcanlandırır. Biz regionumuzda potensial və mövcud riskləri azaltmaq üçün çox fəal və səmərəli işləyirik.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması da gündəliyimizin ayrılmaz hissəsidir. Mən, Dmitri Anatolyeviç, bu prosesdə fəal iştirakınıza görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Sizin iştirakınızla Azərbaycan və Ermənistan rəhbərlərinin artıq altı görüşü keçirilmişdir. Moskvada münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, qətnamələr və beynəlxalq təşkilatların qərarları əsasında həllini müəyyən edən mühüm bəyannamə imzalanmışdır. Ümidvaram ki, Sizin fəal vasitəçilik missiyanız davam etdiriləcəkdir və biz müsbət nəticələrə nail olacağıq.

Bu gün humanitar sahədə də fəal qarşılıqlı münasibəti qeyd etmək istərdim. Zənnimcə, bu istiqamətdə ölkələrimiz arasında münasibətlər qonşular və əsrlər boyu yanaşı yaşayan xalqlar arasında münasibətlərə nümunə ola bilər. Bu il biz Bakıda çox

mühüm və mötəbər Rusiya–Azərbaycan ictimai forumunu keçirdik və onu illik Bakı Beynəlxalq humanitar forumuna çevirmək barədə qərar qəbul edilmişdir. Bildiyiniz kimi, Azərbaycanda rus dilinə, rus mədəniyyətinə çox qayğıkeş münasibət göstərilir. Ölkəmizdə təhsilin rus dilində aparıldığı 300-dən çox məktəb vardır, sovet dönəmindəkindən də xeyli artıq dövri nəşrlər dərc olunur, Rusiya Mədəniyyət Mərkəzi, Rusiya Kitab Evi, MDU-nun filialı fəaliyyət göstərir. Bütün bunlar bizi zənginləşdirir. Bütün bunlar münasibətlərimizin mühüm amilidir. Siyasi münasibətlərimiz, iqtisadi əlaqələrimiz, mənafelərimizin uyğunluğu necə olursa-olsun, münasibətlərimiz humanitar tərkibsiz natamam olardı. Mənə çox xoşdur ki, Rusiyada da, Azərbaycanda da irsimizə çox qayğıkeş münasibət vardır.

Dmitri Anatolyeviç, Svetlana Vladimirovna, bir daha Sizi Azərbaycanda səmimi-qəlbdən salamlamaq və bu badəni Sizin sağlığınıza, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin bundan sonra da möhkəmlənməsi şərəfinə qaldırmaq istəyirəm.

## Rusiya prezidenti Dmitri Medvedevin nitqi

Hörmətli İlham Heydər oğlu!

Hörmətli Mehriban Arif qızı!

Hörmətli dostlar, həmkarlar!

Sizin ölkəyə gəlmək mənim üçün həmişə çox xoşdur. Çünki bu həmişə dostlarımızın, yaxın qonşularımızın və strateji tərəfdaşlarımızın yanına səfər etmək deməkdir. Bu səfər bir günə hazırlanmamışdır. Bu, xüsusi səfərdir, ona görə ki, münasibətlərimizin tarixində ilk dəfə çox mühüm saziş hazırlamışıq. İlham Heydər oğlu bilir ki, bu sazişin hazırlanması asan olmamışdır. Ona görə yox ki, biz mübahisə edirdik, hərçənd müzakirə edilməsi, diskussiyalar aparılması tələb edilən bəzi məsələlər həmişə vardır. Ona görə ki, bu saziş mürəkkəb, mühüm sənəddir. Əgər həmin saziş bizim ölkəmiz üçün sərhədin müəyyənləşdirilməsi, bir sıra sərhədyanı məsələlərin tənzimlənməsi barədə

ilk sənədlərdən biridirsə, Azərbaycan üçün bu qəbildən, ümumiyyətlə, ilk sənəddir. Ona görə də mənə belə gəlir ki, biz yaxşı çalışmışıq, sabah rəsmi imzalanma olacaqdır. Bizim dostluq münasibətlərimizin möhkəm normativ baza əsasında inkişaf etməsi, tərəfdaşlar arasında beynəlxalq hüquq normalarına əsaslanan münasibətlərə çevrilməsi üçün bu saziş çox vacibdir. Bu sənəd də beynəlxalq hüquq aktıdır. Bizim qarşılıqlı əlaqələrimizi möhkəmləndirən iqtisadi sazişlər də vardır. O cümlədən, sabah belə bir böyük sənəd, həmçinin bəzi başqa sənədlər imzalanacaqdır.

Bu nəyə dəlalət edir? Ona dəlalət edir ki, dövlətlərimiz arasında münasibətlər ilbəil rəngarəng olur. Əlbəttə, Sizi ölkəmizdə, Moskvada görəndə həmişə çox şad oluruq. Biz beynəlxalq tədbirlərdə Sizinlə çox ünsiyyət saxlayırıq, müxtəlif görüşlər keçiririk. Adətən, bu cür böyük səfərlərin gedişində müəyyən kəmiyyət dəyişiklikləri üst-üstə yığılır və yeni keyfiyyət halına keçir. Buna görə də mən çox istərdim ki, Rusiya prezidentinin və Rusiya nümayəndə heyətinin indiki səfəri bu cür kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə keçməsi ilə əlamətdar olsun.

Son illərdə biz iqtisadi münasibətlərin quruculuğu sahəsində irəliləmişik. Energetika sahəsində əməkdaşlıq bu münasibətlərin təməl daşıdır. Lakin mən istəməzdim ki, əməkdaşlığımız təkcə energetika ilə məhdudlaşsın. Bizim ölkələr enerji istehsal edən iri ölkələrdir. İndi Sizinlə danışdığımız kimi, dövlətlərimizin qarşısında iqtisadiyyatlarımızı modernləşdirmək məsələsi durur, böhran isə, yeri gəlmişkən, göstərdi ki, hətta enerji tədarükçüləri olan böyük dövlətlər də bazardakı vəziyyətdən asılıdırlar. Buna görə də bizim vəzifəmiz ölkələrimizdə iqtisadi şəraiti, təsərrüfatçılıq şəraitini dəyişməkdir. Hesab edirəm ki, başqa sahələrdə əməkdaşlığı inkişaf etdirməklə bu məsələdə bir-birimizə kömək edə bilərik. Söhbət yüksək texnologiyalar, istehsal, infrastruktur və hətta turizm sahələrində kooperasiya və əməkdaşlıqdan gedir.

Təhlükəsizlik məsələləri çox mühüm mövzudur. Siz tamamilə dəqiq dediniz ki, bizim dövlətlər – Qafqaz dövlətləri, Xəzər dövlətləri və dost dövlətlərdir. Biz gələcəyə məhz bu cür baxmalıyıq. Elə etməliyik ki, asayiş olsun, münaqişələrin yaranmasına yol verilməsin. Bizim regionda problemlər kifayət qədərdir – həm gizli, həm də aşkar problemlər vardır. Vəzifəmiz bu cür təhdidlərə mümkün qədər çevik münasibət bildirməyə çalışmaqdır. Rusiya bu proseslərdə öz rolunu başa düşür. Hətta Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi kimi olduqca çətin problem də, Sizin haqlı olaraq dediyiniz kimi, beynəlxalq hüquq normaları və tərəflərin qarşılıqlı iradəsi əsasında həll edilə bilər. Səmimi deyim ki, bu görüşlərin dinamikası məni qane edir. Əlbəttə, nəticələr hələ çox cüzidir. Lakin siz bir məsələyə əsla şübhə etməyə bilərsiniz ki, Rusiya hədsiz çətin olan bu münaqişənin tənzimlənməsinə maksimum kömək etmək əzmindədir. Bunun üçün biz, şəxsən mən özüm də hər cür səy göstərmişik və bundan sonra da göstərəcəyik.

Humanitar sahədə dostluq əlaqələrimiz yəqin ki, ayrıca təhlil aparılmasını tələb edir. Siz ölkənizdə rus dilinə xüsusi qayğı göstərildiyini xatırlatdınız. Əlbəttə, bu çox xoşdur. Mənə belə gəlir ki, bu, Azərbaycan üçün də çox vacibdir. Çünki biz yaxın ölkələrik, bizim tariximiz uzun müddət birlikdə davam etmişdir, rus dili bu mənada müəyyən əhəmiyyət kəsb edir. Lakin bu o demək deyildir ki, Rusiya Azərbaycan dilinin inkişafı üçün heç nə etməməlidir. Bu yaxınlarda mən telekanalların verilişlərinin peyk vasitəsilə dost ölkələr üçün yayımlanması barədə qərar qəbul etmişəm. Rusiyada böyük Azərbaycan diasporu vardır və onun Azərbaycan dilində xəbərlərlə tanış olması, proqramlara, filmlərə baxa bilməsi çox vacibdir. Əlbəttə, onlar hamısı rusca danışırlar, lakin ana dilini də yadda saxlamaq lazımdır. Buna görə də bu cür yayım həyata keçiriləcəkdir. Mənə belə gəlir ki, bu da çox faydalıdır, böyük mübadilələr də öz yerində – məsələn, indicə Siz Ulyanovskdakı məktəb və mehriban əməkdaşlığa dair bir sıra başqa nümunələr barədə danışdınız. Bu çox vacibdir, elə Rusiya üçün də. Ona görə ki, Rusiya çox mürəkkəb, çoxmillətli, çoxkon-

fessiyalı dövlətdir və ölkə daxilində vətəndaş sülhü və asayiş olması üçün biz qonşularımızla dostluq etməyi bacarmalıyıq.

Buna görə sizin ölkəyə gəlişimiz bizi çox sevindirir. Dəvət üçün sağ olun. Əminəm ki, biz bu gün də, sabah da səmərəli danışıqlar aparacaq, dostcasına ünsiyyət saxlayacağıq. İndi isə Rusiya Federasiyasının Prezidenti kimi, mənə bircə bu qalır ki, Azərbaycan prezidenti hörmətli İlham Heydər oğlunun sağlığına, onun xanımı hörmətli Mehriban Arif qızının sağlığına, azərbaycanlı dostlarımızın hamısının sağlığına, sülh naminə və xalqlarımızın tərəqqisi naminə badə qaldırmağı təklif edim!

## AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN XANIMLARI İLƏ BİRLİKDƏ «İÇƏRİŞƏHƏR» DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU VƏ DƏNİZKƏNARI MİLLİ PARKLA TANIŞLIĞI

*3 sentyabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Dmitri Medvedev xanımları ilə birlikdə «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğunu gəzmiş, Dənizkənarı Milli Parkda olmuşlar.*

*Ölkəmizdə rəsmi səfərdə olan Rusiya prezidenti Dmitri Medvedevin və xanımı Svetlana Medvedevanın Bakı ilə tanışlığı Filarmoniya bağından başladı. Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva əsaslı yenidənqurmadan sonra ötən il istifadəyə verilən bu bağın tarixi barədə Rusiyanın dövlət başçısına məlumat verdilər.*

*Qonaqlar İçərişəhəri gəzintiyə çıxdılar. Bildirildi ki, Azərbaycan tarixinin və mədəniyyətinin incisi olan İçərişəhər dünya mədəni irsinin nadir abidələrindəndir. Azərbaycan tarixinin canlı əfsanəsi olan İçərişəhər memarlıq kompleksi dünyada misilsiz abidələrdən biridir. Burada aparılan arxeoloji qazıntılar zamanı milli dövlətçilik tarixinin açılmamış səhifələri öyrənilmiş, Böyük İpək yolunun üstündə yerləşən qədim Bakının strateji əhəmiyyətini təsdiq edən tarixi faktlar aşkar olunmuşdur. Elə buna görə də 1985-ci ildən Dövlət Tarix-Memarlıq Qoruğu elan edilən İçərişəhər 2000-ci ildən YUNESKO-nun Dünya irs siyahısına daxil edilmişdir.*

*Rusiyanın dövlət başçısı və xanımı İçərişəhərdə milli mətbəximizin nümunəsi olan təndir çörəyinə qonaq oldular.*

*İçərişəhərin ən mühüm tarixi tikililərindən olan Karvansara qonaqlarda böyük maraq doğurdu. Qonaqlar Şirvanşahlar sarayında da oldular. Qeyd edildi ki, Şirvanşahlar saray kompleksi XV əsrin əvvəllərində tikilmişdir. Kompleksə daxil olan abidələr İçərişəhərin ən yüksək yerində yerləşir. Qız qalası da sarayın yaxınlığındadır. Eradan əvvəl VII–VI əsrlərdə əsası qoyulan Qız qalası XII əsrdə bərpa edilmişdir. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan Qız qalası silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri bir tikilidən ibarətdir. Məscid-mədrəsə və XII əsrə aid bazar da burada yerləşir. Burada o dövrə aid qəbir daşları və totemlər saxlanılır.*

*Prezident Dmitri Medvedev və xanımı İçərişəhərdə nümayiş olunan milli sənətkarlıq nümunələrinə və üzərində paytaxtımızın rəmzi olan qədim abidələrimizin əks olunduğu suvenirlərə baxdılar.*

*Azərbaycan rəssamlarının çəkdiyi əsərlər də qonaqlarda maraq doğurdu. Rusiya prezidenti və xanımı İçərişəhərdə yerləşən qalereyada qədim abidələrimizin əks olunduğu rəsm əsərlərinə tamaşa etdilər.*

*Qonaqlar çay süfrəsi arxasında İçərişəhərdən bəhs edən filmə baxdılar.*

*Rusiya prezidentinə xatirə olaraq hədiyyə təqdim olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Rusiya prezidenti Dmitri Medvedev və xanımı Svetlana Medvedeva Dənizkənarı Milli Parkda gəzintiyə çıxdılar.*

*Azərbaycan paytaxtı ilə tanışlıq Rusiya dövlətinin başçısında və xanımında zəngin təəssürat doğurdu.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında ikitərəfli əlaqələr, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR SÜFRƏSİ MƏRASİMİ

*6 sentyabr 2010-cu il*

*Sentyabrın 6-da Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir.*

**Şeyxülislam Allahşükür Paşazadə:** Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri, möhtərəm cənab Prezident!

Möhtərəm səfirlər və əziz din qardaşlarım!

Hörmətli qonaqlar!

Bugünkü məclisimizdə əziz qonaqlarımıza, xüsusən dövlətimizin başçısı möhtərəm cənab İlham Əliyevə ən səmimi salamlarımı yetirir, islam aləminin müqəddəs mərasiminə göstərdiyiniz ehtirama və dəvətimizi qəbul etdiyinizə görə Qafqaz müsəlmanları adından və şəxsən öz adımdan sizə dərin minnətdarlığımı bildirirəm.

Hər il mübarək Ramazan ayında möhtərəm Prezidentimizlə iftar süfrəsində görüşmək gözəl ənənəyə çevrilib. Biz dindarlar üçün bu məclis yalnız iftar süfrəsi deyil, həm də birliyimizin, tolerantlığımızın, həmrəyliyimizin nümunəsidir. Şükr edirəm ki, Allah-taala hər il bizə dövlətimizin başçısı ilə görüşün səadətini və müqəddəs Ramazanın nemətini bəxş edir. Əminəm ki, inşallah, biz hamımız gələcəkdə bu nemətdən yenə də faydalana biləcəyik.

Hər şeydən əvvəl, mənim 60 illik yubileyimin yüksək səviyyədə keçirilməsi, dünyanın nüfuzlu din xadimlərinin, dövlət rəhbərlərinin bu tədbirdə iştirakı ölkəmizin dini

həyatında mötəbər hadisəyə çevrildi. Mən hər zaman fəxr etmişəm ki, həyatımın 30 ilindən çoxu bir şeyxülislam kimi, böyük qardaşım, fenomen şəxsiyyət, ulu öndərimiz mərhum Heydər Əliyevlə birgə olub və onun dəyərli tövsiyələri ilə milli mənəviyyatımızın formalaşmasına, islamın tərəqqisinə və Azərbaycan dövlətçiliyinə xidmətdə keçib. Uzun illik dostluğumuz və səmimi ünsiyyətimiz dövlət və din münasibətlərinin təməl əsaslarını möhkəmlədib, müstəqil Azərbaycanın dünyaya bəyan etdiyi yeni tolerant imicini formalaşdırıb. Mən bu müddətdə layiq görüldüyüm ali təltifləri bir dini rəhbərin dövlət qarşısında fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirirəm. Ötən ilin noyabr ayında keçirilən təntənəli mərasimdə mənə «Şərəf» ordenini Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri İlham Əliyevin şəxsən təqdim etməsini həyatımın ən gözəl məqamlarından sayıram və düşünürəm ki, bu orden təkcə mənə yox, Qafqaz Müsəlmanları İdarəsinin dövlətçiliyimiz naminə apardığı mənəvi fəaliyyətə verilən ali mükafat kimi, bizi öz işimizdə daha da məsuliyyətli olmağa çağırır.

İkinci əlamətdar hadisə bu ilin aprel ayında din xadimlərinin Ümumdünya Sammitinin Bakıda keçirilməsi oldu. Millətlərarası və dinlərarası münasibətlərin bərpası və inkişafına xidmət edən bu tədbirdə Azərbaycanın dünyaya bəyan etdiyi sülh, qlobal dialoq, tolerantlıq və mədəni intibah çağırışları bir daha təsdiqini tapdı. Dünyanın nüfuzlu dini mərkəzlərinin – Moskva və Bütün Rusiya Patriarxının, Gürcüstan Patriarxının, Vatikanın, Eçmiədzinin, yəhudi, buddist, induist və digər dini cərəyan nümayəndələrinin iştirakı ilə keçirilən Bakı Sammiti hələ uzun illər tarixi fakt kimi diqqət mərkəzində olacaqdır.

Bu ilin yaddaqalan hadisələri sırasına ölkəmizin milli mənəvi dəyərlərindən olan qədim tarixi abidələrin təmir və bərpa işlərini də əlavə etmək istərdim. Onu da qeyd etmək istərdim ki, prezidentimiz cənab İlham Əliyev müsəlman məscid və ziyarətgahları ilə yanaşı, xristian və yəhudi ibadət yerlərinin də təmir və inşasına dair sərəncamlara imza atmışdır.

Hər bir azərbaycanlı, hər bir dindar üçün qürur mənbəyinə çevrilmiş bu müqəddəs abidələrin hər naxışında, cənab Prezident, şəxsən Sizin zəhmətiniz və qayğınız vardır.

Bu yaxınlarda Bakıda yeni müqəddəs məkanımız – Dövlət Bayrağı Meydanının təntənəli açılışı mərasimində Prezidentimizin nitqini dinləyərkən bütün Azərbaycan xalqı kimi, mən də çox böyük şərəf və qürur hissi keçirdim. Ulu öndərimiz Heydər Əliyevin milli dövlətçiliyimizin rəmzlərinə – üçrəngli bayrağımıza, himnimizə, gerbimizə verdiyi dəyəri xatırladım və bir daha əmin oldum ki, onun layiqli davamçısı olan cənab İlham Əliyev Azərbaycanı iqtisadi inkişafa, beynəlxalq nüfuzlu ölkəyə yüksəldən bir rəhbər kimi, Vətənimizin azadlıq və zəfər rəmzini, inşallah, işğal altında olan torpaqlarımızda ucaldacaq və sonsuz qürur hissi ilə bütün Azərbaycan xalqı bu böyük zəfərin memarına minnətdar olacaqdır.

Bu gün mədəni irsimizin qorunmasında, milli mənəvi dəyərlərin inkişafında möhtərəm Prezidentimizlə bərabər, böyük zəhmətləri olan çox hörmətli Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd olunmalıdır. Allah-taala bu ailənin xalqımızın rifahı, dövlətimizin gələcəyi naminə gördüyü bütün gözəl işlərdə hər zaman yardımçısı olsun! Bu, təkcə mənim yox, bütün Azərbaycan xalqının öz rəhbərinə arzuladığı ən səmimi dualardır.

Zati-aliləri! Möhtərəm qonaqlar!

Ramazanın hər gəlişi bizim üçün böyük sevincdir. Çünki müqəddəs Qurani-Kərim bu ayda nazil olmuşdur, xeyir-bərəkət də elə bu ayın rəhmətindən sayılır. Bu əziz günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarından keçən qəhrəman övladlarımızın, o cümlədən Qarabağ şəhidlərinin əziz xatirəsini yad edir, ruhlarına dualar oxuyuruq. Mübarək Ramazanda edilən duaların Allah hüzurunda qəbuluna əmin olduğuma görə, mən də Sizin üçün xeyir-dualar edirəm. Çünki bu ayda mənim evimi mənəvi ocaq bilib iftar məclisində iştirak etməyiniz bir şeyxülislam kimi, məni qəlbən sevindirir və bu görüşlərin, inşallah, söz verdiyiniz kimi, hər il davam edəcəyi

ümidindəyəm. Mübarək Qurani-Kərimdə buyurulur: «İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran Quran Ramazan ayında nazil edilmişdir» (Bəqərə, 185).

Bu mübarək ayda hamınıza bir daha «Xoş gəlmisiniz!»– deyir, ibadətlərimizin qəbul olunması üçün Allahdan xeyir-dualar diləyirəm!

Allah köməyimiz olsun!

*Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri Aleksandr Ata Azərbaycanda tolerantlığın hökm sürdüyünü və dövlətlə din arasında münasibətlərin nümunəvi xarakter daşıdığını vurğuladı. O, respublikamızın dinlərarası dialoqa əsaslı töhfələr verdiyini və cari ilin aprel ayında Bakıda keçirilən dünya dini liderlərinin sammitinin bunun əyani təcəssümü olduğunu bildirdi.*

*AleksandrAta həmin mötəbər tədbirin yüksək səviyyədə təşkilinə prezident İlham Əliyevin hərtərəfli dəstəyini Moskva və Bütün Rusiya Patriarxı Kirill həzrətlərinin də dəfələrlə vurğuladığını diqqətə çatdırdı.*

*Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının rəhbəri Aleksandr Ata dinlərarası dialoqun möhkəmləndirilməsinə verdiyi töhfələrə görə Rus Pravoslav Kilsəsinin «Müqəddəs Apostol Varfolomey» qızıl medalını prezident İlham Əliyevə təqdim etdi.*

*Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Semyon İxiilov azərbaycanlılarla yəhudilər arasında tarixən dostluq münasibətlərinin olduğunu dedi. O, respublikamızda bütün millətlərin mehriban ailə kimi yaşadığını, heç bir zaman antisemitizmlə qarşılaşmadıqlarını söylədi.*

*Vətəni Azərbaycana dərindən bağlı olduğunu vurğulayan Semyon İxiilov xalqımızı və prezident İlham Əliyevi müqəddəs Ramazan ayı münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı.*

*Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete Roma Papasının bütün dünya müsəlmanlarını Ramazan*

*ayı münasibətilə təbrik etdiyini, dinlərarası dialoqu və əməkdaşlığı möhkəmləndirməyə çağırdığını xatırlatdı. O, ölkəmizdə tolerantlığın hökm sürməsi ilə bağlı ulu öndər Heydər Əliyevin siyasətinin indi də uğurla davam etdirildiyini dedi və prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi.*

*Vladimir Fekete müqəddəs Ramazan ayı münasibətilə Roma Katolik Kilsəsinin təbrik məktubunu və şəxsən Papa Şurasının dinlərarası dialoq üzrə nümayəndəsi, kardinal Yan Lui Toranın təbriklərini prezident İlham Əliyevə çatdırdı.*

**Prezident İlham Əliyevin iftar mərasimində çıxışı**

Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Hörmətli xanımlar və cənablar!

Bu ənənə əminəm ki, bundan sonra da davam edəcəkdir. Mübarək Ramazan ayında şeyx həzrətlərinin dəvəti ilə təşkil olunan bu görüşlərin çox böyük mənası vardır. Burada qeyd olunduğu kimi, Azərbaycanda din ilə dövlət arasında münasibətlər çox sağlam zəmində qurulmuşdur. Dövlətçilik tarixi böyük olan ölkələrdə bu münasibətlər əvvəlki əsrlərdə, əvvəlki dövrlərdə artıq təşkil olunmuşdur. Azərbaycan isə cəmi 20 ilə yaxındır ki, müstəqillik həyatını yaşayır və bizdə dinlə dövlət arasındakı münasibətlərin tənzimlənməsi böyük səylər tələb edir. Mən çox şadam ki, Azərbaycan xalqının və Azərbaycanda əsrlər boyu yaşamış və yaşayan bütün millətlərin nümayəndələrinin həmrəyliyi, birliyi müstəqillik dövründə də özünü büruzə verdi. Müstəqillik dövründə din ilə dövlət arasında yaranan münasibətlər bu gün Azərbaycanın uğurlu inkişafını təmin edir. Bu münasibətlərin möhkəmlənməsində və qurulmasında ulu öndər Heydər Əliyevin böyük zəhməti olubdur. Heydər Əliyevin şeyx həzrətləri ilə şəxsi dostluq əlaqələri də Azərbaycanda din ilə dövlət arasındakı münasibətlərin qurulmasına çox böyük töhfə vermişdir.

Bu gün Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bizə bəzən elə gəlir ki, hər yerdə belə olmalıdır. Amma əfsuslar olsun ki, hər yerdə heç də belə deyildir. Bəzi ölkələrdə dini zəmində qarşıdurmalar, müharibələr, toqquşmalar baş verir. Azərbaycanda bütün dinlərin nümayəndələri, bir daha demək istəyirəm ki, qardaşlıq, mehribanlıq şəraitində yaşayırlar. Bu ənənələr möhkəmlənir və şübhə etmirəm ki, gələcək dövrlərdə Azərbaycanda dini münasibətlər lazımi səviyyədə təşkil olunacaqdır.

Biz öz milli dəyərlərimizi hər şeydən üstün tutan xalqıq. Bu dəyərlər xalqımızın formalaşmasında həlledici rol oynamışdır. Əsrlər boyu biz başqa ölkələrin tərkibində yaşamışdıq, müstəqillikdən məhrum idik. Buna baxmayaraq, öz mənliyimizi, milli mənsubiyyətimizi, dinimizi, dilimizi, adət-ənənələrimizi qoruya bilmişik.

Son illər Azərbaycanda bütün dinlərə məxsus olan abidələrdə təmir-bərpa işləri gedir. Yüzlərlə yeni məscid tikilmişdir. Digər dinlərin məbədləri tikilir, təmir olunur və gələcəkdə də tikiləcəkdir. Bu onu göstərir ki, Azərbaycanda bu sahədə heç bir ayrı-seçkilik yoxdur. Millətini sevən, dininə hörmətlə yanaşan insan başqa millətdən olan insanları da sevməlidir, başqa dinlərə də hörmətlə yanaşmalıdır. Təsadüfi deyildir ki, Azərbaycan dünya miqyasında dinlərarası dialoqun inkişafında və təşkil olunmasında mühüm rol oynamağa başlamışdır. Mən çox şadam ki, Azərbaycanda bu sahədə əldə edilmiş nailiyyətlər dünya birliyində də qiymətləndirilir. Bu nailiyyətlər bizə imkan verir ki, bu sahədə mötəbər tədbirləri Azərbaycanda keçirək. Bu barədə burada da deyildi. Hörmətli şeyx həzrətlərinin yubileyi Azərbaycanda geniş qeyd olunmuşdur və müxtəlif ölkələrdən dini rəhbərlər qonaqlarımızın sırasında idi. Dünya dinlərinin zirvə görüşü də Azərbaycanda ən yüksək səviyyədə keçirilmişdir. Biz istəyirik ki, gələcəkdə belə tədbirlərin sayı çoxalsın. Çünki Azərbaycan bu mövzuda tədbirlərin keçirilməsi üçün hesab edirəm ki, məqbul məkandır.

Azərbaycanda vətəndaş birliyi, vətəndaş həmrəyliyi vardır, dini, milli məsələlərin həllində çox böyük uğurlar vardır. Bu bizim böyük sərvətimizdir, nailiyyətimizdir. Biz bunu yüksək qiymətləndiririk. Mən əminəm ki, Azərbaycanda bu sahədə əldə edilmiş nailiyyətlər, təcrübəmiz başqa yerlərdə də öyrənilə bilər və bu proseslər artıq başlanmışdır.

Bir il bundan əvvəl biz bu salonda görüşmüşdük, fikir mübadiləsi aparmışdıq. Bir il çox tez keçdi və şeyx həzrətləri bu dəfə məni iftar süfrəsinə dəvət edəndə fikirləşdim ki, bir il nə qədər sürətlə keçdi. Nəyə görə? Çünki bu bir il ərzində o qədər hadisələr, o qədər tədbirlər görüldü. Azərbaycanda bütün işlər o qədər sürətlə aparılır ki, bəzən vaxtın bu qədər sürətlə keçməsinə də fikir vermirsən. Son bir ildə ölkəmizdə bütün sahələrdə çox müsbət proseslər gedib, daha da möhkəmlənib. Baxmayaraq ki, 2009–2010-cu illərdə dünyada mövcud olan böhran, demək olar, bir neçə ölkəni çox ciddi sarsıtmışdır. Biz Azərbaycan əhalisini bu böhranın fəsadlarından qoruya bildik. Azərbaycanın inamlı və sürətli inkişafını təmin edə bildik.

Ölkədə bütün sosial və iqtisadi proqramlar plan üzrə aparılmışdır. Heç bir sahədə yubanma, geriləmə olmamışdır. Nəzərdə tutulmuş bütün layihələr vaxtında və yüksək səviyyədə icra edilmişdir. Bunun yeganə səbəbi ondan ibarətdir ki, biz öz siyasətimizi düşünülmüş şəkildə aparırıq. Bizim siyasətimiz həm gələcəyə, həm də bu gün ölkə qarşısında duran problemlərin həllinə yönəldilib. Atılan bütün addımlarımız bir məqsədi güdür: Azərbaycanı daha da gücləndirək, Azərbaycan əhalisinin rifah halını yaxşılaşdıraq, ölkədə sabitliyi möhkəmləndirək, təhlükəsizlik tədbirlərini gücləndirək ki, Azərbaycan xalqı rahat, sərbəst, azad və firavan yaşasın. Bunu etmək üçün bizdə bütün imkanlar vardır. Dövlət quruculuğu işində böyük uğurlara nail olan güclü dövlətimiz vardır.

Azərbaycanda bütün azadlıqlar vardır. O cümlədən vicdan azadlığı yüksək səviyyədə qorunur. Demokratik azadlıqlar güclənir və bu meyillər möhkəmlənir, bu da çox mühüm amildir. İqtisadi islahatlar düzgün istiqamətdə aparılır. Əldə

edilmiş nailiyyətlər bunun ən yaxşı sübutudur. Sosial məsələlər həllini tapır. Azərbaycan təsir imkanlarını genişləndirir. Beynəlxalq müstəvidə nüfuzumuz artır və tərəfdaşlarımızın sayı çoxalır. Azərbaycan artıq uzun illərdir ki, ikitərəfli və çoxtərəfli əsaslarda etibarlı tərəfdaş kimi qəbul edilir. Hər bir tarixi dövr və gələcək dövr üçün konkret proqramlar tərtib edilib və icra olunur. Buna görə biz nail ola bilmişik ki, ölkə hərtərəfli inkişaf etsin. Ölkəmizin bütün problemləri tədricən həll olunacaqdır.

Qarşımızda duran ən başlıca vəzifə, ən böyük problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Bu istiqamətdə birmənalı mövqeyimiz daha da güclənir. Azərbaycan gücləndikcə, təbii ki, ölkəmizin mövqeyi də güclənəcəkdir. Nəzərə alsaq ki, mövqeyimiz hansısa qeyri-real arzulara deyil, məntiqə, beynəlxalq hüquqa, ən mötəbər beynəlxalq təşkilatların qətnamələrinə, qərarlarına əsaslanır. Azərbaycan bu bölgədə öz fəaliyyəti ilə və irəli sürdüyü təşəbbüslərlə təsir imkanlarını gücləndiribdir, iqtisadi cəhətdən böyük və uğurlu yol keçibdir. Şübhə etmirəm ki, bu məsələ ədalətli, beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaq.

Biz elə etməliyik ki, hər bir vətəndaş tutduğu vəzifədən asılı olmayaraq, öz sahəsində əməli işləri, fəaliyyəti ilə ölkəmizin güclənməsinə xidmət göstərsin və öz töhfəsini versin. Azərbaycan uzun illərdir ki, bu ədalətsizliklə üzləşib. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Vətəndaşlarımız tarixi torpaqlarından didərgin salınmışlar və bu ədalətsizlik, əfsuslar olsun ki, bu gün də davam edir. Amma mən tam əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Mən Dövlət Bayrağı Meydanının açılışı mərasimindəki çıxışımı bir daha xatırlatmaq istəyirəm, Azərbaycan bayrağı Dağlıq Qarabağda dalğalanacaqdır!

Bizim işimiz haqq işidir. Azərbaycan sülhsevər dövlətdir. Biz bütün ölkələrlə münasibətlərin qarşılıqlı hörmət əsasında qurulmasına çalışırıq, buna nail oluruq. Ölkədə gedən proseslər, bir daha demək istəyirəm ki, müsbət istiqamətdə davam edir.

Bugünkü məclis özlüyündə gözəl bir göstəricidir. Azərbaycanda bütün xalqlar, bütün millətlərin, bütün dinlərin nümayəndələri, sözün əsl mənasında, dostluq, qardaşlıq şəraitində yaşayırlar.

Mən bu gözəl gündə öz dostuma – şeyx həzrətlərinə minnətdarlığımı bildirmək istəyirəm ki, şeyx həzrətləri öz fəaliyyəti ilə Azərbaycanın haqq işinin dünya birliyinə çatdırılmasında mühüm işlər görür. Onun beynəlxalq səviyyədəki nüfuzu və ona olan hörmət Azərbaycanı gücləndirir. Şeyx həzrətlərinin təşəbbüsü ilə keçirilmiş gözəl beynəlxalq tədbirlər bunun əyani sübutudur. Həm dünya dini rəhbərləri, həm də böyük dövlətlərin başçıları ilə görüşlərdə şeyx həzrətləri haqqında xoş sözlər eşidəndə çox sevinirəm. Bu, ədalətli qiymətdir və mən çox şadam ki, nəinki Azərbaycanda, ölkəmizdən kənarda da şeyx həzrətlərini tanıyırlar, hörmət edirlər. Mən əziz dostum şeyx həzrətlərinə gələcək fəaliyyətində uğurlar diləyirəm. Arzu edirəm ki, onun bütün arzuları həyatda öz əksini tapsın və mən bilirəm ki, onun ən böyük arzusu Azərbaycan torpaqlarının işğal altından çıxmasıdır, Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bir daha, əziz dostlar, bu gözəl gündə mən sizi ürəkdən salamlayıram. Qarşıdan Ramazan bayramı gəlir. Bu gözəl bayram ərəfəsində bütün Azərbaycan xalqına xoşbəxtlik, əmin-amanlıq, rifah arzulayıram. Sağ olun.

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı başa çatmaqdadır. Bu ayda müsəlmanlar Allah və din qarşısında öz vicdani borclarını daha dolğun yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və

mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbəsinin sevincini yaşayırlar.

İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il təntənə ilə qeyd edilir. Orucluğun sınaqlarından alnıaçıq çıxan mömin vətəndaşlarımız Ramazan günlərini qürur hissi ilə yola salır, bayram sevincini məmnunluqla bölüşürlər. Ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün diləklər edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Bu əziz bayram günlərində bütün xeyirxah niyyətlərlə həmrəy olduğumu bildirir, dualarınızın Tanrı dərgahında qəbul olunmasını arzu edirəm.

Əziz bacı və qardaşlarım!

Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan bayramı insanları sülhə, əmin-amanlığa və həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsinə yol açır. Bu mübarək bayram münasibətilə hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə xoşbəxtlik, firavanlıq, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2010-cu il*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının Yeni il bayramı – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Tarixən Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icması bu gün çoxmillətli cəmiyyətimizin ayrılmaz hissəsinə

çevrilmişdir. Əlamətdar haldır ki, yəhudi vətəndaşlarımız ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirirlər.

Əziz dostlar!

Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Roş-Ha-Şana yenilik, mənəvi saflıq, xoş müjdələr və həmrəylik bayramıdır. Bu əziz gün münasibətilə bir daha Sizi təbrik edir, hər birinizə xoşbəxtlik, ailələrinizə əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2010-cu il*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## KÜR ÇAYININ DAŞMASI NƏTİCƏSİNDƏ YARANAN TƏBİİ FƏLAKƏT ZAMANI HACIQABUL RAYONUNUN MEYNİMAN KƏNDİ ƏRAZİSİNDƏ EVLƏRİ DAĞILAN VƏTƏNDAŞLAR ÜÇÜN YENİ TİKİLƏN MƏNZİLLƏRİN VERİLMƏSİ MƏRASİMİ

*7 sentyabr 2010-cu il*

*Kür çayının daşması nəticəsində yaranan təbii fəlakət zamanı Hacıqabul rayonunun Meyniman kəndi ərazisində evləri dağılan vətəndaşlar üçün yeni mənzillər tikilib istifadəyə verilmişdir.*

*Sentyabrın 7-də yeni mənzillərin orderləri sahiblərinə təqdim olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Bu ilin mayında Kür çayında baş verən daşqın təbii fəlakətlə nəticələndi. Daşqından dərhal sonra prezident İlham Əliyevin sədrliyi ilə mayın 7-də keçirilən müşavirədə dövlətimizin başçısı fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı müvafiq orqanlara tapşırıqlar verdi. Minlərlə texnika və canlı qüvvə təbii fəlakət zonasında xilasetmə və bərpa işlərinə cəlb olundu. Təbii fəlakətin miqyasının genişlənməsinin qarşısı dövlət strukturlarının həyata keçirdiyi tədbirlər nəticəsində alındı. Dağılan bəndlərin operativ bərpası, əhalinin daha təhlükəsiz yerlərə köçürülməsi nəticəsində insan tələfatına yol verilmədi. Mayın 11-də prezident İlham Əliyevin təbii fəlakət bölgəsinə getməsi və burada sakinlərlə görüşməsi, onların problemləri ilə maraqlanması, dəyən ziyanın aradan qaldırılmasının dövlətimizin başçısının daim diqqətində olduğunu göstərdi. Tədricən əhalinin yaşayış yerlərinə köçürülməsi, evləri dağılan*

*insanların mənzil problemlərinin həlli başlandı. Müvafiq strukturların cəlb olunduğu tikinti-quraşdırma işləri zamanı əsas diqqət evlərin əvvəlki kimi çiy kərpicdən yox, daha keyfiyyətli materiallardan istifadə olunaraq inşasına yönəldildi. Daşqınlar nəticəsində dağılmış evlərin əvəzinə yenilərinin tikilməsi, zədələnmiş binaların bərpası istiqamətində görülən işlər uğurla həyata keçirilir.*

*Tikinti işlərinin başa çatdığı ərazilərdən biri də Hacıqabul rayonunun Meyniman kəndidir. Bu il mayın 23-də kəndin ərazisində Kür çayı öz məcrasından çıxaraq təxminən 85 metr uzunluğunda qoruyucu bəndi dağıtmışdı. Nəticədə Meyniman kəndindəki 280 ev və 286 təsərrüfat, o cümlədən 1350 nəfər əhalisi olan 1-ci Meyniman kəndindəki 150 həyət su altında qalmışdı. Daşqın zamanı Meyniman kəndində 35 ev tamamilə uçmuş, 64 ev qəzalı vəziyyətə düşmüşdü.*

*Dövlətimizin başçısı əvvəlcə təbii fəlakət nəticəsində dağılan evlərin və yeni mənzillərin fotolarına baxdı.*

*Prezident İlham Əliyev kənd sakini Mərhəmət Yaqubovun mənzilində oldu, burada yaradılan şəraitlə maraqlandı. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq yeni evlər bütün zəruri avadanlıqlarla təchiz edilmişdir.*

**İlham Əliyev:** Əziz dostlar, ilk növbədə sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Bu gözəl müqəddəs bayram ərəfəsində sizə yeni evlər təqdim edilir. Bu evlər dövlət tərəfindən tikilmişdir. Əminəm ki, siz bu evlərdə rahat yaşayacaqsınız.

Bildiyiniz kimi, bu il dünyanın hər bir yerində təbii fəlakətlər baş verdi, o cümlədən Azərbaycanda da sellər, daşqınlar nəticəsində insanlarımız böyük çətinliklərlə üzləşmişlər. On minlərlə hektar torpaq sahəsi su altında qalmışdır. Bir neçə min ev tamamilə dağılmışdır. O cümlədən sizin evləriniz də dağılmışdır. Belə olan halda Azərbaycan dövləti bütün imkanlarını səfərbər etdi. Qarşıya birinci vəzifə qoyulmuşdu ki, xilasetmə işləri operativ şəkildə təşkil edilsin. Çox şadam ki, bizim

xilasedicilər böyük peşəkarlıqla işlədilər. Bir nəfər də itki, tələfat olmadı. Biz görürük ki, bu təbii hadisələr başqa ölkələrdə nə qədər böyük fəlakətlərə, insan itkisinə gətirib çıxarır. İkinci vəzifə ondan ibarət idi ki, biz sizi bu çətin vəziyyətdən xilas etmək üçün müvəqqəti şəraitlə təmin edək. Bu işlər də təşkil olundu. Səhiyyə, təhsil məsələləri həll edildi, bəzi yerlərdə müvəqqəti çadır şəhərcikləri quruldu. Azərbaycan dövləti əlindən gələni edirdi ki, təbii fəlakətdən əziyyət çəkmiş insanların yaşayış səviyyəsini maksimum dərəcədə yüngülləşdirək. Bu gün biz artıq görülən işlərin birinci mərhələsinə qədəm qoyuruq. Mən o vaxt məsələ ilə məşğul olanda demişdim ki, qış gələnə qədər bütün evlər bərpa olunmalıdır. Mən bu vəzifəni qarşıya qoydum. Çünki qış gələnə qədər insanlar normal evlərlə təmin olunmalıdırlar və birinci evlər, bax, bu gün sizə təqdim edilir.

Böyük çətinliklərlə üzləşmişdik, çayların məcradan çıxması, göllərin, bəndlərin dağılması bir gün deyil, iki gün deyil, bir neçə həftə davam edib. Sellər, yağışlar böyük bir təbii fəlakət idi. Ancaq xalqımız həmişə olduğu kimi, yenə də həmrəylik göstərdi. Bütün dövlət qurumları çox səmərəli və böyük peşəkarlıqla işlədi. Özəl qurumlar da öz təşəbbüsü ilə, təmənnasız bu işlərə cəlb olundu. Mən çox şadam ki, biz həm birinci mərhələdə insanları xilas etmək üçün bütün tədbirləri lazımi səviyyədə gördük və bu gün evlərin tikintisinə nail olduq, həm də artıq təbii fəlakətlə üzləşmiş bütün bölgələrdə ev tikintisi gedir. Biz yaxın zamanlarda başqa rayonlarda da belə gözəl açılışları qeyd edəcəyik. Bugünkü mərasim birincidir və bu çox vacibdir.

* * *

*Sonra prezident İlham Əliyev mənzillərin orderlərini və açarlarını sahiblərinə təqdim etdi.*

**Talıb Hüseynov** *(kənd sakini):* Cənab Prezident, kəndimizə gəldiyinizə görə camaatımız adından Sizə təşəkkür edirik. Çox minnətdarıq. Bizim durduğumuz bu ərazilər bir neçə ay əvvəl tamamilə su altında qalmışdı. Sizin sərəncamınızla görülən operativ tədbirlər nəticəsində bütün ərazi sel sularından

təmizlənmiş, işlərimiz qaydasına düşmüşdür. Hətta bizi gözəl evlərlə təmin etdiniz, çox sağ olun. Bu evlərin içərisində bütün avadanlıq yerləşdirilmişdir, insanların rahat yaşaması üçün bütün şərait yaradılmışdır. Buna görə bütün kənd camaatı adından, cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun.

**S a f u r a x a n ı m   G ö z ə l o v a** *(kənd sakini):* Cənab Prezident, xoş gəlmisiniz kəndimizə, elimizə-obamıza! Mən 1945-ci ildə – Qələbə günündə anadan olmuşam. Mən çox çətinliklər görmüşəm, yetim balalar saxlamışam, pambıq yığmışam, çox əziyyətim olub. Əziyyətlə kərpicdən bir ev tikmişdim, bu fəlakətdə uçdu. Bizi balalarımızın yanında üzüqara qoymadınız, bizə yaxşı evlər tikdirdiniz, içərisinə yaxşı əşyalar qoydurdunuz. O ulu Tanrıdan arzu edirəm ki, Sizə uzun ömür versin, Mehriban xanımla bir yerdə.

Dördüncü dəfədir ki, Siz rayonumuza gəlirsiniz. Sizin gəlişinizlə əlaqədar rayonumuza, kəndimizə qaz çəkilir. Allah Sizdən muğayat olsun. Cənab Prezident, əziz balamız, gün o gün olsun ki, belə üzaçıqlığı, alınaçıqlığı ilə, bu cür şərəflə bayrağımız əlinizlə Qarabağ torpağımıza sancılsın. Amin!

**İ l h a m   Ə l i y e v**: Çox sağ olun, xoş sözlərinizə görə minnətdaram. Mən doğrudan da Hacıqabul rayonuna bir neçə dəfə gəlmişəm. Əvvəlki gəlişlərim hər hansısa açılışlarla bağlı idi. Rayonda böyük işlər görülür.

Həm yaxşı günlərdə, həm Allah eləməsin, pis günlərdə də hamımız birlikdəyik. Bu mənim borcumdur. Azərbaycan xalqına xidmət eləmək, istənilən şəraitdə, yaxşı gündə, pis gündə biz Azərbaycan vətəndaşlarının yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün işləməliyik, Azərbaycanın qüdrətini artırmalıyıq. Bizim gücümüz xalqın gücüdür.

Bilirsiniz, indi inkişaf etmiş başqa ölkələrdə belə fəlakətlər baş verdiyi zaman orada ziyanı sığorta şirkətləri ödəyir. Çünki bütün evlər sığortalanır. Bizdə bu hələ ki, yoxdur. Bizdə hansı ev sığortalanıb? Xüsusilə çiy kərpicdən tikilmiş ola. Ona görə belə olan halda dövlət insanlara öz dəstəyini göstərməlidir,

insanları təkbaşına buraxmamalıdır. Mənim də prezident kimi, borcum xalqıma xidmət etməkdir.

Bütün dövlət qurumları, icra hakimiyyətinin əməkdaşları, vətəndaşlar səfərbərlik içində işləyib. Qarşıya vəzifə qoyulmuşdu ki, birinci növbədə insanları qorumalıyıq, tezliklə onları fəlakət zonasından çıxarmalıyıq və çalışmalıyıq ki, bu zərəri minimum səviyyəyə endirək. Ona görə də bütün insanlar, texnika səfərbər olundu. Bakıdan nə qədər maşın karvanları, vertolyotlar gəldi, böyük qayalar gətirildi. O bəndlərin bərkidilməsi üçün nə qədər böyük səylər göstərildi. Bir tərəfdən, bəndi bərkidirsən, digər tərəfdən, çay vurub onu dağıdır. Göllər, çaylar çıxdı məcrasından. Böyük bir fəlakətlə üzləşmişdik. Ancaq bu sınaqdan da şərəflə, üzüağ çıxdıq. Bir nəfər də olsun insan itirmədik. Üç-dörd ay keçəndən sonra belə gözəl evlər tikdik. Belə də olmalıdır. Azərbaycan qüdrətli dövlətdir, bizim güclü siyasi iradəmiz vardır. Bir daha demək istəyirəm ki, əsas vəzifə Azərbaycan xalqını qorumaq, onlara yaxşı şərait yaratmaq, işsizliyi, yoxsulluğu aradan qaldırmaqdır.

Allah etməsin ki, biz yenə belə bir fəlakətlə üzləşək. Ancaq biz artıq əlavə tədbirləri də görürük. Bizim işimiz təkcə ev tikməklə, yaxud kompensasiya verməklə məhdudlaşmır. Böyük məbləğdə vəsait ayrılır və ayrılacaq ki, bütün bəndbərkitmə işləri lazımi səviyyədə qurulsun. Bu işlərə ən qabaqcıl xarici mütəxəssisləri cəlb eləmişik ki, suyu idarəetmə mexanizmləri Azərbaycanda ən müasir səviyyədə təşkil olunsun. Çünki bu bəndlər əvvəlki dövrlərdə tikilibdir. Biz onların bəzilərinə yenidən baxmalıyıq və elə etməliyik ki, gələcəkdə lap belə sellər, daşqınlar zamanı insanlarımızı maksimum dərəcədə qoruyaq.

Sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm. Sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

## ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də ABŞ Dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanounu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələr, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinin gedişi və eləcə də digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Niderland Krallığı Senatının sədri Rene Van der Lindeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rene Van der Linden ilə Strasburqda keçirdiyi görüşləri və sıx təmasları məmnunluqla xatırladığını dedi.*

*Rene Van der Linden ölkəmizə yenidən səfər etməsindən, dostluq münasibətlərimizin və çox yaxşı əlaqələrimizin olmasından məmnunluğunu bildirdi. Avropa Şurası Parlament Assambleyasının sədrliyindən sonra Azərbaycan–Niderland dostluq qrupuna rəhbərlik etdiyini vurğulayan qonaq Senatın sədri kimi də ölkəmizlə əlaqələrə böyük önəm verdiyini dedi.*

*Dövlətimizin başçısı Rene Van der Lindenin vaxtilə Azərbaycan–Niderland dostluq qrupuna sədrlik etməsini yüksək dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Niderland Krallığı arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi. Əməkdaşlığımızın inkişafı üçün yaxşı potensialın olduğunu qeyd edən dövlətimizin başçısı Niderland Krallığı Senatının sədri Rene Van der Lindenin Azərbaycana bu səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Vladiqafqazda terror aktı nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən sarsıtdı.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların qohumlarına və yaxınlarına, bütün Rusiya xalqına səmimi-qəlbdən başsağlığı verirəm. Zərərçəkənlərə tezliklə sağalmağı arzulayıram.

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 sentyabr 2010-cu il*

## LATVİYANIN SABİQ PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Latviyanın sabiq prezidenti xanım Vayra Vike-Freyberqanı qəbul etmişdir.*

*Xanım Vayra Vike-Freyberqa ölkəmizə səfərindən ötən 5 il ərzində Bakıda çox böyük işlərin görüldüyünü, paytaxtın gözəl və müasir bir şəhərə çevrildiyini dedi və bu münasibətlə dövlətimizin başçısını təbrik etdi.*

*Xoş sözlərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Bakı şəhərində, eləcə də Azərbaycanın bölgələrində irimiqyaslı layihələrin həyata keçirildiyini, müxtəlif sahələrə, o cümlədən turizmin inkişafına böyük həcmdə sərmayələrin qoyulduğunu bildirdi. Azərbaycanın beynəlxalq əlaqələrinə toxunan prezident İlham Əliyev ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı məsələlərinə böyük önəm verdiyini vurğuladı.*

*Xanım Vayra Vike-Freyberqa Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının daha da genişlənməsi işinə həmişə dəstək verəcəyini dedi.*

## DÜNYA BANKININ VİTSE-PREZİDENTİ FİLİP LE UERU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Dünya Bankının vitse-prezidenti Filip Le Uerunu qəbul etmişdir.*

*Görüşdə Dünya Bankı ilə Azərbaycanın müvafiq qurumları arasında əməkdaşlığın yaxşı səviyyədə olduğu vurğulandı, ölkəmizdə son illər əldə edilən uğurlar və gələcəkdə görüləcək işlər ətrafında fikir mübadiləsi aparıldı, bir sıra beynəlxalq layihələrin həyata keçirilməsində tərəflərin maraqlı olduğu bildirildi.*

## RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ TRAYAN BESESKU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2010-cu il*

*Sentyabrın 13-də Azərbaycan prezidenti İlham Əliyevin Rumıniya prezidenti Trayan Besesku ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, dövlət başçılarının görüşlərinin və qarşılıqlı səfərlərin ölkələrimizin əlaqələrinin daha da genişlənməsi baxımından önəmli olduğu qeyd edildi. Prezidentlər sabah Bakıda keçiriləcək Azərbaycan, Gürcüstan, Rumıniya prezidentləri və Macarıstanın Baş nazirinin görüşünün əhəmiyyətinə toxunaraq, AGRİ layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması işindəki əhəmiyyətini vurğuladılar, tədbirin regional əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə etdilər.*

*Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti barədə söhbət açdı.*

*Görüşdə ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 sentyabr 2010-cu il*

*Sentyabrın 13-də Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstan prezidenti Mixeil Saakaşvili ilə görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Azərbaycan, Gürcüstan, Rumıniya prezidentləri və Macarıstanın Baş nazirinin Bakıda keçiriləcək görüşünün əhəmiyyətindən danışan dövlət başçıları AGRİ layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması və regional əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduqlarını bildirdilər.*

## MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 sentyabr 2010-cu il*

*Sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstan Respublikasının Baş naziri Viktor Orban ilə görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Baş nazir Viktor Orbanın Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizə dair məsələlərin müzakirəsi baxımından əhəmiyyətini vurğuladı, əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Baş nazir Viktor Orban Azərbaycan ilə Macarıstan arasında ikitərəfli əlaqələrin hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparmaq üçün səfərin yaxşı imkan yaratdığını dedi və səfər zamanı səmərəli müzakirələr aparılacağına əminliyini ifadə etdi.*

*Görüşdə AGRİ layihəsinin ölkələr arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd olundu.*

*Söhbət zamanı Azərbaycan–Macarıstan ikitərəfli münasibətlərinin Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından da əhəmiyyəti qeyd edildi, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən humanitar sahədə genişlənməsi üçün yaxşı potensialın olduğu bildirildi.*

## AZƏRBAYCAN, GÜRCÜSTAN, RUMINİYA VƏ MACARISTANIN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ DÖRDTƏRƏFLİ GÖRÜŞÜ

*Prezident sarayı*

*14 sentyabr 2010-cu il*

*Sentyabrın 14-də Bakıda Azərbaycan prezidenti İlham Əliyevin, Rumıniya prezidenti Trayan Beseskunun, Gürcüstan prezidenti Mixeil Saakaşvilinin və Macarıstanın Baş naziri Viktor Orbanın görüşü olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev tədbir keçirilən binada Rumıniyanın və Gürcüstanın prezidentlərini, Macarıstanın Baş nazirini qarşıladı.*

*Dördtərəfli görüşün iştirakçıları əvvəlcə rəsmi foto çəkdirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev «Azərbaycan–Gürcüstan–Rumıniya İnterconnector» (AGRİ) layihəsinə həsr olunmuş görüşdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli prezidentlər!

Hörmətli Baş nazir!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlayıram. Sizi görməyə çox şadam. Hesab edirəm ki, bugünkü görüş uğurlu olacaq və biz yaxşı nəticələr əldə edəcəyik. Bu sammitin təşkilində bizim müvafiq qurumlarımız və nazirliklərimiz böyük işlər görüblər. Əminəm ki, bugünkü iclas, buradakı müzakirələr və imzalanacaq sənəd regional miqyasda tamamilə yeni bir vəziyyət yaradacaqdır.

Əminəm ki, növbəti aylarda biz çox çalışacağıq ki, planlaşdırdığımızı həyata keçirək.

Bildiyiniz kimi, Azərbaycan qədim neft ölkəsidir. Dünyada ilk neft Azərbaycanda hasil olunub və beləliklə, neft və qaz sahəsində bizim böyük ənənələrimiz vardır. Açıq dənizdə dünyada ilk neft də Azərbaycanda hasil olunub. Ötən əsrin ortalarında Sovet İttifaqında əldə olunan neftin böyük hissəsi Azərbaycanda hasil edilirdi. Lakin Sovet İttifaqı süquta uğradıqdan sonra ciddi çətinliklərlə üzləşmişdik. O zaman neft və qaz hasilatında böyük tənəzzül və özümüzü daha tam idarə edə bilməmək təhlükəsi var idi. Beləliklə, mövqelərimizi bərpa etməyin yeganə yolu xarici sərmayələrin cəlb olunması üçün ciddi çalışmaq idi. Bu istiqamətdə siyasətimiz uğurlu oldu və 1994-cü ildə ilk əsas neft müqaviləsi imzalandı. Bu, sonralar «Əsrin müqaviləsi» adlandırıldı və bizə neft və qaz sahəsinə milyardlarla birbaşa xarici sərmayə cəlb etməyə imkan verdi. Xəzər dənizində yeni tərəfdaşlıq ruhu yaratdı. Xəzər dənizi beynəlxalq sərmayələr üçün ilk dəfə açıq oldu və bu, tərəfdaşlarımızla qarşılıqlı maraqlar əsasında çox fəal və hərtərəfli əməkdaşlığa başlamağımıza şərait yaratdı.

Mən bütün bunların necə baş verdiyini və həmin əməkdaşlığın nəticələrinin nədən ibarət olduğunu qısaca xatırladıram. Zənnimcə, ən böyük nəticə neft və qaz sahəsində güclü əməkdaşlığın qurulması, enerji dəhlizlərinin yaradılması oldu ki, Azərbaycanın karbohidrogen ehtiyatları ilk dəfə Qərb istiqamətinə nəql olunmağa başlandı. İlk dəfə olaraq enerji infrastrukturu Xəzər dənizini Qara və Aralıq dənizləri ilə birləşdirdi. Bu, təkcə karbohidrogen ehtiyatlarının hasilatı və satılması məsələsi deyildi. Bu, böyük məna kəsb edirdi və geniş regional əməkdaşlığa yol açaraq, hazırda geniş beynəlxalq əməkdaşlığa çevrilmişdir.

Hazırda neft və qaz təchizatının şaxələndirilməsində əldə etdiyimiz yaxşı nəticələr tamamilə yeni mənzərə yaradır. Biz bu sərmayələri iqtisadiyyatı şaxələndirmək, digər sahələrə cəlb etmək və eyni zamanda, yeni layihələr üzərində çalışmaq üçün

istifadə etməyə nail olduq. Bakı–Tbilisi–Ceyhan bu istiqamətdə ilk addım oldu. Cənubi Qafqaz adlandırılan qaz boru kəməri isə bizə qonşu bazarlara nəinki nefti, hətta qazı ixrac etməyə imkan yaratdı. Biz karbohidrogen ehtiyatların kənar təchizat asılılığından yaranan vəziyyətindən yaxşı xəbərdarıq. Çünki bir müddət biz də təbii qazı idxal edirdik.

Biz eyni zamanda, Xəzər dənizinin şərqindəki tərəfdaşlarımız üçün tranzit ölkə olmuşuq. Bu gün də belədir və biz həm hasilatçı, həm də ixracatçıyıq. Biz mühüm regional layihələri həyata keçirmişik və indi də həyata keçiririk. Düşünürəm ki, hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasındakı maraqlar tarazlığı və regional əməkdaşlığın bu üç vacib seqmenti arasındakı qarşılıqlı anlaşma mühüm əhəmiyyət daşıyır. Fikrimcə, bu gün maraqlar tarazlığının təmin olunduğu bir vəziyyət yaranıb və hamı – hasilatçılar, tranzit ölkələr və istehlakçılar bundan yararlanacaqlar. Daha sonra ölkələrimiz də, xalqlarımız da bundan faydalanacaq və bu, regional əməkdaşlıqda yeni mərhələyə gətirib çıxaracaqdır.

Bu gün biz Gürcüstan, Rumıniya və Macarıstandan gələn qonaqların iştirakını nəzərə alaraq, Qara dəniz–Xəzər dənizi əməkdaşlığından ciddi danışa bilərik. Biz bu layihəyə bir neçə il bundan əvvəl Bakıdan Supsaya, Qara dənizin Gürcüstan sahilinə uzanan boru kəmərinin tikintisi ilə başladıq. Bir qədər əvvəl qeyd etdiyim kimi, biz Xəzər dənizinin və Qara dənizin hövzələrini birləşdirdik. Əminəm ki, bu görüşün nəticəsi olaraq bu marşrutun genişləndirilməsi və yeni layihələr yeni imkanlar açacaq, ölkələrimiz arasında daha sıx əlaqələrin yaranmasına şərait yaradacaqdır.

Hesab edirəm ki, bugünkü sammitin keçirilməsinin əsas səbəblərindən biri təmsil etdiyimiz ölkələr arasında mövcud olan möhkəm əlaqələrdir. Bizim Gürcüstan, Rumıniya və Macarıstan ilə yaxşı ikitərəfli əlaqələrimiz vardır. Bu əlaqələrin genişlənəcəyinə, müxtəlif sahələrdə daha da inkişaf edəcəyinə əminəm. Hesab edirəm ki, enerji amili bu əlaqələrin mühüm elementidir, lakin biz təkcə enerji əməkdaşlığı ilə

kifayətlənməməliyik. Enerji sahəsində əməkdaşlıq iqtisadiyyatımızın bütün digər sektorlarına mühüm yol açacaq və təbii ki, biz siyasi əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün çalışacağıq.

Bu gün Azərbaycan neft və qaz ehtiyatlarını müxtəlif beynəlxalq bazarlara nəql edir. Uğurlu neft strategiyası və siyasətinin nəticəsi olaraq Azərbaycan artıq qaz ixrac edən ölkəyə çevrilib. Bu ixracatın istiqamətləri genişlənir və həcmi də artır. Bu il qaz hasilatının həcmi təxminən 28 milyard kubmetr olacaqdır və bu bizə ənənəvi istiqamətlər üzrə ixracatı artırmağa imkan verəcəkdir. Bu gün biz qazımızı dörd qonşu ölkəyə ixrac edirik və həmin ixracatın həcmi artmaqdadır. Bizim təsdiq olunmuş böyük ehtiyatlarımız vardır. Azərbaycanın beynəlxalq səviyyədə təsdiq olunmuş qaz ehtiyatları təxminən 2 trilyon kubmetrdir, lakin reallıqda minimal potensial ehtiyatlarımız 5 trilyon kubmetrə yaxındır. Bu, şaxələndirilmiş ixracat strategiyası üçün onilliklərə, bəlkə də yüz ilə kifayətdir.

Mühüm məsələ odur ki, qazımızı müxtəlif bazarlara nəql etmək üçün artıq infrastrukturumuz vardır. Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərinin tikintisi regionlarımız arasında qaz sahəsində əməkdaşlığın inkişafı üçün böyük rol oynamışdır. Lakin bu, nisbətən məhdud həcmə malik olan ilkin bir addım oldu. Hazırda biz şaxələndirmənin hamımıza fayda gətirəcəyini nəzərə alaraq yeni marşrutların müəyyənləşdirilməsi istiqamətində çalışırıq. Bu işləri görmək üçün planlarımız və güclü siyasi iradəmiz vardır. Mən əminəm ki, bu gün müzakirə edəcəyimiz məsələlər regionun gələcək enerji xəritəsi üçün çox mühüm rol oynayacaqdır. Əslində biz enerji xəritəsini dəyişdiririk. Biz hasilat, nəqletmə, ixracat marşrutları və yeni marşrutların yaranması imkanları haqqında ənənəvi anlayışları dəyişdiririk. Biz bu vəziyyəti dəyişdiririk, vəziyyət öz-özünə yaranmır. Bu, liderlərin siyasi iradəsidir və eyni zamanda, praktiki layihələr, səylərin əlaqələndirilməsi üzrə ciddi bir işdir. Mən əminəm ki, ölkələrimiz və ölkələrimizin rəhbərləri

arasındakı anlaşma səviyyəsi, səylərimizin potensial əlaqələndirmə səviyyəsi tamamilə yeni bir şərait yaradacaqdır.

Qeyd etdiyim kimi, biz qonşu ölkələrlə enerji sahəsində fəal əməkdaşlıq edirik. Eyni zamanda, Avropa təsisatları ilə də sıx çalışırıq. 4 il bundan əvvəl biz Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji əməkdaşlığa dair memorandum imzalamışıq və bu təmaslar çox fəaldır. Mən çox şadam ki, bu gün Avropa İttifaqının iki üzv ölkəsi və Cənubi Qafqaz regionunun iki ölkəsi bu sammitdə iştirak edir. Uzun illər enerji sahəsində fəal əməkdaşlıq edən bu ölkələr indi bir komanda kimi çalışır. Mən çox istərdim ki, biz gələcəkdə də birgə çalışaq. Bu bizə qaz potensialımızı reallaşdırmağa kömək edəcək, bizim üçün yeni bazarlar açacaq və eyni zamanda, imkan verəcək ki, Avropa istehlakçılarının Xəzər regionuna, onun karbohidrogen ehtiyatlarına çıxışını təmin edəcək layihələr üzrə birgə çalışaq. Fikrimcə, əgər biz bütün maraqları üst-üstə qoymağa nail olsaq, qarşımızda aydın mənzərə və çox vədedici gələcək olacaqdır. Əminəm ki, dünən həmkarlarımla apardığım və bu gün cənab Baş nazirlə aparacağım danışıqlar bu əməkdaşlıq ruhunu gücləndirəcəkdir.

Bu gün biz AGRİ adlanan layihə üzrə bəyannamə imzalayacağıq. Bu yeni bir addır və ola bilsin ki, onun haqqında hamının məlumatı yoxdur. Lakin yeni olmaq arxada qalmaq demək deyildir. Düşünürəm ki, bizim yaxşı dinamika, sürət və sadiqliklə indiyədək müzakirə olunan bütün layihələr arasında lider olmağa yaxşı imkanımız vardır. Biz Cənub dəhlizinə aid layihələr üzərində çalışmağa davam edəcəyik və fikrimcə, AGRİ layihəsinin çox yaxşı potensialı vardır. Çünki biz onu irəliyə doğru aparmaq üçün aramızda olan güclü sadiqliyi görürük. Əvvəl qeyd etdiyim kimi, biz artıq bir çox hazırlıq işlərini görmüşük, Anlaşma Memorandumu imzalanıb və bu gün mühüm sənəd imzalanacaqdır. Bu səbəbdən güclü sadiqliklə, səylərimizi birləşdirməklə, əminəm ki, biz yaxşı nəticələr əldə edə biləcəyik. Fikrimcə, regionumuzda enerji əməkdaşlığının yeni səhifəsini aça bilərik və açmalıyıq,

baxmayaraq ki, AGRİ layihəsi haqqında çoxlarının məlumatı yoxdur. Əminəm ki, bu sammitdən sonra AGRİ layihəsi regionumuzda və Avropada olan mühüm enerji və qaz layihələri arasında öz yerini tutacaqdır.

Beləliklə, çıxışımın sonunda bugünkü toplantıdan məmnunluğumu bildirmək istəyirəm. Əziz qonaqlar, dəvətimi qəbul etdiyiniz üçün sizə çox minnətdaram və əminəm ki, bugünkü tədbir yaxşı nəticələrlə güclü əməkdaşlığın başlanılması kimi tarixə düşəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

# DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

*14 sentyabr 2010-cu il*

*Sentyabrın 14-də AGRİ layihəsinə dair Bakı Bəyannaməsi imzalandıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev, Rumıniya prezidenti Trayan Besesku, Gürcüstan prezidenti Mixeil Saakaşvili və Macarıstanın Baş naziri Viktor Orban birgə mətbuat konfransı keçirmişlər.*

**İ l h a m Ə l i y e v**: Hörmətli xanımlar və cənablar!

Mən hamını bu əlamətdar hadisə münasibətilə təbrik etmək istəyirəm. Biz indicə AGRİ layihəsi üzrə mühüm bir bəyannamə imzaladıq. Bu layihə üzərində uzun müddət çalışmışıq. Nisbətən yeni bir layihə olmasına baxmayaraq, onun çox yaxşı gələcəyi var. Biz bu gün bunu müzakirə etdik. Ölkələrimizin liderlərinin, insanlarımızın, şirkətlərin və nazirliklərin təmsilçilərinin bizim bir araya gəlməyimiz üçün etdiyi səylər yaxşı nəticələr verib. Biz böyük bir inkişafın başlanğıcındayıq və əminəm ki, bu iş uğurlu olacaqdır.

Bu layihəni sürətlə irəliyə aparmaq üçün bizə lazım olan hər bir şey vardır. İlk növbədə çox güclü siyasi iradəmiz və ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə sıx əməkdaşlıq mövcuddur. Bugünkü sammit bunun yaxşı göstəricisidir.

Bizim böyük həcmdə təbii ehtiyatlarımız vardır. Azərbaycan «Şahdəniz» və digər qaz yataqlarında hasilatı artırmaq üçün öz töhfələrini verəcəkdir. Bizim etibarlı nəqletmə və tranzit marşrutlarımız mövcuddur. Bizim dost qismində istehlakçılarımız vardır. Onların qaz təchizatının əlavə mənbələrinə ehtiyacları vardır. Əgər biz istənilən potensial enerji layihəsində bütün əhəmiyyətli elementləri bir araya qoysaq

görərik ki, mənzərə çox vədedicidir. Zənnimcə, imzaladığımız bəyannaməni hansı sürətlə və səmərə ilə icra etməyimizdən, texniki əsaslandırmanı hansı sürətlə və səmərə ilə hazırlamağımızdan və təbii ki, maliyyə ehtiyatlarının artırılmasından, bütün təcrübə və texniki bacarıqlarımızın istifadəsindən çox şey asılı olacaqdır.

Əminəm ki, nəhəng enerji layihələrini irəliyə aparmaq və icra etmək təcrübəsi bizə uğur gətirəcəkdir. Bizim özəl təcrübəmiz vardır və bu gün biz sərmayələrin cəlb edilməsi, neft və qaz sahəsinə sərmayə qoymaq və maliyyə ehtiyatlarının artırılması üçün beynəlxaq maliyyə institutları ilə əməkdaşlıq məsələlərini, tikilən boru kəmərlərini və istehlakçı, tranzit və hasilatçı ölkələr arasında qurulan yaxşı əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu maraqların tarazlığı, qarşılıqlı asılılıq layihələrin uğurla həyata keçirilməsi üçün mühüm elementlərdən sayılır. Başqa sözlə desək, layihəni həyata keçirmək üçün bizə lazım olan hər bir şərait vardır. Ümid edirəm ki, bugünkü imzalanma mərasimi və apardığımız danışıqlar, şirkətlərin və nazirliklərin nümayəndələrinə verdiyimiz göstərişlər gələcəkdə uğurun əldə olunması üçün öz rolunu oynayacaqdır.

Bir daha bu mühüm tarixlə bağlı hamını təbrik etmək istəyirəm. Əminəm ki, bu gün tarixdə öz yerini tutacaq, tərəfdaşlığı, enerji təhlükəsizliyini, üzərində çalışdığımız tədbirləri gücləndirəcək, xalqlarımız və regionlarımız arasında əməkdaşlığa, çiçəklənməyə və uğurun əldə olunmasına gətirib çıxaracaqdır. Bir daha mən hörmətli qonaqlarımıza bizimlə bir araya gəldiklərinə və bütün iştirakçılara gərgin əməklərinə görə təşəkkür edirəm. Çox sağ olun və sözü prezident Saakaşviliyə verirəm.

**M i x e i l  S a a k a ş v i l i** (*Gürcüstan prezidenti* ): İlk növbədə mən Azərbaycan tərəfinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Mən Bakıya tez-tez gəlirəm və hər dəfə buraya gələndə bu şəhərin təkcə həmişə inkişaf etdiyinin deyil, onun parlaq gələcəyə sürətlə addımladığının şahidi oluram. Əslində çox canlı şəhərdir,

burada həmişə nə isə baş verir. Dünən bizim İçərişəhəri gəzmək və şəhərdə aparılan yeni tikinti işləri ilə yaxından tanış olmaq üçün gözəl imkanımız oldu. Bilirsiniz, bu siyasət elə bir fakta, elə bir fikrə əsaslanır ki, Azərbaycanın bütün gəlirləri insanların, xalqın rifahına yönəlməlidir. Düşünürəm ki, bunun əsasında davamlı, uzaqgörən siyasət dayanır. Bakının gözəlliyi və prezident İlham Əliyevin ruh yüksəkliyi, onun öz ölkəsinin gözəl gələcəyini necə təmin etməsinə dair baxışları məndə dərin təəssüratlar yaratdı.

Xəritəyə nəzər yetirsəniz görərsiniz ki, bu, enerji daşımaları üçün ən məntiqi marşrutdur. Belə ki, düz xətt üzərində yerləşir və ən qısa yoldur. Qara dənizdən 1100 kilometr məsafəni əhatə etməklə, enerji ehtiyatlarının Xəzər dənizindən Avropa istiqamətinə daşınmasında ən qısa yoldur. Bu layihənin daha öncə ərsəyə gəlməməsinin səbəbi burada üçüncü tərəflərin müəyyənləşdirilməməsi idi. Eyni zamanda, biz Türkiyə ərazisindən keçəcək Nabukko boru kəmərini də tam dəstəkləyirik. Lakin AGRİ layihəsi şübhəsiz ki, ən məntiqi və qısa yoldur. Prezident Trayan Besesku da bu layihənin sadəliyini görənlərdən biri oldu və «hə» dedi, lazımi işləri həyata keçirdi. Bu gün Macarıstanın Baş naziri Viktor Orbanı burada görməyimizə şadıq. Zənnimcə, bu onun ölkəsi üçün, «Şərq Tərəfdaşlığı» proqramı üçün vacib məsələdir.

Gələn il Macarıstan Avropa İttifaqının sədrliyini üzərinə götürəcəkdir. Biz hamımız Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» ilə daha sıx əlaqələrinin yaranmasında və bütün istiqamətlərdə hansı işlərin görülməsində böyük rol oynayırıq. Bu nöqteyi-nəzərdən düşünürəm ki, biz Macarıstanın özündə, siyasətində, macar hökumətində yeniliklər müşahidə edirik. Demək istəyirəm ki, onlar islahatlar həyata keçirirlər. Bizim də çox islahatçı ölkə olduğumuzu bildirmək istərdim, lakin bu mənada Macarıstanın da adını çəkməyə bilməzdim. Digər tərəfdən, düşünürəm ki, bu, «Şərq Tərəfdaşlığı» siyasətinin tərkib hissəsi kimi, yeni enerji təchizatına gətirib çıxaracaqdır. Macarıstanın bu layihədə iştirakı Avropada enerji layihələrinə

yeni nəfəs verəcək və yeni baxış yaradacaqdır. Macarıstanın və Rumıniyanın enerji sahəsində ümumi Avropa İttifaqı siyasətinin yaradılması və Avropada uzunmüddətli enerji təhlükəsizliyinin təmin edilməsi üçün səylər göstərəcəyinə ümid edirik. Mənim ölkəm hələ bir neçə il öncə enerji məsələsində təhlükəsiz deyildi. Bu gün Gürcüstanın enerji təhlükəsizliyini və davamlı inkişafını təmin etmək üçün səylərini bir araya toplayan azərbaycanlı dostlarımızın və digər tərəfdaşlarımızın sayəsində Gürcüstan dünyanın ən sabit və təhlükəsiz ölkələri sırasındadır.

Azərbaycana nəzər yetirsəniz şahid olarsınız ki, bir çox layihələrdə bu ölkə heç kimi heç vaxt çətin vəziyyətdə qoymayıb. Digər enerji ixracatçılarına nəzər yetirdikdə, bunun müstəsna hal olduğunun şahidi olacaqsınız. Bu nöqteyi-nəzərdən, indi biz nikbin olmalıyıq. Bu, ümumi bir bəyannamə deyil, reallıqdır, bu, regionda həyata keçiriləcək ən sürətli layihə olacaqdır.

**T r a y a n B e s e s k u** (*Rumıniya prezidenti* ): İcazə verin, həmkarlarımı təbrik edim, çünki biz razılıq əldə etdik. Bəyannamədə qeyd edildiyi kimi, biz bu layihəni reallaşdırmaqda qərarlı olduğumuzu açıqladıq. Hesab edirəm ki, bu layihə ilk növbədə Avropa İttifaqının «Şərq Tərəfdaşlığı»na doğru yanaşmasının sübutudur. Bu layihə sübut edir ki, Avropa İttifaqı sərhədlərinin şərq hissəsində yerləşən ölkələr hər iki tərəfin maraqları çərçivəsində əməkdaşlıq edə bilər. Layihə Avropa İttifaqının açıq bazarı təmin etmək məqsədilə alternativ yollar yaratmaq strategiyasına uyğun gəlir. Həmçinin Qara dənizin iki tərəfini birləşdirən, demək olar ki, ən mühüm layihədir.

Uzun müddət mən Avropa İttifaqı və digər beynəlxalq təşkilatlarda belə bir fikri dəstəkləmişəm ki, Avropa İttifaqının, hətta NATO-nun təhlükəsizliyi Xəzər dənizi regionunda və Mərkəzi Asiyada baş verən hadisələrdən çox asılıdır. Bu layihə Avropa İttifaqı ölkələri, Xəzər dənizi və Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığa öz töhfəsini verəcəkdir. Mən əminəm ki, Azərbaycan hazırda layihənin ilk təminatçısıdır, lakin yeganə

təminatçısı olmayacaqdır. Bundan əlavə, layihə Avropa İttifaqının şərq hissəsinin enerji təhlükəsizliyi sahəsinə daxil olmaqla, bu sahəyə də öz töhfəsini verəcəkdir.

Biz 2 il əvvəl nə baş verdiyini bilirik. Ukrayna ərazisindən qaz təchizatı sual altında idi. Həmin dövrdə Rumıniya kifayət qədər qaz enerjisinə malik idi və qazın həcmi nöqteyi-nəzərindən Bolqarıstan kimi ölkələri təmin edə bilərdi. Lakin əlaqələrin olmaması səbəbindən Rumıniya bu ölkəyə yardım göstərə bilməyib. Hazırda Avropa İttifaqı Rumıniya və Macarıstan, Rumıniya və Bolqarıstan arasında qazın ötürülməsi üçün zəruri infrastrukturu maliyyələşdirib. Biz hesab edirik ki, Macarıstanın bu layihədə iştirak etməsi layihəni Avropa İttifaqı daxilində rəqabətədavamlı və səmərəli edən amildir.

Bu layihə siyasi qərarlara deyil, səmərəliliyə əsaslanan yeganə layihədir. Əlbəttə, kimsə bu layihəyə daxil olmağın xərclərini müəyyən etsə, o, asanlıqla əmin olacaq ki, bu, ən doğru iqtisadi həll yoludur. Layihənin ilkin mərhələsinin infrastrukturu Rumıniya, Macarıstan, Avstriya və digər ölkələrin ərazisində qurulacaqdır. Layihənin ölkəmizin ərazisində reallaşması üçün yalnız biri Gürcüstan, digəri isə Rumıniyada olan iki mayeləşdirilmiş təbii qaz terminalı və Gürcüstan ərazisində terminalın 100 kilometr genişləndirilməsi ilə əlaqədar investisiya qoyulması kifayət edir. Bu onun ucuz, səmərəli və mərhələlərlə inkişaf etdirilə biləcək bir layihə olmasının göstəricisidir. Keyfiyyətli nəticələr üçün biz bu gündən AGRİ layihəsinin tərəfdarıyıq. Əlbəttə, biz Nabukko layihəsinin əleyhinə olmayacağıq. Biz onun da əsas tərəfdarıyıq. Lakin Rumıniya daha çox AGRİ layihəsinə dəstək verəcək. Çünki bu layihə tezliklə reallığa çevrilə bilər. 2-3 ilə bu, real olacaqdır.

**Viktor Orban** (*Macarıstanın Baş naziri*): Təşəkkür edirəm. Məndən əvvəl çıxış edənlərə qoşularaq bizi əfsanəvi Bakı şəhərinə dəvət etdikləri üçün ev sahiblərinə təşəkkürümü bildirirəm. Paytaxtınıza ilk dəfə gəlirəm. Şəhərin möhtəşəmliyi bir faktı əsaslandırır ki, buraya daha əvvəl gəlməmək böyük

səhv olub. Ümid edirəm ki, Macarıstan uzun müddət bu ərazi ilə Avropa İttifaqı arasında əməkdaşlığın qurulmasına kömək edəcəkdir.

Cənab Prezident, icazə versəniz, mən üç məsələyə toxunmaq istərdim. Əvvəlcə bizim kiminsə qalib gələcəyi və ya kiminsə məğlub olacağı fəlsəfəsinə əsaslanan əməkdaşlıq və ittifaqlar üzrə təcrübəmiz vardır. Hazırda əməkdaşlıq üçün doğru zamandır. Bu, bütün tərəfləri qane edən bir vəziyyətdir, hamıya uğur gətirəcək əməkdaşlıqdır. Bu, dünya siyasətinin gələcək onillikləri üçün bir müjdədir.

İkinci məsələ isə hər bir macarın düşüncəsində olan şaxələndirmə məsələsidir. Əgər biz marşrutları və mənbələri ayırmasaq, enerji bazarında rəqabət yaranmayacaqdır. Enerji bazarında rəqabət olmasa, biz həmin biznes sahəsini siyasiləşdirmiş olacağıq. Enerji və siyasətin birləşməsi isə hamımız üçün bir çox problemlər yaradır. Bu səbəbdən, şaxələndirmə bu vəziyyətdən çıxış yolu və rəqabəti təmin edəcək amildir. Bu investisiya və əməkdaşlıq marşrut və mənbələrimizin şaxələndirilməsinin gözəl nümunəsidir.

Zati-alilərinin qeyd etdiyi kimi, biz macarlar bu əməkdaşlığın qərb hissəsini təmsil edirik. Biz bunun nə demək olduğunu bilirik. Biz bu layihəyə ciddi yanaşırıq və Rumıniya ilə əməkdaşlıq zamanı əlimizdən gələni edəcəyik ki, bu layihənin bütün Avropa İttifaqı üçün rəqabətədavamlı bir layihə olduğunu göstərə bilək. Biz layihənin sabit təməlini bu yolla təmin edəcəyik. Beləliklə, zati-aliləri, Sizə dəvətiniz üçün təşəkkürümü bildirirəm. Mən burada olmaqdan çox məmnunam və Sizə bütün macar xalqı adından minnətdarlığımı çatdırıram. Təşəkkür edirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Mənim sualım prezident Trayan Beseskuyadır. Avropanın maliyyə vəsaitləri bu layihə üçün istifadə oluna bilərmi? Bunun Nabukkoya nə cür təsiri olacaq? Azərbaycan tərəfi də Nabukkoda iştirak etmək istəyini bildirmişdir. İndi isə mən Sizin yeni bir layihə ilə bağlı fikirlərinizi öyrənmək istərdim.**

**T r a y a n B e s e s k u**: Gəlin sualınızın sonuncu hissəsindən başlayaq. Rumıniya texniki əsaslandırma işini hazırda aparmaqdadır və bunu ABŞ hökuməti öz inkişaf və ticarət agentliyi vasitəsi ilə maliyyələşdirir və burada söhbət Konstansada maye qaz terminalının tikintisindən gedir. Yəni, amerikalı tərəfdaşlar istəyir ki, araşdırma daha geniş şəkildə aparılsın ki, buraya Gürcüstan da daxil edilsin. Buna imkan da vardır. Əvvəlcə demək istəyirəm ki, bunu maliyyələşdirmək və texniki əsaslandırma işini də vaxtında həyata keçirmək olar. O ki qaldı qiymət məsələsinə, mən bu haqda heç nə deyə bilmərəm. Yalnız onu deyə bilərəm ki, əgər layihə icra olunarsa, bu, ticarət və inkişaf agentliyi tərəfindən maliyyələşdiriləcək və mərhələlərlə həyata keçiriləcəkdir. Konstansa terminalı vasitəsilə ildə 10 milyard kubmetr, növbəti ildə əlavə 10 və üçüncü ildə əlavə 10 milyard kubmetr qaz ötürüləcəkdir. Bu isə ümumilikdə 30 milyard kubmetr təşkil edəcəkdir. Bu layihə ilk növbədə bazardakı mövcud tələbatdan, digər tərəfdən, təchizat mənbələrindən asılı olacaqdır. Təbii ki, layihənin birinci mərhələsinə gəldikdə, əminliklə qeyd etmək olar ki, bu, Azərbaycan qazı sayəsində həyata keçiriləcəkdir. Avropa maliyyəsi cəlb olunacaqdır ki, texniki əsaslandırma işi başa çatdırıldıqdan sonra artıq biz daha ciddi şəkildə bu sərmayənin maliyyə mənbələri haqqında danışa bilək. Hazırda o öhdəliyi, məsuliyyəti öz üzərimizə götürürük ki, biz dövlətlər olaraq layihənin müxtəlif mərhələlərinə hazırıq. Daha sonra isə növbəti bir mərhələ kimi, sərmayələri yatıracaq, terminalları istismar edəcək şirkətləri müəyyən edəcəyik. Bu, özəl şirkətlərə məxsus terminallar olacaqdır ki, biz bir növ özəl sərmayələri cəlb edə bilək. Biz istəyirik ki, işlər başlansın. Yəni, burada milli şirkətlərin, 4 ölkənin şirkətlərinin oynadığı rol ondan

ibarət olacaqdır ki, onların Buxarestdə ümumi bir ofisi olsun və layihə çərçivəsində bunu irəliyə doğru apara bilsinlər. Mənim üçün bu layihəyə nə qədər vəsaitin sərf olunacağını demək çətindir. Siz bilirsiniz ki, çətindir. Məncə bu, ən ucuz və ən az vəsait tələb edən bir layihə olacaqdır. Bu, mövcud alternativ yollar arasında Xəzər dənizi və Mərkəzi Asiyadan enerji ehtiyatlarının Avropa bazarlarına çıxarılmasının ən asan yoludur. Qiymətlərə gəldikdə isə bu çox yaxşı rəqabət qabiliyyəti olan layihə olacaqdır.

**S u a l: Cənab prezidentlər, cənab Baş nazir, çox sağ olun. Sizdən bir daha bu layihənin şaxələndirmə və alternativ təchizat marşrutları nöqteyi-nəzərindən əhəmiyyəti barədə soruşmaq istərdim, bu hər kəs üçün enerji təhlükəsizliyinin təminatı hesab edilə bilərmi?**

**V i k t o r O r b a n**: Sual ilk baxışda göründüyündən daha geniş sahələri əhatə edir. İlk növbədə qlobal iqtisadiyyatda bir çox çətinliklər mövcuddur və bunlar gələcəkdə də olacaqdır. Buna görə də biz Avropanın, məsələn, 10 ildən sonra necə olacağını deyə bilmərik. Şübhəsiz ki, Avropada və qlobal iqtisadiyyatda bir çox qeyri-müəyyən məqamlar vardır. Əsas məsələ siyasətçilərin və xalqların bu qeyri-müəyyənliklərə necə cavab verməsidir. Burada iki mümkün hal ola bilər. Birincisi, heç bir tədbir görməmək və qlobal maliyyə böhranının bitməsini gözləmək. Digər variant isə fəal olmaq və qlobal böhranla mübarizə aparmaqdan, yeni perspektivləri müəyyənləşdirməkdən ibarətdir. İnanıram ki, bu baxımdan layihə çox vacibdir, çünki qeyri-müəyyənlikdə olan qlobal iqtisadiyyata yaxşı bir cavabdır. Bu, avropalılar üçün də yaxşı ismarıcdır. Büdcələrin tarazlığı da çox vacibdir, lakin biz bununla kifayətlənməməliyik. Buna görə də biz işləri davam etdirməliyik. Hərəkət olmayan yerdə, biznes də olmur. Biznes olmadıqda, iqtisadi inkişaf da olmur. İqtisadi inkişaf olmadıqda isə insanlar işsiz qalır. Doğrudan da insanlar işsiz qalır. Avropa təcrübəsində siyasi sabitsizlik baş verə bilər. Əgər Avropada sülh və sabitlik şəraitində yaşamaq istəyiriksə, o zaman biz qeyri-müəyyənliklərə qarşı fəal olmalıyıq. Budur bu layihənin

siyasi anlamı. Məhz buna görə mən fəal qrupun üzvü olmaqdan çox şadam. Kim tərəddüd etmir? Çətin vəziyyətlərin öz-özünə həllini tapacağını gözləməyin, çalışın gələcəyi özünüz yaradın. Məni həvəsləndirən məhz budur. Bu nöqteyi-nəzərdən bizim ittifaq növbəti onillikdə Avropa iqtisadiyyatının sabitləşməsinə töhfələr verəcəkdir.

**İ l h a m Ə l i y e v**: Əlavə etmək istərdim ki, şaxələndirmə enerji təhlükəsizliyinin mühüm elementlərindən biridir. Çünki Azərbaycan kimi, dünyanın neft və qaz bazarlarına birbaşa çıxışı olmayan ölkələr – mən burada böyük bazarları nəzərdə tuturam – daim şaxələndirilmiş təchizat marşrutlarına ehtiyacın yarandığı vəziyyətlə üzləşirlər. Şaxələndirilmiş təchizat infrastrukturu yarandıqda isə müstəqil enerji siyasəti yürütmək imkanlarımız sürətlə artır. Deyə bilərəm ki, bir vaxtlar Azərbaycanın enerji daşıyıcılarının şaxələndirilmiş nəqletmə infrastrukturu yox idi. Bizim sovet dövründə tikilən bir neçə neft və qaz boru kəmərimiz var idi və onlar fəaliyyət göstərmirdi. Müstəqillik illərində isə hasilata yatırılan sərmayələr nəqletmə infrastrukturuna qoyulan sərmayələrlə paralel aparılırdı. Məhz bu yolla Bakı–Supsa neft boru kəməri, sonra isə Bakı–Tbilisi–Ceyhan neft boru kəməri və daha sonra Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri tikilmişdi.

Hazırda böyük neft və qaz ehtiyatları, o cümlədən hasilatı olan Azərbaycanın nefti və qazı bütün istiqamətlərə nəql edən 7 boru kəməri vardır. Bütün boru kəmərlərini genişləndirmək üçün yaxşı imkanlar var, o cümlədən texniki cəhətdən yaxşı imkanlar vardır. Əgər özümüzün və qonşu ölkələrin təbii qazını daha çox nəql etmək zərurəti yaranarsa, biz əlavə boru kəmərlərini də tikə bilərik. Bizim üçün şaxələndirmə enerji potensialımızı reallaşdırmaq qabiliyyəti deməkdir. Biz tam dərk edirik ki, şaxələndirmə enerji ehtiyatları ilə özünü tam təmin etməyən ölkələr üçün proqnozlaşdırmanın mümkünlüyü və enerji təhlükəsizliyi deməkdir.

Bildiyimiz kimi, bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. Bu mənada bugünkü

tədbirin və bəyannamənin, keçirdiyimiz sammitin əhəmiyyəti ondan ibarətdir ki, biz səylərimizi birləşdiririk. Hamımız bu layihənin həyata keçirilməsində maraqlıyıq. Bu layihənin həyata keçirilməsi işinə siyasi səylərimizlə, maliyyə resurslarımızla və təbii ki, maliyyə bazarlarının imkanları ilə töhfə verəcəyik. Bu da həm hasilatçı, həm istehlakçı, həm də tranzit ölkələr üçün şaxələndirməni təmin edəcəkdir.

**S u a l: Qazın Qafqazdan Mərkəzi Avropaya nəqli üçün bir neçə yanaşma mövcuddur. Nəzərə alsaq ki, artıq Azərbaycan və Rusiya arasında qaz alqı-satqısına dair anlaşma imzalanıb. Siz məhz bu layihənin reallaşmasının şanslarını necə qiymətləndirirsiniz? Mümkünsə ölkənin qaz ehtiyatlarını açıqlayardınız və AGRİ layihəsi hansı həcmdə qazla təchiz edilə biləcək?**

**İ l h a m Ə l i y e v:** Bu gün biz bu məsələləri müzakirə etdik. Rəqəmlər bəllidir. Bu il Azərbaycanda qaz hasilatının həcmi 28 milyard kubmetrdir. Deyə bilərəm ki, daxili tələbat təxminən 10-11 milyard kubmetrə bərabərdir. Qalan hissəsi isə ya ixrac olunur, ya da neft hasilatını artırmaq və qazın ehtiyatda saxlanılması üçün yenidən quyulara vurulur. Bu gün bizim qaz hasilatımız ixracetmə imkanlarımızla məhdudlaşır. İxrac edə biləcəyimiz həcmdən daha az ixrac edirik. Bu səbəbdən biz yeni bazarlar, yeni istiqamətlər axtarışındayıq. Təkcə Rusiyaya deyil, Türkiyəyə də qaz ixrac edirik. Bu il ixracın həcmi 6 milyard kubmetrdən çox olacaqdır. Biz bir neçə milyard kubmetr qazı ixrac üçün asanlıqla artıra bilərik. Biz Gürcüstana da qaz ixrac edirik, bu təxminən 1 milyard kubmetrdən çoxdur. Bu, Gürcüstanın bugünkü tələbatıdır. Əminəm ki, bu həcm artacaqdır. Çünki Gürcüstanın iqtisadiyyatı sürətlə inkişaf edir və biz həcmin artımına hazır olacağıq. İrana da qaz ixrac edirik. Mövcud potensial və boru kəmərləri əlavə qaz təchizatını təmin edə bilər. Ötən il biz Rusiya ilə müqavilə imzaladıq və bu ilin əvvəlindən etibarən məhdud həcmdə – yarım milyard kubmetr qazı Rusiyaya nəql edirik. Lakin Rusiyanın Azərbaycan kimi yaxın ölkənin qazı ilə öz cənub bölgəsinin qaz təchizatına artan

tələbatını və bizim qaz hasilatımızın artmasını nəzərə alaraq, Rusiyaya ixrac olunan qazın həcmini artırmağa qərar verdik. Bu il bu həcm 1 milyard kubmetrə çatdırılacaqdır. Gələn il isə bu həcmi 2 milyard kubmetrə çatdırmaq barədə razılığa gəlmişik.

Düşünürəm ki, bugünkü qaz hasilatımızın və ixracatımızın səviyyəsi digər layihələrdə iştirakımıza mane olmur. Biz «Cənub Dəhlizi»nə aid layihələrə çox böyük əhəmiyyət veririk. Biz «Cənub Dəhlizi»ni bir istiqamət kimi qəbul edirik, baxmayaraq ki, «Cənub Dəhlizi» çərçivəsində bir neçə layihə vardır. Ən tanınmışı yəqin ki, Nabukkodur, çünki onunla bağlı bir çox görüşlər, sammitlər keçirilib, danışıqlar aparılıb. Deyə bilərəm ki, ötən il Azərbaycan enerji təhlükəsizliyi sammitində iştirak etmişdir və biz də Nabukko ilə bağlı bəyannaməyə imza atdıq. Digəri Türkiyə–Yunanıstan–İtaliya layihəsidir, üçüncüsü Transadriatik layihəsidir, növbəti isə AGRİ layihəsidir. Bütün bu layihələr «Cənub Dəhlizi»nin bir hissəsidir və biz onların hamısını dəstəkləyirik.

Düşünürəm ki, bunların hamısının potensialı vardır. Biz bu işlərə başlamalıyıq. Bakı–Tbilisi–Ceyhan neft boru kəmərini 1 milyon barrel hesabı ilə tikməyə başlayanda hasilatımızın həcmi 200 min barreldən də az idi. Biz mövcud hasilat potensialımızdan beş dəfə artıq həcmə malik olan boru kəmərinə sərmayə qoyduq. Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tikintisi başa çatdıqdan 4 il sonra bu boru kəməri, demək olar ki, tam gücü ilə fəaliyyət göstərir. Əminəm ki, bu, AGRİ və digər layihələrdə də baş verəcək. Biz Avropa bazarında etibarlı və uzunmüddətli qaz təchizatçısı olaraq qalacağıq.

**S u a l: Mənim də sualım Azərbaycan prezidentinədir. Cənab Prezident, ümumiyyətlə, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu haqqında nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Bu gün biz bu məsələni ətraflı müzakirə etdik, uzun illərdir ki, biz bu istiqamətdə çalışırıq. Əvvəldə qeyd etdiyim kimi, enerji təhlükəsizliyi hamı üçün təhlükəsizliyi təmin etməli olan çoxtərəfli bir məsələdir. Bizim

üçün Avropanın enerji təhlükəsizliyi Azərbaycanın yeni sahələrə daha çox sərmayə qoymaq və daha çox hasil etmək imkanları deməkdir. Bu gün sammit zamanı çıxışımda bildirdim ki, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları 2 trilyon kubmetrdir, reallıqda isə bu, 5 trilyon kubmetrdir. Bu səbəbdən hasilatı artırmaq üçün bizə etibarlı, böyük və daha çox bazar lazımdır.

Bu gün biz Azərbaycanda qaz yataqlarına böyük sərmayələrin qoyulması ərəfəsindəyik. Bəzi hesablamalara görə, bu təxminən 20 milyard dollardır. Deyə bilərəm ki, son 16 il ərzində Azərbaycanın neft və qaz sektoruna yatırılan sərmayələrin ümumi həcmi 46 milyard dollar olmuşdur. Kifayət qədər böyük rəqəmdir. Təkcə 20 milyard dollar yalnız «Şahdəniz» yatağına yatırılacaq və bu bizə mövcud hasilatdan azı 16 milyard kubmetr əlavə qaz hasil etməyə imkan verəcək ki, bu da təxminən 40 milyard kubmetr təşkil edəcəkdir. Bu vəsaiti yatırmaq üçün bizə yeni bazarlar lazımdır. Qaz biznesində əvvəl gərək bazar mövcud olsun, sonra sərmayələr qoyulsun. Bizim üçün Avropanın enerji təhlükəsizliyi alternativ və əlavə təchizat marşrutlarının təmin edilməsi baxımından avropalıların özündən heç də az əhəmiyyət kəsb etmir. Biz bu sahədə çox çalışırıq və planlaşdırdığımız bütün işləri böyük məsuliyyətlə, sadiqliklə həyata keçirəcəyik.

## DÖVLƏT BAŞÇILARI DƏNİZKƏNARI MİLLİ PARKDA, «İÇƏRİŞƏHƏR» DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ FƏVVARƏLƏR MEYDANINDA

*14 sentyabr 2010-cu il*

*Sentyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev, Rumıniya prezidenti Trayan Besesku və Gürcüstan prezidenti Mixeil Saakaşvili Dənizkənarı Milli Parkda gəzintiyə çıxmışlar. Bildirilmişdir ki, son illər Bakıda park və bağların yenidən*

*qurulması diqqət mərkəzində saxlanılır. Hazırda öz gözəlliyi ilə diqqəti çəkən Bakı bulvarı Azərbaycan paytaxtına xüsusi yaraşıq verir.*

*Daha sonra qonaqlar İçərişəhərə gəlmişlər. Bildirilmişdir ki, Azərbaycan tarixinin və mədəniyyətinin incisi olan İçərişəhər dünya mədəni irsinin nadir abidələrindəndir. Burada aparılan arxeoloji qazıntılar zamanı milli dövlətçilik tariximizin açılmamış səhifələri öyrənilmiş, Böyük İpək yolunun üstündə yerləşən qədim Bakının strateji əhəmiyyətini təsdiq edən tarixi faktlar aşkar olunmuşdur. Buna görə də 1985-ci ildən Dövlət Tarix-Memarlıq Qoruğu elan edilən İçərişəhər 2000-ci ildən YUNESKO-nun Dünya mədəni irs siyahısına daxil edilmişdir.*

*İçərişəhərin ən mühüm tarixi tikililərindən olan Karvansara qonaqlarda böyük maraq doğurmuşdur. Onlar İçərişəhərdə nümayiş olunan milli sənətkarlıq nümunələrinə baxmışlar.*

*Daha sonra dövlət başçıları Fəvvarələr meydanında olmuşlar. Qeyd edilmişdir ki, Bakının ən gözəl istirahət məkanlarından biri olan Fəvvarələr meydanı əsaslı bərpa və yenidənqurma işlərindən sonra daha gözəl və daha orijinal formada paytaxt sakinlərinin istifadəsindədir. Burada paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının istirahətinin təşkili üçün hər cür şərait yaradılmışdır.*

## BAKIDA 132-134 NÖMRƏLİ TƏHSİL KOMPLEKSİNİN YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*15 sentyabr 2010-cu il*

*Sentyabrın 15-də – Bilik günündə Bakıda 132-134 nömrəli təhsil kompleksi yenidənqurmadan sonra istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçmişdir.*

*Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilmişdir. Bu proses təkcə paytaxt ilə məhdudlaşmır, bölgələri də əhatə edir. Təsadüfi deyil ki, son bir neçə ildə – XXI əsr Azərbaycanında əsl təhsil bumu yaşanmışdır. Ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilmiş, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunmuşdur. Bu proses ən ucqar bölgələrimizi də əhatə etmişdir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. Bütün orta təhsil ocaqlarında internetə qoşulmuş kompyuter sinifləri yaradılmışdır.*

*Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə öz nadirliyi ilə seçilmişdir. Fond ölkədə məktəb tikintisində yaxından iştirak etməklə yanaşı, onların əyani vəsaitlər, şagirdlərin isə məktəb ləvazimatları ilə təmin olunmasında mühüm rol oynamışdır. Bu proses indi də davam edir.*

*Prezident İlham Əliyevin sərəncamına əsasən kompleksdə genişləndirmə və yenidənqurma işlərinə keçən ilin iyununda başlanılmışdır. Bu təhsil kompleksinin maraqlı tarixi vardır. Binanın özülü qədim Bakının möhtəşəm Qala divarlarının 20-30 addımlığında o vaxtlar boş sahələr olan ərazidə qoyulmuşdur. Binanın tikilməsi haqqında sərəncam 1866-cı ildə verilmişdir.*

*Arxiv materiallarından məlum olur ki, fligelin tikilməsi üçün torpaq sahəsi axtararkən üç azərbaycanlının xırman sahəsi olan bu ərazi onlardan pulla alınmış və birmərtəbəli hospitalın tikilməsi nəzərdə tutulmuşdur. Bina memar Buynov tərəfindən hərbi xəstəxana kimi layihələşdirilmişdir. Əvvəlcə birmərtəbəli olan binadan bir müddət fligel kimi istifadə olunmuş, 1886-cı il iyunun 13-də isə «Müqəddəs Nina» Qadın Xeyriyyə Cəmiyyətinin nəzdində qızlar pansionunun ixtiyarına verilmişdir.*

*Bu qocaman məktəbin məzunları sırasında XX əsrin görkəmli şərqşünas alimi, filologiya elmləri doktoru, professor Aida İmanquliyeva, akademik Nailə Vəlixanlı, Əməkdar Memar Ofeliya Babayeva və Azərbaycan elminin inkişafında xidmətləri olan yüzlərlə tanınmış şəxs vardır.*

*Prezident İlham Əliyev müasir standartlara uyğun əsaslı şəkildə yenidən qurulmuş təhsil kompleksi ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, dördmərtəbəli kompleks ən müasir tələblərə uyğun qurulmuşdur.*

*Təhsil ocağının geniş və işıqlı foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin təhsilə diqqət və qayğısını əks etdirən fotostend də yaradılmışdır.*

*Prezident İlham Əliyev siniflərdə dərs prosesi üçün yaradılmış şəraitlə tanış oldu. Burada «ağıllı lövhə» adlanan smart-bordlar quraşdırılmışdır. Bu interaktiv lövhələr ən son texnologiyalar əsasında qurulmuşdur. Müəllim və şagirdlər lövhədə elektron cihaz olmadan barmaqla, yaxud çubuq vasitəsilə istənilən əməliyyatı apara bilərlər.*

*Dövlətimizin başçısı təhsil kompleksində yaradılmış Heydər Əliyev Muzeyi ilə tanış oldu. Burada ümummilli lider haqqında müxtəlif nəşrlər toplanmışdır. Daha bir yenilik muzeyin elektron versiyasının yaradılmasıdır. Bu, ölkədə ilk elektron muzeydir. Burada ulu öndərin həyat və fəaliyyətinə dair videomateriallar, fotolar, ümummilli lider haqqında kitablar, dahi şəxsiyyətə həsr edilmiş musiqilər vardır. Elektron sənədlər*

*toplusunda ulu öndərin tərcümeyi-halı, sovet dövründən başlayaraq fəaliyyəti və qiymətli kəlamları yer almışdır.*

*Prezident İlham Əliyev bilik ocağının Tarix Muzeyinə də baxdı. Muzeydə toplanılmış materiallar bir daha təsdiq edir ki, 132-134 nömrəli kompleks Bakının sayılıb-seçilən təhsil müəssisələrindən biridir. XIX əsrin 70-ci illərində burada quberniya batalyonundakı imtiyazlı hərbçilərin övladları qapalı orta hərbi təhsil alırdılar. Binanın təməli Bakı quberniya batalyonu üçün hərbi xəstəxana kimi qoyulsa da, bir neçə ildən sonra təhsil ocağına, özü də gələcəkdə Azərbaycan elminin inkişaf etdirilməsində böyük xidmətləri olan yüzlərlə alimə ilk təhsil verən kompleksə çevrilmişdir.*

*Dövlətimizin başçısı məhz bu təhsil ocağını qızıl medallarla bitirən və Azərbaycanın inkişafında böyük xidmətləri olan şəxslərin fotostendinə baxdı.*

**İ l h a m Ə l i y e v:** Sizi ilk növbədə, yeni dərs ili, eyni zamanda, məktəblərin əsaslı təmirdən sonra istifadəyə verilməsi münasibətilə təbrik edirəm. Bu, böyük və gözəl hadisədir. Bu əslində daha çox saraya oxşayır, nəinki məktəbə. Çox şadam ki, təmir işləri yüksək səviyyədə aparıldı. Əslində məktəb yenidən quruldu və sinif otaqları artırıldı. Məktəbin əsaslı təmiri haqqında təşəbbüs irəli sürəndə bəzi söz-söhbətlər gedirdi ki, ya məktəb bağlanacaq, ya sökülləcək, ya yerində nəsə tikiləcəkdir. Bizim fikrimiz ondan ibarət idi ki, bu məktəblər öz fəaliyyətini davam etdirsin, çünki bu məktəblərin çox böyük tarixi vardır. Müxtəlif dövrlərdə müxtəlif funksiyaları daşıyıb. Ancaq bütün dövrlərdə qısa fasilələrlə məktəb kimi fəaliyyət göstərib. Biz gərək keçmişimizə həmişə böyük hörmətlə yanaşaq, tarixi irsimizi, tarixi abidələrimizi qoruyaq və bərpa edək. Hesab edirəm ki, bu bina indi Bakının ən gözəl binalarından biridir. Baxmayaraq ki, Bakıda gözəl binalar çoxdur və məncə, Bakı memarlıq, tarixi abidələrin çoxluğu və infrastruktur baxımından əslində dünyanın ən gözəl şəhərlərindən biridir.

Bu məktəbdə ən müasir avadanlıq quraşdırılıbdır. Elektron lövhələr, kompyuterlər, bütün lazımi avadanlıq quraşdırılıb,

gözəl şərait yaradılıb. Yəni burada uşaqlar üçün oxumaq, müəllimlər üçün işləmək çox xoş olacaqdır.

Mən çox şadam ki, bu gün – Bilik günündə biz sizinlə bərabər məktəbin yeni mərhələyə qədəm qoymasını qeyd edirik. Bilirsiniz ki, son illərdə Bakıda, Azərbaycanın müxtəlif yerlərində məktəblərin tikintisi sürətlə gedir. Nəzərə alsaq ki, Azərbaycanda məktəblərin sayı 4 min 500-dən bir az çoxdur, bunun 2 minə yaxını, bəlkə də ondan da çoxu son 5-6 ildə tikilib.

Bu gün Təhsil naziri məlumat verdi ki, bu il Azərbaycanda 48 məktəb tikilib istifadəyə verilib. Əlavə korpuslar, uşaq bağçaları tikilib və bu işlər davam etdiriləcəkdir. Ümid edirəm ki, 2-3 il ərzində Azərbaycanda qəza vəziyyətində olan məktəblərin hamısının yerində yeni məktəblər tikiləcəkdir. Təmirə ehtiyacı olan məktəblərdə təmir işləri aparılacaq və yeni məktəblər inşa ediləcəkdir. Paralel olaraq təhsilin keyfiyyətinə də böyük fikir veririk və bu keyfiyyət artır. Mən çox şadam ki, Azərbaycan bu işlərdə dünyada gedən ən qabaqcıl və mütərəqqi proseslərə qoşulub. Təhsilin keyfiyyətinin artırılması çox vacib məsələdir. Uşaqlar bizim gələcəyimizdir. Onlar gərək bilikli, savadlı olsunlar, yaxşı oxusunlar ki, gələcəkdə özləri üçün həyatda layiqli yer tuta bilsinlər, ölkəmizin inkişafı üçün də fəal çalışsınlar. Çünki ölkəmiz çox sürətlə inkişaf edir və peşəkar kadrların hazırlanması bizim üçün ən başlıca məsələlərdən biridir.

Bu yaxınlarda dünyanın aparıcı qurumlarından biri olan Dünya İqtisadi Forumu yeni hesabat təqdim edib və yenə də Azərbaycan o hesabatda MDB məkanında iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə birinci yerdədir. Bu o deməkdir ki, iqtisadiyyatımız çox sürətlə inkişaf edir. Yeni müəssisələr, fabriklər, zavodlar, sənaye obyektləri yaradılır. Kim orada işləyəcək?! Onların hansı səviyyədə insanlara xidmət göstərəcəyi orada işləyən insanlardan asılıdır. İnsanlarımız, gənclərimiz elə bilik almalıdırlar ki, ən yüksək vəzifələrdə çalışa bilsinlər və biz Azərbaycanı irəliyə aparaq.

Bakıda təmir olunan məktəblər həm də memarlıq abidələridir, bu məktəb də daxil olmaqla. Biz indi bu məktəblərin yeni statusu haqqında fikirləşməliyik. Çünki bu təmir işlərinə böyük vəsait qoyuldu, avadanlıq quraşdırıldı. Bu məktəbləri olduğu vəziyyətdə saxlamaq üçün həm xüsusi maliyyə proqramı tərtib olunmalı, maliyyə mənbələri təklif edilməli, həm də məktəblərin xüsusi statusu olmalıdır. Onu yəqin ki, Təhsil Nazirliyi təklif edəcəkdir. Çox vacib məsələlərdən biri də odur ki, bu məktəblər öz tarixi adlarını saxlasınlar. Yəni heç bir başqa ad verilməsin. Həm 132, həm 134, çünki birinci növbədə, bu tarixdir, ikinci növbədə isə burada oxuyan insanların sayı minlərlədir. Hər bir insan üçün onun doğma məktəbi çox əzizdir, nömrəsi onun üçün əzizdir. Ona görə bu adlar itirilməməlidir, onlar qalmalıdır. Ancaq məktəblərin yeni statusu haqqında fikirləşin və təkliflər verin. Burada həm təhsil, həm bütün başqa məsələlər keyfiyyətli və yüksək səviyyədə olsun.

Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram!

## MDB ÖLKƏLƏRİNİN KƏŞFİYYAT XİDMƏTLƏRİ VƏ TƏHLÜKƏSİZLİK ORQANLARI RƏHBƏRLƏRİ MÜŞAVİRƏSİNİN BAKIDA KEÇİRİLƏN XI İCLASINDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*15 sentyabr 2010-cu il*

*Sentyabrın 15-də prezident İlham Əliyev MDB ölkələrinin Kəşfiyyat Xidmətləri və Təhlükəsizlik Orqanları Rəhbərləri Müşavirəsinin Bakıda keçirilən XI iclasında iştirak edən nümayəndə heyətlərinin rəhbərlərini qəbul etmişdir.*

*Prezident İlham Əliyev MDB ölkələrinin Kəşfiyyat Xidmətləri və Təhlükəsizlik Orqanları Rəhbərləri Müşavirəsinin Bakıda keçirilən XI iclasının yüksək səviyyədə təşkil olunduğunu və bu mötəbər tədbirdə səmərəli fikir mübadiləsi aparıldığını, həmçinin Müstəqil Dövlətlər Birliyi ölkələrinin xüsusi xidmət orqanlarının birgə fəaliyyətinin sülh, əmin-amanlıq, təhlükəsizlik və sabitliyin təmin edilməsində vacib rol oynadığını diqqətə çatdırdı.*

**İ l h a m Ə l i y e v:** Azərbaycan MDB-nin işində fəal iştirak etmək əzmindədir. Biz müxtəlif formatlarda – həm humanitar sahədə, həm iqtisadi əməkdaşlıqda, həm də, əlbəttə ki, təhlükəsizlik və sabitliyin təminatında fəal iştirak edirik. Bilirəm ki, bizim təhlükəsizlik orqanları ilə MDB ölkələrinin təhlükəsizlik orqanları arasında həm ikitərəfli, həm də çoxtərəfli qarşılıqlı fəaliyyət mövcuddur. Mən bunu alqışlayıram. Çox şadam ki, dost MDB ölkələrini təmsil edən həmkarlarımız fəal əməkdaşlıqda maraqlıdırlar. Biz ümidvarıq ki, bu cür əməkdaşlıq davam etdiriləcəkdir.

*Dövlətimizin başçısı MDB ölkələrinin Kəşfiyyat Xidmətləri və Təhlükəsizlik Orqanları Rəhbərləri Müşavirəsinin Bakıda*

*keçirilən XI iclasının beynəlxalq terrorizm, ekstremizm, radikalizm və müasir dövrün bu qəbildən olan digər çağırışlarına qarşı layiqincə mübarizə aparmağa daha güclü təkan verəcəyinə əminliyini vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Mən əminəm ki, ölkələrimizin təhlükəsizliyinin tam şəkildə təmin edilməsi qonşular, tərəfdaşlar, dost ölkələrlə sıx əməkdaşlıq yolu ilə mümkündür. Bu gün dünyada təkcə dövlət və təhlükəsizlik orqanlarının texnologiya və imkanları genişlənmir, təəssüf ki, insanlarımızın dinc həyatına qəsd etmək, təşviş və xaos yaratmaq istəyənlər də qabaqcıl texnologiyaları əldə edirlər. Əminəm ki, operativ informasiya mübadiləsi, sıx əməkdaşlıq bir çox bəlalardan xilas olmağa kömək edəcəkdir.

*Prezident İlham Əliyev MDB ölkələrinin qarşılıqlı səmərəli əməkdaşlığının və birgə səylərinin regionda, ümumilikdə dünyada təhlükəsizliyə təminatın yaradılmasında mühüm rol oynadığını dedi. Dövlətimizin başçısı xüsusi qeyd etdi ki, planetdə heç bir, o cümlədən ən güclü ölkələrin belə, beynəlxalq terrorizm kimi qlobal təhlükələrdən tam sığortalanmadığı indiki vaxtda MDB ölkələrinin səylərini daha da artırması olduqca vacibdir. Prezident İlham Əliyev ümumi amallar naminə MDB ölkələrinin Kəşfiyyat Xidmətləri və Təhlükəsizlik Orqanları Rəhbərləri Müşavirəsinin Bakıda keçirilən XI iclasının iştirakçılarına uğurlar arzuladı.*

*MDB ölkələrinin Kəşfiyyat Xidmətləri və Təhlükəsizlik Orqanları Rəhbərləri Müşavirəsinin sədri, Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Mixail Fradkov görüşdə iştirak edən nümayəndə heyətləri rəhbərləri adından Azərbaycan prezidenti İlham Əliyevə dərin təşəkkürünü bildirərək qeyd etdi ki, MDB ölkələrinin xüsusi xidmət orqanları səyləri birləşdirmək üçün əlaqələri daha da möhkəmləndirir, mütəmadi fikir və təcrübə mübadiləsi aparır.*

**M i x a i l F r a d k o v:** Bu cür görüşlər bizim düz yolda olduğumuza əminlik yaradır və biz qarşılıqlı fəaliyyəti təkmilləşdirmək üçün hər şey edirik. Buna ölkə başçılarının xoş münasibəti və Sizin şəxsən maraqlı olmağınız əhəmiyyətli

dərəcədə təkan verir. Sizin arzu və tövsiyələrinizi biz təbii ki, praktik işimizdə, o cümlədən bugünkü iclasda nəzərə alacağıq.

Burada olduğumuz ilk dəqiqələrdən böyük diqqət və xoş münasibət hiss edirik. Bu da uğurlu fəaliyyətimiz üçün əlavə zəmindir. Biz Sizin təhlükəsizlik və sabitliyin təmin edilməsi məsələlərinə şəxsi münasibətinizi bilirik. Biz birinci dəfə deyildir ki, görüşürük. Doğrudan da söz və əməllərdə ardıcıllıq hiss olunur, xüsusən də insan həyatının gündəmdə olduğu məsələlərdə, terrorizmlə, dini ekstremizmlə mübarizədə. Mənə elə gəlir ki, bu, səylərimizi birləşdirmək üçün aktual, prioritet istiqamətdir.

*Qonaq MDB ölkələrinin Kəşfiyyat Xidmətləri və Təhlükəsizlik Orqanları Rəhbərləri Müşavirəsinin XI iclasında beynəlxalq təhlükəsizliyə təhdidlərin qarşısının alınmasında ehtiyat imkanların hərtərəfli araşdırıldığını və faydalı fikir mübadiləsi aparıldığını qeyd etdi. Mixail Fradkov Bakıda gördüklərinin onlarda zəngin təəssürat doğurduğunu və bunu Azərbaycanın ümumi inkişafının konkret nümunəsi kimi dəyərləndirdiklərini xüsusi vurğuladı. O, MDB ölkələrinin xüsusi xidmət orqanlarının qarşıda duran ümdə vəzifələrin həlli üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini* bildirdi.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜPKİYƏYƏ SƏFƏRİ

*15 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında*

*iştirak etmək üçün sentyabrın 15-də Türkiyə Respublikasına səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında iştirak etmək üçün sentyabrın 15-də Türkiyə Respublikasına səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*İstanbul*

*15 sentyabr 2010-cu il*

*Sentyabrın 15-də İstanbulda «Çırağan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Abdullah Gülün görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, türkdilli*

*ölkələrin dövlət başçılarının X zirvə toplantısının əhəmiyyətindən danışıldı. Bu tədbirin türkdilli dövlətlər arasında əməkdaşlığın daha da genişlənəcəyinə xidmət edəcəyi vurğulandı.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul*

*15 sentyabr 2010-cu il*

*Sentyabrın 15-də İstanbulda «Çırağan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti barədə söhbət açıldı.*

*Ölkələrimiz arasında enerji sahəsində, həmçinin Bakı–Tbilisi–Ceyhan və «Şahdəniz» layihəsinin inkişaf etdirilməsinə dair Türkiyə ilə əməkdaşlıq və regional məsələlər müzakirə olundu.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında yaradılacaq yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurasının əlaqələrimizin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olundu.*

## AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ QURULMASI HAQQINDA BİRGƏ BƏYANNAMƏNİN İMZALANMASINDAN SONRA DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*İstanbul*

*15 sentyabr 2010-cu il*

*Sentyabrın 15-də İstanbulda «Çırağan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşündən sonra «Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə»nin imzalanması mərasimi olmuşdur.*

*Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan imzaladılar. İmzalanma mərasimindən sonra dövlət başçıları mətbuat konfransında bəyanatlarla çıxış etdilər.*

### Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli Prezident, dəyərli qardaşım Əliyev!

Hörmətli iştirakçılar, dəyərli mətbuat nümayəndələri!

Xanımlar və cənablar!

Azərbaycan prezidenti mərhum Heydər Əliyevin «bir millət, iki dövlət» kimi tərif verdiyi Türkiyə–Azərbaycan əmək-

daşlığında arzu edilən və hədəflənən bir nöqtəni, hətta bir zirvəni bu gün həyata keçirir, tarixi bir səhifə yazırıq.

Hörmətli Əliyevin o müdrik ifadəsinin həyat verdiyi anlayış az əvvəl dəyərli qardaşım İlham Əliyevlə birlikdə imzaladığımız Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə artıq yeni bir məna qazanmışdır. Mən bu dostluğun gələcək nəsillərimizə də gücləndirilərək çatdırılmasında Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasını daimi bir əsər kimi gördüyümü xüsusi vurğulamaq istəyirəm. Belə ki, Türkiyə–Azərbaycan əməkdaşlığı sadəcə, dövlətlərimiz arasındakı güclü həmrəyliyə deyil, eyni zamanda, xalqlarımızın paylaşdığı köklü tarix və könül birliyinə söykənir. Türkiyə və Azərbaycan xalqları eyni dildə danışır, müştərək bir tarixi paylaşır. Türkiyə və Azərbaycan qarşılarına eyni coğrafiyada sülh, sabitlik və rifahın təmin edilməsi məqsədini qoymuşlar.

Bu sağlam zəmin üzərində qurulan, «bir millət, iki dövlət» prinsipi əsasında möhkəmlənən əlaqələrimiz siyasi və iqtisadi sahələrdə əldə olunan inkişaf prosesi ilə bugünkü mükəmməl səviyyəsinə çatmışdır. İnanıram ki, Şura mexanizmi sayəsində Türkiyə–Azərbaycan dostluğunu gələcək nəsillərimizə sarsılmaz bir əməkdaşlıq olaraq əmanət edəcəyik.

Əvvəllər də Suriya, İordaniya, Livan, İraq, Rusiya və Yunanıstan kimi ölkələrlə yaratdığımız bu mexanizmin istər ikitərəfli, istərsə də regional əməkdaşlığın genişləndirilməsinə vermiş olduğu nəzərəçarpacaq faydalarını bu qısa müddətdə belə, müşahidə etmək imkanımız oldu. Bu mexanizmin Türkiyə–Azərbaycan əməkdaşlığına da böyük töhfələr verəcəyi şübhəsizdir. Belə ki, Şura çərçivəsində yaradılacaq alt komissiyalar əlaqələrimizin hər sahədə müntəzəm olaraq nəzərdən keçirilməsini təmin edəcək, həm müsbət sahələrdəki irəliləyişlərin qorunmasına, həm də ictimai fikirdə formalaşmış bir sıra nöqsanların təcili aradan götürülməsinə yardım edəcəkdir. Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurası «Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir» – deyən Atatürklə «bir millət, iki dövlət» – deyən

mərhum Heydər Əliyevdən aldığımız bayrağı daha da irəliyə aparmaq qətiyyətinin bir təzahürüdür.

Bu əlamətdar gündə mən Şuranın yaradılması mərhələsində göstərdiyi əməkdaşlıq üçün dəyərli qardaşım, hörmətli prezident İlham Əliyevə təşəkkür etmək istəyirəm.

Çıxışımın əvvəlində də söylədiyim kimi, Türkiyə ilə Azərbaycan dünyada misli görünməmiş əlaqələrə malik iki qardaş ölkədir. Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurası bu qardaşlığı möhkəmləndirən daimi bir əsər olacaqdır. Bu düşüncələrlə Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının istər ikitərəfli əlaqələrimiz, istərsə də regional əməkdaşlıq naminə uğurlu olmasını diləyir, sevgi və hörmətlərimi ifadə edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Bu gün doğrudan da tarixi bir gündür və bu gündə bərabər olmağımızdan çox məmnunam. Yenidən qardaş Türkiyədə olmağımdan çox məmnunam və əminəm ki, bu gün imzalanmış tarixi sənəd Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin gələcək inkişafını təmin edəcəkdir.

Siz qeyd etdiyiniz kimi, xalqlarımız arasında əsrlər boyu dostluq, qardaşlıq münasibətləri yaşayır. Bu münasibətlər bu gün zənginləşir, hər gün yeni səviyyəyə qalxır. Biz bu münasibətləri möhkəm təməl üzərində qururuq. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bu günə qədər Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr daim inkişaf edir, möhkəmlənir. Bu gün isə münasibətlərimiz müttəfiqlik səviyyəsinə qalxmışdır.

Biz yaxşı xatırlayırıq ki, müstəqilliyimizi ilk tanıyan Türkiyə olmuşdur. Müstəqilliyimizin ilk günündən bu günə qədər Türkiyə daim bizim yanımızdadır. Bu gün biz müxtəlif sahələrdə uğurlu işbirliyi, əməkdaşlıq edirik. Bu əməkdaşlıq

sürətlə inkişaf edir. Bu gün imzalanan sənədin bu əməkdaşlığın dərinləşməsi və genişlənməsi üçün çox böyük əhəmiyyəti vardır.

Siz bu gün Azərbaycan xalqının böyük oğlu, mənim atam Heydər Əliyevin kəlamlarını xatırlatdınız. Bu bizim üçün çox dəyərlidir, çox əzizdir. Mən çox şadam ki, onun ürəkdən sevdiyi Türkiyədə bu gün, bu tarixi gündə onun kəlamları, əməyi xatırlanır. Mən əminəm ki, onun ruhu bu gün bu salondadır.

Bu gün biz türk dünyasının böyük öndəri, Azərbaycan xalqının qəlbində xatirəsi daim yaşayan ulu öndər Mustafa Kamal Atatürkün xatirəsini hörmətlə yad edirik. Onun kəlamları bizim münasibətlərimiz üçün işıqlı bir yoldur. Mən əminəm ki, indiki nəsil, gələcək nəsillər bu dostluğu, bu qardaşlığı daha da irəliyə aparacaqlar, möhkəmləndirəcəklər. Biz elə etməliyik ki, bundan sonrakı nəsillər də bu bayrağı daim uca tutsunlar. Dostluğumuz, qardaşlığımız hər şeydən üstündür, əbədidir.

Bu gün imzalanmış sənəd əslində bu günə qədər görülən işlərə bir növ yekun vurur, strateji tərəfdaşlığımızın gələcək inkişafını müəyyən edir. Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının yaradılması sadəcə, adi bir müqavilə, saziş deyildir. Bu bizə imkan verəcək ki, gələcəkdə bütün sahələrdə fəaliyyətimizi birlikdə quraq, əlaqələndirilmiş şəkildə aparaq və bütün sahələrdə daha da böyük nəticələrə çataq. Bu saziş bütün sahələri əhatə edir – siyasi əlaqələri, hansılar ki, bu gün ən yüksək zirvədədir. Ticarət əlaqələri, qarşılıqlı sərmayə qoyuluşu, enerji, neft-qaz sahələrindəki əməkdaşlıq, nəqliyyat, dəmiryol layihələri, mədəniyyət, humanitar sahələr – yəni elə bir sahə yoxdur ki, bu sazişdən kənarda qalsın. Bu bizə imkan verəcək ki, Türkiyə ilə Azərbaycanın əlaqələri bundan sonra da uğurla, sürətlə və daha da mütəşəkkil qaydada irəliyə getsin və xalqlarımız daha da birləşsin, daha da sıx əməkdaşlıq etsin.

Bu tarixi gündə mən qardaşım, hörmətli cənab Baş nazirə minnətdarlığımı bildirmək istəyirəm ki, onun səyləri və təşəbbüsü nəticəsində bu gün bu sənəd artıq imzalanmışdır. Hörmətli qardaşımın sözlərinə qatılıram. Bu sənədin üzərində

çalışan bütün yoldaşlara, bütün dostlara öz minnətdarlığımı bildirirəm.

Bu sənəd sadəcə, iki ölkə arasında müqavilə deyildir. Bu, ürəkləri, xalqları birləşdirən, xoş niyyətimizi ifadə edən bir əsərdir. Bu əsər yaşayacaq və bizi daha da zəngin və xoşbəxt edəcəkdir. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Cənab Prezident, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllinə hansı köməyi edə bilər? Ümumiyyətlə, biz Azərbaycan olaraq, türkdilli dövlətlərdən hansı köməyi gözləyirik?**

**İ l h a m Ə l i y e v:** Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daim Türkiyə ilə Azərbaycan arasındakı danışıqların mövzusudur. Bu gün də bu mövzu ilə bağlı hörmətli cənab Baş nazir ilə geniş fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Türkiyə bütün dövrlərdə Azərbaycanın haqq işini dəstəkləyir, müxtəlif formalarda Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi üçün böyük səylər göstərir. Bu gün bu məsələ ilə bağlı danışıqlar nəticəyə gətirib çıxarmalıdır. Nəticə də ondan ibarətdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilsin. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Əsrlər boyu xalqımız o ərazidə yaşamışdır, yaratmışdır. Azərbaycanlılar o bölgədən qovuldular. Dağlıq Qarabağda və ətraf bölgələrdə bir nəfər də olsun azərbaycanlı qalmadı. Onların hamısı etnik təmizləmə siyasətinə məruz qaldılar. Bizim bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıbdır. Bu, böyük ədalətsizlikdir. Bu, beynəlxalq hüquq normalarına zidd olan bir addımdır. Əlbəttə ki, bundan sonra da Türkiyə ilə Azərbaycan münasibətlərində bu mövzu daim gündəlikdə olacaqdır.

Hörmətli dostum, qardaşım Baş nazirin sayəsində Türkiyənin güclənməsi, böyük dövlətə çevrilməsi bizi də gücləndirir. Bu gün Türkiyə on il əvvəlki Türkiyə deyildir. Türkiyə böyük, qüdrətli dövlətdir. Türkiyədə xalqla iqtidar arasında birlik vardır və bu amillər bölgəyə müsbət təsir göstərir. Türkiyə ilə hesablaşmamaq mümkün deyildir, nə bölgədə, nə də dünyada. Türkiyənin gücü bizim gücümüzdür. Çünki biz qardaşıq. Ona görə Türkiyənin güclənməsi özlüyündə Ermənistan–Azərbaycan münaqişəsinin həllində müsbət amil kimi özünü göstərir. Nəzərə alsaq ki, Türkiyə hökuməti bu münaqişə ilə bağlı məsələdə çox fəal və çevik siyasət aparır, əminəm ki, bu siyasətin müsbət nəticələri olacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

**S u a l: Hörmətli Baş nazir! Türkdilli dövlətlər birliyi başqa ölkələrin ərazisində yığcam yaşayan türklərlə hansı əlaqələri qurmağı planlaşdırır? İkinci sualım. Siz Türkiyə olaraq, Akdamar erməni dini kilsəsində bir mərasim planlaşdırırsınız. Amma Ermənistan bunu boykot etməyə çağırır. Siz bu məsələyə necə münasibət bildirərdiniz?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n**: Əlbəttə, türk dilində danışan ölkələr arasındakı bu toplantı illərdir həyata keçirilən bir tədbir olaraq davam etməkdədir. Bu il təkrar toplaşmışıq. Bu il bunu, inşallah, daha da möhkəmləndirərək gələcəyə aparmaq üçün qətiyyət göstərəcəyik. Bunu gələcəyə istiqamətlənmiş işlərimizlə, xüsusilə Azərbaycan və Türkiyə arasındakı münasibətləri daha da inkişaf etdirərək davam etdirməyə çalışacağıq. Bildiyiniz kimi, Türkmənistan, Qırğızıstan, Qazaxıstan da burada iştirak edir. Görülən bu işləri gələcək nəsillərə fərqli bir formada çatdırmağı, həqiqətən, türk dilini öz aramızda danışa biləcəyimiz səviyyəyə gətirməyi arzu edirik. Doğrusu, mən açıq danışmağı sevirəm. Yəni, biz aramızda fərqli dildə deyil, türk dilində danışaraq bu işi həyata keçirə bilərik, bunun həsrəti içərisindəyik, bunu arzulayırıq. Bir az əvvəl İlham qardaşımla bu barədə danışdıq, buna nail olmalıyıq – dedik.

Akdamara gəlincə, bu əslində bizim dünyaya baxışımızın bir ifadəsidir. Yəni, öz ölkələrində onlar bizə necə münasibət göstərir və bizim onlara münasibətimiz necədir?! Hazırda ölkəmizdə erməni vətəndaşlarımız vardır. Bizim onların dini abidələrinə münasibətimiz necədir?! Onların bizim abidələrə münasibəti necədir?! Bizim hakimiyyətimizə qədər belə bir şey yox idi. İlk dəfə biz həmin kilsəni təmir etdik. Təmir edəndən sonra ildə bir dəfə bir mərasim icra edilməsinə icazə verdik. Bu, Trabzon şəhərindəki Sümela kilsəsində olduğu kimidir. Bu, türkün tolerantlığının ifadəsidir. Bu tolerantlığı digər etiqad sahiblərindən gözləmək bizim də haqqımızdır. Arzu edirik ki, onlar da eyni tolerantlığı bizə göstərsinlər.

**S u a l: Mən Azərbaycanla əlaqədar mövzuya təkrar qayıtmaq istəyirəm. Vizaların aradan götürülməsi ilə əlaqədar müjdəni nə vaxt verəcəksiniz? Siz hər dəfə görüşərkən biz bununla əlaqədar hər hansı bir xəbəri eşidəcəyimizi gözləyirik. Amma bu məsələ hələ də gündəlikdə yoxdur. Görəsən bu, Azərbaycanın daxilindəki proseslərlə əlaqəli ola bilərmi və ya bu müqavilə ilə bunun təkrar gündəliyə salınmasından danışa bilərikmi?**

**İ l h a m  Ə l i y e v:** Bu məsələ ilə bağlı daim məsləhətləşmələr aparılır. Əminəm ki, bu məsləhətləşmələr yaxşı nəticə verəcəkdir. Keçən dəfə mən bu barədə fikirlərimi ifadə etdim ki, bu məsələ Azərbaycanda daxili prosedurlardan keçməlidir. Azərbaycanın müvafiq qurumları, nazirliklər, dövlət strukturları öz aralarında bu məsələni həll etməlidirlər. Hazırlıq işləri başa çatandan sonra, əlbəttə ki, bu məsələ ikitərəfli gündəliyə salınacaq və əminəm ki, müsbət həllini tapacaqdır.

## QIRĞIZISTAN RESPUBLİKASININ KEÇİD DÖVRÜ PREZİDENTİ ROZA OTUNBAYEVA İLƏ GÖRÜŞ

*İstanbul*

*15 sentyabr 2010-cu il*

*Sentyabrın 15-də İstanbulda «Çırağan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Qırğızıstanın keçid dövrü prezidenti Roza Otunbayevanın görüşü olmuşdur.*

*Görüşdə Qırğızıstanın keçid dövrü prezidenti xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırlatdı, Azərbaycanın Bişkekdə öz səfirliyini açmasını yüksək dəyərləndirdi.*

*Prezident İlham Əliyev dedi ki, ölkəmizin Qırğızıstan ilə əlaqələri, xüsusilə də investisiya qoyuluşlarını inkişaf etdirmək imkanları vardır. Azərbaycan da Qırğızıstanda sabitliyin bərqərar olmasında maraqlıdır.*

*Görüşdə dövlət başçıları qarşılıqlı əlaqələri inkişaf etdirmək əzmində olduqlarını bildirdilər.*

# QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*İstanbul*

*16 sentyabr 2010-cu il*

*Sentyabrın 16-da İstanbulda «Çırağan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur.*

*Görüşdə dövlət başçıları Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdilər. Qeyd olundu ki, gələcəkdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin böyük perspektivləri vardır.*

*Dövlət başçıları bir sıra sahələrdə əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini qeyd edərək bildirdilər ki, Azərbaycan ilə Qazaxıstan dost ölkələrdir və hər iki ölkənin əməkdaşlığı gələcəkdə də faydalı olacaqdır.*

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ X ZİRVƏ TOPLANTISI

*İstanbul*

*16 sentyabr 2010-cu il*

*Sentyabrın 16-da İstanbulda «Çırağan» sarayında Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısı keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə toplantısında iştirak etmişdir.*

*Xatırladaq ki, ilk zirvə görüşü 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda, 2006-cı ildə Antalyada, ötən il isə Naxçıvanda keçirilmişdir.*

*Türkiyə prezidenti Abdullah Gül Azərbaycan prezidenti İlham Əliyevi, Qazaxıstan prezidenti Nursultan Nazarbayevi, Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovu, Qırğızıstanın keçid dövrü prezidenti Roza Otunbayevanı qarşıladı.*

*Zirvə toplantısını Türkiyə prezidenti Abdullah Gül açaraq zirvə görüşündə iştirak edən dövlət başçılarını salamladı və onları yenidən görməkdən məmnun olduğunu bildirdi. «Qardaş ölkələrimiz arasındakı müştərək dil, din, tarix, mədəniyyət və dəyərlərə əsaslanan tellər çox güclüdür» – deyən Abdullah Gül vurğuladı ki, bu baxımdan türkdilli ölkələrin dövlət başçılarının bir araya gəlməsi çox önəmlidir. Türkiyə prezidenti türkdilli ölkələr arasında əməkdaşlığın güclənməsində ötən il Naxçıvanda keçirilən IX zirvə toplantısında qəbul edilən qərarların mühüm rol oynadığını bildirdi, həmin qərarların*

*əhəmiyyətini xüsusi vurğulayaraq dedi:* «Naxçıvanda bu kontekstdə qəbul etdiyimiz mühüm qərarlardan biri də Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılmasıdır. Məlum olduğu kimi, Şuranın Katibliyi İstanbulda olacaqdır. Bugünkü toplantıda Katibliyin strukturunun yaradılması ilə bağlı qərar qəbul edəcəyik. Bu çərçivədə Şuranın Baş katibini də təyin edəcəyik. Beləliklə, keçən il Naxçıvanda təməlini qoyduğumuz təşkilatın qurulmasını təmin edəcəyik» .

*Azərbaycan prezidenti İlham Əliyev zirvə toplantısında çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Prezident!

Əziz qardaşım Abdullah Gül!

Əziz dostlar, hörmətli dövlət başçıları!

İlk növbədə demək istəyirəm ki, qardaş Türkiyədə yenidən olmağımdan çox məmnunam. Əziz qardaşım Abdullah Gülə təşəkkür edirəm ki, bugünkü zirvə görüşü çox yüksək səviyyədə təşkil olunubdur. Türkiyə yenə də bu gözəl təşəbbüsü öz üzərinə götürüb və bu zirvə görüşü gözəl İstanbulda keçirilir. Bizə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram. Əminəm ki, zirvə görüşünün gözəl nəticələri olacaqdır və ölkələrimiz arasında əməkdaşlıq, dostluq, qardaşlıq əlaqələri sürətli inkişafını davam etdirəcəkdir.

Keçən il türk dünyasının qədim torpağı olan Naxçıvanda zirvə görüşünün keçirilməsi böyük hadisə idi. O dövrdən bu günə qədər – bu bir il ərzində hesab edirəm ki, aramızdakı əlaqələr daha da sürətlə inkişaf etdi. Keçənilki zirvə görüşü ərəfəsində Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) birinci plenar iclası keçirilmişdir. Bakıda TürkPA-nın Baş Katibliyi yaradılmışdır. Artıq Katiblik uğurla fəaliyyət göstərir. Naxçıvan zirvə görüşü zamanı Azərbaycan tərəfi təşəbbüs irəli sürmüşdü ki, TÜRKSOY Fondu yaradılsın. Mən hörmətli həmkarlarıma minnətdaram ki, bu təşəbbüs dəstəkləndi

və artıq bütün hazırlıq işləri gedir. Yaxın zamanlarda TÜRKSOY Fondu yaradılacaq və Azərbaycan bu fondun fəaliyyəti üçün lazımi maddi dəstəyini verəcəkdir. Hesab edirəm ki, bu fond nəinki türkdilli dövlətlərdə, bütün türk ellərində mədəni abidələrin bərpası, qorunması işinə öz dəstəyini verməlidir. Tarixi, mədəni araşdırmalar aparmalıdır. Mədəni sahədə, ölkələrimiz, xalqlarımız arasında dostluq, qardaşlıq əlaqələrinin inkişafı işinə böyük töhfə verməlidir.

Bizi ortaq tarix, ortaq mədəniyyət birləşdirir. Mən çox şadam ki, bu gün ölkələrimiz müstəqil dövlətlər kimi, bütün sahələrdə uğurlu əməkdaşlıq aparır, bir-birinə dəstək olurlar. Biz çalışmalıyıq və çalışırıq ki, bütün beynəlxalq təşkilatlarda bir-birimizin mövqeyini gücləndirək, bir-birimizə siyasi dəstək verək və bütün işlərdə bir-birimizin yanında olaq. Bütün bu əməkdaşlığa və xoş niyyət göstərən bütün ölkələrə öz minnətdarlığımı bildirmək istəyirəm.

Bildiyiniz kimi, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində əfsuslar olsun ki, heç bir irəliləyiş və nəticə yoxdur. Uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Torpaqlarımızın 20 faizi Ermənistanın işğalı altında qalır. Bu işğal və azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin salınıbdır. Bu, böyük ədalətsizlikdir, bu, humanitar fəlakətdir. Bütün beynəlxalq təşkilatlar, dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın haqq işini dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır və orada bilavasitə göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. ATƏT-in qərarları, İslam Konfransı Təşkilatının çoxsaylı qətnamələri, Avropa parlamenti, Avropa Şurası kimi təşkilatların qərar və qətnamələri məsələnin ədalətli və beynəlxalq hüquq normalarına uyğun şəkildə həll olunmasını tələb edir. Əfsuslar olsun ki, bu günə qədər bu məsələ ilə bağlı

nəticə yoxdur. Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamış, yaratmışdır. Azərbaycanın ərazi bütövlüyü beynəlxalq birlik tərəfindən tanınır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Biz istəyirik ki, bunu tezliklə danışıqlar, sülh yolu ilə həll edək.

Azərbaycanda müxtəlif millətlərin, müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, yaxud da ki, milli zəmində münaqişə, qarşıdurma olmamışdır. Bütün xalqların hüquqları qorunur. Əlbəttə ki, erməni xalqı Azərbaycan torpaqlarında yaşamışdır, bu gün də yaşayır. Onların da hüquqları qorunur.

Xalqların öz müqəddəratını təyinetmə istəkləri ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Yəni, bu iki anlayış arasında qarşıdurma yaradılmamalıdır. Beynəlxalq təcrübə və beynəlxalq hüquq belə mövqeni dəstəkləyir. Dağlıq Qarabağda yaşayan ermənilər və Dağlıq Qarabağa qayıdacaq azərbaycanlılar vahid Azərbaycan dövləti çərçivəsində yüksək özünüidarəetmə imkanlarına malik olan prinsiplər əsasında yaşamalıdırlar. Bu, beynəlxalq hüququn qaydalarıdır. Bu, normal insani davranışın qaydalarıdır.

Biz XXI əsrdə yaşayırıq, XIX əsrdə deyil. Biz sivilizasiyalararası dialoqun inkişafına çalışmalıyıq, xalqlar arasında dostluq, əməkdaşlıq meyillərini gücləndirməliyik. XXI əsrdə başqa ölkənin beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyünü pozmaq, o bölgədə etnik təmizləmə siyasəti aparmaq, Xocalı soyqırımı törətmək kimi cinayətlər cavabsız qalmamalıdır. Beynəlxalq birlik nəinki öz qətnamələri və qərarları ilə, praktiki addımlarla bu məsələnin tezliklə həll olunmasına çalışmalıdır.

Biz bundan sonra da çalışacağıq ki, məsələ daim bütün beynəlxalq təşkilatların gündəliyində qalsın. Əlbəttə ki, biz dost, qardaş ölkələrin dəstəyinə görə minnətdarıq. İlk növbədə qardaş Türkiyəyə minnətdarıq ki, bütün dövrlərdə daim Azərbaycanın yanında olmuşdur. Bütün beynəlxalq təşkilatlarda

Azərbaycana dəstək olmuşdur. Öz fikrini, öz mövqeyini açıq ifadə etmişdir. Türk dünyasında yaşayan və bizə dəstək olan bütün qardaşlarıma bu gün bu gözəl şəhərdən müraciət edib minnətdarlığımı bildirmək istəyirəm.

Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Biz xəritəyə baxsaq görərik ki, əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı. Buna baxmayaraq, bizi birləşdirən təkcə coğrafi koordinatlar deyil, aramızdakı münasibətlərdir, qardaşlığımızdır, ortaq keçmişimizdir, bu günümüzdür. 20 ilə yaxındır ki, ölkələrimiz müstəqil dövlətlər kimi yaşayır. Bu müddət ərzində ölkələrimiz gücləndi, formalaşdı, dövlətçiliyimizin əsasları quruldu. Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan kimi ölkələr öz növbəsində, Türkiyəni gücləndirir, necə ki, böyük və güclü Türkiyə bizi gücləndirir. Bizim gücümüz bizim birliyimizdədir. Biz çalışmalıyıq ki, bütün sahələrdə bu birliyi daha da möhkəmləndirək.

Mən xüsusilə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişafı üçün dünən imzalanan çox vacib sazişi vurğulamaq istəyirəm. Dünən Türkiyə ilə Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurası yaradılıbdır. Əminəm ki, Şuranın fəaliyyəti çox uğurlu olacaqdır. Biz çalışmalıyıq ki, ölkələrimiz arasında münasibətləri bütün sahələrdə sürətlə irəliyə aparaq. İqtisadi sahədə qarşılıqlı ticarətin təşviqi və genişlənməsi üçün əlavə tədbirlər görülməlidir. Qarşılıqlı sərmayənin qoyulması üçün əlavə imkanlar araşdırılmalıdır. Bu gün Azərbaycana qardaş ölkələrdən sərmayələr qoyulub, Azərbaycan şirkətləri də türkdilli ölkələrə investisiyalar qoyurlar və bu proses getdikcə daha da güclənir. Əziz qardaşım Abdullah bəy qeyd etdi ki, enerji təhlükəsizliyi məsələlərində biz birgə çalışırıq. Türkiyə ilə Azərbaycan arasındakı

münasibətlərdə bu məsələ xüsusi çəkiyə malikdir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri, demək olar ki, bölgənin enerji xəritəsinə böyük töhfə verdi, yəni enerji xəritəsini zənginləşdirdi. Bu yollar, dəhlizlər açılandan sonra bu dəhlizlər vasitəsilə Xəzər dənizinin şərq sahillərindən təbii ehtiyatlar nəql edilir. Bu gün Qazaxıstandan, Türkmənistandan neft məhsulları Azərbaycan ərazisindən dünya bazarlarına, o cümlədən Türkiyəyə və Türkiyə ərazisindən dünya bazarlarına çıxarılır. Əminəm ki, gələcəkdə bu əməkdaşlığın daha da böyük faydası olacaqdır. Bu sahədə aramızdakı çoxtərəfli əməkdaşlığa böyük ehtiyac vardır. Türkiyə bizim üçün həm də böyük bazardır, qardaş ölkənin tranzit imkanları genişdir. Biz bu sahədə səylərimizi daha da artırsaq, bu hər bir ölkənin gücləndirilməsinə xidmət edəcəkdir.

Bu gün biz dəmiryol layihəsi üzərində fəal çalışırıq. Bakı–Tbilisi–Qars dəmir yolu nəinki Türkiyəni Azərbaycanla, Türkiyəni Orta Asiya ilə birləşdirəcək, eyni zamanda, Avropanı Orta Asiya ilə birləşdirəcəkdir. Bu yol həm iqtisadi cəhətdən çox cəlbedicidir, həm də ki, qardaş ölkələri birləşdirəcəkdir. Artıq həyata keçirilən layihələr göstərir ki, birgə görülən işlər, müştərək təşəbbüslər bütün ölkələrə ancaq və ancaq xeyir və mənfəət gətirir.

Mən bir daha qeyd etmək istəyirəm ki, bugünkü zirvə görüşünə çox böyük əhəmiyyət verirəm. Çox şadam ki, vaxtilə yaradılmış, sonra pozulmuş ənənə artıq bərpa olunur. Yəni, artıq bu zirvə görüşləri keçirilir. Keçən il keçirildi, bu il keçirilir. Əminəm ki, gələn il də keçiriləcəkdir. Biz bu ənənəni artıq bərpa edirik. Ümid edirəm ki, gələcəkdə nəzərdə tutulmuş bütün məsələlər, planlar həyatda öz əksini tapacaq və ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin uğurlu inkişafı davam edəcəkdir.

## Səfər başa çatdı

*Sentyabrın 16-da Azərbaycan prezidenti İlham Əliyevin Türkiyəyə səfəri başa çatmışdır.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Vətənə qayıtdı.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Milli bayramınız – Çin Xalq Respublikasının yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Qədim ənənələrə malik Azərbaycan–Çin əlaqələri bu gün hərtərəfli inkişaf yolundadır. Dost xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası münasibətlərimizin gündən-günə möhkəmlənməsi əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi ilə müşayiət olunur.

Ümidvaram ki, ölkələrimiz arasında münasibətlərin, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın sabit və uzunmüddətli inkişafı naminə bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2010-cu il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Alman birliyi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–Almaniya münasibətlərinin hazırkı inkişaf səviyyəsi, istər ikitərəfli qaydada, istərsə də Avropa strukturları çərçivəsində səmərəli əməkdaşlığımız məmnunluq doğurur. Əminəm ki, dövlətlərarası münasibətlərimizin, dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost alman xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2010-cu il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Lİ MEN BAKA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətin yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu gün dost ölkələrimiz arasında sıx əməkdaşlıq əlaqələri mövcuddur. Əminəm ki, münasibətlərimizin bütün səviyyələrdə inkişafı, əməkdaşlığımızın daim genişləndirilməsi istiqamətində səylərimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2010-cu il*

## «AZƏRBAYCAN YAŞIL DÜNYA NAMİNƏ» DEVİZİ ALTINDA KEÇİRİLƏN BEYNƏLXALQ EKOLOGİYA SƏRGİSİ İLƏ TANIŞLIQ

*17 sentyabr 2010-cu il*

*Prezident İlham Əliyev sentyabrın 17-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində «Azərbaycan yaşıl dünya naminə» devizi altında keçirilən beynəlxalq ekologiya sərgisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı ətraf mühitin mühafizəsini və sağlam ekoloji mühitin yaradılmasını prioritet məsələlərdən biri kimi qarşıya məqsəd qoymuşdur. Təsadüfi deyildir ki, prezident İlham Əliyev 2010-cu ili Azərbaycanda «Ekologiya ili» elan etmişdir. «Azərbaycan yaşıl dünya naminə» devizi altında keçirilən beynəlxalq ekologiya sərgisi də «Ekologiya ili» çərçivəsində reallaşan tədbirlərdən biridir.*

*Ticarət və Sənaye Palatasının təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi dəstəyi ilə keçirilən sərginin məqsədi respublikamızda və xarici ölkələrdə ətraf mühitin sağlamlaşdırılması istiqamətində reallaşdırılan qabaqcıl təcrübənin geniş auditoriyaya təqdim olunması, təcrübə mübadiləsi aparılması və əməkdaşlıq əlaqələrinin qurulmasıdır.*

*Sərgidə ekoloji problemlərin həlli sahəsində fəaliyyət göstərən 30-dək yerli və xarici şirkət, eləcə də dövlət qurumları və qeyri-hökumət təşkilatları təmsil olunmuşdur. Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov prezident İlham Əliyevə sərgi barədə ətraflı məlumat verdi. Qeyd olundu ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ətraf mühitin sağlamlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirir. Son 15 ildə Azərbaycanda meşələrin ərazisi xeyli artırılmışdır. Cari «Ekologiya ili»ndə Azərbaycanda 8 milyon*

*200 min ağac və kol bitkisi əkilmişdir. Bunun 1 milyon 540 mini Bakıətrafı ərazilərin payına düşür. Nazirliyin Kompleks Hidrometeoroloji və Ekoloji Tədqiqat Elm Mərkəzinin 3 min metrə qədər yüksəkliklərdə yerləşən 3 avtomatlaşdırılmış meteoroloji stansiyası fəaliyyət göstərir. Cənubi Qafqazda Vəhşi təbiətin bərpası və reabilitasiyası mərkəzi də ilk dəfə Azərbaycanda yaradılmışdır.*

*Bu ildən fəaliyyətə başlayan Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin pavilyonu ilə tanışlıq zamanı bildirildi ki, agentlik günəş, külək, kiçik çaylar, bioqaz və sair mənbələrdən elektrik və istilik enerjisinin alınması üçün silsilə tədbirlər reallaşdırır. Tezliklə Sumqayıtda Günəş texnologiyalari zavodunun təməlinin qoyulması gözlənilir. Enerji səmərəliliyi məsələləri də agentliyin diqqət mərkəzindədir.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ekoloji mühitin sağlamlaşdırılması üzrə çoxşaxəli fəaliyyətini əks etdirən stendlə tanış oldu. Qeyd edildi ki, dövlətimizin başçısının sərəncam və tapşırıqlarına əsasən müasir AVRO-2 ölçü məntəqəsi inşa olunmuşdur, neftlə çirklənmiş ərazilərin təmizlənməsi və alternativ enerji mənbələrindən istifadə tədbirləri genişləndirilir, platformalarda təmizləyici qurğular quraşdırılır və digər silsilə layihələr həyata keçirilir.*

*bp şirkəti də ətraf mühitin sağlamlaşdırılması ilə bağlı bir sıra yeni layihələr üzrə iş aparır. Azərbaycanın AİMROC şirkəti isə Daşkəsənin qızıl yataqlarında və Balakəndə Filizçay yatağında işlər görür. Aparılan araşdırmalar nəticəsində Balakəndəki yatağın dünyada ən zəngin mis və sink ehtiyatlarına malik olduğu aşkarlanmışdır.*

*Dövlətimizin başçısı respublikamızda ekologiya sahəsində istifadə olunan maşın və mexanizmlərə baxdı.*

*Sərgi ilə yaxından tanış olan prezident İlham Əliyev təşkilatçılara və iştirakçılara uğurlar arzuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-a İŞGÜZAR SƏFƏRİ

*22 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Nyu-Yorkda keçirilən BMT Baş Məclisinin 65-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

## ABŞ DÖVLƏT KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞ

*Nyu-York*

*22 sentyabr 2010-cu il*

*Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatları Dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında energetika sahəsində əməkdaşlıq və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə olunmuşdur.*

*Amerika Birləşmiş Ştatları Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Filip Qordon görüşdə iştirak etmişdir.*

## BMT BAŞ MƏCLİSİNİN 65-ci SESSİYASININ AÇILIŞI MƏRASİMİ

*Nyu-York*

*23 sentyabr 2010-cu il*

*Sentyabrın 23-də Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının mənzil-qərargahında təşkilatın Baş Məclisinin 65-ci sessiyası çərçivəsində ümumi müzakirələrin rəsmi açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Məclisinin 65-ci sessiyasında iştirak etmişdir.*

*BMT Baş Məclisinin 65-ci sessiyasında iştirak edən ABŞ prezidenti Barak Obama bəşəriyyəti narahat edən məsələlərə toxundu. Bildirdi ki, bu problemlərin həlli dünya dövlətlərinin səylərini birləşdirməyi tələb edir. Yalnız bu halda problemlərin həllinə nail olmaq mümkündür. Bunun üçün bir araya gəlmək, problemlərin birgə müzakirəsinə nail olmaq lazımdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab sədr!

Xanımlar və cənablar!

Əvvəlki natiqlərə qoşularaq cənab Cozef Deysin Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 65-ci sessiyasının sədri vəzifəsinə seçilməsi münasibətilə onu təbrik etmək, bu cür olduqca məsuliyyətli işdə uğurlar arzulamaqdan şərəf duy-

duğumu və apardığı məhsuldar işə görə sələfi doktor Əli Abdussalam Trekiyə təşəkkürümü bildirmək istəyirəm.

Mən, həmçinin Birləşmiş Millətlər Təşkilatının fəaliyyətinin canlandırılmasında nümayiş etdirdiyi rəhbərlik məharətinə və işə sadiqliyinə görə Birləşmiş Millətlər Təşkilatının Baş katibi, zati-aliləri cənab Pan Gi Muna dərin hörmət və minnətdarlığımı bildirirəm.

Cənab sədr, Azərbaycan dünya xalqları üçün beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması, davamlı inkişafın təşviq edilməsi və fundamental azadlıqların irəliyə doğru aparılması sahəsində Birləşmiş Millətlər Təşkilatının oynadığı əsas rolu qiymətləndirir. Azərbaycan hesab edir ki, Birləşmiş Millətlər Təşkilatı dünyanın hər bir yerində bir çox qlobal məsələlərdə, eləcə də hər bir üzv dövlətin istəklərinin nəzərə alınması və narahatlıqların aradan qaldırılmasında daha güclü və bacarıqlı olmalıdır.

Müharibə və işğalın ağır nəticələrindən əziyyət çəkən bir ölkə kimi, Azərbaycan qəti şəkildə inanır ki, dövlətlər arasında yaxşı qonşuluq, dost münasibətləri və əməkdaşlığa aid beynəlxalq səviyyədə qəbul olunmuş beynəlxalq hüququn norma və prinsiplərinə düzgün qaydada riayət edilməsi, eləcə də dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərin xoş iradə ilə yerinə yetirilməsi beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında çox böyük əhəmiyyətə malikdir.

Ermənistan ilə Azərbaycan arasında davam edən silahlı münaqişə beynəlxalq və regional sülhə böyük təhlükədir. Münaqişə nəticəsində Azərbaycan ərazisinin beşdə bir hissəsi işğal edilmiş, ölkəmizin təxminən hər doqquz nəfərindən biri məcburi köçkün və ya qaçqın vəziyyətinə düşmüşdür. Ermənistanın münaqişə zamanı çox ciddi beynəlxalq cinayətlər törədərək, etnik təmizləmə siyasətini həyata keçirərək və işğal edilmiş Azərbaycan ərazilərində monoetnik mədəniyyətin yaradılmasına çalışaraq, Azərbaycan ərazilərinin işğalına görə əsas məsuliyyət daşıması beynəlxalq səviyyədə etiraf edilmişdir.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnamədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə tam dəstəyini vermiş və torpaqların gücdən istifadə edərək ələ keçirilməsinin qəbuledilməzliyini vurğulamışdır. BMT, həmçinin Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımış, işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tam şəkildə və qeyd-şərtsiz çıxarılmasına çağırmışdır. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi və digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, Avropa Şurası, Avropa parlamenti, İslam Konfransı Təşkilatı eyni mövqeni tutmuşlar. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyətin yekdil mövqeyinə baxmayaraq, Azərbaycan əraziləri işğal altında qalmaqda davam edir.

Bu günə qədər münaqişənin mümkün qədər tez və davamlı həll variantını tapmaq məqsədi ilə vicdanla danışıqlar aparmaq əvəzinə, Ermənistan vəziyyətin ağırlaşmasına üstünlük verir ki, bu da öz növbəsində gözlənilməz nəticələrə gətirə bilər.

Münaqişənin tezliklə həll olunması istiqamətində göstərilən hazırkı səylərə baxmayaraq, Azərbaycanın işğal edilmiş ərazilərində aparılan işlər beynəlxalq hüququ kobud surətdə pozur və işğalın cari status-kvosunun daha da möhkəmləndirilməsinə, etnik təmizləmənin nəticələrinin saxlanmasına, zəbt olunmuş ərazilərdə məskunlaşmanın aparılmasına xidmət edir, o cümlədən münaqişənin dinc yolla həllinə ciddi maneə yaradır. Belə ki, münaqişənin başladığı andan ötən dövr ərzində çoxlu sayda insan azərbaycanlıların qovulduğu işğal altındakı bölgələrə köçməyə həvəsləndirilmişdir. 2005-ci ildə ATƏT Azərbaycanın işğal edilmiş ərazilərinə faktaraşdırıcı missiyasını göndərmiş və həmin missiya orada insanların məskunlaşması faktını müəyyən etmiş, «Azərbaycanın işğal edilmiş ərazisində hər hansı digər məskunlaşmaqdan çəkinməyə» çağırmışdır.

Ermənistan işğal edilmiş ərazilərdə Azərbaycanın mədəni və tarixi köklərini nümayiş etdirən maddi sübutları yox etməyə çalışaraq, həmin yerlərin tarixi və mədəni simasını dəyişmək məqsədi ilə ardıcıl tədbirlər görməkdədir. Nəticədə, işğal

olunmuş ərazilərdə Azərbaycanın elə bir tarixi və ya mədəni abidəsi, elə bir müqəddəs yeri qalmamışdır ki, ona zərər dəyməsin, yaxud orada vandalizm aktları törədilməsin.

İşğal edilmiş ərazilərə insanların köçürülməsi, eləcə də tarixi və mədəni irsin məhv edilməsi, mənimsənilməsi orada aparılan qeyri-qanuni fəaliyyətin müxtəlif formaları ilə yanaşı, məcburi köçkünlərin mülkiyyət hüquqlarına da birbaşa zərər vurur. Siyasi məsələlərə dair razılaşmanın olmaması, münaqişənin dondurulmuş vəziyyətdə qalması və uzun müddət davam edən danışıqlar münaqişə ilə bağlı beynəlxalq hüquqa və insan hüquqları sahəsində beynəlxalq qanunlara davamlı şəkildə bilərəkdən riayət edilməməsindən irəli gələn digər problemlərə diqqətin yetirilməməsi üçün bəhanə kimi istifadə edilməli deyildir.

Cənab sədr!

Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və onun ətrafında silahlı münaqişənin tezliklə həll edilməsi bizim üçün başlıca vəzifə olaraq qalır. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri regiona sülh və sabitliyin gətirilməsində səylərini göstərirlər. Münaqişənin həlli erməni hərbi qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən müəyyən edilmiş müddət ərzində çıxarılmasını, bütün kommunikasiyaların bərpasını, bütün qaçqın və məcburi köçkünlərin doğma yerlərinə qayıtmasını, beynəlxalq təhlükəsizlik zəmanətlərini, o cümlədən sülhməramlı qüvvələri, Dağlıq Qarabağın müvəqqəti statusunu nəzərdə tutur. Biz Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibində statusunun yekunlaşdırılması üçün xoş məramla danışıqları davam etdirməyə hazırıq.

ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən 2009-cu ilin dekabr ayında Ermənistan ilə Azərbaycana təqdim edilmiş mərhələli variant prinsip etibarilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzunmüddətli həllinə nail olmaqda əsas kimi Azərbaycan tərəfindən qəbul edilmişdir. Əfsuslar olsun ki, Ermənistan tərəfi həmsədrlərin təklifinə aydın cavabını hələ də uzadır.

Azərbaycan öz suverenliyi və ərazi bütövlüyü baxımından həyati əhəmiyyət kəsb edən məsələlər üzrə üzv dövlətlərin prinsipial mövqeyini yüksək qiymətləndirir. Biz beynəlxalq ictimaiyyətin Azərbaycanın ədalətli mövqeyi ilə davamlı şəkildə həmrəy olmasına və mövcud çətinliklərin qərəzsiz, açıq və əhatəli şəkildə həllinə yönəlmiş Birləşmiş Millətlər Təşkilatı çərçivəsində irəli sürdüyümüz təşəbbüslərə, mühüm dəstəyə arxalanırıq.

Xanımlar və cənablar!

Həll olunmamış Dağlıq Qarabağ münaqişəsinə və işğal edilmiş ərazilərə baxmayaraq, Azərbaycan hökuməti ölkədə siyasi sabitliyin, demokratik inkişafın, iqtisadi çiçəklənmə və sosial rifahın təmin edilməsinə nail olmuşdur. Bu gün Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən ölkələrdən biridir. Yalnız son 5 ildə Azərbaycan ümumi daxili məhsulunu təxminən 3 dəfə artırmışdır.

Formalaşan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat və enerji dəhlizləri boyunca əsas ticarət marşrutlarının kəsişməsində yerləşən Azərbaycanın strateji-coğrafi mövqeyi ölkənin enerji və infrastruktur qovşağına çevrilməsində mühüm amildir. Azərbaycanda təsdiqlənmiş böyük neft və qaz ehtiyatları vardır və ölkəmiz yeni yataqların kəşf olunmasında yaxşı perspektivlərə malikdir. Azərbaycanda karbohidrogenlərin beynəlxalq bazarlara daşınması üçün müasir infrastruktur artıq yaradılmışdır. Bu infrastrukturdan beynəlxalq enerji təhlükəsizliyini şaxələndirə və gücləndirə biləcək neft və təbii qazın ixracı üçün istifadə edilir. Bu, qaz təchizatı üçün xüsusi əhəmiyyət kəsb edir. Təbii qazın təsdiqlənmiş 2 trilyon kubmetr, potensial qaydada 5 trilyon kubmetr və hətta ondan da artıq həcmdə ehtiyatlara malik olan Azərbaycan dünyada qaz bazarının sabit inkişafının təmin edilməsi işinə töhfəsini verməyə hazırdır. Azərbaycanın olduqca fəal qaydada qonşuları ilə işlədiyi digər qlobal səviyyədə mühüm layihə regional dəmiryol xəttinin çəkilməsini və inkişafını nəzərdə tutur. Bu

dəmiryol xətti Asiya ilə Avropa arasında bütün növ malların daşınması üçün böyük imkanlar yaradacaqdır.

Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünün çox fəal üzvü kimi, Azərbaycan enerji gəlirlərini açıq və şəffaf şəkildə ölkənin inkişafı, xüsusən də insan kapitalının formalaşdırılması və yoxsulluğun aradan qaldırılması üçün istifadə edir. Beləliklə, biz yoxsulluq səviyyəsini 2003-cü ildəki 49 faizdən 2009-cu ildə 11 faizə qədər azaltmağa nail olduq. Mən qətiyyətlə inanıram ki, qarşıdan gələn illərdə Azərbaycan davamlı inkişaf sayəsində bu sahədə daha böyük nailiyyətlər əldə edəcəkdir.

Cənab sədr, Azərbaycan bütün dövrlərdə müxtəlif dinlər, etnik qruplar və fəlsəfələr arasında birgə yaşama və dözümlülük məkanı olmuşdur. Sivilizasiyalar İttifaqının Dostlar Qrupunun fəal üzvü kimi, Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqinə qarşılıqlı hörmət və anlaşma əsasında töhfə verir. Azərbaycan bu ilin yazında 32 dövlətin dini rəhbərlərinin Ümumdünya Sammitini təşkil etmiş, 2011-ci ilin aprelində Mədəniyyətlərarası Dialoq naminə Ümumdünya Forumunu keçirmək təşəbbüsü ilə çıxış etmişdir. Planetin istənilən guşəsinə təsir göstərə biləcək ən ciddi və uzunmüddətli çətinliklərdən biri iqlim dəyişikliyidir. Biz Azərbaycanda 2010-cu ili «Ekologiya ili» elan etmişik və ətraf mühitin qorunması sahəsində müxtəlif xüsusi proqramlar qəbul etmişik.

Azərbaycan inkişaf edən və ən az inkişaf etmiş dövlətlərin, eləcə də təbii fəlakətlərdən əziyyət çəkən ölkələrin üzləşdiyi çətinliklərin aradan qaldırılması və zəruri ehtiyacların təmin edilməsinə xüsusi diqqət yetirərək, hamı üçün davamlı inkişaf və qlobal çiçəklənmənin təşviqinə tam dəstəyini nümayiş etdirir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatı çərçivəsində razılaşdırılmış inkişaf məqsədlərinin yerinə yetirilməsinə töhfəsini davam etdirəcəkdir.

## ABŞ PREZİDENTİ BARAK OBAMA İLƏ GÖRÜŞ

*Nyu-York*

*24 sentyabr 2010-cu il*

*Sentyabrın 24-də Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamanın görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında strateji əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu.*

*ABŞ prezidenti Barak Obama prezident İlham Əliyevin liderlik rolunu qeyd edərək, Azərbaycanın regionda ən çox uğurlar qazanan və ən nüfuzlu ölkələrdən biri olduğunu vurğuladı. Azərbaycan ilə ABŞ-ın beynəlxalq antiterror əməliyyatlarında birgə fəaliyyətinə toxunulan görüşdə Azərbaycanın bu əməliyyatlarda iştirakı yüksək qiymətləndirildi.*

*Energetika sahəsində ölkələrimiz arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilərək, Azərbaycanın beynəlxalq enerji əməkdaşlığının genişləndirilməsinə töhfəsi xüsusi qeyd olundu.*

*Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışaraq, problemin tezliklə nizama salınmasının regionda sülhün və sabitliyin təmin edilməsi baxımından zəruri olduğunu bildirdilər.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü prinsipi əsasında həll olunmasının vacibliyi ilə bağlı mövqeyini bir daha diqqətə çatdırdı.*

*Dövlət başçılarının görüşündə Azərbaycanda demokratik inkişaf prosesləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## Səfər başa çatdı

*Sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri başa çatmışdır.*

* * *

*Həmin gün prezident İlham Əliyev Vətənə qayıtdı.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖZBƏKİSTANA RƏSMİ SƏFƏRİ

*27 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Özbəkistana rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Özbəkistan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Özbəkistanın dövlət bayraqları ilə bəzədilmiş «Daşkənd-2» aeroportunda Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Özbəkistanın Baş naziri Şavkat Mirziyoyev və yüksək vəzifəli digər dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## ÖZBƏKİSTAN PREZİDENTİNİN İQAMƏTGAHINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Daşkənd*

*27 sentyabr 2010-cu il*

*Sentyabrın 27-də Özbəkistan Respublikası Prezidentinin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*İqamətgahın qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Özbəkistan prezidenti İslam Kərimov Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycan və Özbəkistan respublikalarının dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Prezidentlər hərbi marşın sədaları altında Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Özbəkistanın yüksək vəzifəli rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə prezident İslam Kərimova təqdim olundu.*

*Prezident İslam Kərimov Özbəkistanda akkreditə olunan diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların rəhbərlərini prezident İlham Əliyevə təqdim etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Daşkənd*

*27 sentyabr 2010-cu il*

*Sentyabrın 27-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun təkbətək görüşü olmuşdur.*

**İ s l a m K ə r i m o v:** İlham Heydər oğlu, mən Sizi Özbəkistan torpağında salamlamağa və ortaq dilimizdə «Xoş gəlmisiniz Özbəkistana!» – deməyə ürəkdən şadam. Sizin Özbəkistana rəsmi səfərinizi biz əlamətdar hadisə, Özbəkistan ilə Azərbaycan arasında mövcud olan, dinamik inkişaf edən münasibətlərin qanunauyğun və məntiqi davamı hesab edirik. Fikrimcə, səfərinizin əhəmiyyətini həm də onda görmək olar ki, bu gün yaşadığımız mürəkkəb dövrdə – təkcə dünya miqyasında deyil, Qafqaz regionunda və Mərkəzi Asiya regionunda yaranmış mürəkkəb şəraitdə Sizinlə görüşlərimiz, fikir mübadiləsi aparmağımız, dövlətlərimizi maraqlandıran aktual, son dərəcə vacib və kəskin məsələləri müzakirə etməyimiz, düşünürəm ki, çox böyük və mühüm əhəmiyyətə malikdir.

Fikir mübadiləsi özlüyündə artıq böyük sərvət, böyük hadisədir. Bunun nəticəsində biz nəinki əməkdaşlığımızın ötən dövründə görülmüş işlərə yekun vura bilərik, həm də deyərdim ki, bu gün müəyyən düzəlişlər etməyin, Azərbaycan və Özbəkistan üçün birmənalı şəkildə əhəmiyyət kəsb edən bütün problemlərin həllinin yeni yollarını, prioritet istiqamətlərini

müəyyən edə bilərik. Hesab edirəm ki, son zamanlar xüsusən Mərkəzi Asiya regionunda baş vermiş hadisələr bizim regionda insanları narahat edir, onların rahatlığı, sülh və sabitlik üçün problemlər yaradır. Eynilə sizin regionda da daimi münaqişə ocaqları vardır və bu münaqişələrin həll edilməsi vaxtı çoxdan çatmışdır. Bizim bu məsələlər barəsində – həm Azərbaycanın Mərkəzi Asiya problemlərinə, həm də Özbəkistanın Dağlıq Qarabağ məsələsinə dair mövqelərimiz və baxışlarımız eynidir. Fürsətdən istifadə edib jurnalistlərin qarşısında bir daha demək istərdim ki, Özbəkistanın Dağlıq Qarabağ barədə mövqeyi dəyişmir, dəyişməzdir və daimidir. Dağlıq Qarabağ problemi dinc, siyasi yolla həll edilməlidir. Lakin bir prinsipə dönmədən riayət edilməlidir. Bu, sərhədlərin toxunulmazlığı, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü prinsipidir.

İqtisadi məsələlərə gəldikdə, ümumi fikir belədir ki, Azərbaycanın və Özbəkistanın potensialından tam həcmdə istifadə edilmir və bunun səbəbi, ilk növbədə transkommunikasiya problemləri ilə bağlı məsələlərdir. Güman edirəm ki, əgər bu məsələ həll edilsə, biz hələ tələbat olmayan imkanlardan istifadə edəcəyik. Bu gün həmin imkanlardan Azərbaycanın və Özbəkistanın mənafeyi üçün istifadə edilməsi çox vacibdir. Aydındır ki, biz bu məsələlər barəsində də fikir mübadiləsi etməyə imkan tapacağıq.

Mədəni-humanitar məsələlərə gəldikdə, hesab edirəm ki, bu bizim üçün çox mühüm sahədir. Ona görə ki, tariximizdə, azərbaycanlıların və özbəklərin milli maraqlarında, onların yaşadığı həyat tərzində ümumi cəhətlər çoxdur. Söhbət təkcə dinimizin deyil, həm də dilimizin, mədəniyyətimizin, Azərbaycanın və Özbəkistanın birmənalı şəkildə qürur duyduğu mənəvi dəyərlərin ümumiliyindən gedir. Bu mövzuda da danışmağa sözümüz vardır.

Sizə bir daha «Özbəkistana xoş gəlmisiniz!» – demək və Azərbaycanın bütün nümayəndə heyətinə burada vaxtı səmərəli keçirməyi arzulayıram.

**İ l h a m Ə l i y e v:** Hörmətli İslam Əbdüqəniyeviç, xoş sözlər üçün çox sağ olun. İlk növbədə, qardaş Özbəkistana dəvətə görə təşəkkürümü bildirmək istəyirəm. Qardaş Özbəkistan torpağında bir daha olmaq, münasibətlərimizin geniş gündəliyinə dair Sizinlə fikir mübadiləsi aparmaq, habelə münasibətlərimizin dostluq, qardaşlıq və əməkdaşlıq ruhunda gələcək inkişaf yollarını birgə müəyyənləşdirmək mənə çox xoşdur. Gündəliyimiz yetərincə genişdir. Biz bir çox istiqamətlərdə fəal əməkdaşlıq edirik. Əlbəttə, iqtisadi əlaqələrimizin zirvədə olan siyasi münasibətlərimiz səviyyəsinə yaxınlaşmasını istərdik. Ölkələrimiz arasında həm regional problemlərlə, həm də Qafqaz, Xəzər dənizi, Mərkəzi Asiya regionlarında nizama salınmamış münaqişələrə və potensial təhlükələrlə əlaqədar məsələlərə dair tam qarşılıqlı anlaşma mövcuddur.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində prinsipial mövqeyə görə Özbəkistana və şəxsən Sizə çox minnətdarıq. Siz bu mövqeni indi bir daha ifadə etdiniz. Həm ötən illərdəki çıxışlarda, həm də beynəlxalq təşkilatlarda səsvermə zamanı Özbəkistan həmişə məhz prinsipiallığı, ardıcıllığı və Azərbaycan ilə dostluq və qardaşlıq münasibətlərinə, habelə beynəlxalq normalara sadiqliyi ilə fərqlənmişdir. Biz qonşu dövlətlərin bütün sərhədlərinə hörmət edirik və əlbəttə ki, qonşularımızın, ilk növbədə, uzun illər boyu beynəlxalq hüququn norma və prinsiplərini, BMT Təhlükəsizlik Şurasının, BMT Baş Məclisinin və nüfuzlu beynəlxalq təşkilatların qətnamələrini kobud surətdə pozan Ermənistanın bu cür münasibətinə ümid bəsləyirik. Ona görə də Sizə bir daha təşəkkür etmək istəyirəm. Biz Özbəkistanın 2 il əvvəl BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair məsələ ilə bağlı səsvermə zamanı ifadə olunmuş mövqeyini yüksək qiymətləndiririk və bu dəstək bizim üçün çox əhəmiyyətlidir.

Sizi bir daha əmin etmək istəyirəm ki, Azərbaycan əvvəllər olduğu kimi, gələcəkdə də bütün beynəlxalq arenalarda həmişə

Özbəkistanın istənilən təşəbbüsünü dəstəkləyəcəkdir. Biz münasibətlərimizi çox yüksək qiymətləndiririk. Bu münasibətlər möhkəm bazaya, dostluğa, xalqlarımız arasında qardaşlığa əsaslanır. Xalqlarımız həqiqətən qardaşdır. Biz öz dilimizdə danışanda tərcüməyə ehtiyac olmur. Biz bir-birimizi başa düşür, xalqlarımızın mədəniyyətini, incəsənətini sevirik. Bizi ümumi tarix birləşdirir. Bu gün də iki müstəqil və dinamik inkişaf edən dövlət kimi biz, əlbəttə, birgə səylərlə regionumuzda sabitliyin möhkəmləndirilməsi və vəziyyətin proqnozlaşdırılması işinə böyük töhfə verə bilərik və veririk.

Sərhədləriniz ətrafında yaranan vəziyyət bizi narahat edir. Bu vəziyyət fəal həllini tələb edir və demək istəyirəm ki, biz Azərbaycanda sizin regionda baş verən hadisələri çox diqqətlə izləyirik və Sizin bu yaxınlarda nümayiş etdirdiyiniz və hazırda vəziyyətin xeyli sabitləşməsini şərtləndirən çox müdrik, ölçülüb-biçilmiş, ağıllı siyasəti yüksək qiymətləndiririk. Bu halda məhz Sizin siyasətiniz və atdığınız addımlar həlledici rol oynamış, həm regiona, həm də dünyaya ölkənizin təkcə regional əhəmiyyətli deyil, eyni zamanda, qlobal miqyaslı məsələlərdə mühüm rol oynadığını bir daha nümayiş etdirmişdir. Özbəkistanın uğurlu inkişafını, sosial, iqtisadi məsələlərin necə həll olunduğunu, dünyada mövqeyinin necə möhkəmləndiyini görmək çox xoşdur və bu bizim də mövqeyimizi möhkəmləndirir. Buna görə də mən sizin gözəl ölkənizə yenidən böyük sevinclə gəlmişəm. Əminəm ki, bu gün apardığımız fikir mübadiləsi və imzaladığımız sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Bir daha qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm.

## AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*27 sentyabr 2010-cu il*

*Sentyabrın 27-də Daşkənddə təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.*

**İ s l a m K ə r i m o v:** Hörmətli İlham Heydər oğlu!

Azərbaycan nümayəndə heyətinin hörmətli üzvləri, dostlar! Sizi Özbəkistan torpağında salamlamaqdan və sizin şəxsinizdə qardaş Azərbaycan xalqına dərin hörmətimi bildirməkdən həddsiz məmnunam. Fürsətdən istifadə edib bir daha vurğulamaq istərdim ki, Özbəkistanda Azərbaycan ilə Özbəkistan arasında səmimi dostluq hisslərinə əsaslanan dərin məzmunlu ikitərəfli dövlətlərarası münasibətləri yüksək qiymətləndirirlər. Prezidentlər arasında görüşlərə, yüksək səviyyədə görüşlərə, nazirliklər, müvafiq qurumlar səviyyəsində və işgüzar səviyyədə görüşlərə həmişə tələbat vardır. Biz Azərbaycan prezidenti İlham Əliyevin Özbəkistana bu rəsmi səfərini ikitərəfli və çoxtərəfli münasibətlərin dinamikasını, məzmununu, etimada əsaslanan fikir mübadiləsini obyektiv qiymətləndirmək, ölkələrimizin əməkdaşlığının ən mühüm prioritetlərini müəyyən etmək üçün yaxşı bir imkan hesab edirik.

Biz 2008-ci ildə Özbəkistan nümayəndə heyətinin Azərbaycana məhsuldar səfərini, orada gördüyümüz unudulmaz ənənəvi Azərbaycan qonaqpərvərliyini və mehribanlığı xüsusi hərarət hissi ilə xatırlayırıq. Heç şübhəsiz, ölkələrimiz və xalqlarımız arasında səmimi qarşılıqlı hörmət və dostluq

münasibətlərinin təzahürü üçün bizim milli ənənələrimizin, dilimizin, mədəniyyətimizin, dinimizin çoxəsrlik tarixi, eləcə də milli mənafelərimizin və müasir şəraitdə qarşımızda duran uzunmüddətli vəzifələrin ümumiliyi mühüm və münbit zəmindir. Azərbaycanlıların tamamilə aydın başa düşdüyü özbək dilində desək – «Bizim ulduzlarımız müştərək, dilimiz bir, dinimiz bir, ürəklərimiz birdir».

Fürsətdən istifadə edib təkcə öz adımdan deyil, həm də ölkəmizin bütün ictimaiyyəti adından görkəmli şəxsiyyət, bütün həyatını, bütün enerjisini, dövlət xadiminə xas olan zəngin istedadını bütünlüklə doğma ölkənin dirçəldilməsinə, ona xidmətə həsr etmiş, Azərbaycanın bugünkü və gələcək həyatının təməlini yaratmış Heydər Əlirza oğlu Əliyevin xatirəsinə dərin hörmət hissini bildirmək istəyirəm. Biz onu Özbəkistan ilə Azərbaycan arasında qarşılıqlı etimad münasibətlərinin möhkəmlənməsi üçün çox işlər görmüş uzaqgörən siyasi xadim və müdrik insan kimi xatırlayır və qiymətləndiririk. Hörmətli İlham Heydər oğlu, təbii ki, həyata keçirməyə başladığınız, hərtərəfli düşünülmüş və ölçülüb-biçilmiş xarici və daxili siyasət xəttinin reallaşdırılması, ölkənizin iqtisadi qüdrətinin, onun potensialının gücləndirilməsi, beynəlxalq aləmdə artan nüfuzunun təmin edilməsi üçün Sizin nə qədər böyük gərginlik, qüvvə, enerji və əmək sərf etdiyinizi Özbəkistanda yaxşı bilirik. Ölkənizin çox zəngin ehtiyatlarından səmərəli istifadə edilməsi, iqtisadiyyatın şaxələndirilməsi, onun ixrac hissəsinin genişləndirilməsi, əhalinin rifahının və həyat səviyyəsinin keyfiyyətinin daim yüksəldilməsi üçün Azərbaycanda inamla reallaşdırılan proqram böyük hörmətə layiqdir. Bütün bunların Cənubi Qafqazda qarşıdurmanın, kənardan təhdid və təhlükələrin, dünya maliyyə-iqtisadi böhranının təsirinin hələ də davam etdiyi şəraitdə baş verdiyini nəzərə alsaq, bunun nəyin bahasına əldə edildiyi aydın olar.

*Azərbaycan ilə ikitərəfli münasibətlərin strateji xarakter daşıdığını bildirən Özbəkistan prezidenti əlaqələrimizin möh-*

*kəmlənməsinin Cənubi Qafqaz və Orta Asiya regionlarında uzunmüddətli sabitliyin təmin olunması işinə töhfə verə biləcəyini vurğuladı. İslam Kərimov Azərbaycan ilə Özbəkistan münasibətlərinin böyük perspektivlərə malik olduğunu qeyd edərək, iri regional layihələrin həyata keçirilməsində əməkdaşlığın əhəmiyyətindən danışdı. Ölkələrimiz arasında xarici siyasət sahəsində sıx koordinasiyanın həyata keçirilməsinin əhəmiyyətini diqqətə çatdıran Özbəkistan prezidenti siyasi məsləhətləşmələrin bundan sonra da fəal şəkildə aparılmasının vacibliyini qeyd etdi. Sonra Özbəkistan dövlətinin başçısı Dağlıq Qarabağ münaqişəsinə toxundu.*

Qeyd etmək istərdim ki, Özbəkistanın Dağlıq Qarabağ probleminin həlli ilə bağlı mövqeyi dəyişməz qalır, bu, 2008-ci ildə BMT Baş Məclisinin müvafiq qətnaməsinin müzakirəsi zamanı bir daha təsdiq edilmişdir. Özbəkistan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə siyasi həllinə ardıcıl şəkildə tərəfdar olmuş və tərəfdardır, eyni zamanda, hesab edir ki, problemin həllinin başlıca şərti Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsidir.

**İlham Əliyev:** Hörmətli dostlar, şübhəsiz ki, ticarət-iqtisadi, sərmayə əlaqələrinin dərinləşməsi ikitərəfli əməkdaşlığın prioritet istiqaməti, deyərdim ki, bütün digər qarşılıqlı münasibətlərimizin inkişaf etdirilməsinin təməl nöqtəsidir. Qeyd etmək istərdim ki, qlobal maliyyə-iqtisadi böhran şəraitində birgə fəaliyyət proqramının müəyyən edilməsi, iki dövlətin müəssisələri və şirkətləri arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, qarşılıqlı əmtəə dövriyyəsinin inkişafının əldə olunmuş sürətinin qorunub saxlanılması və artırılması olduqca aktualdır. Bu gün Mərkəzi Asiyadan Xəzər dənizi, sonra Qafqaz vasitəsilə Qara dəniz və Aralıq dənizi limanlarına nəql marşrutları, bir daha təkrar edirəm ki, getdikcə aktuallaşır. Bu baxımdan həmin marşrutda Cənubi və Mərkəzi Avropa bazarlarına çıxan yeni perspektivli Bakı–Tbilisi–Qars nəqliyyat dəhlizinin inkişaf etdirilməsinə imkan verən mühüm

nəqliyyat qovşağı kimi, Bakı limanından istifadə olunmasına maraq artır.

**İ s l a m  K ə r i m o v:** Ənənəvi mədəni-humanitar əlaqələr bir-birinə yaxın olan özbək və Azərbaycan xalqları arasında etimadın, qarşılıqlı hörmətin möhkəmlənməsi işində mühüm amildir. Hörmətli İlham Heydər oğlu, Sizinlə birlikdə Daşkənd və Bakı şəhərlərində dahi əcdadlarımız Nizami Gəncəvi və Əlişir Nəvainin abidələrinin açılması, Azərbaycan paytaxtında küçələrdən birinə dünya şöhrətli astronom Mirzə Uluqbəyin adının verilməsi azərbaycanlılar və özbəklər arasında qarşılıqlı marağın, tarixən mövcud olan qarşılıqlı hörmətin parlaq nümunəsidir. Əminəm ki, səfəriniz zamanı açılacaq və öz xalqının görkəmli oğlu Heydər Əliyevin şərəfinə onun adı verilmiş Azərbaycan Mədəniyyət Mərkəzi iki xalq arasında səmimi dostluğun xoş ənənələrinin inkişafına xidmət edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Hörmətli İslam Əbdüqəniyeviç, xoş sözlərinizə, qardaş Özbəkistana rəsmi səfərə dəvət etdiyinizə görə çox sağ olun. Mən bu səfərə çox böyük əhəmiyyət verirəm. Əminəm ki, bu səfərin ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, uğurlu əməkdaşlığımız üçün yeni şərait, zəmin yaradacaq çox yaxşı nəticələri olacaqdır, əməkdaşlığımız genişlənəcək və yeni məna kəsb edəcəkdir.

Mənim atam, Azərbaycanın dahi lideri Heydər Əliyev haqqında dediyiniz xoş sözlərə görə Sizə çox minnətdaram. Sizi onunla uzun illər birgə iş, dostluq, əməkdaşlıq əlaqələri bağlayırdı. Mən həm də çox şadam ki, sizin təməlini qoyduğunuz ənənələr bu gün davam edir, ölkələrimiz, qardaş xalqlarımız çox səmərəli qarşılıqlı fəaliyyət göstərir və daha da yaxınlaşmağa can atırlar. Hörmətli İslam Əbdüqəniyeviç, Siz və Heydər Əliyev müasir Özbəkistanın və Azərbaycanın qurucususunuz. Bu ölkələrin necə olacağı məhz sizin uzaqgörənliyinizdən, müdrikliyinizdən və siyasi iradənizdən asılı idi. Çünki Sovet İttifaqının süqutundan sonra prinsip etibarilə bütün keçmiş sovet respublikaları, demək olar ki, bərabər vəziyyətdə idilər və eyni çağırışlar və problemlər qarşısında dayanmışdılar.

Buna görə də ölkələrimizin indiki uğurlu inkişafı ilk növbədə, bu ölkələrin liderlərinin fəaliyyətinin nəticəsidir. Özbəkistanın dinamik uğurlu inkişafı barədə mətbuatdan və müxtəlif mənbələrdən aldığım məlumatlar məni çox sevindirir.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması işində daimi prinsipial mövqeyinə görə Özbəkistana çox minnətdarıq. Bu dəstək və münaqişənin mahiyyətinin, səbəblərinin dərindən başa düşülməsi bizim üçün çox vacibdir. Sizin bu mövzuda bugünkü bəyanatınız böyük əhəmiyyət kəsb edir, çünki münaqişə, onun nizamlanması çox uzanmışdır. Biz 2008-ci ildə BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair məsələ ilə bağlı səsvermə zamanı Özbəkistanın ifadə etdiyi mövqeyə görə çox minnətdarıq. Biz münaqişənin mümkün qədər tez həll olunmasına səy göstəririk. Çünki işğal altında olan məhz bizim torpaqlarımızdır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmış, hərbi cinayətlər, o cümlədən Xocalı şəhərində dinc əhaliyə qarşı soyqırımı törədilmişdir. O zaman erməni işğalçı quldur dəstələri 613 dinc vətəndaşı məhv etmişdir, onların 100-dən çoxu azyaşlı uşaqdır.

Dağlıq Qarabağ tarixi Azərbaycan torpağıdır. «Qarabağ» sözünün özü bizim köklərə malikdir. Erməni dilində bu sözün heç bir mənası yoxdur. Dağlıq Qarabağın əsas şəhəri Xankəndidir. Bu şəhər yarananda onun adı Xankəndi olmuşdur. Zənnimcə, bu adı tərcümə etməyə ehtiyac yoxdur. Sovet dövründə bu şəhərə 1918-ci ildə Bakıda Azərbaycanın dinc əhalisinin qanlı qırğınının təşkilatçılarından biri olmuş bolşevik Stepan Şaumyanın «şərəfinə» Stepanakert adı verilmişdi. Hətta toponimlər kimi detal da Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olmasına, xalqımızın əsrlər boyu orada yaşamasına dəlalət edir. Təxminən XIX əsrin birinci yarısından etibarən ermənilərin başqa regionlardan kütləvi şəkildə Dağlıq Qarabağa köçürülməsi başlanmışdır. Sovet İttifaqı dağılarkən azərbaycanlılar etnik təmizləməyə, deportasiyaya və kütləvi qətllərə məruz qalmışlar. Həmçinin Dağlıq Qarabağın

ətrafındakı 7 rayonda yaşayan yüz minlərlə Azərbaycan vətəndaşları kimi, Dağlıq Qarabağın azərbaycanlı əhalisi də oradan qovulmuşdur. Bu gün həmin ərazilərdə şəhərlər və kəndlər viran edilmiş, milli sərvətlərimiz, muzeylərdə saxlanılan əşyalar talan olunmuş, qəbiristanlıqlar təhqir edilmiş, məscidlər dağıdılmışdır. Bu haqsızlıq artıq onilliklərdir ki, davam edir.

Beynəlxalq təşkilatlar bu məsələ barədə öz mövqelərini bildirmişlər. BMT-nin Təhlükəsizlik Şurası bu barədə 4 qətnamə qəbul etmişdir. BMT-nin Baş Məclisi, İslam Konfransı Təşkilatı, Avropa parlamenti, Avropa Şurası müvafiq sənədlər qəbul etmişlər. Lakin təəssüf ki, bunun nəticəsində münaqişənin tənzimlənməsi reallığa çevrilməmişdir. Biz ümid edirik ki, beynəlxalq birlik, ilk növbədə nizamlama prosesi ilə bilavasitə məşğul olan ölkələr münaqişənin tezliklə tənzimlənməsi üçün maksimum səy göstərəcək, bu məsələdə beynəlxalq hüququn prinsiplərindən çıxış edəcəklər. Əminəm ki, bu, regionun bütün ölkələrinin maraqlarına uyğundur. Azərbaycan isə öz tərəfindən bu vəziyyətlə heç vaxt barışmayacaqdır. Xalqımız bununla heç vaxt barışmayacaqdır. Hətta valideynləri Dağlıq Qarabağdan və onun ətrafındakı ərazilərdən qovulmuş, özləri Bakıda və Azərbaycanın digər şəhərlərində doğulmuş uşaqlar da həmin torpaqlarda heç vaxt olmasalar da, bir arzu ilə – əzəli Vətənə qayıtmaq arzusu ilə yaşayırlar. Mən əminəm ki, o gün gələcəkdir. Şübhə etmirəm ki, Azərbaycan ərazi bütövlüyünü, ədaləti bərpa edəcək, bütün vətəndaşlarımız tarixi yaşayış yerlərinə qayıdacaqlar. Bu mənada bizi düzgün başa düşdüyünüzə və dəstəklədiyinizə, ən başlıcası isə, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan prinsipial mövqeyinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

*Sonra prezident İlham Əliyev Azərbaycan ilə Özbəkistan arasında nəqliyyat sahəsində əməkdaşlığa toxundu.*

Fikrimcə, biz dəmiryol əlaqəsinin yaradılması barədə daha fəal məsləhətləşmələr aparacağıq. Bildiyiniz kimi, biz bu istiqamətdə iş aparırıq və Bakı–Tbilisi–Qars dəmir yolu 2

ildən sonra işə düşməlidir. Bunun nəticəsində malgöndərənlər üçün təhlükəsiz, iqtisadi cəhətdən səmərəli və cəlbedici olan, qitələri birləşdirəcək tamamilə yeni arteriya açılır. Bu, dostluq, əməkdaşlıq və qarşılıqlı səmərəyə xidmət edən dəmir yolu olacaqdır. Biz ölkələrimiz arasında Sizin dediyiniz ənənəvi humanitar əməkdaşlığı çox yüksək qiymətləndiririk. Bu tamamilə təbiidir, çünki xalqlarımız – qardaş xalqlardır, yaxın xalqlardır. Biz özbək ədəbiyyatını, musiqisini, mədəniyyətini çox sevirik. Yəni, bunlar sizə  olduğu kimi, bizə də əziz və doğmadır. Bu gün ölkələrimizin paytaxtlarında xalqlarımızın görkəmli nümayəndələrinə abidələr ucaldılması bizim münasibətlərin göstəricisidir, bir-birimizə bəslədiyimiz hisslərin nümayişidir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*27 sentyabr 2010-cu il*

*Sentyabrın 27-də Azərbaycan prezidenti İlham Əliyevin və Özbəkistan prezidenti İslam Kərimovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşu başa çatdıqdan sonra Azərbaycan–Özbəkistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Özbəkistan prezidenti İslam Kərimov Birgə Bəyannamə imzaladılar.*

*«Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyi və Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası arasında aviasiya personalı şəhadətnamələrinin qarşılıqlı tanınması haqqında Saziş»i Özbəkistan Respublikası Uçuşların Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Müfəttişliyinin rəisi Tolib Eqamberdiyev və «Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov imzaladılar.*

*«Özbəkistan Milli Teleradio Şirkəti və «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında Saziş»i Özbəkistan Milli Teleradio Şirkətinin sədri Əlişir Xocayev və Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədri Arif Alışanov imzaladılar.*

*«Özbəkistan Rəssamlıq Akademiyası və Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu arasında əməkdaşlıq haqqında Müqavilə»ni Özbəkistan Rəssamlıq Akademiyasının sədri Tursunali Kuziyev və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov imzaladılar.*

*«Özbəkistan Respublikası Baş Prokurorluğu və Azərbaycan Respublikası Baş Prokurorluğu arasında əməkdaşlıq və hüquqi yardım haqqında Saziş»i Özbəkistanın Baş prokuroru Rəşitcan*

*Kodirov və Azərbaycanın Baş prokuroru Zakir Qaralov imzaladılar.*

*«Özbəkistan Respublikası Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi arasında 2010–2012-ci illərdə qarşılıqlı fəaliyyət haqqında Protokol»u Özbəkistanın Daxili İşlər naziri Baxodır Matlyubov və Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov imzaladılar.*

*«Özbəkistan Respublikası Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi arasında 2010–2012-ci illər üçün əməkdaşlıq Proqramı»nı Özbəkistanın Xarici İşlər naziri Vladimir Norov və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov imzaladılar.*

*«18 iyun 1997-ci ildə imzalanmış «Özbəkistan Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında Özbəkistan Respublikası və Azərbaycan Respublikası vətəndaşlarının vizasız gəliş-gedişi haqqında Saziş»ə dəyişikliklər və əlavələr edilməsi haqqında Protokol»u Özbəkistanın Xarici İşlər naziri Vladimir Norov və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov imzaladılar.*

*«2011–2015-ci illər üzrə Özbəkistan Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş»i Özbəkistanın Baş nazirinin Birinci müavini, Maliyyə naziri Rüstəm Əzimov və Azərbaycanın Baş nazirinin Birinci müavini Yaqub Eyyubov imzaladılar.*

# AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*27 sentyabr 2010-cu il*

*Sentyabrın 27-də Daşkənddə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Özbəkistan prezidenti İslam Kərimov mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

## Özbəkistan prezidenti İslam Kərimovun bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Xanımlar və cənablar!

Hörmətli qonağımızı, Azərbaycan prezidenti İlham Heydər oğlu Əliyevi və bütün azərbaycanlı dostlarımızı bir daha salamlamaqdan böyük məmnunluq duyuram. Ənənəvi olaraq Özbəkistan–Azərbaycan münasibətlərinə xas açıq, konstruktiv şəraitdə keçən və bir qədər əvvəl başa çatmış danışıqların yekunlarından tam məmnunluq ifadə etmək istərdim. Biz ikitərəfli xarakter daşıyan bir çox məsələləri ətraflı və hərtərəfli müzakirə etdik, aktual, ən kəskin regional və beynəlxalq problemlərə dair fikir mübadiləsi apardıq. Səfər çərçivəsində ikitərəfli əlaqələrin bir çox baza və praktiki istiqamətlərini konkretləşdirən və stimullaşdıran sanballı mühüm sənədlər paketi imzalanmışdır. Onların arasında rəsmi səfərin yekunlarına dair Birgə Bəyannaməni xüsusi qeyd etmək istərdim.

Özbəkistanda bizə yaxın olan və tanınmış lider İlham Əliyevin düşünülmüş və əsasən praqmatik siyasəti sayəsində

müstəqilliyin, iqtisadi potensialın və beynəlxalq nüfuzun möhkəmləndirilməsi yolu ilə qətiyyətlə addımlayan Azərbaycanın böyük uğurlarından və nailiyyətlərindən yaxşı xəbərdardırlar və bunlara görə ürəkdən sevinirlər.

Danışıqlar zamanı bir daha təsdiq etdik ki, Dağlıq Qarabağ problemi ilə bağlı mövqeyimiz birmənalı və dəyişməz qalır. Özbəkistan bu çoxillik münaqişənin sülh yolu ilə siyasi həllinə tərəfdardır və tərəfdar olaraq qalır. Özbəkistan hesab edir ki, bu münaqişənin həllinin başlıca şərtlərindən biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Zənnimcə, bu mövqe beynəlxalq normalara, tarixi paralellərə cavab verir. Özbəkistanın bu məsələ ilə bağlı mövqeyi dəyişməzdir: Azərbaycanın ərazi bütövlüyü müqəddəs anlayışdır və problemin bütün həll variantlarında onu əsas götürmək lazımdır.

Özbəkistan ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın geniş potensialını nəzərə alaraq, tərəflər etiraf etmişlər ki, əmtəə dövriyyəsinin və qarşılıqlı kooperasiyasının indiki səviyyəsi mövcud imkanlarımıza uyğun deyildir. Bununla əlaqədar, indi qəbul etdiyimiz 2011–2015-ci illər üçün iqtisadi əməkdaşlıq proqramının hökumətlərarası səviyyədə fəal əlaqələndirilməsi şərti ilə tam həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Biz ölkələrimizin iri nəqliyyat-kommunikasiya, tranzit potensialından daha səmərəli və qarşılıqlı surətdə faydalı şəkildə istifadə olunması imkanlarının öyrənilməsi barədə razılığa gəldik.

Praktiki olaraq gündəlik fəaliyyətimiz ikitərəfli mədəni-humanitar münasibətlərin möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə yönəldilmişdir. Biz fəxr edirik ki, ümumi köklərimiz vardır. Biz dilimizin, mədəniyyətlərimizin və xalqlarımızın mənəvi yaxınlığı ilə fəxr edirik. Mən nümayəndə heyətinin tərkibində şeyxülislam Allahşükür Paşazadənin də olduğuna görə İlham Heydər oğluna minnətdaram. Mən bu insana çox böyük hörmət bəsləyirəm və jurnalistlərin qarşısında bir daha vaxtilə Özbəkistanda təhsil almış və Özbəkistanı həqiqətən özünün ikinci vətəni sayan bu insana böyük

ehtiramımı təsdiq etmək istəyirəm. Biz də onu Özbəkistan mədəniyyətinə, dininə yaxın, Mərkəzi Asiyanın tarixini gözəl bilən bir insan hesab edirik.

Budəfəki səfər Azərbaycan ilə Özbəkistanın münasibətlərinin tarixində daha bir mühüm hadisə – Azərbaycan xalqının görkəmli oğlu, ikitərəfli münasibətlərin inkişafına misilsiz töhfə vermiş, mübaliğəsiz deyə bilərəm ki, özbək xalqının böyük dostu Heydər Əlirza oğlu Əliyevin adını daşıyacaq Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı ilə əlamətdardır.

Yaxşı yadımdadır, bir dəfə mən onunla birlikdə bizim milli universitetin tələbələri və professor-müəllim heyəti ilə görüşdə idim. O vaxt Heydər Əliyev tələbələr və müəllim heyəti qarşısında təqribən saat yarım çıxış etdi. Tribunaya əlində kağız olmadan yaxınlaşanda fikirləşmişdim ki, belə neçə dəqiqə danışa biləcək. Əgər daha çox danışmağa imkan olsaydı, o bizim tələbələri elə cəlb edə bilərdi ki, onlar vaxtın necə keçdiyini heç hiss etməzdilər. O, gözəl natiq, sözlərində dinləyicilərə lazım olan məzmunu, onların ehtiyac duyduğu mənanı çatdırmağı bacaran insan idi. Onun dinləyicilərlə necə əlaqə yaratmasını unutmaq mümkün deyildir. O vaxt biz ilk dəfə onu xorla Haydar əkə adlandırdıq. Özbək dilində bu, «möhtərəm», «ağsaqqal» deməkdir. Bizim Özbəkistanda Haydar əkə adlı adamlar çoxdur. Buna görə mən onu Heydər Əliyeviç deyil, daha çox Haydar Əliyeviç çağırardım. Mən bu insanın pərəstişkarıyam və fəxr edirəm ki, onunla birlikdə işləməli, onunla birlikdə o qədər problemləri yaşamalı və aradan qaldırmalı olmuşam. Ən başlıcası, bu insan bütün varlığı ilə yalnız bir şeyi istəyirdi: özbəklər və azərbaycanlılar sülh və dostluq şəraitində yaşasınlar, onların gələcəyi birlikdə olsun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli İslam Əbdüqəniyeviç, xoş sözlərinizə, qonaqpərvərliyinizə, səmimi qəbula görə sağ olun. Zənnimcə, nümayəndə heyətimizin üzvləri məni dəstəkləyərlər ki, biz burada özümüzü evimizdə olduğu kimi hiss edirik. Biz özümüzü dostlarımızın, qardaşlarımızın arasında, doğma torpağımızda hiss edirik. Sizin yaratdığınız bu ab-havanı biz yüksək qiymətləndiririk.

Azərbaycanın böyük oğlu Heydər Əliyev haqqında səmimi sözləriniz bütün azərbaycanlıların qəlbində rəğbət doğurur. Heydər Əliyev haqqında, onun Azərbaycanın müstəqil dövlət kimi formalaşmasına imkan vermiş işləri haqqında xatirə qəlbimizdə yaşayır. Bu gün gördüyümüz işlər də Heydər Əliyevin xidmətləridir.

Bu gün biz möhkəm zəmin üzərində dövlət qurur və onu gücləndiririk. Buna görə mən Sizə, atamla dostluq etmiş, onunla birgə işləmiş insana çox minnətdaram, Sizi bağlayan amillər çox idi. Bu sözləri eşitmək, qardaş Özbəkistanda Heydər Əliyevin xatirəsinin əziz tutulduğunu görmək mənə çox xoşdur.

Bir daha demək istəyirəm ki, müstəqillik dövründə ölkənizin uğurları Azərbaycanda bizi çox sevindirir. Sizin rəhbərliyiniz altında, prinsipial və müdrik siyasətiniz sayəsində Özbəkistan çox böyük nəticələr qazanmışdır. Biz Özbəkistanı qardaş, yaxın, dost dövlət hesab edirik. Bu dövlətlə bizi çox möhkəm tarixi, mədəni əlaqələr bağlayır. Bugünkü münasibətlərimiz də bu baza əsasında formalaşmışdır.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi məsələsində, eləcə də bütün münaqişələrin bütövlükdə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll edilməsində prinsipial, ardıcıl, qətiyyətli mövqeyinə görə biz Özbəkistana çox minnətdarıq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınmışdır. Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olması bütün dünya tərəfindən, BMT tərəfindən tanınmışdır. Təbii ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsinin tənzimlənməsinin başlıca şərtidir. Erməni tərəfin tez-tez istinad etdiyi xalqların təyini-müqəddərat hüququ məsələsinə gəldikdə isə, bu hüquq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində uğurla həyata keçirilə bilər. Bu prinsip ərazi bütövlüyü prinsipinə zidd deyildir və əgər Helsinki Yekun Aktının qərarına nəzər salsaq, orada aydın görünür ki, xalqların təyini-müqəddərat hüququ dövlətin ərazi bütövlüyünü pozmamalıdır. Xüsusən erməni xalqının artıq bir dəfə Azərbaycanın tarixi torpaqlarında öz müqəddəratını təyin etməsini nəzərə alsaq, ikinci erməni dövlətinin yenə də Azərbaycanın tarixi torpaqlarında yaradılması tamamilə yolverilməz və qəbuledilməzdir.

Biz öz ərazi bütövlüyümüzü bərpa etmək üçün səy göstərəcəyik. Danışıqlar prosesindəyik, məsələyə konstruktiv münasibət nümayiş etdiririk və erməni tərəfindən də konstruktivlik gözləyirik ki, bu məsələ tənzimlənsin. Münaqişənin uzanması heç kimin xeyrinə deyildir və hesab edirəm ki, beynəlxalq hüququn norma və prinsiplərinə tamamilə müvafiq olan tənzimləmə yolunun tapılması bütün dövlətlərin mənafeyinə uyğundur.

İslam Əbdüqəniyeviç, bizi dəstəklədiyinizə görə bütün Azərbaycan xalqı adından şəxsən Sizə və qardaş Özbəkistan xalqına bir daha dərin təşəkkürümü bildirmək istəyirəm.

Bu gün biz mühüm bəyannamə imzaladıq. Bu sənəddə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinə də toxunulur. Regional, beynəlxalq təhlükəsizlik, iqtisadi xarakterli digər mühüm məqamlar da qeyd edilmişdir. Biz bütün istiqamətlər üzrə münasibətlərimizi qətiyyətlə inkişaf etdirmək əzmindəyik və bu gün konkret nəqliyyat layihələrini, iqtisadi əməkdaşlıq məsələlərini hərtərəfli müzakirə etmişik. Ümid edirik ki, nəzərdə tutduqlarımızın hamısını həyata keçirəcəyik.

## ÖZBƏKİSTAN SENATININ BİNASI İLƏ TANIŞLIQ

*Daşkənd*

*27 sentyabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 27-də Özbəkistan parlamentinin Yuxarı Palatası – Senatın binası ilə tanış olmuşdur.*

*Özbəkistan dövlətinin başçısı İslam Kərimov prezident İlham Əliyevə milli və müasir üslubları özündə birləşdirən bina haqqında məlumat verdi. Bina 3 il əvvəl inşa olunmuşdur. Özbəkistan parlamenti Senatının 100 üzvü vardır. Ali Məclisin qəbul etdiyi qanunlar Senatda bəyənildikdən sonra təsdiqlənmək üçün ölkə başçısına göndərilir.*

*Prezident İlham Əliyev burada senatorlara yaradılan iş şəraiti ilə tanış oldu.*

## MÜSTƏQİLLİK MEYDANI KOMPLEKSİ İLƏ TANIŞLIQ

*Daşkənd*

*27 sentyabr 2010-cu il*

*Sentyabrın 27-də Özbəkistanda rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev və Özbəkistan prezidenti İslam Kərimov Daşkəndin mərkəzindəki Müstəqillik meydanı kompleksinə gəldilər.*

*Hərbi orkestrin ifasında səslənən musiqinin sədaları altında prezident İlham Əliyev burada ucaldılmış «Müstəqillik və humanizm» abidəsinin önünə əklil qoydu.*

*Özbəkistan prezidenti İslam Kərimov Müstəqillik meydanı kompleksi, həmçinin abidə haqqında məlumat verdi.*

*Bildirildi ki, 2005-ci ildə Özbəkistan prezidenti İslam Kərimovun təşəbbüsü ilə ucaldılan bu abidə Özbəkistanın azadlığının, müstəqilliyinin və gələcəyinin rəmzidir. Abidədə körpəsini qucağında tutmuş xoşbəxt ana təsvir olunmuşdur. Daşkənd sakinlərinin ən sevimli istirahət yerlərindən biri olan bu meydandakı abidəni əsasən yeni ailə qurmuş gənclər ziyarət edirlər.*

*Prezident İslam Kərimov kompleksə daxil olan digər abidələr haqqında da məlumat verərək dedi ki, hər il mayın 9-da paytaxt sakinləri buradakı «Kədərli ana» abidəsinin qarşısına gül-çiçək dəstələri düzürlər.*

*Prezident İlham Əliyevə Müstəqillik meydanı kompleksində görülən işlər barədə məlumat verildi.*

## FORUMLAR SARAYI İLƏ TANIŞLIQ

*Daşkənd*

*27 sentyabr 2010-cu il*

*Sentyabrın 27-də Azərbaycan prezidenti İlham Əliyev və Özbəkistan prezidenti İslam Kərimov Daşkəndin mərkəzində yerləşən Forumlar sarayına gəldilər.*

*Milli memarlıq üslubunda tikilmiş bu möhtəşəm bina haqqında dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 2 min tamaşaçı yeri olan bu sarayda yüksək səviyyəli dövlət mərasimləri və beynəlxalq tədbirlər keçirilir.*

*Özbəkistan prezidenti İslam Kərimov dövlətimizin başçısı İlham Əliyevə binanın ətrafında Əmir Teymur bağında aparılan abadlıq-quruculuq işləri barədə də məlumat verdi.*

## «HƏZRƏTİ-İMAM» MƏSCİD KOMPLEKSİ İLƏ TANIŞLIQ

*Daşkənd*

*27 sentyabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev və Özbəkistan prezidenti İslam Kərimov sentyabrın 27-də Daşkənddəki «Həzrəti-İmam» məscid kompleksində olmuşlar.*

*Komplekslə tanışlıq zamanı məlumat verildi ki, bu möhtəşəm məscid Özbəkistan prezidenti İslam Kərimovun təşəbbüsü ilə 2007-ci ildə inşa olunmuşdur. Məscidin girişində səndəl ağacından oyma naxışlı 20 sütunlu eyvan vardır. Tikinti zamanı milli özbək memarlığının elementlərindən geniş istifadə edilmişdir. Məscidin içəri tərəfdən zər vərəqlə işlənmiş günbəzi vardır.*

*Prezident İlham Əliyev XVI əsrdə inşa olunmuş «Muyi-mübarək» mədrəsəsinə və Özbəkistan Müsəlmanları İdarəsinin kitabxanasına baxdı. Kitabxananın fondunda XII əsrə aid Qurani-Kərim və digər nadir Şərq əlyazmaları saxlanılır.*

*Prezident İlham Əliyev kompleksin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*Daşkənd*

*27 sentyabr 2010-cu il*

*Sentyabrın 27-də Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin binasının əsaslı təmir və bərpadan sonra açılışı olmuşdur.*

*Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Baş naziri Şavkat Mirziyoyev iştirak etmişlər.*

*Prezident İlham Əliyev Mərkəzin qarşısında ulu öndər Heydər Əliyevin abidəsi önünə əklil qoydu.*

*Bina ilə tanışlıq zamanı məlumat verildi ki, azərbaycanlıların yığcam yaşadıqları Daşkəndin Mirabad rayonunun mərkəzindəki Heydər Əliyev küçəsində yerləşən Mərkəzdə Heydər Əliyev, Azərbaycanın Dövlətçilik Tarixi, Azərbaycan və Özbəkistanın Müştərək Tarixi muzeyləri fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev Muzeyi ilə tanış oldu. Burada ümummilli liderimizin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, dövlət rəhbərləri ilə görüşlərini əbədiləşdirən fotosənədlər, görkəmli şəxslərin Heydər Əliyev haqqında fikirləri toplanmışdır.*

*Dövlətçilik Tarixi Muzeyi ilə tanışlıq zamanı prezident İlham Əliyevə vaxtilə 400 min km$^2$ ərazisi olan respublikamızın xəritələri, tarixi sənədlər, görkəmli şəxsiyyətlər barədə ətraflı məlumat verildi.*

*Prezident İlham Əliyev Mərkəzin konfrans salonuna baxdı. Məlumat verildi ki, mədəniyyət mərkəzində Azərbaycanın musiqi, rəqs və folklor ansamblları da fəaliyyət göstərəcəkdir. Burada Azərbaycan məktəbi və kitabxana da yaradılmışdır.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev Azərbaycan diasporunun üzvləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Bu gözəl mədəniyyət mərkəzinin əsaslı təmirdən sonra açılışı münasibətilə sizi təbrik edirəm. 6 il əvvəl hörmətli Şavkat müəllimlə bərabər, biz burada Azərbaycan Mədəniyyət Mərkəzinin açılışını qeyd etdik. O vaxtkı bina o dövr üçün bəlkə də məqbul idisə, bugünkü dövr üçün bu bina daha uyğundur. Ona görə bu mədəniyyət mərkəzinin əsaslı təmiri haqqında qərar qəbul edildi və səfirliyin bilavasitə iştirakı, Özbəkistan hökumətinin böyük dəstəyi ilə çox gözəl, əzəmətli, yaraşıqlı Mərkəz yaradıldı. Bu mədəniyyət mərkəzinin altıillik tarixi vardır, ancaq bu gün onun yeni dövrü başlayır. Çünki əsaslı təmir çox yüksək keyfiyyətlə, zövqlə aparılıbdır.

Ulu öndər Heydər Əliyevin adını daşıyan Mərkəzdə Özbəkistan–Azərbaycan Dostluğu Muzeyi də fəaliyyət göstərir. Bu da çox əlamətdar haldır. Çünki ulu öndər Heydər Əliyev bütün dövrlərdə Azərbaycan ilə Özbəkistan arasındakı əlaqələrin inkişafı üçün böyük səylər göstərmişdir. Həm sovet dövründə xalqlarımız arasındakı münasibətlər çox yaxın idi, qardaşlıq zəminində qurulmuşdu. Həm də xüsusilə müstəqillik dövründə Heydər Əliyev və İslam Kərimov – iki ölkənin liderləri ikitərəfli münasibətlərin, bax, bugünkü səviyyəyə gəlib çatmasında çox mühüm rol oynamışlar.

Heydər Əliyev özbək xalqına həmişə böyük rəğbətlə, məhəbbətlə yanaşırdı. Çox şadam ki, Heydər Əliyevin xatirəi ilə bağlı bu gözəl duyğular Özbəkistanda və özbək xalqının ürəyində yaşayır. Bu gün hörmətli İslam Əbdüqəniyeviçlə görüşdə bu tarix də qeyd edildi. Xalqlarımız da dost, qardaş xalqlardır. Bu gün görüşlərdə qeyd olunduğu kimi, bizə tərcüməçi lazım deyil, bir-birimizin dilini başa düşür, anlayır və

bütün beynəlxalq təşkilatlarda məsələlərə vahid mövqedən yanaşırıq. Mən bu gün xüsusilə qeyd etdim ki, Özbəkistan Azərbaycanın haqq işini daim dəstəkləyir, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını nəinki rəsmi bəyanatlarla dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin iclaslarında birmənalı şəkildə Azərbaycanın mövqeyinə səs verir. Bu gün Özbəkistanın prezidenti bir daha bu prinsipial mövqeyini bildirmişdir.

Bizim aramızda çoxşaxəli münasibətlər vardır – həm iqtisadi, siyasi və həm də başqa sahələrdə. Ən əsası odur ki, biz səmimi dostuq, qardaşıq. Bu gün yəqin ki, münasibətlərimizin tarixində öz yerini tutacaqdır. Çünki bu gün gördüyümüz işlər münasibətlərimizin inkişaf etdirilməsində çox mühüm rol oynayacaqdır.

Bu mənim Özbəkistana ikinci rəsmi səfərimdir. Birinci səfərdə biz Azərbaycanın böyük oğlu Nizami Gəncəvinin abidəsini hörmətli prezident Kərimov ilə bərabər açdıq. 2 il əvvəl İslam Kərimovun rəsmi səfəri zamanı Özbəkistan xalqının böyük oğlu Əlişir Nəvainin abidəsi Bakıda ucaldılmışdır. Bu gün Heydər Əliyevin adını daşıyan mədəniyyət mərkəzinin yeni dövrü başlayır. Bu hadisələr onu göstərir ki, aramızda olan münasibətlərin çox dərin kökləri və çox mənalı məzmunu vardır.

Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Buraya Özbəkistanda yaşayan Azərbaycan diasporunun, özbək ictimaiyyətinin nümayəndələri toplaşmışlar. Siz Özbəkistanın dəyərli vətəndaşları kimi, onun inkişafına töhfənizi verirsiniz. Ancaq siz Azərbaycanı da təmsil edirsiniz. Bilirəm ki, burada azərbaycanlılar üçün bütün şərait yaradılıbdır. Dəyərli vətəndaşlar kimi, siz də bütün hüquqlara maliksiniz. Bir növ Özbəkistan ilə Azərbaycan arasındakı münasibətlərdə çox vacib funksiyanı daşıyırsınız. Bilirsiniz ki, Azərbaycanda həmişə sizinlə maraqlanırlar, işlərinizə diqqət göstərilir. Biz bundan sonra da çalışacağıq ki, bütün başqa ölkə-

lərdə, dünyada yaşayan azərbaycanlılarla işlərimiz, əlaqələrimiz daha da yüksək səviyyədə qurulsun. Bir daha sizi ürəkdən təbrik edirəm. Sizə uğurlar arzulayıram.

**S ü d a b ə M ə m m ə d o v a** (*Özbəkistan Milli Elmlər Akademiyasının Mikrobiologiya İnstitutunun elmi işçisi*): Cənab Prezident, Sizi Azərbaycanın diasporu adından salamlayıram. Özbəkistana xoş gəlmisiniz! Bu gün doğrudan da tarixi bir gündür ki, biz onu burada qeyd edirik. Cənab Prezident, Sizin şəxsi təşəbbüsünüz ilə bu bina əsaslı təmir edildi, yenidən quruldu. İndi də bizə təqdim olunur. Biz Sizə təşəkkürümüzü bildiririk, minnətdarıq, çox sağ olun. Harada olsaq da biz hamımız azərbaycanlı adımızı başqa dövlətlər, millətlər içində yüksək tutmağa çalışırıq və çalışacağıq. Çox sağ olun.

**İ l h a m Ə l i y e v**: Sağ olun, təbrik edirəm.

## Səfər başa çatdı

*Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Özbəkistanın dövlət bayraqları ilə bəzədilmiş «Daşkənd-2» aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Aeroportda prezident İlham Əliyevi Özbəkistanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Vətənə qayıtdı.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**I XUAN KARLOSA**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan ilə İspaniya arasındakı münasibətlər bu gün dostluq və əməkdaşlıq məcrasında müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, əlaqələrimizin ikitərəfli və çoxtərəfli qaydada möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində səylərimizi xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 sentyabr 2010-cu il*

# İRANIN BİRİNCİ VİTSE-PREZİDENTİNİN İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ ƏLİ AĞAMƏHƏMMƏDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də İran İslam Respublikasının Birinci vitse-prezidentinin iqtisadi məsələlər üzrə müavini Əli Ağaməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İran arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi vurğulandı və ölkələrimizin birgə əməkdaşlıq imkanlarının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU–MƏRDƏKAN DAİRƏSİ–BİLGƏH QƏSƏBƏSİ ƏRAZİSİNDƏ AVTOMOBİL YOLLARININ GENİŞLƏNDİRİLMƏSİ VƏ TİKİNTİSİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*29 sentyabr 2010-cu il*

*Sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportu –Mərdəkan dairəsi – Bilgəh qəsəbəsi ərazisində avtomobil yollarının genişləndirilməsi və tikintisi işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının 2008-ci il 8 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008–2013-cü illər üçün əlavə Tədbirlər Planı»na əsasən Heydər Əliyev Beynəlxalq Aeroportu–Bilgəh qəsəbəsi avtomobil yolunun yenidən qurulması, yol qovşaqlarının və piyada keçidlərinin tikintisi, Bilgəh qəsəbəsi–Sumqayıt şəhəri istiqamətində avtomobil yolunun genişləndirilməsi və inşası işlərinə başlanılmışdır. Layihələndirilən avtomobil yolu Bakı şəhərinin şimal hissəsindən, o cümlədən Bilgəh, Nardaran, Kürdəxanı, Pirşağı, Fatmayı, Goradil, Novxanı, Saray, Corat, Sumqayıt istiqamətində davam etməklə, həmin ərazilərdəki yaşayış məskənləri sakinlərinin və istirahət mərkəzlərində dincələn vətəndaşların rahat gediş-gəlişinin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına layihə barədə məlumat verdi. Bildirildi ki, Mərdəkan dairəsində üçsəviyyəli yol qovşağında yolötürücüsünün uzunluğu 220 metr, eni isə 23,5 metr olacaqdır. Layihədə buradakı tunelin uzunluğunun 55 metr, eninin isə 9,8 metr olacağı nəzərdə tutulur.*

*Prezident İlham Əliyev Buzovna dəmiryol kəsişməsində inşa ediləcək tunelin və müxtəlif səviyyəli yol qovşağının və Buzovna dairəsində inşa edilən tunelin və müxtəlif səviyyəli yol qovşağının, Bilgəh qəsəbəsindəki Kardioloji mərkəzin qarşısında ikisəviyyəli tunel tipli qovşağın layihələndirilməsi və tikinti işlərinin gedişi ilə tanış oldu. Dövlətimizin başçısına layihə üzrə həyata keçirilən işlər barədə məlumat verildi.*

*Prezident İlham Əliyev sonra Bilgəh qəsəbəsi–Novxanı–Sumqayıt şəhəri istiqamətində yeni tikilən və uzunluğu 14 kilometr olan yolda inşaat işlərinin gedişi ilə tanış oldu. Dövlətimizin başçısına yolun əsas göstəriciləri barədə məlumat verildi. Qeyd olundu ki, yolun hərəkət hissəsi altızolaqlıdır. Layihələndirilən avtomobil yolu, həmçinin Maştağa–Saray–Sumqayıt–Tağıyev qəsəbəsi istiqamətində yaşayan və dincələn əhali, eyni zamanda, Abşeron yarımadasının şimal-şərq hissəsində yerləşən Pirallahı, Dübəndi, Zirə və digər yaşayış məntəqələri və istirahət zonaları üçün Bakı şəhərinə daxil olmadan M-1 magistral yoluna çıxmağa imkan yaradacaqdır. Sumqayıt şəhərindən və digər şimal bölgəsindən həmin ərazidə yaşayan əhalinin Bakının mərkəzinə daxil olmadan, qeyd edilən Bakı kəndlərinə, sahilkənarı istirahət mərkəzlərinə və Heydər Əliyev Beynəlxalq Aeroportuna rahat çıxışını təmin edəcəkdir.*

*Nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz hərəkətini təmin etmək üçün müxtəlif səviyyəli yol qovşaqlarının və piyada keçidlərinin tikintisi nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev Nəqliyyat naziri Ziya Məmmədova bu yolun tikintisinin davam etdirilərək Bakı–Rusiya və Bakı–Şamaxı yolları ilə birləşdirilməsini təmin etməyi tapşırdı.*

*Tikinti işlərinin gedişi ilə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

## «CASPİAN AGRO–2010» III BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI, ƏRZAQ EMALI VƏ QABLAŞDIRMA SƏRGİSİ İLƏ TANIŞLIQ

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*30 sentyabr 2010-cu il*

*Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksində «Caspian Agro–2010» III Beynəlxalq kənd təsərrüfatı, ərzaq emalı və qablaşdırma sərgisi ilə tanış olmuşdur.*

*Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin rəsmi dəstəyi, Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə keçirilən sərgi ilə tanışlıq zamanı məlumat verildi ki, belə bir beynəlxalq tədbirin keçirilməsinin başlıca məqsədi ölkəmizdə istehsal olunan kənd təsərrüfatı və emal sənayesi məhsullarının nümayişi ilə yanaşı, bu sahələrin daha da inkişafı üçün xarici şirkət və sərmayədarların diqqətini cəlb etmək, Azərbaycanda son illər baş verən sürətli inkişaf və tərəqqinin təbliği ilə bərabər, aqrar elmin qabaqcıl nailiyyətlərini və təcrübəsini öyrənməkdir.*

*Sərgidə Azərbaycan ilə yanaşı, Belarus, Gürcüstan, Kuba, İspaniya, Qətər və İrandan 80-dən artıq şirkət təmsil olunmuşdur. Builki sərgidə yerli şirkətlər daha fəal iştirak edirlər. Bu isə onu göstərir ki, Azərbaycanın ixrac potensialı artmaqdadır.*

*Prezident İlham Əliyev Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldu. Burada Azərbaycanda kənd təsərrüfatının inkişafını əks etdirən sənədlər, cədvəllər, ulu öndər Heydər Əliyevin ölkəmizdə aqrar sahənin, emal sənayesinin inkişafı istiqamətində gördüyü işləri əks etdirən müxtəlif materiallar, habelə fotoşəkillər vardır.*

*Respublikamızın ötən illərdə kənd təsərrüfatı sahəsində qazandığı uğurları əks etdirən ekspozisiya ilə tanışlıq zamanı Kənd Təsərrüfatı naziri İsmət Abasov əldə edilmiş nailiyyətlər barədə məlumat verdi.*

*Prezident İlham Əliyev Azərbaycan Dövlət Aqrar Universitetinin pavilyonu ilə tanış oldu.*

*Azərbaycan Arıçılar İttifaqının pavilyonu ilə tanışlıq zamanı ölkəmizdə arıçılığın inkişafı sahəsində həyata keçiriləcək layihələr barədə geniş məlumat verildi. Bildirildi ki, bu gün Azərbaycanda Bozdağ-Qafqaz arısının yetişdirilməsinə böyük diqqət verilir.*

*Dövlətimizin başçısı «Gilan-Zeytun» («Abşeron-Zeytun») şirkətinin istehsal etdiyi məhsullara da baxdı. Şirkət Abşeronda ekoloji təbii məhsuldan zeytun yağı və digər məhsullar istehsal edir.*

*Daha sonra prezident İlham Əliyev «İceland» şirkətinin pavilyonu ilə tanış oldu. Bildirildi ki, 15 ildir fəaliyyət göstərən şirkət əsasən dondurma istehsalı ilə məşğuldur.*

*Quşçuluq müəssisələrinin pavilyonları ilə tanışlıq zamanı bildirildi ki, ölkəmizdə quşçuluq fabriklərinin yaradılması və onların ixrac qabiliyyətinin artırılması diqqətdə saxlanılır.*

*Sərgidə şərabçılıq və üzümçülük sahələri üzrə yerli şirkətlərlə yanaşı, xarici ölkələrin qabaqcıl müəssisələri də təmsil olunur. Məlumat verildi ki, Azərbaycanda həm də şərabçılığın inkişafı istiqamətində mühüm nəticələr əldə olunur.*

*Prezident İlham Əliyev pivə istehsalı ilə məşğul olan «Bakı–Praqa» MMC-nin, şərab istehsal edən «Caspian Coast Winery and Vineyards» şirkətlərinin pavilyonlarına da baxdı.*

*«Azersun Holdinq» şirkətinin pavilyonu ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, bu iqtisadi qurum fəaliyyət sahələrini genişləndirir. Şirkətin 20-dən çox müəssisəsi rəqabətədavamlı məhsullar istehsal edir.*

*«Tİ Aqroservis» MMC-nin pavilyonu ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, kənd təsərrüfatı sektorunda müxtəlif təyinatlı xidmətlər göstərən müəssisə ABŞ-*

*ın 7 tanınmış şirkətinin Azərbaycanda və MDB ölkələrində rəsmi dileridir. Şirkət ABŞ texnologiyalarını Azərbaycanın kənd təsərrüfatı sektorunda tətbiq edir. Naxçıvan Muxtar Respublikasının pavilyonunda muxtar respublikada istehsal olunan kənd təsərrüfatı və emal sənayesi məhsulları nümayiş olunurdu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, bu il muxtar respublikada 100 min tona yaxın taxıl istehsal olunmuşdur. Hazırda muxtar respublikanın birillik taxıl ehtiyatı vardır. Muxtar respublikada fəaliyyət göstərən 40-dək kənd təsərrüfatı emalı müəssisəsi hesabına iqtisadi potensial gücləndirilmiş, xeyli sakin daimi işlə təmin edilmişdir. Dövlətimizin başçısı kompleksin həyatində Minsk və Gəncə avtomobil zavodlarının birgə istehsalı olan kənd təsərrüfatı texnikasına baxdı.*

*Kənd Təsərrüfatı naziri İsmət Abasov və Belarusun Azərbaycandakı səfiri Nikolay Patskeviç məlumat verdilər ki, Gəncə avtomobil zavodu Minsk avtomobil zavodu ilə birlikdə traktor, avtomobil, kranlar, müxtəlif yedək avadanlığı istehsal edir. Bu müəssisələrin 10 il üçün əməkdaşlıq proqramı işlənib hazırlanmışdır. Gələcəkdə kommunal təyinatlı texnika da istehsal olunacaqdır.*

*Sərgidə Belarusun istehsal etdiyi «Lida» taxılbiçən kombaynı nümayiş olunur. Bu kombaynların Azərbaycana ixracı üçün razılıq əldə olunmuşdur.*

*Sərgi ilə yaxından tanış olan prezident İlham Əliyev respublikamızda aqrar-sənaye kompleksinin daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıqlarını verdi, iştirakçılara uğurlar arzuladı.*

## UKRAYNA RESPUBLİKASININ YANACAQ VƏ ENERGETİKA NAZİRİ YURİ BOYKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Ukraynanın Yanacaq və Energetika naziri Yuri Boykonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Ukrayna arasında energetika sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

## BAKININ NİZAMİ RAYONUNDA SALINACAQ PARKIN VƏ BURADA YARADILACAQ MUSİQİLİ FƏVVARƏNİN ƏRAZİSİ İLƏ TANIŞLIQ

*30 sentyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Bakının Nizami rayonunda salınması nəzərdə tutulan parkın və burada quraşdırılacaq musiqili fəvvarənin ərazisi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin birbaşa təşəbbüsü ilə bir neçə ildir ki, Bakı şəhərində parkların və xiyabanların yenidən qurulması, sakinlərin və paytaxtımıza gələn qonaqların rahatlığı üçün dünya standartlarına uyğun istirahət guşələrinin yaradılması istiqamətində xeyli iş görülmüşdür. Salınan yeni parklar və yaşıllıq zolaqları, əhaliyə xidmət göstərən müasir iaşə obyektləri, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab verən infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Dövlətimizin başçısının tapşırığı ilə Bakının Nizami rayonu ərazisində salınacaq yeni park da paytaxtda həyata keçirilən silsilə abadlıq və quruculuq işlərinin davamıdır.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov salınacaq yeni parkın ərazisi ilə tanış olan dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, parkda postamenti 10 metr olmaqla, 60 metr hündürlüyündə musiqili od fəvvarəsinin inşası nəzərdə tutulur. Qeyd olundu ki, fəvvarənin postamenti yumru təpəcikdən ibarət olacaqdır. Fəvvarə 500 beton dayaq üzərində qurulacaqdır. Musiqili od fəvvarəsi ABŞ, Almaniya və İngiltərə istehsalı olan büllur və 316 L markalı paslanmayan metaldan hazırlanacaqdır. Tikinti işlərində ABŞ-ın və*

*Almaniyanın «Schott Class», İngiltərənin «Aspinalls» şirkətləri iştirak edəcəkdir. Büllur işlərini İngiltərənin «Wilkinson pls» şirkəti həyata keçirəcəkdir. Azərbaycan prezidenti İlham Əliyev ərazi ilə yaxından tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, parkda, həmçinin dünyanın ən nadir ağac və bitki kollarının əkiləcəyi nəzərdə tutulur. Parkın ərazisinə üç tərəfdən giriş olacaqdır. Kompleksin ətrafında insanların rahat istirahəti üçün hər cür şərait yaradılacaqdır.*

*Ərazi ilə tanışlıqdan sonra prezident İlham Əliyev quraşdırılacaq musiqili od fəvvarəsinin maketinə baxdı. Daha sonra salınacaq yeni parkın infrastrukturunu, yaşıllıq zolaqlarını, quraşdırılacaq musiqili od fəvvarəsini və əhaliyə göstəriləcək yüksək səviyyəli xidməti əks etdirən filmin nümayişi oldu.*

*Yeni yaradılacaq parkın ərazisi və həyata keçiriləcək işlərlə tanışlıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev kompleksdə inşaat işlərinin yüksək keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq göstərişlərini verdi.*

## BAKI ŞƏHƏRİNƏ GƏTİRİLƏN YENİ AVTOMOBİLLƏRƏ BAXIŞ

*30 sentyabr 2010-cu il*

*Bakı şəhərində taksi xidmətinin keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə paytaxta Avropa standartlarına cavab verən müasir avtomobillər gətirilmişdir. Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni avtomobillərə baxış keçirmişdir.*

*Dövlətimizin başçısının Bakı şəhərinin və respublikamızın ayrı-ayrı bölgələrinin yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı göstərişlərinə əsasən paytaxtda yolların beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulması, yeni körpülərin və yolötürücülərin tikilib istifadəyə verilməsi müasir ictimai nəqliyyat növlərinə ehtiyacı daha da artırmışdır. Azərbaycan prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən Bakı şəhərinin və bölgələrin taksi parklarının müasirləşdirilməsi istiqamətində böyük işlərə başlanılmışdır.*

*Nəqliyyat naziri Ziya Məmmədov bildirdi ki, taksi xidmətini təkmilləşdirmək məqsədi ilə Azərbaycana Avropa standartlarına cavab verən ən müasir avtomobillər gətirilmişdir. Bunların 12-si tanınmış «London Taksi» şirkəti tərəfindən istehsal olunmuş TX 4 modeli yalnız taksi məqsədləri üçün nəzərdə tutulan avtomobildir ki, bu da Avro-4 standartlarına tam cavab verir.*

*Avtomobillərlə yaxından tanış olan dövlətimizin başçısı «London Taksi» şirkəti tərəfindən istehsal olunmuş TX 4 modelli avtomobili idarə etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev «Daewoo» avtomobil şirkətinin istehsalı olan «Daewoo Lacetti» və «Daewoo Nexia», eləcə də «General Motors» şirkətinə məxsus «Chevrolet» avtomobillərinə də baxdı.*

## AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN TƏDRİS-TERAPEVTİK KLİNİKASININ AÇILIŞI MƏRASİMİ

*1 oktyabr 2010-cu il*

*Oktyabrın 1-də Azərbaycan Tibb Universitetinin tədris-terapevtik klinikasının açılışı mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Universitetin kollektivi dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladı. Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim edildi.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Ölkədə səhiyyə sahəsində aparılan islahatlar, prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən tikilib istifadəyə verilən, yenidən qurulan tibb ocaqları Azərbaycan səhiyyəsinin inkişafının bu gün ən yüksək səviyyədə davam etdiyini göstərir. Tibb sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasında müstəsna xidmətləri olan Azərbaycan Tibb Universitetinin keçdiyi yol da səhiyyəmizin inkişafı baxımından mühüm mərhələdir. Prezident İlham Əliyevin Azərbaycan Tibb Universitetinin tədris-terapevtik klinikasının tikilməsi ilə bağlı 2007-ci il sentyabrın 11-də imzaladığı Sərəncam və bir neçə gündən sonra da həmin klinikanın təməlqoyma mərasimində iştirakı bir daha göstərdi ki, dövlətimizin başçısı milli səhiyyənin inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Bu məsələdə Heydər Əliyev Fondunun fəaliyyəti də geniş maraq doğurur. Azərbaycanda səhiyyənin inkişafında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın və onun*

*rəhbərlik etdiyi fondun xidmətlərini xüsusi qeyd etmək lazımdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ana və uşaq sağlamlığının qorunması, talassemiyadan əziyyət çəkən körpələrin müalicəsi, bütövlükdə səhiyyəmizin inkişafı ilə bağlı həyata keçirdiyi geniş fəaliyyət proqramı ölkəmizdə səhiyyə sisteminin inkişafında əhəmiyyətli rol oynayır. Mehriban xanım Əliyevanın bu istiqamətdə gördüyü işlər əhalinin sağlamlığının qorunması, gənc nəslin fiziki tərbiyəsi və sağlam böyüməsi işinə mühüm töhfələr verir.*

*Bu il həm də Azərbaycan Tibb Universitetinin fəaliyyətə başlamasının 80 ili tamam olur. Ölkədə yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında müstəsna xidmətləri olan universitet ötən dövrdə şərəfli yol keçmişdir. Bu ali təhsil ocağı dünya tibb elminə Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Zərifə xanım Əliyeva, Abdulla Qarayev, Mirməmməd Cavadzadə, Adilə xanım Namazova, Cəmil Əliyev, Əhliman Əmiraslanov və onlarla məşhur simalar bəxş etmişdir. Böyük tarixi ənənələrə malik olan Azərbaycan Tibb Universiteti bu gün də məhsuldar dövrünü yaşayır. Ötən müddətdə səhiyyəmizə 65 mindən çox həkim və əczaçı kadr bəxş edən universitet xeyli böyümüşdür.*

*Klinikanın foyesində ulu öndər Heydər Əliyevin* «Azərbaycan Tibb Universiteti Azərbaycan Respublikası və xalqı qarşısında böyük xidmətlər göstərmişdir» *kəlamı yazılmış lövhə, ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ATU-da keçirilən tədbirlərdə iştirakını əks etdirən fotostend vardır.*

*Bina ilə tanışlıq zamanı universitetin rektoru, akademik Əhliman Əmiraslanov məlumat verdi ki, tədris-terapevtik klinika elmi-tədqiqat, müalicə və diaqnostika işlərini özündə birləşdirən nadir universitet klinikasıdır.*

*Tamamilə kompyuterləşdirilmiş klinikada terapevtik, pediatrik və nevroloji xəstəliklərin müasir dünya standartlarına uyğun diaqnostikası, reabilitasiyası nəzərdə tutulur.*

*Klinikanın 204 kompyuteri, 16 modul və PAKS sistemini özündə birləşdirən şəbəkə bütün tibbi sənədləşmə prosesini sürətlə icra etmək, arxivləşdirmək, statistik işləmək, görüntüləri və laborator müayinələrin nəticələrini müalicə həkimlərinə, eləcə də dünyanın hər hansı ölkəsindəki mütəxəssisə ötürmək imkanına malikdir. Burada xarici ölkələrin qabaqcıl klinikaları və dünyanın görkəmli tibb mütəxəssisləri ilə videoəlaqə quraraq müzakirələr aparıb, məsləhətlər almaq mümkündür. Bütün tədris otaqları, iş kabinetləri, palatalar sürətli internet xəttinə qoşulmuşdur. Tədris prosesinin əyaniliyini artırmaq məqsədi ilə 18 mürəkkəb xəstəliyi və onların çoxsaylı fəsadlaşmalarını modelləşdirmək imkanına malik Tibbi Treninq Mərkəzi yaradılmışdır.*

**İ l h a m  Ə l i y e v:** Sizi ürəkdən təbrik edirəm. Azərbaycan Tibb Universitetinin yeni terapiya korpusunun açılışı çox gözəl və əlamətdar hadisədir. Bu hadisə münasibətilə sizi təbrik edir və sizə uğurlar arzulayıram.

Üç il əvvəl – 2007-ci ilin sentyabrında burada bu gözəl binanın təməl daşını qoyduq. Mən əmin idim ki, qısa müddət ərzində və böyük keyfiyyətlə yeni gözəl xəstəxana, tədris mərkəzi yaradılacaqdır. Belə də oldu. Bu gün bu korpusla tanış olarkən bir daha gördüm ki, bizim tərəfimizdən qəbul edilmiş qərar çox düzgün qərar idi, vaxtında atılmış addım idi. Biz bu gün gözəl tibb ocağının açılışında görüşürük. Burada həm müalicə, həm diaqnostika, eyni zamanda, tədris prosesinin yüksək səviyyədə təşkili üçün ən qabaqcıl texnologiyalar, avadanlıq və bütün müasir imkanlar vardır. Bütün işlər böyük zövqlə, keyfiyyətlə görülüb və burada tələbələrin oxuması, müəllimlərin işləməsi üçün bütün şərait yaradılıbdır. O da çox vacibdir ki, artıq tələbələr şəhərin müxtəlif yerlərinə getməyə məcbur olmayacaqlar. Burada 15 kafedra fəaliyyət göstərəcək və beləliklə, tədris prosesinin daha da səmərəli aparılması üçün yaxşı imkanlar vardır.

Atılan bu addım Azərbaycanda səhiyyə sahəsində görülən işlərin bir nümunəsidir. Belə işlər çoxdur və bildiyiniz kimi, son illərdə həm Bakıda, həm də ölkəmizin müxtəlif yerlərində yeni,

müasir tibb mərkəzləri yaradılıbdır. Hər bir bölgədə müalicə-diaqnostika mərkəzləri, rayon, şəhər xəstəxanaları tikilir və təmir olunur. Biz bu sahəyə çox böyük diqqət göstəririk. Çünki insanların sağlamlığı bizim üçün əsas məsələdir. Azərbaycanda keyfiyyətli, səviyyəli tibbi xidmətin göstərilməsi üçün bütün imkanlar vardır və dövlət öz tərəfindən bu sahəyə böyük investisiyalar qoymaqla bu vacib missiyanı yerinə yetirir.

Azərbaycanda ən qabaqcıl təcrübə tətbiq olunmalıdır. Həkimlər öz biliklərini, peşəkarlığını daim artırmalıdırlar ki, dünyanın aparıcı ölkələrində mövcud olan bütün texnoloji proseslər Azərbaycanda da tətbiq edilsin. Təkcə gözəl klinikaların tikilməsi ilə işimiz bitmir. Əsas odur ki, bu gözəl şəraitdən səmərəli istifadə olunsun və xəstələrə lazımi səviyyədə tibbi xidmət göstərilsin.

Azərbaycan dövləti isə bundan sonra da səhiyyə məsələlərinin həlli üçün səylərini davam etdirəcəkdir. Bütün lazımi proqramlar da, iqtisadi inkişaf sayəsində əldə edilmiş maddi resurslar da vardır. Hər il dövlət büdcəsindən səhiyyə məsələlərinin həlli üçün kifayət qədər vəsait ayrılır.

Üç il əvvəl universitetin rektoru məsələ qaldırmışdı ki, cərrahiyyə korpusunun tikintisinə ehtiyac vardır. Bu məsələyə də müsbət reaksiya verildi və artıq gözəl cərrahiyyə korpusu tikilir. Ümid edirəm ki, yaxın zamanlarda yeni açılışda biz sizinlə görüşəcəyik. Bir sözlə, şəhərimizin bu hissəsi bir növ gözəl, müasir tibb şəhərciyinə çevrilir. Həm universitetin binaları – yeni korpus, cərrahiyyə korpusu, ondan sonra kliniki xəstəxana – əvvəlki illərdə Semaşko adlandırdığımız o xəstəxana da əsaslı təmir olundu, Səhiyyə Nazirliyi böyük və müasir tibb mərkəzinə çevrilibdir. Ümid edirəm ki, siz bu gözəl şəraitdən səmərəli şəkildə istifadə edəcəksiniz və xəstələrə lazımi səviyyədə kömək göstərəcəksiniz. Bir daha bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə uğurlar arzulayıram.

# BAKININ XƏTAİ RAYONUNDA YƏHUDİ UŞAQLAR ÜÇÜN «XABAD-OR-AVNER» TƏHSİL MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 4-də Bakının Xətai rayonundakı Əbilov yaşayış massivində yəhudi uşaqlar üçün Heydər Əliyev Fondu və «Or-Avner» Fondu tərəfindən inşa edilmiş 450 yerlik «Xabad-Or-Avner» təhsil mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşanlar – məktəbin açılışı münasibətilə respublikamıza gələn müxtəlif ölkələrdəki yəhudi icmalarının, Azərbaycandakı yəhudi icmasının nümayəndələri, məktəbin müəllim və şagird kollektivi prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev və MDB Yəhudi İcmaları Federasiyasının və «Or-Avner» Beynəlxalq Fondunun prezidenti Lev Levayev rəmzi açılışı bildirən lenti kəsdilər.*

*Təhsil mərkəzi ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, son illər ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər Azərbaycanın öz gələcəyini daha etibarlı və inamlı görmək əzmini nümayiş etdirir. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən, elm və təhsilin inkişafını təmin edən layihələri dəstəkləyir. Xalqımızın ümummilli liderinin adını daşıyan fond bu sahəyə diqqət yetirməklə və bir çox layihələri reallaşdırmaqla Azərbaycanın gələcəyini təmin etmək işinə layiqli töhfələr verir. Heydər Əliyev Fondu «Or-Avner» Fondu ilə birlikdə «Tolerantlığın ünvanı – Azərbaycan» layihəsi çərçivəsində ölkəmizdə yaşayan yəhudi uşaqların təhsili üçün Mərkəz inşa etmişdir. Ulu öndər Heydər Əliyev 2003-cü ildə binanın inşası ilə bağlı, prezident İlham Əliyev isə 2004-cü ilin dekabrında yeni kompleksin tikintisi*

*üçün torpaq sahəsinin ayrılmasına dair göstəriş vermişlər. 2007-ci il mayın 31-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və MDB Yəhudi İcmaları Federasiyasının və «Or-Avner» Beynəlxalq Fondunun prezidenti Lev Levayev arasında 3 il müddətində təhsil, səhiyyə, mədəniyyət, sosial təyinatlı obyektlərin tikintisi, yenidən qurulması, maddi təchizatı sahəsində əməkdaşlığı nəzərdə tutan saziş imzalanmışdır. Elə həmin gün paytaxtın Xətai rayonunda Azərbaycanda yaşayan yəhudi uşaqlar üçün təhsil mərkəzinin təməlqoyma mərasimi olmuşdur. Bu layihənin reallaşması bir daha təsdiqləyir ki, Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqlar tarixən mehriban ailə kimi yaşamışlar. «Xabad-Or-Avner» təhsil mərkəzi ölkəmizdə çox böyük tarixə, ənənələrə malik olan yəhudi icmasının da özünün bənzərsiz mədəniyyətini, milli adət-ənənələrini qoruyub saxlaması üçün inşa edilmişdir.*

*Prezident İlham Əliyev mərasim iştirakçılarını – şagirdləri, müəllimləri, yəhudi icmalarının nümayəndələrini yeni, müasir məktəbin açılışı münasibətilə təbrik etdi. Dövlətimizin başçısı bildirdi ki, burada uşaqlar keyfiyyətli təhsil alaraq, Azərbaycanın layiqli vətəndaşları kimi yetişəcəklər. Prezident İlham Əliyev ölkəmizdə təhsilin inkişafına böyük diqqət yetirildiyini dedi. Dövlətimizin başçısı vurğuladı ki, bu təhsil mərkəzinin inşası ölkəmizdə tolerantlığın yeni bir təzahürüdür. Mərkəz Azərbaycan və yəhudi xalqları arasında dostluq münasibətlərinin inkişafına daha bir töhfədir. Prezident İlham Əliyev bu gün dinamik inkişaf edən Azərbaycanda müxtəlif xalqların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığını söylədi. «Bizim məqsədimiz gənc nəslin də bu əmin-amanlığı qorumasına nail olmaqdır» – deyən prezident İlham Əliyev Azərbaycanda yaşayan bütün xalqlara sülh və firavanlıq arzuladı.*

# YƏHUDİ MƏKTƏBİNİN AÇILIŞI MÜNASİBƏTİLƏ RESPUBLİKAMIZA GƏLƏN YƏHUDİ İCMALARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 oktyabr 2010-cu il*

*Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda yəhudi məktəbinin açılışı münasibətilə respublikamıza gələn yəhudi icmalarının nümayəndələrini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Bakıda yəhudi məktəbinin açılışı mərasimində iştirak etmək üçün müxtəlif ölkələrdən respublikamıza gələn yəhudi icmalarının nümayəndələrini salamladı. Dövlətimizin başçısı əsrlər boyu Azərbaycanda bütün xalqlara və milli azlıqlara, o cümlədən yəhudilərə tolerant münasibət bəsləndiyini dedi. Prezident İlham Əliyev tarixən ölkəmizdə müxtəlif millətlərin nümayəndələrinin dinc yanaşı yaşadığını xüsusi vurğulayaraq qeyd etdi ki, bu ənənə indi də uğurla davam etdirilir və nümunəvi xarakter daşıyır. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin Azərbaycanda tolerantlığın möhkəmləndirilməsi üçün ardıcıl siyasət həyata keçirdiyini qeyd etdi, bu siyasətin hazırda da uğurla davam etdirildiyini vurğuladı və Azərbaycanın müstəqillik illərində keçdiyi inkişaf yolu barədə ətraflı danışdı.*

*Prezident İlham Əliyev Azərbaycandakı müxtəlif dini icmaların azad fəaliyyəti üçün həyata keçirilən tədbirlərə bir daha toxunaraq bu baxımdan Bakıda yeni sinaqoqun inşa olunduğunu qeyd etdi. Dövlətimizin başçısı beynəlxalq səviyyədə Azərbaycan reallıqlarının təbliğinin gücləndirilməsinin vacibliyini dedi və bu baxımdan qarşılıqlı səfərlərin mühüm rol oynadığını söylədi.*

*MDB Yəhudiləri Cəmiyyəti Federasiyasının prezidenti Lev Levayev qonaqpərvərliyə görə prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi. O, Azərbaycanda bütün xalqlara, milli azlıqlara, o cümlədən yəhudilərə daim yaxşı münasibət bəsləndiyini dedi. Ümummilli lider Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırladan Lev Levayev ulu öndərin tolerantlıqla bağlı müdrik siyasətinin indi də prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğuladı. Qonaq bu cür xoşməramlı siyasətə Heydər Əliyev Fondunun və fondun prezidenti Mehriban xanım Əliyevanın da töhfələr verdiyini xüsusi qeyd etdi.*

*İsrailin Baş ravvini Şlomo Amar respublikamız ilə ilk tanışlığından prezident İlham Əliyevin siyasətində insan amilinin başlıca meyar olduğu qənaətinə gəldiyini dedi. Qonaq respublikamızdakı sinaqoqlarla tanışlığın onda razılıq doğurduğunu söylədi. Baş ravvin paytaxtda yeni sinaqoqun inşa olunması ilə bağlı bütün yəhudilər adından dövlətimizin başçısına minnətdarlığını bildirdi, Bakıda tikilən yeni yəhudi məktəbinin də ən müasir tələblərə cavab verdiyini dedi. Şlomo Amar məktəbin inşasına görə prezident İlham Əliyevə minnətdar olduğunu söylədi.*

*İkinci dəfə Azərbaycana səfər etdiyini deyən Amerika Yəhudi Konqresinin prezidenti Cek Rozen qeyd etdi ki, Azərbaycan müxtəlif dinlərin və millətlərin dostluq şəraitində birgə yaşamaları baxımından dünyaya bir nümunədir.*

*Rusiyanın Baş ravvini Berl Lazar da Azərbaycandakı tolerantlığın nümunəvi xarakter daşıdığını və bu təcrübənin yayılmasının zəruriliyini vurğuladı. O, Bakıda müasir yəhudi məktəbinin tikilməsini tolerantlığın yaxşı bir nümunəsi kimi dəyərləndirdi.*

*Görüşün sonunda prezident İlham Əliyevə hədiyyə təqdim edildi.*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Ananız Yelena Beseskunun vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 oktyabr 2010-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*5 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qarşıladı.*

*Azərbaycan prezidenti Naxçıvan Muxtar Respublikası Hökumətinin üzvləri ilə görüşdü.*

*Prezident İlham Əliyev həmin gün xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Uzun müddətdir ki, blokada şəraitinin ağırlığına mətanətlə sinə gərən Naxçıvan Muxtar Respublikası bu gün dinamik inkişafı, tərəqqisi ilə seçilir. Azərbaycanın iqtisadi nailiyyətlərinin təmin olunmasında özünəməxsus yeri olan Naxçıvan Muxtar Respublikasında sistemli şəkildə reallaşdırılan islahatlar ümumi iqtisadi fəallığı daha da gücləndirmiş, investisiya cəlbediciliyi əhəmiyyətli dərəcədə yüksəlmişdir.*

*Bu ilin səkkiz ayında Naxçıvan Muxtar Respublikası 125,5 milyon ABŞ dollarından çox xarici ticarət əməliyyatları aparmışdır. Təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin tikintisi və yenidən qurulması prosesi sürətlə davam etdirilir. Heydər Əliyev Fondunun dəstəyi ilə bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikada aparılan təhsil və səhiyyə islahatlarına əsl töhfədir.*

## Naxçıvan–Sədərək magistral yolunun açılışı mərasimi

*Oktyabrın 5-də prezident İlham Əliyev muxtar respublikada əsas strateji magistrallardan biri olan Naxçıvan–Sədərək yolunun açılışında iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Azərbaycanı Türkiyə ilə birləşdirən yeganə quru yolu olan Naxçıvan–Sədərək magistralının tikintisinə 2008-ci ilin martında başlanılmışdır. Dördzolaqlı yolun ümumi uzunluğu 82 kilometr, eni 23 metr, asfalt qatının eni 17,2 metrdir. Bir hissəsi dövlətimizin başçısının ötən il Naxçıvana səfəri çərçivəsində istifadəyə verilən şosenin kənarlarında xüsusi suötürücüləri və arxlar çəkilmiş, magistralın üzərində bir neçə yolötürücü tikilmişdir. Böyük İpək yolunun bir hissəsi sayılan bu magistral muxtar respublikanın Kəngərli, Şərur və Sədərək rayonlarını birləşdirir.*

*Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələrini və inşaatçıları salamladı.*

**İ l h a m  Ə l i y e v:** Yolun açılışı münasibətilə sizi təbrik edirəm. Biz yolun bir hissəsini keçən dəfə bərabər açdıq. Bu gün isə yolun ikinci hissəsi açılır və Naxçıvandan Türkiyə ilə sərhədə qədər müasir, gözəl, keyfiyyətli yol salınıb. Keçən dəfə də biz bu yoldan istifadə edəndə gördük ki, keyfiyyət yüksəkdir. Bu dəfə də gələndə görürəm ki, çox yüksək keyfiyyətlə tikilib, geniş, rahat, hamar yoldur, dünya standartlarına cavab verir və demək olar ki, muxtar respublikanın bu hissəsində yerləşən bütün yaşayış məntəqələrini Naxçıvan şəhəri ilə birləşdirir.

Bilirsiniz ki, yol tikintisi inkişaf, insanların normal, rahat yaşaması üçün əsasdır. Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir, Naxçıvanda da bu gözəl proseslər sürətlə gedir və həll olunur. Gələcəkdə başqa yolların tikintisi

də nəzərdə tutulub və lazımi vəsait ayrılacaqdır. Keyfiyyətli yol tikintisi böyük ustalıq və nəzarət tələb edir. Mən çox şadam ki, Naxçıvanda artıq bu gözəl yolun tikintisinə nail olduq. Ümid edirəm ki, yaxın zamanlarda Naxçıvan şəhərini bütün rayonlarla birləşdirən yollar da bu səviyyədə olacaqdır və onların da tikintisi nəzərdə tutulub. Bir daha sizi ürəkdən təbrik edirəm.

*Rayon ictimaiyyəti adından çıxış edən Vidadi Süleymanov dövlətimizin başçısının rəhbərliyi ilə muxtar respublikada bütün sahələrdə aparılan quruculuq işlərinin naxçıvanlıların ürəyincə olduğunu dedi.*

## Naxçıvan şəhərinin içməli su ilə təmin edəcək su təchizatı sistemlərinin birləşdiyi paylayıcı qurğunun istifadəyə verilməsi mərasimi

*Oktyabrın 5-də prezident İlham Əliyev Naxçıvan şəhərini içməli su ilə təmin edəcək su təchizatı sistemlərinin birləşdiyi paylayıcı qurğunun istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Şəhər ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Məlumat verildi ki, son illərdə Naxçıvanda həyata keçirilən infrastruktur layihələri arasında əhalinin içməli suya olan tələbatının ödənilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan hökuməti ilə Asiya İnkişaf Bankı arasında bağlanan kredit müqaviləsinə əsasən, Naxçıvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədi ilə tikilən supaylayıcı şəbəkə vasitəsilə əhalinin içməli suya olan ehtiyacı tam şəkildə ödəniləcəkdir. İçməli su şəhərə 17 kilometr məsafədən xüsusi boru xətləri ilə gətirilir, təmizləndikdən sonra supaylayıcı qurğu vasitəsilə əhaliyə verilir. Qurğunun suötürmə gücü saniyədə 600 litrdir.*

*Dövlətimizin başçısı Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkələrinin, şəhəri içməli su ilə təmin edəcək sistemlərin baş planlarına baxdı.*

*Məlumat verildi ki, Naxçıvan çayı yatağının yaxınlığındakı yeraltı su mənbələrindən çəkilən yeni boru kəmərləri şəhərin içməli suya olan tələbatını ödəməklə yanaşı, gələcəkdə su qıtlığının yaranmasının da qarşısını alacaqdır.*

*Prezident İlham Əliyev Naxçıvan şəhərini içməli su ilə təmin edən qurğunu işə saldı.*

**İ h a m  Ə l i y e v:** Bu layihənin birinci mərhələsi başa çatıbdır və indi artıq su gəlir. Yəqin ki, bir-iki ilə şəhərin bütün su problemi öz həllini tapacaqdır. Böyük əhəmiyyətə malik olan bir layihədir və uğurla icra olunur. Su həyat deməkdir. Biz elə etməliyik ki, hər bir yerdə insanlar içməli su ilə təmin olunsunlar. Şəhərlərdə, kəndlərdə indi müxtəlif tədbirlər görülür. Azərbaycanın müxtəlif bölgələrində ayrı-ayrı layihələr icra olunmağa başlamışdır ki, bütün şəhərlərdə içməli su, kanalizasiya problemi həllini tapsın. O cümlədən Naxçıvan Muxtar Respublikasında bu məsələyə çox böyük diqqət göstərilir və işlər artıq icra olunur. Bu gün biz sizinlə bərabər layihənin birinci mərhələsini qeyd edirik. Sizi təbrik edirəm və ümid edirəm ki, yaxın zamanlarda layihənin başa çatmasını sizinlə bərabər qeyd edəcəyik.

## KƏNGƏRLİ RAYON MƏRKƏZİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*5 oktyabr 2010-cu il*

*Oktyabrın 5-də Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Kəngərli rayonuna gəldi.*

*Rayon sakinləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsinin açılışında iştirak etdi.*

*Ümummilli lider Heydər Əliyevin abidəsinin yerləşdiyi ərazidə geniş abadlıq-quruculuq işləri aparılmışdır. Abidənin ətrafında park salınmış və burada geniş yaşıllaşdırma işləri görülmüşdür.*

*Dövlətimizin başçısı buraya toplaşan rayon ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İ l h a m Ə l i y e v:** Sizi ulu öndər Heydər Əliyevin abidəsinin açılışı münasibətilə ürəkdən salamlayıram və təbrik edirəm. Bu gözəl abidə rayon mərkəzinə əlavə yaraşıq verir. Ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisidir. Müstəqil Azərbaycanda dövlət quruculuğu prosesi məhz onun fəaliyyəti ilə bağlıdır. Azərbaycan müstəqilliyini əldə edəndə ən ağır vəziyyətdə olan respublika idi. Ölkədə gedən xoşagəlməz proseslər, iqtisadi tənəzzül, hərc-mərclik, vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti, demək olar ki, Azərbaycanın müstəqilliyini şübhə altına qoyurdu və Bakıda hakimiyyət uğrunda çəkişmələr, mübarizələr vəziyyəti daha da ağırlaşdırırdı. Belə vəziyyətdə Azərbaycan xalqı yeganə düzgün seçim etdi, Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Bunun nəticəsində Azərbaycanda bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı və inkişaf dövrü başlandı.

O illər bugünkü Azərbaycanın reallıqlarını müəyyən edən illər olmuşdur. Məhz o illərdə Azərbaycanın bugünkü taleyi həll olunurdu – Azərbaycan hansı yollarla inkişaf edəcək, hansı ölkəyə çevriləcək, Azərbaycanda hansı dövlət quruluşu yaranacaq?! Məhz o illərdə ulu öndər Heydər Əliyev tərəfindən bütün bu işlərin əsası qoyuldu. O, bütün dövrlərdə – həm sovet dövründə, həm də müstəqillik dövründə ictimai-siyasi quruluşdan asılı olmayaraq, həyatını, ömrünü Azərbaycan xalqına xidmət işinə həsr etmişdir. Bu gün müasir Azərbaycan Heydər Əliyevin əsəridir və bu gün Azərbaycan onun yolu ilə uğurla inkişaf edir.

Bu gün ölkəmizdə bütün sahələrdə quruculuq, abadlıq, tikinti işləri aparılır, yeni müəssisələr, zavodlar, fabriklər, sosial obyektlər yaradılır. İndi biz Azərbaycanın hər bir bölgəsində sürətli inkişafı görürük. Təsadüfi deyildir ki, Azərbaycanın uğurları dünya miqyasında qiymətləndirilir. Mötəbər beynəlxalq təşkilatlar iqtisadi inkişaf baxımından Azərbaycanı dünyanın ən dinamik və sürətlə inkişaf edən ölkəsi kimi tanıyırlar. Bütün bu işlərin təməlində uğurlu siyasət, Heydər Əliyev siyasəti dayanır. Uğurlu neft strategiyamız bizə imkan verdi ki, maliyyə imkanlarımızı genişləndirək və bu imkanlardan əldə olunan gəlirdən ölkəmizdə ədalətli şəkildə istifadə edək ki, hər bir Azərbaycan vətəndaşı öz həyatında, öz güzəranında bunu hiss etsin. Bu gün bu reallıqları görürük və haqlı olaraq, qürur hissi ilə bunu qeyd edirik. O cümlədən Naxçıvanda bütün işlər çox yüksək səviyyədə aparılır. Naxçıvan gündən-günə gözəlləşir, abadlaşır, yeni müəssisələr, zavodlar, fabriklər yaradılır. Bu gün mən bir gündə həm sosial, həm iqtisadi, həm də enerji sahəsində bir neçə vacib müəssisənin açılışında iştirak edəcəyəm.

Kəngərli rayonunun yaradılması da çox əlamətdar hadisədir. Bir neçə il əvvəl Vasif Talıbov müraciət etmişdi ki, Naxçıvanda yeni rayon – Kəngərli rayonu yaradılsın. Bu, muxtar respublikanın inkişafına əlavə təkan verəcəkdir. Bu gün biz burada qısa müddət ərzində görülən işləri əyani şəkildə görürük. Bu ərazidə heç bir bina, heç nə yox idi. Boş yerlər idi. Artıq burada inzibati və yaşayış

binaları tikilir, gözəl park salınıbdır, gözəl yol çəkilibdir. Bu Naxçıvan–Sədərək yolu dünyanın ən yüksək standartlarına cavab verir.

Mən keçən dəfə Naxçıvanda olanda bu yolun bir hissəsini getmişəm – Şərura qədər. Bu gün bu yol artıq Sədərəyə qədər hazırdır. Bu inkişafdır, bu quruculuqdur, bu abadlıqdır, bu, xalqa xidmət etmək deməkdir. Bütün məmurlar elə etməlidirlər ki, onların fəaliyyəti nəticəsində insanlar daha da yaxşı yaşasınlar, ölkəmiz daha da sürətlə inkişaf etsin. Bu gün Azərbaycan çox sürətlə və uğurla inkişaf edən ölkədir. Bütün iqtisadi-sosial məsələlər həll olunur, dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycanın gücü artır və bu bizə imkan verir ki, sözün əsl mənasında, müstəqil siyasət aparaq. O siyasət ki, Azərbaycan xalqının iradəsinə söykənir. Bu siyasəti Heydər Əliyev bizə göstəribdir və bu gün Azərbaycan onun yolu ilə uğurla inkişaf edir.

Bir daha sizi ürəkdən salamlayıram. Xahiş edirəm mənim səmimi salamlarımı rayonun bütün sakinlərinə çatdırasınız. Sizə işlərinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

# ŞƏRUR RAYONUNUN YENGİCƏ KƏND ORTA MƏKTƏBİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*5 oktyabr 2010-cu il*

*Oktyabrın 5-də prezident İlham Əliyev Şərur rayonuna gələrək Yengicə kənd orta məktəbinin yeni binasının açılışında iştirak etmişdir.*

*Məktəbin müəllim kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, məktəbin 130 ildən çox yaşı olan köhnə binası sonuncu dəfə 1986-cı ildə təmir edilmişdir. Uzun müddət yararsız vəziyyətdə olan təhsil ocağı üçün yeni binanın tikintisi uğurla başa çatmışdır. Üçmərtəbəli yeni binada hazırda 306 şagird təhsil alır.*

*Məktəblə tanışlıqdan sonra dövlətimizin başçısı müəllimlərlə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Yeni məktəbin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Gözəl, çox rahat, müasir məktəbdir, bütün avadanlıq da quraşdırılıb. Yəni, hər bir şərait vardır ki, burada uşaqlar yaxşı oxusunlar. Burada müəllimlər üçün də yaxşı şərait yaradılıb. Bu məktəbin tikintisi çox əlamətdar bir hadisədir və onu göstərir ki, Azərbaycanın hər bir yerində məktəb tikintisi sürətlə gedir. Bu məktəb əslində kənd məktəbinə oxşamır. Çox əzəmətli, gözəl, geniş, işıqlı bir məktəbdir. Bu gün Azərbaycanın bütün kəndlərində belə gözəl məktəblər tikilir. Bizim siyasətimiz məhz bundan ibarətdir ki, bütün yerlərdə, bütün bölgələrdə, ən ucqar kəndlərdə də ən müasir səviyyə, insanların yaşaması, işləməsi üçün bütün şərait yaradılmalıdır.

Keçən dəfə olimpiya kompleksinin açılışında, mərkəzi rayon xəstəxanasının istifadəyə verilməsində iştirak etmişdim. Digər

obyektlərin, sosial infrastrukturun yaradılması bu rayonda çox uğurla və sürətlə gedir. Bu məktəbin tikintisi rayona göstərilən qayğının nəticəsidir.

Mən çox şadam ki, muxtar respublikanın rəhbərliyi bu işləri çox böyük zövqlə və məhəbbətlə edir. Hər şey etmək olar, çünki indi Azərbaycanın iqtisadi imkanları genişlənir, maliyyə resurslarımız da, ciddi düşünülmüş proqramlarımız da vardır. Amma bununla bərabər, hər bir vətəndaş öz vəzifə borcunu şərəflə yerinə yetirməlidir. Naxçıvanda gözəl quruculuq, abadlıq işləri sürətlə gedir və bu məni çox sevindirir.

Bu gözəl məktəbin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm və sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

## Maxta kənd orta məktəbinin yeni binasının açılışı mərasimi

*Oktyabrın 5-də prezident İlham Əliyev Şərur rayonunun Maxta kənd orta məktəbinin yeni binasının açılışında iştirak etmişdir.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, Milli Qəhrəman Əli Camalovun adını daşıyan Maxta kənd orta məktəbinin binası əsaslı şəkildə yenidən qurulmuşdur. 1981-ci ildən fəaliyyət göstərən hazırkı bina bir müddət əvvəl qəzalı vəziyyətə düşmüşdü. Üçmərtəbəli, 540 şagird yeri olan yeni binada 30 sinif otağı vardır. Bir-birinə örtülü keçidlə birləşdirilmiş üç korpusdan ibarət binada şagirdlərin təlim-tərbiyəsi üçün bütün şərait yaradılmış, otaqlar zəruri vəsaitlərlə təchiz olunmuşdur. Fənn kabinetlərində, laboratoriyalarda müasir standartlara cavab verən avadanlıq qurulmuşdur. 6000 nüsxə ədəbiyyatın saxlanıldığı kitabxanada ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyətini əks*

*etdirən guşə yaradılmışdır. İdman zalı da müasir tələblərə cavab verir.*

*Məktəblə tanışlıqdan sonra dövlətimizin başçısı Müəllim günü münasibətilə kollektivi təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sizi gözəl məktəbin açılışı münasibətilə təbrik edirəm. Maxta kəndində gözəl, yaraşıqlı məktəb tikilib. Əminəm ki, bu, uşaqlara böyük bir töhfədir. Burada uşaqlar ancaq yaxşı oxumalıdırlar. Müəllimlər də uşaqlara yaxşı təhsil verməlidirlər, yaxşı nəzarət etməlidirlər. Bizə savadlı, bilikli gənclər lazımdır ki, bundan sonra bütün sahələrdə işləyə bilsinlər. Bu gün Azərbaycanda inkişaf çox sürətlə gedir. Hər bir sahədə yeni, peşəkar mütəxəssislər lazımdır ki, bütün işləri yüksək səviyyədə aparsınlar. Təhsil bu məqsədlərə nail olmaq üçün başlıca vasitədir. Azərbaycanda təhsil sahəsinə çox böyük diqqət göstərilir. Hər yerdə məktəb tikintisi gedir, o cümlədən Naxçıvanda. Bax, bu gün artıq ikinci məktəbdir ki, açılışında iştirak edirəm. Hələ bir məktəb də vardır, orada da olacağam. Bu işlər Azərbaycanda çox yüksək səviyyədə aparılır. Müəllimlərə tövsiyəm budur ki, uşaqlara yaxşı bilik versinlər, tələbkar olsunlar ki, uşaqlar yaxşı oxusunlar və gələcəkdə gözəl mütəxəssislər olsunlar. Sizi ürəkdən təbrik edirəm.

*Sonra məktəbin müəllimi Nübar Allahverdiyeva çıxış edərək qısa müddətdə rayonda müasir üslubda yeni obyektlərin, o cümlədən orta məktəbin inşa edilib istifadəyə verildiyini söylədi, bütün bunlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

## SƏDƏRƏK RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞI MƏRASİMİ

*5 oktyabr 2010-cu il*

*Oktyabrın 5-də prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Sədərək rayonuna gəlmişdir.*

*Sədərək rayonu Azərbaycanda yeganə inzibati ərazi vahididir ki, 3 dövlətlə həmsərhəddir. Ötən əsrin 90-cı illərinin əvvəllərində sədərəklilər Ermənistanın aramsız hücumlarına qəhrəmanlıqla sinə gərmişlər. Son illərdə bu bölgədə gedən inkişaf prosesləri isə Sədərəyin Azərbaycan üçün nə qədər mühüm əhəmiyyət daşıdığını bir daha nümayiş etdirmişdir.*

*Prezident İlham Əliyev Sədərək Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etdi.*

*Səhiyyə ocağının kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Ümumi sahəsi 11700 kvadratmetr olan xəstəxana binası ən müasir tələblərə cavab verən tibbi müəssisə kimi layihələndirilərək inşa edilmişdir. Zirzəmi qatı ilə birlikdə üç mərtəbədən ibarət olan xəstəxana 26 çarpayılıqdır. Müasir tibbi avadanlığın quraşdırıldığı səhiyyə ocağında 29 həkim, 34 tibb bacısı çalışır. Xəstəxanada üç şöbə – stasionar, poliklinika və təcili yardım şöbələri fəaliyyət göstərəcəkdir. Dövlətimizin başçısı xəstəxananın kollektivini təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Dostlar, mən sizi bu yeni, gözəl xəstəxananın açılışı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Bu xəstəxananın açılışı gözəl və əlamətdar hadisədir. Mən xəstəxana ilə tanış oldum, gördüm ki, burada müasir avadanlıq quraşdırılıbdır, yüksək səviyyədə tikinti işləri aparılıbdır, gözəl layihədir. Həm müalicə almaq, həm də müayinədən, diaqnostik prosedurlardan keçmək üçün bütün şərait, imkan vardır. Bu xəstəxana rayon sakinləri üçün gözəl bir hədiyyədir. Mən çalışıram və istəyirəm ki,

Azərbaycanın hər bir yerində yüksək səviyyəli tibbi xidmət göstərilsin.

Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir. Son illər ərzində Naxçıvanda bir neçə gözəl, müasir tibb ocağı yaradılmışdır. Xatırlayıram, 4 il bundan əvvəl Müalicə-Diaqnostika Mərkəzinin açılışı Naxçıvanda böyük bir hadisə idi. Çünki ən müasir texnologiyalara malik, ən müasir avadanlıqla təchiz olunmuş və memarlıq baxımından gözəl əsərə bənzəyən bir Müalicə-Diaqnostika Mərkəzi Naxçıvana çox lazım idi. Artıq bir neçə ildir ki, bu gözəl tibb ocağı işləyir və naxçıvanlıların sağlamlığının keşiyində dayanır. Ondan sonra Naxçıvanda böyük və müasir doğum evi yaradıldı. Ona da böyük ehtiyac var idi.

Son illər Azərbaycanda uşaq ölümü xeyli aşağı düşmüşdür. Naxçıvanda isə bu göstərici inkişaf etmiş ölkələrin səviyyəsindən də aşağıdır. Nəyə görə?! Çünki lazımi səviyyədə tibbi xidmət göstərilir. Naxçıvanda artıq təcili tibbi yardım avtomobillərinin sayı da artıb, maşınlar vasitəsilə istənilən anda ağır xəstəyə tibbi yardım göstərmək mümkündür. Bu maşınlar dünyanın aparıcı ölkələrinin şəhərlərində fəaliyyət göstərir və bu gün biz onları Azərbaycana da gətirmişik, artıq onların bütün bölgələrə paylanması prosesi davam etdiriləcəkdir. Naxçıvanda, keçən dəfə Şərur, ondan əvvəl Culfa rayonunda mərkəzi rayon xəstəxanaları yaradılmışdır. Bu gün Şahbuzda, Sədərəkdə, Ordubadda, Babək rayonunda, yəni hər bir rayonda gözəl tibb məntəqəsi, tibb ocağı vardır və onlar yüksək səviyyəli, keyfiyyətli avadanlıqla təchiz olunmuşdur.

Bu gün həkimlər dünyada gedən ən qabaqcıl proseslərdən xəbərdar olmalı, müasir mətbuatı izləməlidirlər, kompyuter vasitəsilə bütün bu şəbəkəyə qoşulmalıdırlar. Elə etməliyik ki, Azərbaycanın hər bir sahəsində, ilk növbədə səhiyyə sistemində müasir texnologiyalar tətbiq olunsun. Bu ən vacib məsələdir.

İnsanların sağlamlığı, onların həyat səviyyələrinin yaxşılaşdırılması məsələləri bu gün dünyanı düşündürən məsələlərdən biridir. Bakıda son illərdə bir neçə müasir tibb mərkəzi

yaradılıbdır. Bu yaxınlarda biz Azərbaycan Tibb Universitetinin tədris-terapevtik korpusunun istismara verilməsini qeyd etdik. Əslində böyük bir klinikadır. Orada 15 kafedra yerləşəcək və 300-dən artıq çarpayılıq bir klinikadır. Tibb Universitetinin cərrahiyyə korpusu da tikilir. Ondan əvvəl göz xəstəxanası, onkoloji və uroloji mərkəzlər, talassemiya mərkəzi, klinik xəstəxana – yəni bunlar hamısı son illər ərzində yaradılmış tibb müəssisələridir. Hər bir səhiyyə müəssisəsində yüksək səviyyəli tibbi xidmət göstərilməlidir. Rayonun hər bir sakini ildə bir dəfə bu xəstəxanaya gəlməlidir, müayinədən keçməlidir, analizlərini verməlidir və bilməlidir ki, onun səhhəti, sağlamlığı hansı səviyyədədir.

Ölkəmizdə bütün bu işlər – səhiyyə, təhsil, mədəniyyət sahələrində, bütün sosial sferada işlər ən yüksək səviyyədə görülür. Mən istəyirəm ki, hər bir xəstəxana onun yerləşməsindən asılı olmayaraq, müasir səviyyədə olsun, Azərbaycanda hər bir sahədə müasirlik, yenilik və keyfiyyət özünü daim göstərsin.

Mən arzu edirəm ki, burada bütün işlər yüksək səviyyədə görülsün. Ümid edirəm ki, bu xəstəxanaya müraciət edənlərin sayı çox olmayacaqdır. Çünki insanlar sağlamdır. Gözəl təbiət, gözəl iqlim bu sağlamlığa çox müsbət təsir göstərir. Amma ehtiyac yaranarsa, əmin olmaq istəyirəm ki, bu xəstəxanada ən yüksək tibbi xidmət və qayğı göstəriləcəkdir. Bir daha bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

*Həkim Roza Quliyeva kollektiv adından çıxış edərək prezident İlham Əliyevin onlara göstərdiyi etimadı doğruldacaqlarını bildirdi və Sədərək Rayon Mərkəzi Xəstəxanasında əhaliyə yüksək səviyyədə tibbi xidmətin göstəriləcəyini söylədi.*

## 2 nömrəli Sədərək orta məktəbinin yeni binasının açılışı mərasimi

*Oktyabrın 5-də prezident İlham Əliyev Sədərəkdəki 2 nömrəli orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.*

*Məktəbin pedaqoji kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, 594 şagird yeri olan 2 nömrəli Sədərək orta məktəbinin binası yeni inşa edilmişdir. Dördmərtəbəli binanın tikintisinə bu ilin mayında başlanılmışdır. Burada 33 sinif otağı vardır. Fənn kabinetləri, o cümlədən hərbi hazırlıq otağı və idman zalı zəruri əyani vəsaitlərlə təmin olunmuşdur. Burada həm də şagirdlərin ixtiyarına iki elektron lövhəli sinif otağı da verilmişdir. Məktəbdə internetə çıxışı olan 31 kompyuter vardır. Kitabxanada 10 min nüsxəyə yaxın ədəbiyyat mühafizə edilir.*

*Dövlətimizin başçısı məktəbin kollektivini təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bu gözəl fürsətdən istifadə edərək, Azərbaycanın bütün müəllimlərini bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Müəllimlər doğrudan da çox böyük missiyanı yerinə yetirirlər. Gələcək nəslin tərbiyə edilməsi, bilikli, savadlı olması üçün müəllimlər gecə-gündüz çalışırlar. Hər bir ölkənin inkişafı üçün müəllimlərin fəaliyyəti başlıca rol oynayır. Çünki ölkə təbii sərvətlərlə zəngin ola bilər, ölkənin digər imkanları, yəni maliyyə imkanları geniş ola bilər. Amma əgər peşəkar kadrlar yoxdursa, intellektual potensial yüksək səviyyədə deyilsə, o ölkələr həmin imkanlardan heç vaxt səmərəli şəkildə istifadə edə bilməyəcəklər. Ona görə biz təbii resurslarımızı insan kapitalına çeviririk. Bizim siyasətimizin əsas istiqaməti bundan ibarətdir ki, Azərbaycanda insan kapitalına qoyulan sərmayə gündən-günə artsın. Bu yeni orta məktəblərin, ali məktəblərin yaradılması bir məqsədi güdür ki, Azərbaycanda təhsilin səviyyəsi bizi qane edən səviyyəyə qalxsın. Bunu etmək üçün məktəb tikintisi də, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, artırılması da lazımdır. Bu gün mən Naxçıvanda artıq üçüncü məktəbin açılışında iştirak

edirəm. İki məktəb Şərur rayonunda, bir məktəb Sədərək rayonunda açılmışdır və onlar gözəl, yaraşıqlı, işıqlı, geniş və ən müasir avadanlıqla təchiz edilmiş məktəblərdir.

Biz güclü dövlət qururuq, bu dövlətin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Azərbaycanda dövlət quruculuğu məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində başlanmışdır və bu gün Azərbaycan qüdrətli dövlətdir. Biz müasir dövlət qururuq. Azərbaycanda bütün demokratik azadlıqlar mövcuddur. Azərbaycanda stabillik, ictimai-siyasi asayiş, təhlükəsizlik yüksək səviyyədədir. Əgər statistikaya baxsaq görərik ki, ən az cinayətlər olan yer elə Azərbaycandır. Nəyə görə?! Çünki burada ictimai-siyasi vəziyyət müsbətdir, ab-hava gözəldir. Ölkəmizin hər bir yerində quruculuq, inkişaf prosesləri sürətlə gedir.

Bu gün Sədərək rayonunda gözəl mərkəzi xəstəxananın açılışında iştirak etdim, indi məktəbin açılışında iştirak edirəm. Bu, vacib sosial obyektlərdir, insanlara xidmət edəcəkdir. Biz elə etməliyik ki, hər bir bölgədə bu gözəl təşəbbüslər özünü göstərsin və reallığa çevrilsin. Siz lap sərhəddə yerləşirsiniz. Sədərəklilər, bütün naxçıvanlılar Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşmuşlar, qan tökmüşlər.

Biz o illəri yaxşı xatırlayırıq və Azərbaycan torpaqları işğal altına düşəndən sonra erməni qəsbkarları Naxçıvanı da işğal etməyə çalışırdılar. O vaxt ancaq naxçıvanlıların iradəsi və ulu öndər Heydər Əliyevin siyasəti nəticəsində naxçıvanlılar Naxçıvanı qorudular.

Bu gün atəşkəs rejimi şəraitindəyik. Hələ müharibə başa çatmayıb. Müharibənin birinci mərhələsi başa çatıb. Müharibə o vaxt başa çatacaq ki, sülh müqaviləsi bağlanacaq. Sülh müqaviləsi o vaxt bağlana bilər ki, Azərbaycanın işğal olunmuş bütün torpaqları qayıtsın və Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Azərbaycan xalqı əsrlər boyu Dağlıq Qarabağda və ətraf bölgələrdə yaşamışdır, yaratmışdır. Bütün tarixi adlar,

toponimlər Azərbaycan xalqının adı ilə bağlıdır. Azərbaycan bu gün istənilən məsələni istənilən yolla həll etməyə qadirdir.

Bu gün Azərbaycan qüdrətli dövlətdir və Ermənistanla müqayisəolunmaz səviyyədədir. İqtisadiyyatımız Ermənistan iqtisadiyyatından 7-8 dəfə böyükdür. Hərbi məsələlərə ayrılan xərclər Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Demoqrafik məsələləri götürək. Bu gün Azərbaycanın əhalisi 9 milyondur. Getdikcə sayımız artacaqdır. Təbii proseslər onu göstərir və mən buna şübhə etmirəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək, işğal edilmiş torpaqları azad edəcəkdir. Bu gün işğal altındakı bütün torpaqlarda Azərbaycanın suveren hüquqları bərpa olunacaqdır. Azərbaycanın uğurlu inkişafı bizdən asılıdır. Bu məktəbin və Naxçıvanda digər vacib sosial obyektlərin açılması bizim gücümüzü bir daha göstərir.

Bu gözəl hadisə münasibətilə mən sizə öz ürək sözlərimi demək istədim. Bir də demək istəyirəm ki, bu əlamətdar gündə bütün Azərbaycan müəllimlərini bayram münasibətilə təbrik edirəm. Sizi bir daha bu gözəl məktəbin açılışı münasibətilə təbrik edirəm.

*Məktəbin kollektivi adından çıxış edən müəllimə Elmira Dadaşova Azərbaycanın bugünkü inkişafında ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin müstəsna xidmətlərini vurğuladı. O, bütün bölgələrdə olduğu kimi, Naxçıvanda da yeni təhsil, səhiyyə və digər sosial obyektlərin yaradıldığını dedi. Qeyd etdi ki, bütün bunlar dövlətimizin başçısının xalqa qayğısının bariz nümunəsidir.*

## «N» hərbi hissəsi ilə tanışlıq

*Oktyabrın 5-də Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Sədərəkdəki «N» hərbi hissəsində olmuşdur.*

*Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı ön xətdə yerləşən hərbi hissənin tabor mərkəzi ilə tanış oldu.*

*Məlumat verildi ki, 2008-ci ildə inşa olunmuş binada zabit, gizir və əsgər heyətinin xidmət aparması üçün hər cür şərait vardır. Binadakı əsgər yataqxanasında səliqə-sahman göz oxşayır. Heydərabad qəsəbəsində hərbi hissənin zabitləri üçün evlər tikilmişdir.*

*Prezident İlham Əliyev əsgərlərin məşğələ prosesini izlədi.*

*Dövlətimizin başçısı müşahidə məntəqəsindən təmas xəttini seyr etdi.*

*Prezident İlham Əliyev hərbi hissəyə təcili tibbi yardım maşını hədiyyə etdi.*

## Heydərabad qəsəbəsinin açılışı mərasimi

*Oktyabrın 5-də prezident İlham Əliyev Sədərək rayonunda yeni salınan Heydərabad qəsəbəsinin açılışında iştirak etmişdir.*

*Rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı qəsəbədə tikinti işlərinin gedişini əks etdirən fotostendə baxdı.*

*Bildirildi ki, Sədərək rayonunun inzibati binalarının yerləşdiyi yeni qəsəbədə bütün infrastruktur yaradılmışdır. Qəsəbədə rayon sakinləri üçün yeni evlər də tikilmişdir. İndiyədək Heydərabad qəsəbəsində onlarla ev inşa olunaraq sakinlərə*

*paylanmışdır. Ərazidə geniş abadlıq-quruculuq işləri görülmüş, yaşıllıq zolaqları salınmış, yollara asfalt döşənmişdir.*

*Dövlətimizin başçısı qəsəbə sakinlərini təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Sizi qəsəbənin açılışı münasibətilə təbrik edirəm. Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublika rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu doğrudan da böyük hadisədir.

Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır. Siz düşmənlə üz-üzəsiniz, sərhəddəsiniz və vaxtilə buralar dağıdılmışdı. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalçı siyasəti bu bölgələri də əhatə etmişdir. Məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti və qətiyyəti nəticəsində Naxçıvan özünü qoruya bilmişdir. O vaxt Azərbaycan rəhbərliyi Naxçıvanı qorumaq üçün heç bir şey etmirdi, heç bir yardım göndərilmirdi. Azərbaycan rəhbərliyində olan bəzi şəxslər hətta bəlkə də istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Bizdə belə məlumatlar var idi. Çünki Naxçıvan o vaxt müstəqillik rəmzi, Azərbaycanın müstəqillik rəmzi idi. Təsadüfi deyil ki, üçrəngli milli bayrağımız birinci dəfə məhz Naxçıvanda Ali Məclisin sessiyasında Heydər Əliyevin qərarı ilə Dövlət bayrağı kimi təsdiq edildi. Hələ Sovet İttifaqının dağılmasına çox vaxt var idi. Ona görə, Naxçıvan müstəqillik, əyilməzlik rəmzi idi. Naxçıvanlılar Heydər Əliyevin ətrafında sıx birləşmişdilər və bunun nəticəsində Naxçıvan özünü qoruya bildi. Düşmənə imkan verilmədi ki, Naxçıvan da işğal altına düşsün. Ermənilərdə belə planlar var idi, onlar onu gizlətmirdilər, indi də gizlətmirlər. Naxçıvanla bağlı cəfəng fikirlər səsləndirirlər, uydurmalar yayırlar. Naxçıvan tarixi, qədim və əbədi Azərbaycan torpağıdır. Ancaq o illərdə həm Azərbaycanın, həm də Naxçıvanın taleyi həll olunurdu. Heç kim o vaxt deyə bilməzdi ki, burada vəziyyət necə olacaqdı. Ancaq ulu öndərin fəaliyyəti və cəsarəti nəticəsində, naxçıvanlıların rəşadəti, fədakarlığı sayəsində Naxçıvanı qorumaq mümkün oldu. Bu gün Naxçıvan müasir,

gözəl məkandır, uğurla, sürətlə inkişaf edən diyardır. Naxçıvan Muxtar Respublikası artıq bütün sahələrdə çox yüksək səviyyəyə qalxmışdır. Görün bir gündə nə qədər böyük işlər gördük, açılışlarda iştirak etdik. Bu gün üç məktəb, bir xəstəxana, bu gözəl qəsəbə açıldı. Bundan sonra Ordubadda yeni su elektrik stansiyasının, yeni yaradılmış müəssisələrin açılışında, Naxçıvanın içməli su problemlərinin həlli üçün nəzərdə tutulmuş tədbirdə iştirak edəcəyəm. Yəni biz bu inkişafı, irəliləyişi, bütün sahələrdə – həm sosial, həm iqtisadi, sənaye, hərbi sahələrdə görürük.

Bu gün Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli ordudur. Ordumuz hər il daha da güclənir və ordu quruculuğu üçün bütün lazımi tədbirlər görülür. Həm peşəkarlıq artır, həm silah-sursat, texnika alınır və bundan sonra da alınacaqdır. Biz bu texnikanı və silahları öz pulumuzla, Azərbaycan xalqının zəhməti hesabına yaradılmış vəsaitlə alırıq. Ona görə də ordu məsələlərinə nə qədər vəsait ayırmaq və imkanlarımızdan necə istifadə etmək bizim daxili işimizdir. Əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Biz buna nail olacağıq. Sizi isə bu gözəl hadisə, qəsəbənin yeni həyatının başlanması münasibətilə bir daha ürəkdən təbrik edirəm.

*Rayon ictimaiyyəti adından çıxış edən müəllimə Nazəndə Vəliyeva yeni salınan qəsəbəyə görə sakinlər adından minnətdarlığını bildirdi. O, Naxçıvan Muxtar Respublikasının inkişafında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi vurğuladı. Bildirdi ki, ümummilli liderin təməlini qoyduğu siyasət bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

*Qəsəbə sakinləri ilə görüşdən sonra prezident İlham Əliyev yeni mənzillərdəki şəraitlə tanış oldu.*

## ORDUBADDA BİLƏV SU ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*5 oktyabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində oktyabrın 5-də Ordubad rayonundakı Biləv Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə tənzimləyici bəndə və su anbarına baxdı. Məlumat verildi ki, stansiyanın inşasına 2009-cu ilin martında başlanılmışdır. İnşaat işlərinin yüksək keyfiyyətlə və qısa müddətdə yerinə yetirilməsi üçün maksimum səy göstərilmişdir. Stansiya ilin bütün fəsillərində bol suyu olan Gilançaydan qidalanır. Su əvvəlcə tənzimləyici bəndə yığılır. Burada suyun toplanması üçün sahəsi 5,15 hektar olan süni göl yaradılmışdır. Göldəki bəndlərin eni 159 metrdir, hündürlüyü isə 7,3 metrlə 9,5 metr arasında dəyişir. Gölün su tutumu 250 min $m^3$-dir.*

*Sonra prezident İlham Əliyev stansiya binasının olduğu əraziyə gəldi. Muxtar respublika ictimaiyyətinin nümayəndələri, energetiklər və inşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev stansiyanın maketinə və şəkillərinə baxdı. Diqqətə çatdırıldı ki, stansiya binası bütün zəruri avadanlıqla təchiz edilmişdir. Biləv Su Elektrik Stansiyasında nəzərdə tutulan orta illik enerji istehsalı 80 milyon kilovatsaatdır. Biləv kəndinə gedən 20 kilometrlik yol da əsaslı şəkildə yenidən qurulmuşdur.*

*Dövlətimizin başçısı stansiyanı işə saldı.*

*Stansiyanın açılışı münasibətilə keçirilən mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdilər*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı

Möhtərəm cənab Prezident!

Bu gün Azərbaycan özünün intibah dövrünü yaşayır. Bu intibahın əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Sizin rəhbərliyinizlə uğurla davam və inkişaf etdirilir. Siz Azərbaycanın inkişafının bölgələrin inkişafı ilə sıx bağlı olduğunu bildirərək, tövsiyə etmişdiniz ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin, hər bir rayon mərkəzi müasir standartlara cavab versin, bütün kəndlərdə abadlıq işləri aparılsın, yollar salınsın, elektrik enerjisi ilə təminat yaxşılaşsın, bir sözlə, insanların gündəlik həyatında müsbət dəyişikliklər baş versin.

Bu tövsiyəniz, ondan irəli gələn vəzifələr ölkəmizin bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ardıcıl şəkildə həyata keçirilir. Aydındır ki, hər bir inkişafın kökündə iqtisadi inkişaf dayanır. Son 5 ildə muxtar respublikanın iqtisadi inkişafı 4 dəfə artmışdır. Sənayenin, kənd təsərrüfatının və sosial sahələrin inkişafında əsaslı dönüşə nail olunmuşdur. Son dövrlərdə yaradılan sənaye və emal sahələri Sovetlər Birliyinin mövcud olduğu illər ərzində istifadəyə verilən müəssisələrin sayını 8 dəfə üstələmişdir. Bunun sayəsində yeni iş yerləri açılmış, əhalinin məşğulluğu təmin olunmuşdur. 2003-cü ildən bu günədək Naxçıvan Muxtar Respublikasında 44 min 647 yeni iş yeri açılmışdır ki, bunun da 29 min 393-ü və yaxud 66 faizi daimi iş yerləridir. Yeni iş yerlərinin açılması, iqtisadiyyatın ümumi strukturuna uyğun olaraq və daxili bazarın qorunması tələbləri nəzərə alınaraq yeni istehsal və emal sahələrinin yaradılması sahibkarlığın inkişafı üçün əlverişli şəraitin formalaşdırılması hesabına mümkün olmuş, ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi 86 faiz təşkil etmişdir.

Bu illərdə sosial sahələrin inkişafı da diqqət mərkəzində saxlanmışdır. Sizin tapşırığınızla əhalinin sağlamlığının

qorunması məsələlərinə xüsusi diqqət yetirilmişdir. Bu gün muxtar respublikanın hər bir rayonunda ən müasir tələblərə cavab verən mərkəzi xəstəxana binalarının tikintisi proqramı uğurla icra olunmaqdadır. Belə ki, 5 mərkəzi xəstəxana binası tikilmiş, 1 mərkəzi xəstəxananın inşası isə davam etdirilir. Naxçıvan şəhərində ətraf bölgələrdə analoqu olmayan diaqnostika-müalicə və doğum mərkəzləri istifadəyə verilmiş, bundan başqa, 42 xəstəxana, 51 həkim ambulatoriyası, 56 feldşer-mama, 17 tibb məntəqəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur.

Təhsilin inkişafı üçün dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin ildən-ilə artırılması, müəllimlərin əmək haqlarında, tələbə və peşə-ixtisas təhsili müəssisələri şagirdlərinin təqaüdlərində özünü göstərən dinamik artım, məktəblərin pulsuz dərslik və latın qrafikalı yeni nəşrlərlə təmin edilməsi ölkə rəhbərinin bu vacib sahəyə diqqət və qayğısının bariz ifadəsidir. Son 10 ildə Naxçıvan Muxtar Respublikasında 68 min 374 şagird yeri olan 168 ümumtəhsil məktəbi binası, 1398 yerlik 14 uşaq bağçası, 18 musiqi məktəbi, 9 məktəbdənkənar tədris müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

İstifadəyə verilmiş bütün təhsil müəssisələrində müəllim və şagirdlər üçün nümunəvi şərait yaradılmış, fənn kabinetləri, laboratoriyalar, açıq və örtülü idman qurğuları, zallar müasir dünya standartları nəzərə alınaraq hazırlanmış, ən yeni informasiya və kommunikasiya texnologiyaları tətbiq olunmuşdur. Bu günədək muxtar respublikanın ümumtəhsil məktəblərinə 2781 kompyuter verilmişdir. Bu kompyuterlərin 2190-ı və ya 79 faizi internetə qoşulmuşdur. Bundan başqa, 220 məktəbdən 200-ü elektron lövhələrlə təmin olunmuşdur.

Hər bir ölkənin inkişafı onun enerji və ərzaq təhlükəsizliyi ilə sıx bağlıdır. Azərbaycanda bu sahədə həyata keçirilən tədbirlər, əldə olunan nəticələr muxtar respublikada da özünü göstərməkdədir. Hazırda muxtar respublikada əhalinin 89 növdə ərzaq, 153 növdə qeyri-ərzaq olmaqla 242 növdə məhsula olan

tələbatı tamamilə yerli istehsal hesabına ödənilir. Bunlar kənd təsərrüfatının texniki təminatı ilə bağlıdır. 2005-ci ildən ötən müddətdə 540 yeni texnika, 21 min tondan çox mineral gübrə gətirilərək torpaq mülkiyyətçilərinin istifadəsinə verilmişdir.

Ərzaq təhlükəsizliyi ilə yanaşı, enerji təhlükəsizliyi də xüsusi diqqət yetirilən sahələrdəndir. Vaxt var idi ki, Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi sutka ərzində 10-12 saat verilir, böyük fasilələr yaranırdı, qonşu ölkələrdən enerji alırdıq. Sizin himayənizlə 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qaz kəmərinin çəkilməsindən sonra enerji təsərrüfatının gücləndirilməsi sahəsində təsirli tədbirlər görülmüş, modul və qaz-turbin elektrik stansiyaları, Heydər Əliyev su anbarı üzərində elektrik stansiyası tikilib istifadəyə verilmişdir. Bundan başqa, Biləv Su Elektrik Stansiyasının tikintisi başa çatdırılmışdır. Bu sahədə həyata keçirilən tədbirlər imkan yaratmışdır ki, Naxçıvan Muxtar Respublikası özünü 4 dəfə elektrik enerjisi ilə təmin edə bilsin. Bu gün Naxçıvan Muxtar Respublikası elektrik enerjisi alan regiondan elektrik enerjisi ixrac edən regiona çevrilmişdir. Hazırda Türkiyə Respublikasına əvvəlki illərdə alınan elektrik enerjisinin əvəzinə gündə 16 meqavat elektrik enerjisi verilir.

Möhtərəm Prezident!

2004-cü ildən bəri Siz 8 dəfə Naxçıvan Muxtar Respublikasına səfər etmiş, himayənizlə tikilmiş 50-dən çox təhsil, səhiyyə, idman və mədəniyyət müəssisələri, istehsal sahəsi və hərbi təyinatlı obyektlərin açılışını etmisiniz. Muxtar respublikaya hazırkı səfəriniz çərçivəsində Kəngərli rayonunda ümummilli lider Heydər Əliyevin xatirəsinə ucaldılmış abidənin, Naxçıvan şəhərində Travertin zavodunun, məhdud fiziki imkanlılar üçün regional informasiya mərkəzinin, Naxçıvan şəhərinin içməli su təchizatının, Ordubad rayonunda Biləv Su Elektrik Stansiyasının, 87 kilometrlik Naxçıvan–Sədərək magistral yolunun ikinci hissəsinin, Şərur rayonundakı Yengicə və Maxta kənd orta məktəblərinin, Sədərək rayonunda mərkəzi xəstəxananın, orta məktəbin yeni tikilmiş binalarının və

Heydərabad qəsəbəsinin yenidənqurmadan sonra açılışı həyata keçirilməkdədir.

Bütün bunlara görə Sizə öz minnətdarlığımızı bildirir, ulu öndərimizin yolunun davam etdirilməsində, məhsuldar dövlətçilik fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı arzulayırıq.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün doğrudan da Naxçıvan Muxtar Respublikasında çox əlamətdar bir gündür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qeyd etdi ki, biz bu gün Naxçıvanda bir neçə iqtisadi, sənaye, sosialyönümlü obyektin açılışını qeyd etmişik, hələ bir neçə müəssisənin açılışı gözlənilir. Bu onu göstərir ki, Naxçıvan çox sürətlə və hərtərəfli inkişaf edir. Bir gündə Naxçıvanda 3 məktəb, xəstəxana, magistral avtomobil yolu, elektrik stansiyası, digər zavodlar, fabriklər, içməli su – demək olar ki, bütün sahələri əhatə edən müəssisələr açılır. Ancaq bu işlər bir gündə həll olunan məsələlər deyildir. Bu məsələləri həll etmək üçün düşünülmüş siyasət və məqsədyönlü addımlar lazımdır.

Bu gün Naxçıvanda və demək olar ki, bütün ölkəmizdə, bütün bölgələrdə aparılan siyasət bir məqsədi güdür ki, Azərbaycan daha da güclənsin, vətəndaşlarımız daha da yaxşı yaşasınlar. Bu siyasətin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Onun yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan keçən əsrin 90-cı illərinin əvvəllərində yaşanan böhranlı anları geridə qoyub, öz inkişaf strategiyasını ortaya qoyub və bu strategiya bu gün də uğurla icra edilir. Heydər Əliyev siyasəti Azərbaycanın bütün bölgələrində özünü büruzə verir. Hər bir yerdə, hər bir şəhərdə, hər bir rayonda quruculuq, abadlıq işləri aparılır. Böyük investisiyalar qoyulur. İqtisadi və sosial məsələlər öz həllini tapır. Baxın, son bir neçə il ərzində Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 11 faizə

düşmüşdür. Ölkədə son illərdə 800 mindən artıq yeni iş yerləri açılmışdır ki, onların mütləq əksəriyyəti daimi iş yerləridir. Kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün praktiki tədbirlər görülüb. Demək olar ki, Azərbaycan indi öz daxili tələbatını, ərzağa olan tələbatının böyük hissəsini özü təmin edir. Biz çalışmalıyıq ki, görüləcək işlər nəticəsində özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin edək. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq.

Enerji təhlükəsizliyi məsələlərinin həlli işində ölkədə əsaslı tədbirlər görülüb. Əgər 1994-cü ildə ulu öndərin qətiyyəti və müdrikliyi sayəsində Azərbaycanın yeni neft strategiyası başlanmasaydı, bu gün biz bu uğurlardan danışa bilməzdik. Məhz Azərbaycan iqtisadiyyatına xaricdən gətirilmiş milyardlarla dollarla ölçülən investisiyalar hesabına biz ölkəmizi hərtərəfli inkişaf etdirməyə nail ola bilmişik. Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərində nəinki bölgədə, eyni zamanda, qitədə öz rolunu oynayır. Biz artıq ölkə daxilində enerji təhlükəsizliyi məsələlərini 100 faiz həll etmişik. Bu gün Azərbaycan təbii qazı, nefti, neft məhsullarını, elektrik enerjisini qonşu ölkələrə ixrac edir. Bu ixrac ildən-ilə daha da şaxələnir. İxracın coğrafiyası genişlənir və həcmi artır. Bu çox vacib məsələdir ki, biz enerji təhlükəsizliyimizi təmin edəndən sonra başqa ölkələrin enerji təhlükəsizliyini təmin etmək üçün töhfəmizi veririk.

Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir, bütün sosial məsələlər həllini tapır, yeni müəssisələr, fabriklər açılır, yollar çəkilir.

Bu gün Biləv Su Elektrik Stansiyasının açılışı görülən işlərin yeni mərhələsidir. Bu stansiyanın çox böyük əhəmiyyəti vardır. Düzdür, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir. Vasif Talıbov qeyd etdi ki, bu gün Naxçıvanda enerji potensialının həcmi tələbatdan bir neçə dəfə artıqdır. Ancaq su elektrik stansiyalarının öz xüsusiyyətləri vardır. O, təbiətdən

qaynaqlanan bir enerjidir, gücdür. Su mənbələrimizdən səmərəli istifadə etmək üçün Azərbaycanda çoxlu tədbirlər görülüb və bu tədbirlər ardıcıl şəkildə həllini tapır.

Bu gün Naxçıvanda elektrik enerjisi və qazla təminat ən yüksək səviyyədədir. Naxçıvanda qazlaşdırma siyasəti uğurla başa çatıbdır və hətta sovet dövründə qazlaşdırılmayan kəndlər, məntəqələr bu gün hamısı qazlaşdırılıbdır. Naxçıvanda modul tipli elektrik stansiyasının işə düşməsi, uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi  muxtar respublikada ciddi bir dönüş yaratdı. Çünki iqtisadi potensial enerji mənbəyi olmadan inkişaf edə bilməz.

Naxçıvanın xüsusiyyəti ondan ibarətdir ki, coğrafi baxımdan Azərbaycanın əsas hissəsi ilə bağlantısı yoxdur. Vaxtilə Azərbaycanın qədim torpağı olan Zəngəzur diyarının Ermənistana verilməsi, demək olar ki, Naxçıvanı coğrafi baxımdan Azərbaycandan ayırıbdır. Naxçıvan uzun illərdir ki, blokada şəraitində yaşayır və bu blokadanı Ermənistan tətbiq edir. Buna baxmayaraq, Naxçıvanın bütün imkanları səfərbər olunub və əlavə tədbirlər görülür, proqramlar icra olunur. Naxçıvanda bütün şəhərlər abadlaşır, gözəlləşir, yeni mehmanxanalar, sənaye müəssisələri yaradılır. Enerji təhlükəsizliyi əsas məsələdir və bu gün Naxçıvanda öz həllini tapır. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır. Eyni zamanda, Azərbaycanın zəngin neft-qaz potensialı bizə imkan verir ki, özümüzü çox rahat hiss edək. Çünki enerji təhlükəsizliyi, enerjidən asılılıq çox ciddi məsələdir. Bəzi ölkələr xarici mənbələrdən asılı olduqlarına görə istər-istəməz xarici amili də nəzərə almalıdırlar. Azərbaycan o ölkələrdəndir ki, nəinki enerji potensialını işə salıb və enerji təhlükəsizliyini təmin edib, başqa ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəsini verir. Bu gün Azərbaycanda elektrik stansiyalarının tikintisi nəticəsində min meqavatdan artıq enerji gücü vardır ki, biz ondan səmərəli istifadə edərək başqa ölkələrə ixrac edəcəyik. Azərbaycanda tikilən yeni

elektrik stansiyaları bu gücü iki dəfə artıracaqdır. Bununla bərabər, biz bərpa olunan enerji növlərinə xüsusi diqqət veririk. Biz su, günəş, külək enerji mənbələrini yaratmalıyıq. Çünki bu təbii şərait Azərbaycanda vardır və konkret proqram nəzərdə tutulub. Proqramın icrası nəticəsində Azərbaycanın bütün su mənbələrində, çaylarda kiçikhəcmli su elektrik stansiyalarının tikintisi nəzərdə tutulur. Təkcə bu il 3 rayonda kiçikhəcmli stansiyaların təməl daşı qoyulubdur. Ancaq onların arasında ən böyüyü Biləv Su Elektrik Stansiyasıdır.

Bu günə qədər görülmüş işlər və bu nəticələr onu göstərir ki, nəzərdə tutulmuş bütün proqramlar vaxtında icra olunur və şübhə etmirəm ki, bu gün planlaşdırdığımız bütün məsələlər gələcəkdə öz həllini tapacaqdır.

Naxçıvanda iqtisadi inkişaf sürətlə gedir. Keçən il ümumi daxili məhsul artmışdır, bu il də artır, templər yüksəkdir. Bütün bu gözəl nəticələri biz Naxçıvanın dəyişən, gözəlləşən simasında görürük. Naxçıvan qədim Azərbaycan diyarıdır, qədim tarixə, mədəniyyətə malik olan diyardır, eyni zamanda, müasir şəhərdir, müasir respublikadır. Mən əminəm ki, gələcəkdə Naxçıvan daha da gözəlləşəcək, inkişaf edəcək və bütün işlər burada həmişə olduğu kimi, yüksək səviyyədə təşkil olunacaqdır. Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə uğurlar və cansağlığı arzulayıram.

## MƏHDUD FİZİKİ İMKANLI İNSANLAR ÜÇÜN HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ YARADILAN REGİONAL İNFORMASİYA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*Naxçıvan*

*5 oktyabr 2010-cu il*

*Oktyabrın 5-də prezident İlham Əliyev məhdud fiziki imkanlı insanlar üçün Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Naxçıvan Regional İnformasiya Mərkəzinin açılışında iştirak etmişdir.*

*Şəhər ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və Mərkəzlə yaxından tanış oldu.*

*Ölkəmizin ictimai həyatında, sosial problemlərin həllində çox fəal iştirak edən Heydər Əliyev Fondunun əsas məqsədlərindən biri də xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, onların sağlamlığını mühafizə, sosial problemlərini həll etməkdir. Bu məqsədlə Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və BMT-nin İnkişaf Proqramının birgə layihəsi əsasında məhdud fiziki imkanlı insanlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi yaradılmışdır.*

*Məlumat verildi ki, ən müasir texnologiyalarla təchiz olunmuş Mərkəzdə oxu zalı, təlim-tədris mərkəzi, audiokitabxana, kitabxana fondunun audioformata çevrilməsi üçün səsyazma studiyası, internetə çıxış, internetdə informasiyanın tapılması, əldə edilməsi xidmətlərini təmin edən kompyuter mərkəzi yaradılmışdır.*

**İlham Əliyev:** Sizi təbrik edirəm. Bu gözəl Mərkəzin yaradılması doğrudan da çox vacib, əlamətdar hadisədir. Burada fiziki imkanları məhdud olan uşaqlar üçün bütün şərait yaradılıbdır. Bildiyiniz kimi, Heydər Əliyev Fondu çox böyük fəaliyyətlə məşğuldur. Azərbaycanın bütün bölgələrində məktəb tikintisi, xəstəxanaların avadanlıqla təchiz edilməsi, mədəni irsimizin qorunması sahəsində mühüm işlər görür.

Bu Mərkəzin yaradılması, əslində Azərbaycanda bu sahədə dövlət siyasətinin təzahürü kimi qiymətləndirilməlidir. Azərbaycan dövləti öz sosial proqramlarını çox uğurla irəliyə aparır və çox şadam ki, ictimai təşkilatlar da bu işlərə qoşulurlar. İctimai

təşkilatların arasında Heydər Əliyev Fondu, əlbəttə ki, xüsusi rola malikdir. Burada quraşdırılan bütün avadanlıqlar dünyanın ən yüksək standartlarına cavab verir. Xəstə və fiziki cəhətdən qüsurlu uşaqlar bu gözəl binada oxuyacaq və əminəm ki, cəmiyyətdə öz yerlərini tapacaqlar. Bu savab işdə iştirak edən, bu işləri təşkil edən bütün insanlara minnətdarlığımı bildirmək istəyirəm. Müəllimlərə, buradakı təlimatçılara xüsusi minnətdarlığımı bildirmək istəyirəm ki, bu doğrudan da böyük savab, xeyirxah işdir. Əminəm ki, uşaqlar da bunu qiymətləndirəcəklər.

## Gəmiqaya daş məhsulları kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 5-də Naxçıvan şəhərində Gəmiqaya daş məhsulları kompleksinin açılışında iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev əvvəlcə kompleksin ərazisində xammal nümunələrinə baxdı.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və müəssisə ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, tikintisinə 2009-cu ilin ortalarından başlanan Gəmiqaya daş məhsulları kompleksi travertin və mərmər emalı üzrə ixtisaslaşmışdır. Muxtar respublikanın Qarabağlar, Çalxanqala və Yuxarı Buzqov ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşları emal üçün bu kompleksə gətirilir. Ümumi sahəsi 53 min* $m^2$ *olan kompleksdə müxtəlif çeşiddə inşaat və məişət məmulatı istehsal ediləcəkdir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, kompleksdə Türkiyə istehsalı olan «SESEMAK» markalı avadanlıq quraşdırılmışdır. Böyük və kiçikölçülü travertin piltələrdən, əsasən binaların fasadının və həyətyanı sahələrinin bəzədilməsində,*

*mozaik travertinlərdən isə müxtəlif naxışlı bəzək üzlüklərin hazırlanmasında istifadə olunur. Müəssisənin gündəlik maksimum istehsal gücü 2 min m*$^2$*-dir. Yaxın gələcəkdə kompleksdə travertin məhsulları ilə yanaşı, sədəf, mərmər məmulatlarının istehsalı da planlaşdırılır.*

*Bildirildi ki, kompleksdə 170 nəfərin işləyəcəyi nəzərdə tutulmuşdur. Hər işçiyə orta hesabla 400–450 manat əməkhaqqı veriləcəkdir.*

*Prezident İlham Əliyev istehsal edilən məhsulların nümunələrinə baxdı.*

*Dövlətimizin başçısı kollektivi təbrik etdi.*

## ATƏT-in MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN DAĞLIQ QARABAĞ ƏTRAFINDAKI ƏRAZİLƏRDƏ QİYMƏTLƏNDİRİCİ MİSSİYASININ ÜZVLƏRİ, ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Naxçıvan*

*6 oktyabr 2010-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 6-da Naxçıvanda ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ ətrafındakı ərazilərdə qiymətləndirici missiyasının üzvlərini, ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Missiyanın fəaliyyətini alqışlayan prezident İlham Əliyev 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə olarkən oradakı dağıntılar barədə hazırladığı məruzənin önəmini qeyd etdi.*

*Qiymətləndirici missiyanın tərkibinə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndələrinin də daxil edilməsinin önəminə toxunan dövlətimizin başçısı missiyanın işğal olunmuş ərazilərə budəfəki səfərlərinin və müşahidələrinin nəticəsi kimi, obyektiv məruzənin hazırlanacağına, bu məruzədə Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşma, dağıntılar və ümumiyyətlə, işğalla bağlı faktların öz əksini tapacağına ümidvar olduğunu bildirdi.*

*Nümayəndə heyətinin üzvləri Naxçıvan Muxtar Respublikasında olmalarından məmnunluq hissi ifadə etdilər və qiymətləndirici missiya çərçivəsində görüləcək işlər barədə dövlətimizin başçısına məlumat verdilər.*

## Səfər başa çatdı

*Azərbaycan prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri oktyabrın 6-da başa çatmışdır.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və muxtar respublika hökumətinin üzvləri yola saldılar.*

*Həmin gün dövlətimizin başçısı Naxçıvandan Bakıya qayıtmışdır.*

## *bp*-nin İCRAÇI DİREKTORU ROBERT DADLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də bp-nin icraçı direktoru Robert Dadlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə bp arasında uzun illər uğurlu əməkdaşlığın aparıldığını vurğuladı. Prezident İlham Əliyev bp-nin ölkəmizdəki fəaliyyətini yüksək qiymətləndirdi, eyni zamanda, şirkətin keçmiş icraçı direktoru Toni Heyvorda Azərbaycan ilə bp arasında əməkdaşlığın genişlənməsi işinə verdiyi töhfəyə görə minnətdarlığını ifadə etdi.*

*Dövlətimizin başçısı Robert Dadlinin rəhbərliyi ilə Azərbaycanla bp arasında əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə ümidvar olduğunu bildirdi.*

*bp-nin icraçı direktoru Robert Dadli Azərbaycana 9 il bundan əvvəl səfər etdiyini, ötən dövr ərzində ölkəmizdə inanılmaz və çox böyük inkişafın getdiyinin şahidi olduğunu bildirdi. Azərbaycanda yaxşı investisiya mühitinin olduğunu vurğulayan qonaq bp ilə Azərbaycan arasında səmərəli əməkdaşlığın aparıldığını dedi və bunu yüksək qiymətləndirdi.*

*Görüşdə Azərbaycan ilə bp arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN DÖVLƏT AKADEMİK MİLLİ DRAM TEATRININ BİNASININ ƏSASLI YENİDƏNQURMA VƏ BƏRPADAN SONRA AÇILIŞI MƏRASİMİ

*7 oktyabr 2010-cu il*

*Prezident İlham Əliyev oktyabrın 7-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binasının əsaslı yenidənqurma və təmir-bərpa işlərindən sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva əvvəlcə teatrın qarşısında yaradılan şəraitlə tanış oldular. Burada əsas diqqət kompleks yenidənqurma işlərinə yönəldilmişdir. Füzuli meydanında və ətraf binalarda əsaslı yenidənqurma işləri aparılmış, ərazidə yaşıllıq zolağı salınmışdır. Bildirildi ki, binanın fasadında da əsaslı bərpa işləri görülmüşdür.*

*Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva teatr binasının əvvəlki görkəmini, yenidənqurma işlərinin gedişini və onun hazırkı vəziyyətini əks etdirən şəkillərə baxdılar.*

*Prezident İlham Əliyevin «Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında» 2007-ci il 19 fevral tarixli Sərəncamına əsasən binada əsaslı yenidənqurma işlərinə 2008-ci ilin noyabrında başlanılmışdır. Dövlətimizin başçısının bu sahəyə olan diqqət və qayğısı Azərbaycan teatrında yaradıcılıq əhval-ruhiyyəsini daha da artırmışdır.*

*Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi layihələri də xüsusi qeyd etmək lazımdır. Fondun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə Heydər Əliyev Fondunun*

*gördüyü işlər Azərbaycanın mədəni irsinin daha da zənginləşdirilməsinə və dünyada geniş təbliğinə, mədəniyyət və incəsənət xadimlərinə yüksək qayğı və diqqət göstərilməsinə, gənc istedadların yetişməsinə böyük töhfələr verməkdədir.*

*Bildirildi ki, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binasında heç vaxt indiki səviyyədə əsaslı bərpa və yenidənqurma işləri aparılmamışdır. Təmir və yenidənqurma işləri zamanı əvvəlki memarlıq üslubunun qorunub saxlanılmasına və milli ornamentlərlə daha da zənginləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Beşmərtəbəli, ümumi sahəsi 2576 kvadratmetr olan sənət ocağında 581 yerlik tamaşaçı zalı ən müasir avadanlıqla təchiz olunmuş, səhnə yenidən qurulmuş, burada ən müasir səs və işıq sistemləri quraşdırılmış, orijinal ekran yerləşdirilmişdir. Teatrda 130 yerlik kiçik məşq zalı, 27 qrim otağı, o cümlədən qrim sexləri və digər yardımçı bölmələr vardır. Burada üçmərtəbəli yardımçı təsərrüfat binası da fəaliyyət göstərir.*

*Binada aparılmış yenidənqurma işləri ilə tanışlıqdan sonra dövlətimizin başçısı inşaatçılarla görüşdü. Prezident İlham Əliyev teatrın yenidən istifadəyə verilməsi münasibətilə təbriklərini çatdırdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN MÜDAFİƏ NAZİRİ ƏHMƏD VƏHİDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*11 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də İran İslam Respublikasının Müdafiə naziri Əhməd Vəhidinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında qarşılıqlı səfərlərin intensiv xarakter daşıdığını qeyd edən prezident İlham Əliyev bildirdi ki, bu, əməkdaşlığımızın çoxşaxəli olmasının göstəricisidir. Dövlətimizin başçısı digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev İranın Müdafiə naziri Əhməd Vəhidinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Müdafiə naziri Əhməd Vəhidi İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. O, İran prezidentinin Azərbaycanın dövlət başçısına çox böyük ehtiram bəslədiyini vurğuladı. Ölkələrimiz arasında siyasi sahədə əməkdaşlığın çox yaxşı səviyyədə olduğunu qeyd edən Əhməd Vəhidi qarşılıqlı səfərlərin son vaxtlar mütəmadi xarakter daşıdığını dedi və bunu ikitərəfli münasibətlərin inkişafının göstəricisi kimi dəyərləndirdi.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, PREZİDENTİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİN BAŞÇILIQ ETDİYİ HEYƏT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də İran İslam Respublikası Xarici İşlər nazirinin müavini, Prezidentin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Məhəmməd Mehdi Axundzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Məhəmməd Mehdi Axundzadəni yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etməsinin Xəzərlə bağlı məsələlərin də həllinə müsbət təsir göstərəcəyinə ümidvar olduğunu bildirdi. Xəzəryanı ölkələrin Bakıda keçiriləcək zirvə görüşünə toxunan prezident İlham Əliyev bu sammitin nəticələrinin müsbət olacağına əminliyini ifadə etdi.*

*İran İslam Respublikası Xarici İşlər nazirinin müavini, Prezidentin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Məhəmməd Mehdi Axundzadə prezident Mahmud Əhmədinejadın və İran xalqının salamlarını dövlətimizin başçısına çatdırdı. O, yeni vəzifəyə təyin olunandan sonra ilk səfərini Azərbaycana etməsindən fəxr hissi keçirdiyini dedi.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## DÖVLƏT NEFT ŞİRKƏTİNİN YENİ İNZİBATİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*12 oktyabr 2010-cu il*

*Oktyabrın 12-də Bakının Heydər Əliyev prospektində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) yeni inzibati binasının təməlqoyma mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə binanın hazır vəziyyətini əks etdirən videogörüntülərə, sxeminə, eskizinə və maketinə baxdı.*

*Binanın texniki göstəriciləri barədə dövlətimizin başçısı İlham Əliyevə məlumat verən Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev bildirdi ki, yeni inzibati bina şirkətin tələblərini tam ödəməklə yanaşı, müasir beynəlxalq standartlara cavab verəcəkdir. 200 metr hündürlüyündə olacaq binanın 40 mərtəbəsi yerüstü, 2 mərtəbəsi isə yeraltı olmaqla, ümumilikdə 5 hektar sahəni əhatə edəcəkdir. Paytaxtda modern üslubu ilə fərqlənəcək və xüsusi gözəlliyi ilə seçiləcək binada 5 konfrans zalı, fitnes mərkəzi, eyni vaxtda 1243 nəfərin istifadə edə biləcəyi bir neçə yeməkxana fəaliyyət göstərəcək, yeraltı və yerüstü avtomobil dayanacaqları olacaqdır. Binanın konstruksiyası dəmir-beton divarlı və polad konstruksiyalı kompozit sistemə əsaslanacaqdır. Rixter cədvəli üzrə 9 ballıq zəlzələyə davamlı olacaq binanın layihəsi Kanadadakı xüsusi beynəlxalq laboratoriyada saatda 190 kilometr külək sürətinə hesablanmış virtual şəraitdə sınaqdan keçirilmişdir. Külək tunel testinə uyğun olaraq, binanın yellənmə amplitudasını məhdudlaşdırmaq üçün damper sistemi ilə təchiz olunması qərara alınmışdır.*

*Bildirildi ki, tikinti işləri beynəlxalq standartlara uyğun aparılacaqdır. Azərbaycanda ilk dəfə olaraq bu binada fasadın təmizlənməsi və servisi avtomatik sistem vasitəsilə həyata*

*keçiriləcəkdir. Bina, həmçinin «bir şaxtada iki lift» prinsipinə əsaslanan əkiz kabinəli liftlər və avtomatlaşdırılmış mərkəzi yönləndirmə sistemləri ilə təmin olunacaqdır.*

*Dövlət Neft Şirkətinin yeni inzibati binasının layihələndirilməsi ilə əlaqədar işlərə 2007-ci ildən başlanılmışdır. Elan olunan müsabiqədə bir sıra nüfuzlu şirkətlərin təkliflərinə baxılmışdır. Müasirlik, funksional xüsusiyyətlərinin əlverişliliyi, paytaxtın memarlığına, habelə Azərbaycan Dövlət Neft Şirkətinin irəli sürdüyü texniki şərtlərə uyğunluğu baxımından Koreya Respublikasının «Heerim Architects & Planners Co. Ltd» şirkəti tərəfindən təqdim olunan «Külək-alov» konsepsiyası daha cəlbedici hesab edilmiş və layihələndirmə işlərinin məhz həmin konsepsiya əsasında aparılması məqsədəuyğun sayılmışdır. 2010-cu ilin martında Dövlət Neft Şirkətinin yeni inzibati binasının tikintisi üzrə xidmətlərin göstərilməsi üçün açıq müsabiqə elan edilmişdir. Dünyanın 8 nüfuzlu tikinti şirkətinin iştirak etdiyi tenderdə Türkiyənin «TEKFEN İnşaat» şirkəti qalib gəlmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev gilizi açıb içindəki kağızı çıxartdı, orada yazılanları oxuduqdan sonra dedi:*

– Burada düz yazılmayıb. Yazılıb ki, təməli 11 oktyabr 2010-cu ildə qoyulub. Amma bu gün 12 oktyabrdır. Ona görə dəyişiklik edək. Düzdür, heç kim bunu görməyəcəkdir. Çünki bu bina ən azı 100 il dayanacaqdır.

*Dövlətimizin başçısı mətnə düzəliş etdi, kağızı gilizə qoyub onu bünövrəyə buraxdı və beton qarışığı tökən qurğunun düyməsini basdı.*

**İlham Əliyev:** Sizi ürəkdən təbrik edirəm, Dövlət Neft Şirkətinin yeni inzibati binasının təməl daşını qoyduq. Bu təməl daşı çox müasir səviyyədə qoyuldu. Hər dəfə yeni bir texnoloji imkandan istifadə edirik. Bu dəfə də kapsulu xüsusi üsulla yerinə göndərdik. Ümid edirəm ki, yaxın zamanlarda çox gözəl, möhtəşəm bina tikiləcəkdir. Bu həm Dövlət Neft Şirkətinin bütün ehtiyaclarını təmin edəcək, həm də ki, şəhərimizə əlavə yaraşıq verəcəkdir. İlk dəfədir ki, Bakı

şəhərində bu hündürlükdə bina tikilir. Hündürlüyü 200 metr, 40 mərtəbəli gözəl, möhtəşəm bir memarlıq əsəri olacaqdır. Yəni, müasir şəhər üçün yaraşıq verən bir binadır və çox nadir memarlığa malikdir.

Neft Şirkətinin artan imkanları, yeni səviyyəsi və fəaliyyət istiqamətləri bu binanın gözəlliyində də özünü büruzə verir. Çünki Azərbaycanda bütün binalar həm keyfiyyətli olmalıdır, həm də yüksək zövqlə yaradılmalıdır. Bakının bu gözəl yerində, şəhərə girişdə, Heydər Əliyev prospektində Neft Şirkətinin yeni inzibati binasının tikilməsində də böyük məna vardır. Çünki Azərbaycanın müasir neft strategiyasının təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Bu prospekt də onun adını daşıyır. O gündən bu günə qədər 16 il keçir. 16 il ərzində Azərbaycan bu istiqamətdə bütün məqsədlərə çatıbdır. Bütün vəzifələr yerinə yetirilib. Azərbaycan bu gün, ilk növbədə, neft amilinə görə güclü dövlətə çevrilib. Neft bizim milli sərvətimizdir. Neftdən əldə olunan gəlirlər Azərbaycanda ədalətli şəkildə bölünür və bütün sahələrdə, neft sahəsində görülmüş işlər də özünü göstərir.

Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. İlk növbədə ona görə ki, vaxtilə Azərbaycana böyük investisiyalar gətirilmişdir, investisiyalardan səmərəli şəkildə istifadə olunmuşdur. Əldə edilmiş gəlirlər də Azərbaycanın iqtisadi inkişafının təmin olunmasına səmərəli şəkildə xidmət göstərmişdir.

Bu gün Azərbaycan Dövlət Neft Şirkəti nəinki regionda, dünya miqyasında çox böyük nüfuza malik olan şirkətdir, beynəlxalq səviyyəli şirkətdir. Məqsədimiz məhz ondan ibarət idi ki, SOCAR – Azərbaycan Dövlət Neft Şirkəti beynəlxalq səviyyəyə çıxsın. Biz buna nail ola bilmişik. Əlbəttə ki, burada Azərbaycanın təbii ehtiyatları həlledici rol oynamışdır. Ancaq bu gün artıq digər amillər də rol oynayır. Biz xaricə investisiyalar qoyuruq. Qonşu ölkələrə qoyulan investisiyalar mövqelərimizi möhkəmləndirir, regiondakı rolumuzu artırır, həm də xaricdən investisiyalar cəlb edirik. Bu yaxınlarda *bp*

şirkəti ilə «Asiman» və «Şəfəq» yataqları üzrə yeni kontrakt imzalanmışdır. Bu bir daha onu göstərir ki, 16 il keçməsinə baxmayaraq, Azərbaycanda işləmək istəyən şirkətlərin sayı indi də kifayət qədər çoxdur. Azərbaycan bu gün də xarici sərmayədarlar üçün cəlbedici ölkədir.

Digər tərəfdən, Azərbaycan Dövlət Neft Şirkəti öz investisiyalarını xarici ölkələrin sənayesinə qoyur. «PETKİM» kimi nəhəng müəssisə artıq Dövlət Neft Şirkətinin mülkiyyətidir. Bu müəssisəyə və Kulevi terminalına qoyulan sərmayələr, əlbəttə ki, öz səmərəsini verir. Başqa ölkələrdə yanacaqdoldurma stansiyalarının tikintisini, qaz təsərrüfatında idarəçilik prinsiplərini Azərbaycan Neft Şirkəti icra edir. Yəni, bütün bunlar imkanlarımızı genişləndirir. Azərbaycan Dövlət Neft Şirkətinin beynəlxalq şirkətə çevrilməsi məhz bu yoldan keçir.

O ki qaldı Azərbaycanda görülən işlərə, burada hər şey yüksək səviyyədədir. Bu yaxınlarda «Azəriqaz» və «Azərikimya» şirkətlərinin Azərbaycan Dövlət Neft Şirkətinin tabeçiliyinə verilməsi nəticəsində işlərin daha da səmərəli aparılması üçün lazımi addımlar atılmışdır. Bu gün Azərbaycanda qazlaşdırma prosesi uğurla gedir. Qarşıya məqsəd qoyulmuşdur ki, qazlaşdırma ölkəmizin 90 faizini əhatə etsin. Bizdən qat-qat çox qaz hasil edən ölkələrdə bu faizin aşağı olduğunu nəzərə alsaq, çox böyük göstəricidir. Biz qazlaşdırmanı 90 faizə çatdırsaq, demək olar ki, bütün bölgələr və bütün əsas yaşayış məntəqələri qazla təmin olunacaqdır. İndi həm yeni xətlər çəkilir, həm də köhnə xətlər yeniləri ilə əvəzlənir və itkilər azalır. Bu da çox müsbət göstəricidir. Potensialımız daha da sürətlə artır.

Bu gün kimya sənayesində yeni təşəbbüslərin irəli sürülməsi nəticəsində qarşımızda yeni imkanlar açılır. Biz çox istəyirik ki, yaxın zamanlarda Azərbaycanda yeni, müasir neft-kimya kompleksi tikilsin. Bu çox böyük vəsait tələb edən layihədir. Dövlət Neft Şirkətində bu layihə üzərində işləyirlər və yaxın zamanlarda yəqin ki, təqdimat olacaqdır. Beləliklə, biz Azərbaycanın enerji potensialından daha da səmərəli şəkildə

istifadə edəcəyik. Eyni zamanda, yeni iş yerlərinin açılmasına da nail olacağıq.

Bu gün qaz anbarlarımızda 2 milyard 500 milyon kubmetr qaz yığılıbdır. Bu da tarixi nailiyyətdir. Bu günə qədər heç vaxt belə olmamışdır. Ən yaxşı illərdə 700–800 milyon kubmetr qaz yığılırdı. Fikirləşirdik ki, qış bir az gec başlasın ki, bu qaz bizə çatsın.

İxrac imkanlarımızın coğrafiyası genişlənir. Azərbaycan qazını qonşu ölkələrə ixrac edir. Bu dəqiqdir ki, gələn ildən ixracın həcmi artacaqdır. Həm mövcud olan yollarla, həm də ki, biz gələn ildən yeni bazarlara çıxacağıq. Nəzərə alsaq ki, Avropada və başqa bölgələrdə təbii qazımıza böyük ehtiyac var, biz bütün bu imkanlardan istifadə etməliyik, Azərbaycanın milli maraqlarını maksimum dərəcədə təmin etməliyik. Çünki Azərbaycan bu günə qədər neft ölkəsi kimi tanınmışdır. Bundan sonra bəlkə də daha çox qaz ölkəsi kimi özünü göstərəcəkdir və artıq göstərir.

İmzalanmış kontraktlar və anlaşma memorandumları imkanlarımızı göstərir. Bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır – həm şirkətlərin, həm də ölkələrin – biz də buna çox müsbət yanaşırıq. Çünki bu, maraqlarımıza uyğundur. Enerji siyasətimiz çox açıqdır, aydındır, birmənalıdır və səmimidir. Bunun bir məqsədi var ki, Azərbaycanın maraqları tam şəkildə təmin olunsun və Azərbaycan həm siyasi, həm iqtisadi amildən istifadə edərək daha da güclü ölkəyə çevrilsin.

Bir məsələni də vurğulamaq istəyirəm ki, biz enerji münasibətlərimizdə əməkdaşlığı maksimum dərəcədə dərinləşdirməyə çalışırıq. Biz enerji resurslarımızdan dostluq münasibətlərimizin möhkəmləndirilməsində istifadə etmək istəyirik. Bizim əsas məqsədimiz budur. Biz enerji amilindən heç vaxt başqa məqsədlər üçün istifadə etməmişik və etməyəcəyik. Təbii resurslarımıza ehtiyacı olan ölkələr bunu yaxşı bilirlər və mənim sözlərimi təsdiqləyə bilərlər.

Bu gün artıq Azərbaycan dünya enerji xəritəsində özünəməxsus yerə malikdir. İmkanlarımız artır, neft hasilatı sabitdir, qaz hasilatı ildən-ilə artır. «Şahdəniz» yatağının ikinci

fazasının işlənməsi, «Ümid», «Abşeron» yataqlarından, kəşfiyyat işləri aparılan digər qaz yataqlarından gözlənilən ümidverici nəticələr, əlbəttə ki, qaz potensialımızı bəlkə də birə on artıracaqdır. Bugünkü hasilat və ixrac səviyyəsi sadəcə olaraq, birinci mərhələdədir. Əsas işlər qabaqdadır. Biz o işlərin nəticələrini bir neçə ildən sonra görəcəyik. Ancaq biz buna indidən hazır olmalıyıq, bütün addımlarımızı elə atmalıyıq ki, qarşıya qoyulan məqsədə çataq. Bu günə qədər neft-qaz sektorunda qarşıya qoyulan bütün məqsədlər təmin olunmuşdur. Bir dəfə də səhv addım olmamışdır, bir dənə də uğursuzluq olmamışdır. Biz ancaq uğurları görürük. Biz buna nail ola bilmişik.

Keçən ilin axırında Heydər Əliyev prospektində Azərbaycan Dövlət Neft Fondunun inzibati binasının təməl daşını qoymuşduq. Düzdür, Neft fondu Dövlət Neft Şirkətinin hesabına böyüyüb və o da artıq dünya maliyyə bazarında, qiymətli kağızlar bazarında öz rolunu oynamaqdadır. Dövlət Neft Fondu çox şəffaf və mütərəqqi təşkilatdır. Neft fondunda yığılan vəsait Dövlət Neft Şirkətinin fəaliyyəti hesabına, Heydər Əliyev neft strategiyasının icrası nəticəsində yaradılıbdır. İndi bizim Neft fondunda 20 milyard dollardan artıq vəsait vardır. Bizim ümumi valyuta ehtiyatlarımız 26 milyarddan çoxdur. Vaxt var idi heç 500 milyon da yox idi. Biz kesən əsrin 90-cı illərinin ortalarında fikirləşirdik ki, bu valyuta ehtiyatlarını necə yaradaq. Onun yeganə mənbəyi Dövlət Neft Şirkətinin fəaliyyətidir. O illərdə imzalanmış kontraktlar bu gün Azərbaycana xidmət göstərir. Həyat göstərib ki, o kontraktlar milli maraqlarımıza tam şəkildə cavab verir. İndi mən müqayisə aparmaq istəmirəm, amma başqa ölkələrdə də hasilatın pay bölgüsü kontraktları imzalanmışdır. Biz bütün o şərtləri bilirik və görürük ki, ölkəmiz üçün, yəni dövlət üçün ən məqbul şərtlər məhz Azərbaycanda təmin olunmuşdur.

Biz bu gün yeni proqramlar üzərində işləyirik. Biz əldə edilmiş uğurlarla kifayətlənmirik. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin tikintisi tarixi nailiyyət

idi. Ancaq onun üstündən artıq 3-4 il keçib. Biz yeni kəmərlər haqqında fikirləşirik, onun üzərində işləyirik. Əminəm ki, nəzərdə tutulmuş bütün vəzifələr icra olunacaqdır.

Mən Dövlət Neft Şirkətinin gələcəyini çox parlaq görürəm. Bir neçə il bundan əvvəl məsələ qoyuldu ki, Dövlət Neft Şirkəti beynəlxalq səviyyəli güclü şirkətə çevrilməlidir. Bu gün biz bunu görürük və təsadüfi deyil ki, məhz bu il bu gözəl binanın təməli qoyulur. Çünki artıq SOCAR-ın həm imkanları, həm nüfuzu vardır, həm də ki, bu gözəl, möhtəşəm bina inkişafın, Azərbaycanda görülən işlərin rəmzidir. Çox ədalətlidir ki, birinci belə gözəl bina, bu göydələn Dövlət Neft Şirkətinin inzibati binasıdır. Bakıda indi özəl investisiyalar hesabına çoxmərtəbəli hündür binalar, mehmanxanalar, iş mərkəzləri tikilir. Bu prosesə təkan verən məhz neft amili olmuşdur. Əgər o vaxt o addımlar atılmasaydı, bu gün biz görülən işlərin böyük əksəriyyətini görə bilməzdik.

Əlbəttə, mən istəyirəm ki, bu bina tezliklə tikilsin. Bu layihə üzərində uzun illərdir ki, iş aparılmışdır. Mən burada bu binanın layihələndirilməsində iştirak etmiş xarici mütəxəssisləri də görürəm. İndi burada ən yüksək texnoloji standartlar tətbiq olunmalıdır. Bu yeni bina yüksək keyfiyyətlə, eyni zamanda, qısa müddət ərzində tikilməlidir və gözəl şəhərimizə əlavə yaraşıq verəcəkdir. Bu, müasir Azərbaycanın rəmzinə çevrilməlidir. Bu, memarlıq sənətində xüsusi yerə malik olan bir bina olacaqdır.

Nəzərə alsaq ki, Heydər Əliyev prospektində gözəl və möhtəşəm Heydər Əliyev Mərkəzi, Dövlət Neft Fondunun binası tikilir, digər inzibati binaların layihələndirmə prosesi gedir, şəhərə giriş çox möhtəşəm, çox müasir olacaqdır. Artıq şəhərə daxil olandan sonra hər bir insan gözəl, qədim memarlıq nümunəsini görür. Bax, budur yeniliklə qədim üsulun sintezi. Neft Şirkətinin indiki binası da çox gözəldir. Gözəl memarlığa malik olan tarixi binadır, şəhərin mərkəzində yerləşir və şəhərin arxitekturasının incisidir. Bu bina isə yeni Azərbaycanın məhsuludur.

Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, yaxın zamanlarda biz yenə burada, amma daha açıq havada yox, tikiləcək binanın içində görüşəcəyik. Yeni inzibati binanın istismara verilməsini də bərabər qeyd edəcəyik. Bir daha sizi təbrik edirəm.

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YANUKOVİÇƏ**

Hörmətli Viktor Fyodoroviç!

Dnepropetrovsk vilayətində qəza nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından, şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verir, zərərçəkənlərin hamısına tezliklə sağalmağı arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2010-cu il*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ**

Hörmətli cənab Federal Prezident!

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Avstriya arasındakı münasibətlər dostluq və əməkdaşlıq əlaqələrimizin möhkəmlənməsi və genişlənməsi istiqamətində bundan sonra da inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2010-cu il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, bu gün yeni məzmun kəsb etməkdə olan Azərbaycan–Türkmənistan münasibətləri, ənənəvi dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daim öz inkişafını ardıcıl şəkildə davam etdirəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkmənistan xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2010-cu il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu gün Azərbaycan ilə Çexiya arasındakı münasibətlər yüksələn xətt üzrə inkişaf etməkdədir. Daim genişlənən dostluq əlaqələrimiz qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımız üçün böyük imkanlar açır. Əminəm ki, bu imkanlardan səmərəli istifadə olunması istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2010-cu il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Dost və qardaş Türkiyənin milli bayramı – Respublika günü münasibətilə Sizi və Sizin simanızda bütün türk xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Türkiyə hərtərəfli inkişaf yolu tutaraq dünya miqyasında böyük nüfuza malik qüdrətli bir dövlətə çevrilmişdir. Biz Türkiyənin uğurlarına, yüksəlişinə sevinir, bundan hədsiz qürur duyuruq.

Gücünü tarixi birliyimizdən və ortaq mənəvi dəyərlərimizdən alan Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı dövlətlərarası münasibətlərimizin məzmununda və ruhunda bilavasitə öz təcəssümünü tapmışdır. Xalqlarımızın yekdil iradəsi ilə bu münasibətlər sarsılmaz strateji tərəfdaşlıq, müttəfiqlik səviyyəsinə yüksəlmişdir.

Əminəm ki, ulu əcdadlarımızdan miras qalmış dostluq və qardaşlıq duyğularımız, xalqlarımızın xoş və firavan yaşayışı ölkələrimizin çiçəklənməsi naminə birgə səylərimizə daim təkan verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş türk xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 oktyabr 2010-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏRİ

*14 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Mingəçevir şəhərinə gəlmişdir.*

*Azərbaycanın bütün regionları kimi, Mingəçevir şəhəri də özünün yüksəliş dövrünü yaşayır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində şəhərin iqtisadiyyatı daha da inkişaf etmiş, əhalinin yaşayış səviyyəsi yüksəlmiş, quruculuq işləri geniş vüsət almışdır. Cari ilin birinci yarısında Mingəçevir şəhərinin istehsal müəssisələrində 55 milyon manatlıq sənaye məhsulu istehsal olunmuş, tikinti-quraşdırma işlərinə 20 milyon manat vəsait xərclənmiş, əsas kapitala 22 milyon manat investisiya yönəldilmiş, istehlak bazarında 73 milyon manatlıq mal satılmış və xidmətlər göstərilmişdir. Təhsil, səhiyyə və mədəniyyət obyektlərinin tikintisi və yenidən qurulması diqqət mərkəzində saxlanılmışdır.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə şəhərin Heydər Əliyev meydanında ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular, abidənin ətrafındakı parkı gəzdilər, burada aparılan abadlıq və quruculuq işləri ilə tanış oldular.*

### Yenidən qurulmuş Mingəçevir–Xaldan yolunun açılışı mərasimi

*Oktyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yenidən qurulmuş Mingəçevir–Xaldan yolunun açılışında iştirak etmişlər.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, yolun yenidən qurulması işləri bu il həyata keçirilmişdir. Uzunluğu 21 kilometr olan yol üçüncü dərəcəlidir. İkizolaqlı yolun hərəkət hissəsinin eni 7 metrdir. Torpaq yatağı ilə birlikdə yolun eni 12 metrə bərabərdir. Bu yolun region üçün strateji əhəmiyyəti böyükdür. Çünki bu yol Bakı–Şamaxı–Yevlax avtomobil yolunun 263-cü kilometri ilə Mingəçevir şəhərini birləşdirir. Bundan əlavə, Mingəçevir şəhərinin paytaxtla, həmçinin respublikanın şimal-qərb bölgəsi ilə nəqliyyat əlaqəsini təmin edir. Eyni zamanda, Şəki–Zaqatala regionundan Gəncə–Qazax regionuna və əks istiqamətdə hərəkət edən nəqliyyat vasitələri bu yoldan istifadə edir.*

*Dövlətimizin başçısı və xanımı Mingəçevir şəhərinin yeni inşa olunan giriş qapılarına da baxdılar.*

## «Kür» Olimpiya Tədris-İdman Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 14-də Mingəçevirdə «Kür» Olimpiya Tədris-İdman Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, Mərkəzdə yaradılmış şəraitlə tanış oldu.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına məlumat verdi ki, nazirliyin sifarişi əsasında tikilən Mərkəzdə Avropada, o cümlədən MDB məkanında bənzəri olmayan avarçəkmə bazası yaradılmışdır.*

*Prezident İlham Əliyev 2004-cü ildə Mingəçevirə səfəri zamanı keçmiş «Kür» avarçəkmə bazasında olmuş, onun ən müasir şəkildə yenidən qurulması ilə bağlı tapşırıqlarını ver-*

*mişdi. Bazanın layihə-smeta sənədləri hazırlandıqdan sonra 2007-ci ildə tikinti işlərinə başlanılmışdır.*

*Dövlətimizin başçısı və xanımı 1875-ci ildə əkilən qovaq ağacı qarşısında xatirə şəkli çəkdirdilər. Sonra isə hündürlüyü 40 metr olan yarışları müşahidə qülləsi ilə tanış oldular. Dörd mərtəbədən və terrasdan ibarət binada müşahidə zalı, jurnalistlər və hakimlər üçün otaqlar, kafe-bar və digər yardımçı otaqlar vardır.*

*Prezident İlham Əliyev və xanımı qüllədən avarçəkənlərin məşqinə baxdılar.*

*Sonra dövlətimizin başçısı mingəçevirliləri salamladı.*

**İ l h a m Ə l i y e v:** Sizi bu gözəl «Kür» Olimpiya İdman Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bilirsiniz ki, bu Mərkəzin çox böyük tarixi vardır. Keçən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə burada çox böyük quruculuq-abadlıq işləri aparılmışdır. Mingəçevir Sovet İttifaqının avarçəkmə mərkəzinə çevrilmişdi. Mingəçevirlilər o illəri yaxşı xatırlayırlar. Demək olar ki, bütün müttəfiq respublikalardan avarçəkənlər gəlmişlər, yəni şəhərin inkişafı üçün bu bazanın çox böyük əhəmiyyəti var idi.

Amma XX əsrin 80-ci illərinin sonlarından başlayaraq ta 90-cı illərin sonlarına qədər, demək olar ki, buradan səmərəli şəkildə istifadə edə bilməmişdik. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində öz torpaqlarını itirmiş vətəndaşlarımız burada məskunlaşmışdılar. Mən 90-cı illərdə buraya dəfələrlə gəlmiş, vəziyyətlə tanış olmuşdum. O vaxt Milli Olimpiya Komitəsinin prezidenti kimi, çox istəyirdim ki, biz buranı yenidən bərpa edək və yüksək səviyyədə baza yaradaq. Ancaq o vaxt imkanlarımız məhdud idi. Biz ilk növbədə, o vaxt burada məskunlaşmış soydaşlarımızı köçürməli idik. Biz buna nail olduq, onları yaxşı şəraitlə təmin etdik. Ondan sonra layihələndirmə işləri aparılmışdır.

Nəhayət, 3 il əvvəl bazanın yenidən tikilməsinə başlanılmışdır və bu gün həm dünya səviyyəli idman, həm də turizm mərkəzidir. Mən bu gün burada yaradılmış bütün obyektlərlə

yaxından tanış oldum. Burada dəfələrlə olmağıma baxmayaraq, bir daha görürəm ki, bu bazada ən yüksək standartlar tətbiq edilib. Gözəl mehmanxana, trenajor zalları, üzgüçülük hovuzu yaradılıb, avarçəkmə üçün lazım olan bütün avadanlıq quraşdırılıb. Bura artıq həm idman, həm də turizm mərkəzidir. Ümid edirəm ki, idmançılarımız ilk növbədə bu imkanlardan səmərəli istifadə edəcəklər və biz xaricdən də qonaqlar gözləyirik. Mingəçevir beynəlxalq turizm mərkəzinə çevrilməlidir. Buna nail olmaq üçün bütün imkanlar – gözəl təbiət, təmiz hava, iqlim, təbii şərait vardır. İndi yollar da çəkilir. Bakını Mingəçevirlə birləşdirən avtomobil yolu tikilir. Gəncə aeroportu fəaliyyətdədir. Yəni, Mingəçevir bir turizm mərkəzi olmalıdır.

İndi Azərbaycanın müxtəlif yerlərində turizm mərkəzləri yaradılır. Hərəsi öz təbii şəraiti ilə fərqlənir. Həm gözəl dənizimiz, dağlarımız, çaylarımız, bulaqlarımız və həm də bölgədə yaradılan belə gözəl mehmanxana kompleksləri bu prosesi daha da sürətləndirir. Burada idmanla məşğul olmaq üçün bütün şərait yaradılıb. Azərbaycanda idmanın avarçəkmə növü öz inkişaf dövrünü yaşayır. Artıq avarçəkənlərimiz dünya və Avropa çempionatlarında yüksək nəticələr qazanırlar, dünya çempionatlarında birinci yerləri tuturlar. Azərbaycan tarixində bu heç vaxt olmamışdır.

Son illər avarçəkmədə görülmüş işlər və əslində yaradılmış dönüş Azərbaycanın bu idman növündə də qabaqcıl yerlərə çıxarılmasına imkan yaradır. Bizim komanda – gənclərimiz, yeniyetmələrimiz müxtəlif yarışlarda iştirak edirlər. Azərbaycan artıq idman dövlətidir, bunu hamı bilir. Amma idmanın avarçəkmə növü bizdə sovet dövründə də o qədər inkişaf etməmişdi. Bu gün isə görürük ki, Azərbaycanda bu idman növü də inkişaf edir və nəinki infrastruktur, eyni zamanda, idmançıların peşəkarlığı artır. Xaricdən məşqçilər dəvət olunubdur. Əminəm ki, avarçəkənlərimiz gələcək Olimpiya oyunlarında Azərbaycanı ləyaqətlə təmsil edəcəklər.

O ki qaldı idmanın inkişafına, bütövlükdə Azərbaycanda idman çox sürətlə inkişaf edir. Biz bu sahədə böyük uğurlara nail ola bilmişik. İdmançılarımız Olimpiya oyunlarında, dünya, Avropa çempionatlarında Dövlət bayrağımızı göylərə qaldırırlar. Bu bizdə böyük qürur hissi yaradır. Mən istəyirəm ki, Azərbaycanda bütün idman növləri inkişaf etsin və biz görürük ki, bu nailiyyətlər vardır.

Çox şadam ki, futbolçularımız da, nəhayət, uzun fasilədən sonra bizi sevindirdilər. Biz onlara inanırdıq. Komandamız gəncdir və çox böyük əzmkarlıq göstərir. Əlbəttə ki, hələ peşəkarlıq üzərində işləmək lazımdır. Ancaq artıq görürük və sevinirik ki, milli komandamız və klublar beynəlxalq yarışlarda ləyaqətli oyun göstərirlər, özlərini çox ləyaqətli aparırlar. Srağagünkü qələbəmiz bizi daha da ruhlandıracaqdır. Əminəm ki, Azərbaycanda idmanın futbol növü də yüksək zirvələrə çatacaqdır. Buna vaxt və səbir lazımdır. İnanıram ki, bir neçə ildən sonra futbolçularımız hər bir oyunda azarkeşləri sevindirəcəklər.

Bu yaxınlarda Sinqapurda gənclər arasında birinci Olimpiya oyunlarında Azərbaycan inkişaf etmiş ölkələrin sırasında idi. Birinci onluğa daxil olunubdur, bu da tarixi qələbədir. Bu onu göstərir ki, idmançılarımız artıq uşaqlıq yaşlarından gözəl nəticələr göstərirlər. Ölkədə yaradılmış infrastruktur, hər bir bölgədə olimpiya kompleksləri, trenajor zalları, idmana dövlət tərəfindən göstərilən qayğı və diqqət bu reallıqları təmin edir. İdmanla məşğul olanların səyləri, idmançıların peşəkarlığı, idmana cavabdehlik daşıyan qurumlar, Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri bir məqsədə xidmət edirlər.

Bu gün, bu gözəl turizm və idman mərkəzinin açılışında bir daha görürəm ki, Azərbaycanın çox böyük imkanı, potensialı vardır. Bu yerləri siz də yaxşı xatırlayırsınız. Nə gündə idi buralar?! İndi gözəl parklar, xiyabanlar olub. Mingəçevir necə gözəlləşib?! Mən keçən il də, ondan əvvəlki illərdə də, 2003-cü ilə qədər də Mingəçevirdə olmuşam. Şəhər tamamilə

müasirləşib, gözəlləşib, böyük abadlıq-quruculuq işləri aparılır, xiyabanlar, parklar salınır, binalar təmir olunur. Çox müasir, gözəl şəhərə çevrilibdir və bu məni çox sevindirir. Burada sənaye müəssisələri yaradılır. Artıq Mingəçevir təkcə energetiklər şəhəri deyil, həm də sənaye şəhəridir, mədəniyyət mərkəzidir.

Mən sizi – burada yaşayanları bu uğurlar münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar arzulayıram. Demək istəyirəm ki, mən də öz fəaliyyətimdə Mingəçeviri daim diqqətdə saxlayacağam. Şəhərin inkişafı üçün bundan sonra da əlavə tədbirlər görüləcəkdir. Bir daha sizi təbrik edirəm.

*Şəhər sakini Eyyub Həsənov ümummilli lider Heydər Əliyevin Mingəçevir şəhərinin inkişafındakı xidmətlərindən danışdı. O, şəhər sakinləri adından prezident İlham Əliyevin Mingəçevirə diqqət və qayğısına görə minnətdarlığını bildirdi.*

## Mingəçevir Dövlət Dram Teatrının binasında aparılan əsaslı yenidənqurma və bərpa işləri ilə tanışlıq

*Oktyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev M.Davudova adına Mingəçevir Dövlət Dram Teatrının binasında aparılan əsaslı yenidənqurma və bərpa işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə binanın qarşısındakı istirahət parkında aparılmış abadlıq işləri ilə tanış oldular.*

*Prezident İlham Əliyev teatr binasının təmirdən əvvəlki və hazırkı vəziyyətini əks etdirən fotoşəkillərə baxdı.*

*Məlumat verildi ki, teatrın binası 1951-ci ildə tikilmişdir və 1953-cü ildən istifadədədir. 1968-ci ildən Dövlət Dram Teatrı kimi fəaliyyət göstərir. Həmin vaxtdan bəri şəhərin bu mədəniyyət ocağında indiki səviyyədə əsaslı bərpa və yenidənqurma işləri aparılmamışdır. 2008-ci ildə başlanan yenidənqurma işləri isə ən yüksək səviyyədə, müasir standartlara uyğun aparılır. Ümumi sahəsi 2300 kvadratmetr olan ikimərtəbəli*

*binada 32 otaq vardır. Prezident İlham Əliyev yenidənqurma işlərinin vaxtında və yüksək keyfiyyətlə başa çatdırılmasına dair tapşırıq və tövsiyələrini verdi.*

## Yeni Azərbaycan Partiyası Mingəçevir şəhər təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Oktyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası (YAP) Mingəçevir şəhər təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, ikimərtəbəli binanın ümumi sahəsi 400 kvadratmetrə yaxındır. Foyedə ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Binada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkənin ictimai-siyasi həyatında, o cümlədən YAP-ın fəaliyyəti ilə bağlı gördükləri işləri əks etdirən fotoguşələr yaradılmışdır. 100 kvadratmetr sahəsi olan iclas zalında 80 nəfərlik müasir oturacaqlar quraşdırılmışdır. İkinci mərtəbədə ulu öndər Heydər Əliyevin kəlamlarını əks etdirən guşə yaradılmışdır. İş otaqları da bu mərtəbədədir. Bütün otaqlar lazımi avadanlıq və kompyuterlə təchiz olunmuşdur.*

*Binanın qarşısındakı geniş sahədə yaşıllıq zolağı salınmış, fəvvarə quraşdırılmışdır.*

*Prezident İlham Əliyev görülən işlərdən razı qaldığını bildirdi.*

## Şahmat məktəbi binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 14-də Mingəçevir şəhərində şahmat məktəbi binasının açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi, binada yaradılmış şəraitlə tanış oldu.*

*Binada eyni vaxtda dörd ayrı dərs üzrə 32 idmançının şahmatın sirlərinə yiyələnmələri üçün hər cür şərait yaradılmışdır. Sinif otaqları şahmat taxtaları, saat və kompyuterlərlə təchiz olunmuşdur. Burada dərs prosesini izləmək üçün videokameralar quraşdırılmışdır. Beynəlxalq və respublika əhəmiyyətli yarışlarda nailiyyətlər qazanmış yerli şahmatçıların şəkillərindən ibarət fotoguşə məktəbin uğurlarını əks etdirir.*

*Mingəçevir şahmatçıları son 5 ildə bir sıra beynəlxalq yarışlarda fərqlənmişlər. Şahmatçılar Sənan Quliyev, Fərid Şirinov və Zeynəb İsmayılzadə dünya və Avropa birinciliklərində uğurla çıxış etmişlər.*

*Dövlətimizin başçısı balaca idmançı ilə şahmat oynadı və sonra xanımı Mehriban Əliyeva ilə birlikdə uşaqlarla xatirə şəkli çəkdirdilər.*

## «Günəşli» yaşayış massivinə çəkilən qaz xəttinin açılışı mərasimi

*Oktyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Mingəçevir şəhərinin «Günəşli» yaşayış massivinə çəkilən qaz xəttinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısına məlumat verən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev bildirdi ki, «Günəşli» yaşayış massivinə qaz xəttinin çəkilişinə 2008-ci ilin ortalarından başlanılmışdır. Magistral qaz xəttinin uzunluğu 7290 poqonmetrdir. Massivdaxili xətlərin uzunluğu isə 30 kilometr təşkil edir.*

*Bildirildi ki, «Günəşli» yaşayış massivində ümumilikdə 2 min ev vardır və onların hamısının «mavi yanacaq»la təmin olunması nəzərdə tutulur. Dövlət Neft Şirkətinin «Azəriqaz» İstehsalat Birliyi bütün evləri sayğacla təmin etmişdir.*

*Dövlətimizin başçısı «Günəşli» yaşayış massivinə təbii qazın verilməsini bildirən məşəli alovlandırdı və massivin sakinlərini təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Sizi təbrik edirəm. «Günəşli» massivinə də qaz çəkilməsi böyük hadisədir. Bu hadisə münasibətilə sizi təbrik edirəm. Mingəçevirin qaz verilməmiş təkcə bu massivi qalmışdı, burada heç vaxt qaz olmamışdır. Ancaq bu gün biz buna nail olduq. İndi mənə məlumat verildi ki, 2 min abunəçi, 2 min ailə, 2 min ev təsərrüfatı qaz alacaqdır. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm.

Bu onu göstərir ki, bizdə aparılan qazlaşdırma siyasəti öz konkret nəticələrini verir. Bizim qaz ehtiyatlarımız çoxdur, təbii ehtiyatlarımız da vardır. Biz indi qazı başqa ölkələrə də ixrac edirik. Belə olan halda Azərbaycan vətəndaşları bu imkanlardan istifadə etməlidirlər. Qarşıya vəzifə qoyulub ki, Azərbaycanda əhalinin, müəssisələrin, yaşayış məntəqələrinin 90 faizi qazlaşdırılsın. Bu çox böyük göstəricidir. Çünki Azərbaycanda elə ucqar kəndlər var ki, oraya bəlkə də qaz xətti çəkmək o qədər də sərfəli deyildir. Biz oranın enerji problemlərini başqa yolla həll edirik. Ancaq biz əsas yaşayış məntəqələrinə – böyük şəhərlərə, qəsəbələrə, kəndlərə qazın verilməsini təmin edirik.

Dövlət Neft Şirkəti son zamanlar həm Bakıda, həm də bütün rayonlarda böyük qazlaşdırma işləri aparır. Demək olar ki, hər ay hansısa yeni yaşayış məntəqəsinə qaz çəkilir. Köhnə kəmərlər, borular təzələri ilə əvəz olunur, təzyiq normallaşır. Bu işlər onu göstərir ki, Azərbaycanda sosial siyasət çox güclüdür.

Mən qeyd etdim ki, biz təbii qazı başqa ölkələrə də ixrac edirik və ixrac qiyməti daxili qiymətdən ən azı 2 dəfə çoxdur. Ancaq bu bizim üçün sosial məsələdir. Biz elə etməliyik ki, Azərbaycan vətəndaşları qaz, işıq, su ilə davamlı şəkildə təmin olunsunlar. İşıq problemi Azərbaycanda çoxdan aradan

qaldırılıb. Qazlaşdırmanın böyük hissəsi həll olunub. İçməli su, kanalizasiya problemləri isə qalır. Bu problemlər bu il və gələn illərdə bizim üçün əsas problemlərdir. Çalışacağıq ki, Azərbaycanın bütün şəhərləri, bütün rayonları içməli su ilə təmin olunsun, bütün kanalizasiya xətləri çəkilsin. Çünki vaxtilə əksər rayonlarımızda kanalizasiya olmamışdır. Bu, böyük vəsait tələb edən məsələlərdir. Ancaq Azərbaycan dövləti bunu edir və edəcək ki, vətəndaşlarımız ildən-ilə daha da yaxşı yaşasınlar.

Mənə deyirlər ki, bu massiv əvvəllər bağlar massivi olubdur. Burada bağlar salınmışdır. Elədir?

**S a k i n:** Bəli, elədir.

**İ l h a m Ə l i y e v:** Sonra qəsəbəyə çevrilibdir və insanlar uzun illərdir ki, burada yaşayırlar. Azərbaycan dövləti elə etməlidir ki, daha da yaxşı yaşasınlar. İndi qaz veriləndən sonra siz görəcəksiniz ki, bu, insanlara nə qədər əlavə imkanlar yaradır, rahatlıq verir. Həm də ki, bu çox ucuz enerji növüdür. Bilirsiniz ki, Azərbaycanda bütün bu qiymətlər dövlət tərəfindən tənzimlənir. Biz heç vaxt imkan verməyik ki, bu qiymətlər kiminsə tərəfindən süni şəkildə şişirdilsin. Yəni, dövlət buna nəzarət edir. Biz elə etməliyik, qiymət elə olmalıdır ki, insanların onu ödəməyə maddi imkanları çatsın. İşıq, qaz qonşu ölkələrlə müqayisədə bizdə çox ucuzdur. Belə olan halda, qazdan istifadə etmək iqtisadi cəhətdən də insanlara çox sərf edir.

Burada Neft Şirkətinin mütəxəssislərini görürəm. Mən iki gün əvvəl Neft Şirkətinin yeni inzibati binasının təməl daşının qoyulması ilə əlaqədar tədbirdə demişdim ki, «Azəriqaz»ı Neft Şirkətinin tabeliyinə verəndən sonra işlər daha da sürətlə getməyə başlamışdır. Bax, bu gün burada təqdim olunan layihələr bizim bütün planlarımızı bir daha açıq-aydın göstərir.

Azərbaycan daxili tələbatını ödəyib və ödəyəcək, xarici bazarlara da çox inamla daxil olur. Biz qonşu ölkələrə qazı ixrac edirik. Baxmayaraq ki, bəzi ölkələrdə qaz hasilatı bizimkindən bir neçə dəfə çoxdur. Ancaq biz həm qazı, həm neft və neft məhsullarını, elektrik enerjisini ixrac edirik. Bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı düzgün əsaslar üzərində

qurulub, güclü dövlət nəzarəti olan tam bazar iqtisadiyyatıdır. Bax, budur bizim yanaşmamız.

Sizi bir daha bu hadisə münasibətilə təbrik edirəm.

## Mingəçevir Su Elektrik Stansiyasında aparılan yenidənqurma işləri ilə tanışlıq

*Oktyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Mingəçevir su anbarının və Su Elektrik Stansiyasının yerləşdiyi əraziyə gəldilər.*

*Dövlətimizin başçısına Su Elektrik Stansiyasında aparılan yenidənqurma işləri barədə məlumat verildi. Bildirildi ki, stansiyadakı 6 maşın qurğusunun hər birinin gücü 70 meqavata çatdırılmaqla, stansiyanın ümumi gücü 320 meqavatdan 420 meqavata qaldırılacaqdır. Bu artım su sərfi dəyişmədən mümkün olacaqdır. Avadanlıq Fransanın «Areva» şirkətindən alınır, tikinti-quraşdırma işlərini isə yerli «Azenko» şirkəti aparır. Layihə çərçivəsində stansiyanın yarımstansiyası tamamilə yenidən qurulacaq, idarəetmə məntəqəsinin yeri dəyişdiriləcək və tam avtomatlaşdırılacaqdır.*

*Prezident İlham Əliyev yenidənqurma işlərinin vaxtında və keyfiyyətlə görülməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEVLAX ŞƏHƏRİNƏ SƏFƏRİ

*14 oktyabr 2010-cu il*

*Oktyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev Mingəçevirə səfərini başa çatdıraraq Yevlax şəhərinə gəlmişdir.*

*Yevlax respublikamızın ən sürətlə inkişaf edən şəhərlərindən biridir. Yevlax şəhəri son 6 ildə tamamilə simasını dəyişmişdir. Hazırda Yevlax rayonu Azərbaycanın mühüm iqtisadi mərkəzlərindən birinə çevrilməkdədir. Ötən il rayonda ümumi məhsul buraxılışı 2003-cü ilə nisbətən 6,5 dəfə, sənaye məhsulunun həcmi 11,4 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 2,4 dəfə artmışdır. İstehsal olunan sənaye məhsullarının 47 faizi xarici ölkələrə, o cümlədən İtaliya, İspaniya, Türkiyə, İran, Ukrayna, Rusiya Federasiyası və Gürcüstana ixrac olunur. Rayonda əsas kapitala yönəldilən investisiyalar 971 dəfə artaraq 136,1 milyon manat, tikinti-quraşdırma işlərinin həcmi isə 372 dəfə artaraq 181,6 milyon manat təşkil etmişdir. 2004-cü ildən 2010-cu ilin oktyabrınadək Yevlaxda 7893-ü daimi olmaqla, 14 min 700 yeni iş yeri yaradılmışdır.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva əvvəlcə şəhərin mərkəzindəki Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva abidənin ətrafındakı parkı gəzdilər, Yevlax Rayon İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev burada aparılan abadlıq və quruculuq işləri barədə məlumat verdi.*

### 1 nömrəli şəhər orta məktəbinin yeni binasının

**açılışı mərasimi**

*Oktyabrın 14-də prezident İlham Əliyev Yevlax şəhərində 1 nömrəli orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.*

*Şəhər ictimaiyyətinin nümayəndələri və məktəbin pedaqoji kollektivi dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

**İ l h a m  Ə l i y e v:** Məktəbin tikintisi münasibətilə sizi təbrik edirəm, çox gözəl, müasir məktəbdir. İcra başçısı mənə dedi ki, buradakı məktəb çox bərbad vəziyyətdə idi, uzun illər təmirsiz qalmışdı. Bina söküldü və yerində belə gözəl, yaraşıqlı məktəb tikildi. Özü də 1 saylı orta məktəb gərək hər cəhətdən bir nömrəli olsun. Sizi ürəkdən təbrik edirəm, bu, gözəl hadisədir. Uşaqlar da burada yaxşı oxuyacaqlar, müəllimlər üçün də şərait yaradılıb.

Müəllimlər böyük işlər görürlər. Bu yaxınlarda Azərbaycanda Müəllimlər günü qeyd olunmuşdur. Bu münasibətlə sizi bir daha təbrik edirəm. Müəllimlərin cəmiyyətdə rolu çox böyükdür və vacibdir. Gənc nəslin tərbiyə olunmasında, uşaqların yüksək bilik almasında müəllimlərin rolu birincidir. Biz elə etməliyik ki, bütün uşaqlarımız yaxşı oxusunlar, bilikli insanlar olsunlar. Çünki indiki zamanda savad, bilik əsasdır, həm vətəndaş üçün, həm də ölkələr üçün. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onların uğurları təhsilin səviyyəsi ilə bağlıdır. Nə təbii ehtiyatlar, nə mineral resurslar burada həlledici rol oynamır. Ancaq savad və bilik əsasdır. Çünki dünyanın inkişafı elmi-texniki tərəqqi ilə bağlıdır. Bunu əldə etmək üçün bilikli kadrlar olmalıdır. Bu kadrlar, bu insanlar ilk addımlarını məktəblərdə atırlar.

Biz elə etməliyik ki, təhsilimizdə ən qabaqcıl səviyyə təmin olunsun. Xüsusilə nəzərə alsaq ki, bu gün Azərbaycanda belə gözəl məktəblərin sayı çoxdur. Ancaq son 5-6 il ərzində 2 mindən çox məktəb tikilib və təmir olunubdur. Bu işlər davam etdirilir. Biz elə etməliyik ki, Azərbaycanda bərbad, qəzalı

vəziyyətdə heç bir məktəb qalmasın. Yevlaxda da məktəb tikintisi çox sürətlə gedir. Deyə bilərəm ki, regionların arasında bəlkə də ən sürətli məktəb tikintisi prosesi məhz Yevlaxdadır. Son illərdə 20-dən çox məktəb tikilib və təmir olunub. Düzdür, hələ ki, yaxşı vəziyyətdə olmayan məktəblər vardır. Ancaq tədricən onlar da ya təmir olunacaq, ya da ki, sökülüb yerində belə gözəl, müasir məktəblər tikiləcəkdir.

Həm infrastruktur, həm təhsilin səviyyəsi – bax, bu iki vacib amil Azərbaycanda yüksək səviyyədə olmalıdır. Gözəl məktəb tikmək olar. Bu gün maddi imkanlarımız bu şəraiti bizim üçün yaradır. Ancaq bu məktəbdə gərək təhsilin səviyyəsi yüksək olsun. Burada oxuyan uşaqlar anlamalıdırlar ki, həyatda layiqli yer tutmaq üçün mütləq bilikli olmalıdırlar. Əvvəlki dövrlərdə bəzən gənclərin bir hissəsi daha çox diplom əldə etmək üçün çalışırdılar. Çünki diplom o vaxt bütün qapıları açırdı. Sovet İttifaqı zamanında hər bir insan işlə təmin olunurdu. Ancaq biz indi bazar iqtisadiyyatı, açıq rəqabət şəraitində yaşayırıq. Diplomun olması heç nəyi göstərmir, bilik, peşəkarlıq olmalıdır. Ona görə məktəb tikintisi, peşə məktəblərinin, uşaq bağçalarının yaradılması – bütün bunlar təhsil sistemimizi gücləndirir.

Əlbəttə ki, biz indi dünyada tətbiq olunan qabaqcıl təcrübəni Azərbaycana gətiririk. İndi elektron tədris proqramları, elektron lövhələr, kompyuter proqramları vardır. Bizdə bu sahədə də işlər yaxşı səviyyədədir, 6-7 il bundan əvvəl min şagirdə bir kompyuter düşürdü. İndi ölkə üzrə 20 şagirdə bir kompyuter düşür və uşaqlar kompyuteri bizdən yaxşı bilirlər. Bəzən biz onlardan nə isə soruşuruq. Çünki bu müasirlikdir, yenilikdir, inkişafdır.

Mən sizi bir daha bu gözəl hadisə – məktəbin istifadəyə verilməsi münasibətilə təbrik etmək istəyirəm. Müəllimləri bir daha peşə bayramları münasibətilə təbrik edirəm. Sizə uğurlar, cansağlığı arzulayıram.

**Q i y a s  Q u l i y e v** *(Əməkdar müəllim):* Hörmətli Prezident, Sizi Yevlax Ziyalılar Cəmiyyəti, Yevlax ictimaiyyəti

adından və məktəbin qocaman müəllimi kimi, öz adımdan salamlayıram, Sizə Yevlaxa «Xoş gəldiniz!» – deyirəm.

Bax, bu bina 5 ay müddətində tikildi. Bu Sizin səyinizin, Sizin fəaliyyətinizin nəticəsidir. Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Yevlaxda da xeyli məktəb tikilmişdi. Ona görə də mən Mehriban xanıma öz minnətdarlığımı bildirirəm. Çox sağ olsun ki, Sizin kimi, o da təhsilə qayğı göstərir.

Mən Sizə açığını deyim ki, təhsilə qayğınızı hər yerdə duyuruq. Məsələn, Siz müəllimlərə böyük qayğı göstərirsiniz. İstəmirəm çox danışım. Müəllimlərin əməkhaqqı artıb. Bunlar hamısı vacib işlərdir. Bizim rayonda hamı Sizin fəaliyyətinizi, tədris işinə olan diqqət və qayğınızı yüksək qiymətləndirir. Bir məsələni də deyim ki, valideynlər, müəllimlər, hətta şagirdlər təhsilə göstərdiyiniz qayğıya görə minnətdardırlar. Mən bilən, başqa respublikalarda məktəblilərə pulsuz dərslik vermirlər. Amma bu, Azərbaycanda ənənə halı alıb. Çox sağ olun ki, Siz latın qrafikasında lazım olan bütün ədəbiyyat külliyyatını bizə verdiniz, elmi ensiklopediyaları da çap etdirirsiniz. Bu Sizin fəaliyyətinizin nəticəsidir. Bunlar hamısı gənclərimizin dünyagörüşünün artırılması üçün atılan addımlardır.

Hörmətli Prezident, bir məsələni də vurğulamaq istəyirəm ki, Siz Qarabağ İcması binasının açılışı mərasimində çox böyük bir nitq söylədiniz. Mən o nitqi oxudum, televiziyada da dinlədim. Sizin o nitqiniz müəllimlər üçün böyük bir proqramdır. Onu dönə-dönə oxumaq lazımdır. Çox ciddi məsələlərə toxunmusunuz. Mən Sizin nitqinizin bir məqamını xüsusi qeyd etmək istəyirəm ki, ermənilərin fikirləri özlərinə getməsin. Onlar vətənlərini unuda bilərlər. Amma Azərbaycan xalqı heç vaxt, heç zaman öz torpaqlarını unutmayacaqdır. Buna görə, bu ifadələrə görə, bütün Yevlax ictimaiyyəti, eləcə də bütün Azərbaycan xalqı Sizə minnətdardır.

Hörmətli Prezident, Azərbaycan Respublikasının inkişafı və çiçəklənməsi naminə Sizə və bütün ailə üzvlərinizə uzun ömür, cansağlığı arzulayıram. Allah Sizi bəladan qorusun. Sizə

minnətdaram. Çox sevindirici haldır ki, bizim Yevlaxı beşinci dəfədir yada salırsınız. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, siz çox vacib məqamlara toxundunuz, bunlar çox vacibdir. Təhsillə, vətənpərvərlik tərbiyəsi ilə bağlı bu məsələlərə Azərbaycanda çox böyük diqqət göstərilir. Bir də demək istəyirəm ki, müəllimlərin bu işlərdə rolu, fəaliyyəti həllediciidir.

Mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm. Siz də xatırlayırsınız, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həm tarixə, həm indiki vəziyyətə, həm də gələcəyə aid kifayət qədər çoxsaylı geniş çıxışlarım olubdur. Ancaq bu hissləri, bu vətənpərvərlik duyğularını uşaqlara gündəlik olaraq müəllimlər aşılayırlar. Ona görə müəllimlərdən çox şey asılıdır. Azərbaycanda bugünkü uşaq 10 ildən, 20 ildən sonra necə vətəndaş olacaq, Vətəni necə sevəcək, Vətən uğrunda necə vuruşacaq, Vətən üçün nə edəcək – bax, bütün bunların təməli məktəblərdə qoyulur. Ona görə təhsilə diqqət, sadəcə olaraq, bir inkişaf istiqaməti deyil, bu, qlobal, ölkə üçün həlledici məna daşıyan bir siyasətdir. Əgər təhsillə bağlı məsələlər düzgün həll olunmasa, bu siyasət, bizim bütün başqa uğurlarımız heç bir səmərə verməz.

Bizim təbii sərvətlərimiz, güclü iqtisadiyyatımız vardır. İndi vəziyyət sabitdir, Azərbaycanda ictimai-siyasi sabitlikdir. Ancaq ölkəni inkişaf etdirən insanlardır. Yəni bilikdir, fikirdir, iradədir, qabiliyyətdir. Mən çox istəyirəm, biz hamımız istəyirik ki, vətəndaşlarımız bilikli, savadlı, yaxşı vətəndaş, vətənpərvər olsunlar, Vətəni sevsinlər. Bunu etmək üçün biz güclü dövlət qurmalıyıq. Uşaqlarımız tariximizi yaxşı bilməlidirlər. Çünki sovet dövründə uzun illər biz tarixin bir hissəsini bilirdik, amma digər hissəsini bilmirdik. Bəzi hallarda bizə qəhrəman kimi təqdim olunan insanlar, əslində, Azərbaycan xalqına qarşı cinayətlər törətmişlər. Biz real tarixi sonradan öyrənməyə, dərk etməyə başladıq. Məni bir prezident və vətəndaş kimi, ən çox hiddətləndirən o deyil ki, misal üçün biz bilmirdik 1918-ci ildə nələr baş verirdi, 26 komissar qəhrəman kimi təqdim olunurdu,

əslində isə onlar azərbaycanlılara qarşı amansız qəddarlıqlar törətmişdilər. Yəni, məsələ onda deyil ki, biz bunları bilmirdik, indi bilirik. Məsələ ondadır ki, biz onların qəhrəman olduqlarına inanırdıq. Yəni belə tərbiyə almışdıq. Azərbaycan xalqının qanını axıdan şaumyanlar və onun kimi qəddar erməni cinayətkarlar Azərbaycanda qəhrəmanlar kimi təqdim olunurdu. Onların şərəfinə abidələr ucaldılırdı. Siz bilirsiniz ki, Bakının mərkəzində 26 Bakı komissarının şərəfinə abidə ucaldılmışdı. Mən göstəriş verdim ki, o abidə sökülsün, dağıdılsın. Mən göstəriş verdim, şəxsən! Ancaq necə?! Göstəriş verdim ki, Elmlər Akademiyasının, Səhiyyə Nazirliyinin nümayəndələri, din xadimləri orada basdırılmış cəsədlərin başqa yerə köçürülməsi ilə bağlı tədbirlər görsünlər. Halbuki vaxtilə orada basdırılmış adamlar azərbaycanlılara qarşı qəddarlıq törətmişdilər. Biz yenə Azərbaycan xalqına xas olan dözümlülük, mədəniyyət, tolerantlıq nümayiş etdirdik və orada basdırılmış cəsədləri başqa yerə hörmətlə köçürdük. Ancaq o tarix daha Azərbaycanda olmamalıdır. Uşaqlarımız sual verməməlidir ki, bu kimdir? Nə üçün bunun abidəsi burada ucaldılıb? Bu, Azərbaycan xalqı üçün nə edib? Yəni, məni, necə deyərlər, ən çox darıxdıran məhz odur ki, vaxtilə biz bilməmişik ki, nə olub, sonradan bilmişik.

Bizim uşaqlar xoşbəxtdirlər. Onlar müstəqil ölkədə yaşayırlar. Bu gün taleyimiz öz əlimizdədir. Azərbaycan xalqı öz taleyinin sahibidir və uşaqlarımız tariximizi, keçmişimizi, bugünkü reallıqları yaxşı bilməlidirlər. Mən o görüşdə söyləmişdim ki, Azərbaycan xalqı öz torpaqlarını heç vaxt unutmayacaqdır. Mən dəfələrlə söyləmişdim ki, bugünkü Ermənistan – xəritədə Ermənistan Respublikası adlandırılan ərazi əzəli Azərbaycan torpağıdır. Bu həqiqətdir. Əlbəttə, Zəngəzur, İrəvan xanlığı bizim torpaqlardır! Orada azərbaycanlılar əsrlər boyu yaşamışlar. Ermənilər müəyyən bölgələrdə olublar. Amma onlar XIX əsrdə kütləvi şəkildə köçürülmüşlər. Necə ola bilər ki, 1918-ci ildə İrəvanın Ermənistanın paytaxtı elan olunması Azərbaycan Demokratik Respublikası Hökumətinin qərarı ilə baş verib?!

Əgər o bölgələr dırnaqarası «Böyük Ermənistan»a aid idisə, onda nə üçün bizdən icazə alırdılar?!

**Q i y a s Q u l i y e v:** Sizin nitqinizdə var idi ki, müqavilə ilə verilib.

**İ l h a m Ə l i y e v:** Əlbəttə. Qarabağ əzəli Azərbaycan torpağıdır. Erməni dilində «Qarabağ» sözü var? Yoxdur! Qarabağın Xankəndi şəhərinə Stepanakert adını o vaxt Sovet İttifaqı verib. Nədir Stepanakert?! Bu ad Stepan Şaumyanın adından götürülüb. Əgər bu şəhərin ermənilərlə bağlı tarixi bir keçmişi olsaydı, o adı qoyardılar?! Onun tarixi adı Xankəndidir. Yəni bizim uşaqlar bütün bunları bilməlidirlər ki, bugünkü Ermənistan əzəli Azərbaycan torpaqlarında yerləşir. Bu az imiş, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaratmaq istəyirlər. Heç vaxt buna razılıq verə bilmərik və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. İstənilən yolla! Mən buna şübhə etmirəm!

Bu gün Azərbaycan qüdrətli dövlətdir. Bu gün Azərbaycan təkcə təhsildə deyil, bütün sahələrdə böyük işlərə qadirdir. Hara baxsan, bunu görmək mümkündür. Elə Yevlaxın yeniləşən simasına baxın. Siz burada yaşayırsınız, bəlkə öyrəşmisiniz. Amma mən prezident kimi, buraya beşinci dəfədir ki, gəlirəm. Ondan əvvəlki dövrlərdə də burada olmuşam. Yaxşı xatırlayıram burada vəziyyət necə idi. Amma bu gün Avropanın ən qabaqcıl şəhərlərindən bir addım geri qalmır.

Harada ki, işlər yaxşı gedir, onu deməliyəm, əgər pis gedirsə, onu da deyirəm. Yevlaxda çox böyük işlər görülür. Bu məni çox sevindirir. İcra başçısı, bütün fəallar, vətəndaşlar çalışırlar ki, Yevlax daha da gözəlləşsin – gözəl meydanlar, binalar, yollar, infrastruktur, qaz, işıq, içməli su. Çayboyu kəndlərdə neçə-neçə içməli su qurğusu tikilib. İndi orada minlərlə insan təmiz su içir. O su ki, Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verir. Əvvəllər necə su içirdilər?! Lilli. Görünən işlər də budur. Belə gözəl məktəblər harada vardır?! Ancaq Azərbaycanda və belə də olmalıdır. Ən

qabaqcıl səviyyə Azərbaycanda olmalıdır. Xalqımız buna qadirdir. Sizi bir daha təbrik edirəm.

* * *

*Sonra məktəbin açılışı oldu. Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, binada yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, burada 81 il əvvəl Yevlaxın ilk orta məktəbi yerləşmişdir. Köhnə bina yararsız hala düşdüyündən sökülərək, 2009-cu ildən yeni binanın inşasına başlanılmışdır.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsil sahəsinə diqqət və qayğısını əks etdirən fotoguşələr yaradılmışdır. Birinci mərtəbədə zəngin kitabxana və xidmət otaqları, idman zalı, tibb məntəqəsi yerləşir. İkinci mərtəbədə sinif otaqları və 2 kompyuter otağı vardır. Üçüncü mərtəbə fənn kabinetləri, 2 laboratoriya, sinif otaqları, akt zalından ibarətdir.*

*Dövlətimizin başçısı və xanımı dərs otaqlarına və musiqi kabinetinə baxdılar.*

## «Azərtoxum» MMC toxumçuluq müəssisəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 14-də Yevlaxa səfəri çərçivəsində «Azərtoxum» MMC toxumçuluq müəssisəsinin açılışında iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladı.*

*«Azərtoxum» MMC-də yaradılmış şəraitlə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, toxumçuluq müəssisəsinin tikintisi üçün 7 hektar torpaq sahəsi ayrılmışdır. İnşasına 2009-cu ilin iyununda başlanılmış müəssisə 80 tonluq qapandan, tutumları 1000, 1500 və 2500 ton olan 12 anbardan, toxum laboratoriyasından, təmir sexindən, yanacaqdoldurma məntəqəsindən və evlərdən ibarətdir.*

*Dövlətimizin başçısı müəssisənin işə düşməsini bildirən düyməni basdı, istehsal prosesi ilə tanış oldu, hazır məhsulların sərgisinə baxdı.*

*Bildirildi ki, müəssisə müxtəlif növ dənli bitki toxumlarının istehsalı, hazırlanması və işlədilməsi ilə məşğul olacaqdır. Bu müəssisənin yaradılmasında əsas məqsəd rayonlaşdırılmış sortlar, super elit və yüksək məhsuldar toxum hazırlamaqdır. Burada dünyanın ən mükəmməl və modern sistemləri, texnologiya, maşın və avadanlıq tətbiq ediləcəkdir. Mərkəz 100 min ton toxum hazırlamaq və işlətmək gücünə malikdir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, kollektivə uğurlar arzuladı.*

## «Bulvar-otel» kompleksində tikinti işlərinin gedişi ilə tanışlıq

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 14-də Yevlax şəhərinə səfəri çərçivəsində Kür çayının*

*sahilində «Bulvar-otel» kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, «Bulvar-otel» kompleksi üçün 10 hektar torpaq sahəsi ayrılmışdır. Otelin tikintialtı sahəsi 2156 kvadratmetrdir. Beşmərtəbəli oteldə 44 nömrə, restoran, bar, idman zalı, mətbəx, hovuz, ofis otaqları və digər yardımçı otaqlar olacaqdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva otelin maketi, otaqların dizayn elementlərinin fotoeskizləri və işçi layihə ilə tanış oldular.*

*Bildirildi ki, Kür çayının sahilində 1,5 kilometrlik bulvarın uzunluğunun 4 kilometrə çatdırılması, burada istirahət və əyləncə üçün hər cür şəraitin yaradılması nəzərdə tutulur. Hazırda ərazidə yaşıllıq işləri aparılır.*

*Diqqətə çatdırıldı ki, ulu öndər Heydər Əliyev 2002-ci il sentyabrın 13-də bu parkda olmuşdur.*

*Prezident İlham Əliyevə «Qırmızı kitab»a daxil edilmiş, Kür çayının sahilindəki uzunömürlü qovaq ağacı haqqında da məlumat verildi.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva ağacın qarşısında xatirə şəkli çəkdirdilər.*

*Kompleksdə aparılan abadlıq və quruculuq işlərindən razılığını bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİ ÜZRƏ ATƏT-in MÜŞAHİDƏÇİ MİSSİYASININ RƏHBƏRİ VOLFQANQ QROSSRUKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da ATƏT PA-nın vitse-prezidenti, Azərbaycanda parlament seçkiləri üzrə ATƏT-in müşahidəçi missiyasının rəhbəri Volfqanq Qrossrukun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda keçiriləcək parlament seçkilərinə hazırlığın vəziyyəti və seçki kampaniyasının aparılması ilə bağlı məsələlər müzakirə edilmişdir.*

# RUSİYA FEDERASİYASI OLİMPİYA KOMİTƏSİNİN FƏXRİ PREZİDENTİ VƏ ATICILIQ ÜZRƏ AVROPA KONFEDERASİYASININ SƏDRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Rusiya Federasiyası Olimpiya Komitəsinin Fəxri prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin üzvü Vitali Smirnovu və Atıcılıq üzrə Avropa Konfederasiyasının sədri Vladimir Lisini qəbul etmişdir.*

*Görüşdə ölkəmizin idman sahəsində əldə etdiyi uğurlara toxunulmuş, beynəlxalq idman əməkdaşlığının genişləndirilməsi istiqamətində Azərbaycanın gördüyü işlərdən danışılmışdır. Azərbaycanda mütəmadi olaraq mötəbər beynəlxalq idman tədbirlərinin keçirildiyi və bu tədbirlərin yüksək səviyyədə təşkil edildiyi qeyd olunmuşdur.*

*Söhbət zamanı Azərbaycanın Beynəlxalq Olimpiya hərəkatında fəal iştirak etdiyi bildirilmiş, ölkəmizin bu sahədə əldə etdiyi uğurların əhəmiyyəti vurğulanmışdır.*

**NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB MARK RUTTEYƏ**

Hörmətli cənab Baş nazir!

Niderland Krallığının Baş naziri vəzifəsinə təyin edilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Niderland dövlətlərarası münasibətləri, çoxşaxəli dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Niderland xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2010-cu il*

## ABŞ-ın MALİYYƏ KATİBİNİN MÜAVİNİ STÜART LİVİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 oktyabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da ABŞ-ın Maliyyə katibinin müavini Stüart Livinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında iqtisadi əməkdaşlıqla bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## PAYTAXTA GƏTİRİLMİŞ KOMMUNAL XİDMƏT GÖSTƏRƏN MÜXTƏLİF NƏQLİYYAT VASİTƏLƏRİNƏ BAXIŞ

*19 oktyabr 2010-cu il*

*Respublikada kommunal nəqliyyat xidmətinin səviyyəsinin yaxşılaşdırılması məqsədilə dövlətimizin başçısının tapşırığına əsasən Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə ayrılmış vəsait hesabına paytaxta kommunal xidmət göstərəcək müxtəlif nəqliyyat vasitələri gətirilmişdir. Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni nəqliyyat növlərinə baxış keçirmişdir.*

*Paytaxtımızın və respublikamızın digər şəhər və rayonlarının yol-nəqliyyat infrastrukturunun ən yüksək standartlara uyğun olaraq əsaslı şəkildə yenidən qurulması, yeni körpülərin və yolötürücülərinin inşa edilməsi Bakıda müasir ictimai nəqliyyat növlərinə tələbatı artırmaqla yanaşı, kommunal nəqliyyat xidmətinin səviyyəsinin daha da yaxşılaşdırılması zərurətini yaratmışdır. Dövlətimizin başçısının tapşırıqlarına əsasən bu istiqamətdə davamlı olaraq mühüm tədbirlər həyata keçirilməkdədir. Paytaxta gətirilən yeni texnikalar Bakı şəhərinin və eləcə də bölgələrin kommunal nəqliyyat xidmətinin müasirləşdirilməsi istiqamətində görülən işlərin tərkib hissəsidir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yeni texnikalar barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, paytaxtda və eləcə də bölgələrdə kommunal nəqliyyat xidmətinin təkmilləşdirilməsi məqsədilə ölkəyə 8 növdə 265 müxtəlif texnika gətirilmişdir. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı avtomobillərin texniki göstəriciləri və im-*

*kanları barədə danışdı. Qeyd olundu ki, yeni avtomobillərin 67-si «KamAZ-43253» şassisi üzərində «KO-515A» markalı vakuum avtomobili, 36-sı «4K» markalı zibildaşıyan avtomobil, 22-si «D-06» markalı sudaşıyan və yolyuyan avtomobil, 17-si yükünü özüboşaldan «KamAZ» avtomobilidir. Dövlətimizin başçısı Gəncə avtomobil zavodunun istehsalı olan texnikalara da baxdı. Bildirildi ki, bu texnikadan paytaxta 67 ədəd gətirilib. Özüsüpürən və yükləyən funksiyası olan bu maşınlar küçələrdə təmizlik işləri aparmaq üçün əlverişli texniki imkanlara malikdir. Bundan əlavə, gətirilmiş 24 zibildaşıyan və 11 yükünü özüboşaldan avtomobillər də müasir texniki imkanları ilə fərqlənir. Paytaxta, həmçinin Fransadan «İmprotex Trucks and Buses» MMC-yə məxsus çoxfunksiyalı 21 teleskopik yükləyicinin də gətirildiyi bildirildi. Yeni texnikalarla yanaşı, ölkəyə bu texnikaların ehtiyat hissələrinin də gətirildiyi qeyd olundu.*

*Texnikalarla yaxından tanış olan dövlətimizin başçısı paytaxtda və bölgələrdə kommunal xidmətin səviyyəsinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN 2010-cu İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ*

*20 oktyabr 2010-cu il*

2010-cu ilin sonuna iki ay vaxt qalır. Bu gün, demək olar ki, 2010-cu ildə nəzərdə tutulmuş bütün proqramlar uğurla icra edilir. Qalan məsələlər də ilin sonuna qədər həllini tapacaq və biz ilin yekunlarını gələn il müzakirə edəcəyik. Bu gün isə 2010-cu ilin doqquz ayının iqtisadi və sosial inkişafının yekunlarını müzakirə edəcəyik.

Doqquz ayda Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edibdir. Nəzərə alsaq ki, bütün dünya üçün böhranlı il kimi tarixdə qalan 2009-cu ildə iqtisadiyyatımız 9 faizdən çox artmışdır, bugünkü iqtisadi inkişaf çox qiymətlidir. Bu il iqtisadiyyatımız 4,1 faiz, qeyri-neft sektoru 5,2 faiz, sənaye istehsalı 3,1 faiz artmışdır. Hesab edirəm ki, bu göstəricilər müsbət göstəricilər kimi qəbul edilməlidir. Nəzərə alsaq ki, son illər ərzində Azərbaycanda çox sürətli iqtisadi inkişaf müşahidə olunurdu, əlbəttə, bu yüksək bazanın üstündə əlavə inkişafa nail olmaq üçün böyük səylər göstərilməli idi. Azərbaycanda iqtisadi sahədə aparılan düşünülmüş siyasət bizə bu göstəricilərə nail olmaq üçün şərait yaratdı.

---

* Назирляр Кабинетинин 2010-ъу илин доггуз айынын сосиал-игтисади инкишафынын йекунларына щяср олунмуш иъласында Малиййя назири Самир Шярифов, Дювлят Нефт Фондунун иърачы директору Шащмар Мювсцмов вя «Азяренержи» АСЪ-нин президенти Етибар Пирвердийев чыхыш етдиляр.

Bir sözlə, Azərbaycanda makroiqtisadi vəziyyət sabitdir, iqtisadiyyat müxtəlif yollarla inkişaf edir. Biz iqtisadiyyatımızın şaxələndirilməsinə nail ola bilmişik və qeyri-neft sektorunun inkişafı bunun gözəl göstəricisidir. Azərbaycanda güclü sosial siyasət aparılır. Bu da həmişə olduğu kimi, siyasətimizin əsas istiqamətlərindən biridir. Bu il əhalinin pul gəlirləri 11 faiz artmışdır. Əgər bu rəqəmi inflyasiya ilə müqayisə etsək, görərik ki, əhalinin gəlirləri inflyasiyanı 2 dəfədən çox üstələyir. Bu il və xüsusilə keçən rübdə minimum əməkhaqqı və minimum pensiyanın səviyyəsi 75 manatdan 85 manata qaldırılmışdır. Bu meyillər Azərbaycanda keçən illərdə də müşahidə olunurdu, gələcək illərdə də əhalinin pul gəlirlərinin artırılması üçün dövlət tərəfindən bütün addımlar atılacaqdır. Onu da qeyd etmək istəyirəm ki, pensiya və əməkhaqqının indiki minimum səviyyəsi bizi hələ də qane etmir. Amma əgər MDB məkanı ilə özümüzü müqayisə etsək görərik ki, bu göstərici Azərbaycanda ən yüksək səviyyədədir. Ünvanlı sosial yardım proqramı uğurla icra edilir. Bu proqram, təxminən 600 min insanı əhatə edir. 128 min ailə hər ay dövlətdən orta hesabla 108 manat yardım alır. Bu, bir daha onu göstərir ki, Azərbaycanda sosial siyasət, sözün əsl mənasında, prioritet məsələdir.

Bu ilin doqquz ayında sosial sahə ilə bağlı bütün məsələlər həllini tapıb. Sosial infrastrukturun yaradılmasına böyük investisiyalar qoyulubdur. Bu il 23 səhiyyə müəssisəsi təmir olunub, 59 məktəb və əlavə korpus, 3 regional olimpiya idman mərkəzi tikilib və «Kür» Olimpiya Tədris-İdman Mərkəzi bu yaxınlarda istifadəyə verilibdir. Bu proses davam etdirilir və gələn ilin büdcəsində, əlbəttə ki, sosial infrastrukturun möhkəmlənməsi üçün əlavə tədbirlər görüləcəkdir.

Regionlarda gedən işlər bizi qane edir. Mən regionlara tez-tez gedirəm, vəziyyətlə tanış oluram və görürəm ki, həm abadlıq-quruculuq sahəsində, həm də sənayeləşmə, kənd təsərrüfatının, emal sənayesinin inkişafı istiqamətində ildən-ilə çox mühüm addımlar atılır. Yeni iş yerlərinin yaradılması prosesi uğurla davam edibdir. İlin əvvəlindən bəri Azər-

baycanda 56 min yeni iş yeri açılmışdır. 2003-cü ildən sonra Azərbaycanda 900 minə yaxın iş yeri açılmışdır. Bu da özlüyündə onu göstərir ki, işsizlik kimi çox çətin və ağır problem Azərbaycanda tədricən öz həllini tapır. Əminəm ki, növbəti illərdə Azərbaycanda işsizliklə bağlı daha da böyük addımlar atılacaqdır. Bu gün Azərbaycanda işləmək istəyən vətəndaşlar əksər hallarda işlə təmin oluna bilərlər.

Nəzərə alsaq ki, Azərbaycanda böyük tikinti layihələri icra edilir, Azərbaycan dövləti tərəfindən sahibkarlığın inkişafına həm kreditlər hesabına böyük dəstək verilir, həm başqa imtiyazlar göstərilir, əlbəttə, bu amillər də işsizliyin aradan qaldırılması üçün öz rolunu oynayacaqdır. Çünki bu gün məşğulluq məsələlərinin həlli üçün özəl sektor artıq ön plana çıxıbdır. Bu da ilk növbədə, dövlətin özəl sektora olan diqqəti və dəstəyinin nəticəsidir. İş yerlərinin 70 faizi özəl sektorda yaranmışdır. Əgər dövlət tərəfindən kreditlər verilməsəydi, sahibkarlığa qayğı göstərilməsəydi, 2004-cü ildə regional inkişaf proqramı qəbul edilməsəydi, əlbəttə ki, bu gün özəl sektor bu səviyyədə inkişaf edə bilməzdi. Biz həm iri özəl müəssisələri dəstəkləyirik, həm də ki, kiçik müəssisələri dəstəkləməliyik. Çünki həm dünya praktikası, həm keçən ilin iqtisadi və maliyyə böhranı göstərdi ki, kiçik bizneslə zəngin olan, yəni kiçik biznesin inkişaf etdiyi ölkələrin iqtisadiyyatı daha da dayanıqlı olur. Biz də həm kiçik sahibkarlığı dəstəkləyəcəyik, həm də iri, böyük beynəlxalq, transmilli şirkətlərin, özəl şirkətlərin yaradılması üçün Azərbaycan dövləti səylərini göstərəcəkdir. Bu gün Azərbaycan şirkətləri xarici bazarlarda uğurla fəaliyyət göstərir.

Bir sözlə, regionlarda işlər müsbət istiqamətdə gedir, şəhərlərimiz abadlaşır, müasirləşir və bu çox sevindirici haldır. Əlbəttə ki, Bakı – paytaxtımız, sevimli şəhərimiz dünyanın ən gözəl şəhərləri sırasındadır. Bunu təkcə biz yox, Bakıya gələn hər bir insan görür və qeyd edir. Ancaq mən istəyirəm ki, bütün şəhərlərimiz gözəl, abad olsun və orada yaşamaq üçün bütün şərait olsun. Regional inkişaf proqramı da məhz bu məqsədlə qəbul

olunmuşdur. Bu gün regionlarda həm təhsil, həm səhiyyə, həm infrastruktur, həm də bütün başqa sahələrdə işlər yüksək səviyyədə aparılır.

Bu ilin doqquz ayında valyuta ehtiyatlarımız artmışdır. Qeyd etməliyəm ki, hətta keçən il, böhranlı ildə valyuta ehtiyatlarımız artmışdır. Baxmayaraq ki, valyuta ehtiyatlarımızın əsas mənbəyi neft-qaz satışıdır və keçən il neftin qiyməti 3-4 dəfə aşağı düşmüşdür, biz düşünülmüş siyasətlə və bu imkanlardan səmərəli şəkildə istifadə etməklə həm ölkə qarşısında duran problemləri həll etdik, infrastruktur layihələrinə böyük vəsait ayırdıq, eyni zamanda, həm keçən il, həm də bu il valyuta ehtiyatlarının azalmasına imkan vermədik. Artıq bu gün mənə verilən məlumata görə, ümumi valyuta ehtiyatlarımız 28 milyard dollardan çoxdur. Bu, əlbəttə ki, bizi daha da gücləndirir, bizi tam şəkildə əmin edir ki, bundan uzun illər, onilliklər sonra Azərbaycan ancaq və ancaq inkişaf yolu ilə gedəcək, Azərbaycan daha da çiçəklənəcək, daha da zəngin dövlətə çevriləcək və ölkə qarşısında duran iqtisadi və sosial problemlər daha da sürətlə həllini tapacaqdır. Bütövlükdə bu mənzərə bir daha onu göstərir ki, Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır, daxili resurslara söykənir, Azərbaycanda iqtisadi və sosial məsələlərin həllində düşünülmüş proqram, strategiya, hər il üçün layihə paketi vardır. Biz bu məsələləri həm Bakıda, həm bölgələrdə vaxtaşırı müzakirə edirik ki, bütün bu işləri lazımi səviyyədə irəliyə aparaq və əlaqələndirmə məsələlərini uğurla həll edək.

Bu il neft-qaz sektorunda qarşıda qoyulan məsələlər həll olunur, neft və qaz hasilatı artır. Mənə verilən son məlumata görə, ilin sonuna qədər Azərbaycanda 50 milyon tondan çox neft və 28 milyard kubmetrdən artıq qaz hasil ediləcəkdir. Bunun böyük hissəsi ixrac edilir və ixrac imkanlarımız, ixracın coğrafiyası genişlənir. Bu gün Azərbaycan qazı qonşu ölkələrə nəql edilir. Azərbaycan nefti bütün dünyaya daşınır. Demək olar ki, Azərbaycan nefti artıq bütün qitələrə çatıbdır. Əlbəttə ki, bu, ölkələrlə həm iqtisadi, həm ikitərəfli əlaqələrimizin inkişafı

üçün çox müsbət şərait yaradır. Gələn il biz elə etməliyik ki, təbii resurslarımızdan daha da səmərəli şəkildə istifadə edək. Xüsusilə qaz sahəsində itkilərin azaldılması və Azərbaycanda qazlaşdırma məsələlərinin daha da uğurlu həlli üçün çalışmalıyıq.

Azərbaycanda energetika, neft-qaz sahələrində görülən işlər təkcə daxili işlərlə məhdudlaşmır. Neft-qaz sənayesində apardığımız işlər bölgə və son zamanlar Avropa qitəsi üçün mühüm rol oynamağa başlamışdır. Yəni nə biz, nə də ki, tərəfdaşlarımız Azərbaycanın neft-qaz siyasətinə təkcə Azərbaycanın daxili işi kimi baxmırıq. Çünki bu, artıq beynəlxalq münasibətlərdə, dünya enerji xəritəsinin yenidən formalaşmasında mühüm rol oynayır. Azərbaycan bu gün enerji sektorunda müstəqil və çox etibarlı oyunçuya çevrilibdir. Ölkəmizdə aparılan işlər, müəyyən edilən strategiya, taktika və inkişaf perspektivləri bölgə ölkələrinə, dünya enerji bazarına, neft resurslarının müxtəlif yollarla müxtəlif bazarlara çıxarılmasına təsir edir. Onu da qeyd etməliyəm ki, bu çox müsbət təsirdir. Çünki Azərbaycan öz təbii resurslarından və enerji siyasətindən elə istifadə edir ki, daha da çox dostlarımız, tərəfdaşlarımız olsun. Enerji siyasətimiz ancaq və ancaq əməkdaşlığın dərinləşməsinə xidmət edir.

Bu il bu sahədə xüsusilə vacib addımlar atılmışdır. Azərbaycanın qaz potensialı artıq daha da səmərəli şəkildə realizə edilir. Qaz ixracımız artır, biz yeni yollar axtarırıq, tapırıq. Yeni layihələr üzərində işləyirik. Həm investisiya qoyuruq, həm texniki-iqtisadi əsaslandırma hazırlanır ki, bütün layihələrimiz səmərəli olsun. Biz istənilən layihənin üzərində daha da ciddi işləməyə hazırıq.

Bir sözlə, bu günə qədər görülən işlər və xüsusilə bundan sonra görüləcək işlər Azərbaycanı daha da möhkəmləndirəcək, ölkəmiz bu siyasətdən həm iqtisadi, həm siyasi cəhətdən, bütün başqa sahələrdə çox böyük fayda görəcəkdir. Bu gün biz bu barədə danışacağıq.

2010-cu ildə müsbət nəticələr göz qabağındadır. Bunun əlaməti gələn ilin dövlət büdcəsidir. Gələn ilin dövlət büdcəsi bu il və əvvəlki illərdə əldə edilmiş, qazanılmış uğurlar əsasında formalaşıb. Artıq büdcənin parametrləri açıqlanıbdır. Gələn il Azərbaycanda dövlət xərcləri 12 milyard 700 milyon manat təşkil edəcəkdir. Bu, 15 milyard dollar deməkdir. Bu çox böyük rəqəmdir. Əgər biz bu büdcəni adambaşına hesablasaq, görərik ki, Azərbaycan bu sahədə qabaqcıl ölkələrin sırasındadır. Büdcə kəsiri də lazımi səviyyədədir. Yəni, vaxtilə Avropa İttifaqı tərəfindən qəbul edilmiş meyarların altındadır. Bu da çox gözəl göstəricidir. Yəni, Azərbaycanda bu işlər Avropa standartlarına tam uyğun şəkildə aparılır. Büdcəmiz həm investisiya-yönümlüdür, həm də sosial məsələlər orada həll olunacaqdır. Sosial məsələlərin həlli, qeyd etdiyim kimi, bizim üçün çox vacib məsələdir.

Bir sözlə, növbəti ilin dövlət büdcəsi bizə imkan verəcək ki, gələn il üçün nəzərdə tutduğumuz bütün layihələr icra olunsun. Bu layihələr çoxdur, həm tikinti sahəsində, həm sosial məsələlərin həlli işində. Biz Azərbaycanda böyük sənaye müəssisələrinin dövlət dəstəyi ilə yaradılmasına çalışırıq. Azərbaycan Dövlət İnvestisiya Şirkəti bu məsələlərdə fəal rol oynayır. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kreditlərin verilməsi, aqrolizinq, subsidiyalar – yəni, qarşımızda duran məsələlər çoxdur. Ölkədə həllini gözləyən problemlər vardır. Biz bu problemləri bilirik və bu gün bu barədə danışacağıq. Hər il üçün işimizi konkret proqram əsasında qururuq ki, ölkə iqtisadiyyatı və ümumiyyətlə, ölkə sürətlə inkişaf etsin.

Bu ilin dövlət büdcəsində hərbi xərclər xüsusi yer tutur. Bu, birinci il deyil ki, Azərbaycanın hərbi xərcləri xərclər arasında birinci yerdədir. Bu təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq və ordu quruculuğu prosesinin sürətləndirilməsi, gücləndirilməsi üçün Azərbaycan dövləti əlindən gələni edir. Bu gün orduya ayrılan xərclər Silahlı Qüvvələrimizi gücləndirir. Bu gün Azərbaycan Ordusu bölgədə – Cənubi Qafqazda ən

güclü, ən peşəkar, ən mübariz ordudur və əlbəttə ki, biz bu istiqamətdə aparılan işləri davam etdirəcəyik.

Gələn il bütün hərbi xərclərimiz 2 milyard 500 milyon manat səviyyəsində olacaq ki, bu da 3 milyard dollardan çoxdur. Nəzərə alsaq ki, torpaqlarımızı işğal altında saxlamağa davam edən Ermənistanın bütün dövlət büdcəsi 2 milyard dollardan bir az çoxdur, görərik ki, Azərbaycanın hərbi xərclərinin Ermənistanın bütün xərclərindən üstün olması ilə bağlı vaxtilə qarşımıza qoyduğumuz vəzifə artıq həll olunub və bu gün bu reallıqdır. Zaman keçdikcə bütün xərclərimizi, o cümlədən müdafiə xərclərimizi daha da artıracağıq. Ermənistandan fərqli olaraq, biz bunu öz pulumuzla edirik, heç bir başqa ölkədən asılı deyilik, heç bir başqa ölkə qarşısında gözükölgəli deyilik, heç kimə yalvarmırıq.

Ermənistandan fərqli olaraq, iqtisadiyyatımızı, ordumuzu Azərbaycan xalqının iradəsi və zəhməti hesabına qururuq. Xalqımızın zəhməti hesabına qazanılmış gəlirlər Azərbaycan üçün ən vacib olan ordu quruculuğu sahəsinə yönəldilir. Biz gələcəkdə də bu işləri davam etdirəcəyik. Torpaqlarımız işğal altındadır. Biz çalışırıq və çalışacağıq ki, tezliklə bu işğala son qoyaq.

Bilirsiniz ki, işğal edilmiş ərazilərə bu yaxınlarda ATƏT-in qiymətləndirmə missiyası göndərilmişdir. Hesab edirəm ki, bu çox müsbət bir haldır. 5 il bundan əvvəl, 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyası ilk dəfə olaraq işğal edilmiş torpaqlara göndərilmişdi. O missiya tərəfindən hazırlanmış hesabat açıq-aydın göstərir ki, erməni qəsbkarları, erməni vandalları hansı cinayətlər törətmişlər.

Bu günlərdə həyata keçirilən missiya, əlbəttə ki, həm müqayisə aparmalı, eyni zamanda, orada baş verən dağıntıları, cinayətləri öz hesabatında bir daha əks etdirməlidir. Mən ümid edirəm ki, missiyanın hesabatı ədalətli, obyektiv olacaq, balanslaşdırılmış olmayacaqdır. Çünki danışıqlar prosesində bir çox hallarda vasitəçilər fəaliyyətini balanslaşdırılmış yanaşma ilə qururlar. Ancaq bu sahədə heç bir balanslaşdırmadan söhbət

gedə bilməz. Çünki bu bizim torpağımızdır, orada bütün binalar ermənilər tərəfindən dağıdılıb, bir dənə daş üstə daş qalmayıb, bütün tarixi abidələrimiz, məscidlərimiz, evlər dağıdılıb və talan edilib. Bütün bunlar erməni vandalları tərəfindən törədilib. Orada bütün maddi dəyərlər erməni talançıları tərəfindən oğurlanıb və dağıdılıb.

İşğal edilmiş ərazilərdə törədilən cinayətlər erməni faşizminin vəhşi sifətini göstərir. Biz bunu bilirik və çox müsbət haldır ki, dünya birliyi bu barədə bir daha məlumat alacaqdır. Çox ümid edirəm və bir daha demək istəyirəm ki, bu hesabat obyektiv olsun və reallıqları əks etdirsin. Budəfəki missiyanın xüsusiyyəti bir də ondan ibarətdir ki, onun tərkibinə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndələri də daxil edilibdir. Bu çox vacib haldır, həm siyasi, həm də praktiki cəhətdən. Ümid edirəm ki, biz yaxın zamanlarda bu hesabatla tanış olacağıq.

O ki qaldı münaqişənin həlli ilə bağlı məsələyə, bir daha demək istəyirəm ki, Azərbaycanın bu məsələ ilə bağlı prinsipial mövqeyi vardır və Azərbaycan bu mövqedən bir addım geri atmayacaqdır. Dağlıq Qarabağ Azərbaycan torpağıdır və bu məsələ həllini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tapmalıdır. Bu prinsipdən kənarda heç bir məsələ həll oluna bilməz. Biz imkan verə bilmərik ki, Azərbaycanın tarixi torpaqlarında ikinci erməni dövləti yaradılsın. Birinci erməni dövləti 1918-ci ildə Azərbaycan torpaqlarında – İrəvan xanlığı, Zəngəzur mahalı ərazilərində yaradılmışdır.

İkinci erməni dövləti Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağda yaradıla bilməz. Biz bu prinsipial mövqeni bütün beynəlxalq təşkilatlarda müdafiə edəcəyik. Biz praktiki işlərimizlə, ölkəmizi gücləndirməklə bu günü yaxınlaşdırırıq ki, torpaqlarımız işğalçılardan azad olunsun.

Son zamanlar bütün aparıcı beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı mövqelərini bildirmişlər. Əlbəttə ki, bunların arasında BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsas rol oynayır. ATƏT-in qərarları, Avropa Şurasının, İslam Konfransı

Təşkilatının və son zamanlarda Avropa parlamentinin qətnamələri və qərarları birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, işğala son qoyulmasını tələb edir.

Bu gün Ermənistanı Azərbaycan ilə müqayisə etmək mümkün deyildir. Azərbaycan çiçəklənən, qüdrətlənən, güclənən, müasir, dinamik inkişaf edən, öz resurslarına arxalanan ölkədir. Ermənistan kommunikasiyalardan kənarda qalan, asılı vəziyyətdə olan, başqa ölkələrin və dairələrin ianəsi ilə güclə dolanan ölkədir. Bu iki ölkəni müqayisə etmək mümkün deyildir. Heç şübhə etmirəm ki, illər keçdikcə fərq daha da böyüyəcək və beləliklə, biz hərbi potensialımızı daha da gücləndirməklə məsələnin həllinə nail olacağıq.

Ermənistanda bir məsələni də unutmamalıdırlar. Bu, demoqrafiya məsələsidir. Bu gün Azərbaycan əhalisinin sayı 9 milyondan artıqdır. Ermənistanda isə ölkədən kütləvi şəkildə köç baş verir. Çünki insanlar orada dözülməz şəraitdən beziblər. Orada yaradılmış polis rejimi insanlara imkan vermir ki, azad şəkildə yaşasınlar. Erməni qəsbkarları təkcə Azərbaycan xalqının qanını axıtmayıblar. Hərbi cinayətlər təkcə Xocalıda və başqa yerlərdə törədilməmişdir. Onlar 2008-ci ildə öz xalqına qarşı qəddarlıq, cinayətlər törətmişlər. Ordu tərəfindən 10-dan yuxarı vətəndaş öldürülmüşdür. Yəni Azərbaycan həm siyasi, həm iqtisadi, həm demoqrafiya cəhətdən, əlbəttə ki, böyük dərəcədə fərqlənir. Mən əminəm ki, bu məsələlərin kompleks şəkildə bax, bu yolla inkişaf etməsi bizi məqsədimizə gətirib çatdıracaqdır.

# YEKUN NİTQİ

Bir daha demək istəyirəm ki, ilin sonuna iki ay qalıb. Qalan məsələlərin hamısı bu aylar ərzində öz həllini tapmalıdır. Bütün investisiya, infrastruktur layihələri başa çatdırılmalıdır. Əminəm ki, 2010-cu ilin yekunları Azərbaycan üçün uğurlu olacaqdır. Makroiqtisadi vəziyyət sabitdir, bu barədə mən rəqəmləri gətirdim. Bir daha demək istəyirəm ki, inflyasiyanın 5,2 faizlik səviyyəsi qənaətbəxşdir. Ancaq bununla bərabər, biz ciddi nəzarət etməliyik ki, qiymətlərin süni şəkildə qaldırılmasına yol verilməsin və beləliklə, inflyasiyanın səviyyəsi aşağı səviyyədə saxlanılsın. Bu sahədə işlər aparılır. İstehlak bazarına nəzarət işi təkmilləşir və bu məsələ daim diqqət mərkəzində olmalıdır.

Manatın məzənnəsi sabitdir. Bu da həm iqtisadiyyatımızı gücləndirir, eyni zamanda, sosial məsələlərin həlli üçün də çox mühüm rol oynayır. Keçən il MDB məkanında əksər hallarda milli valyutalar devalvasiyaya uğramışdır. Bu addım bəzi ölkələrdə zərurət nəticəsində atılmışdır. Çünki ölkələrin iqtisadiyyatı böhrana davam gətirə bilmirdi və milli valyutaların devalvasiyası bir növ insanların rifahı hesabına baş vermişdir. Böhrana baxmayaraq, biz Azərbaycanda manatın sabit vəziyyətdə saxlanmasına nail olduq. Müəyyən iqtisadi çətinliklərlə üzləşmişdik, ancaq ilk növbədə, sosial məsələlərin həllinə çalışırdıq. Biz imkan verə bilməzdik ki, böhran insanların gündəlik həyatında özünü göstərsin. Ümumiyyətlə, 2009-cu ilin böhranı Azərbaycana çox az təsir göstərmişdir. O ki qaldı vətəndaşlara, demək olar ki, ümumiyyətlə, Azərbaycan vətəndaşları bu böhranı hiss etməmişlər. İlk növbədə ona görə ki, biz manatı sabit şəkildə saxladıq. Bunu etmək üçün, əlbəttə ki, maddi resurslarımız və bununla bərabər, güclü siyasi iradə olmalıdır. Hazırda manatın məzənnəsi bizi qane edir və əminəm ki, manat güclü valyuta kimi, gələcək illərdə də Azərbaycan

iqtisadiyyatının və sosial məsələlərin həlli üçün öz rolunu oynayacaqdır.

Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə inkişaf etmiş iqtisadiyyat hesab oluna bilər. Hər halda, Dünya İqtisadi Forumunun hesabatına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə MDB məkanında birinci yerdədir. Bu onu göstərir ki, neftdən əldə edilmiş gəlirlər investisiya şəklində iqtisadiyyatın digər sektorlarına qoyulmuşdur. Digər tərəfdən, bu sahədə tam şəkildə şəffaflıq göstərilmişdir. Çalışmalıyıq ki, bütün maliyyə və iqtisadi sektorlarda işlər neft gəlirlərinin idarə edilməsi sahəsindəki uğurlara bərabər səviyyədə təşkil olunsun. Belə olan halda Azərbaycanda, ümumiyyətlə, iqtisadi və maliyyə sektorlarında həm şəffaflıq 100 faiz təmin olunacaq, həm də işlərimizin daha da səmərəli şəkildə aparılması üçün şərait yaradılacaqdır.

Rəqabət qabiliyyətliliyin yüksək səviyyədə saxlanılması üçün Azərbaycanda bütün imkanlar vardır. Biz iqtisadi sahədə liberal siyasət aparırıq. Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir. Xüsusilə son vaxtlar Dövlət Neft Şirkəti ilə xarici şirkətlər arasında imzalanmış yeni kontraktlar bunu göstərir ki, Azərbaycanda bu sahəyə xaricdən maraq artmaqdadır. Digər tərəfdən, Azərbaycanın qeyri-neft sektoruna böyük həcmdə investisiyalar qoyulur və biz bunu hər gün görə bilərik. Bakının müasirləşən, gözəlləşən siması bunu göstərir. Özəl şirkətlər tərəfindən həm infrastruktur, həm xidmət sektoruna çox böyük investisiyalar qoyulur. Əgər infrastruktur layihələri dövlət tərəfindən icra olunmasaydı, əlbəttə ki, nə paytaxtda, nə də bölgələrdə xidmət sektoruna heç kim investisiyalar qoymazdı. Bu gün bölgələrimizdə beşulduzlu otellər, gözəl istirahət mərkəzləri tikilir, çünki turizm imkanları çox genişdir. Gözəl təbii şəraitimiz, təbiətimiz səviyyəsində müasir istirahət və mehmanxana kompleksləri tikilir ki, bu, Azərbaycanın turizm imkanlarını xeyli dərəcədə artıracaqdır.

Beləliklə, dövlət tərəfindən özəl sektora verilən həm siyasi, həm maddi dəstək, həm də güzəştli şərtlərlə ayrılan kreditlər –

bütün bunlar iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyini artırır və şaxələndirilməsi üçün çox möhkəm əsas yaradır. Xatırlayıram, 5-10 il bundan əvvəl bəzi xarici elmi mərkəzlərdə Azərbaycanın neft strategiyası ilə bağlı keçirilmiş müzakirələrdə belə bir fikir ortaya qoyulurdu ki, Azərbaycanda «holland sindromu» olacaq, Azərbaycan iqtisadiyyatı birtərəfli şəkildə inkişaf edəcək, Azərbaycan o təbii resurslardan səmərəli şəkildə istifadə edə bilməyəcəkdir. Mən o söhbətləri yaxşı xatırlayıram və çox şadam ki, bu gün biz artıq o söhbətləri eşitmirik. Biz o vaxt da bilirdik ki, Azərbaycanda nə «holland sindromu» olacaq, nə də iqtisadiyyat birtərəfli inkişaf edəcəkdir. Biz bilirdik ki, Azərbaycanda neftdən əldə olunan gəlirlər ən yüksək səviyyədə idarə olunacaqdır. Məhz bu məqsədlə Azərbaycan Hasilat Sənayelərində Şəffaflıq Təşəbbüsünə qoşulmuşdur. Bu gün Neft fondunun icraçı direktoru söylədi ki, biz bu sahədə birinci ölkəyik ki, proqramın tamhüquqlu üzvlük səviyyəsinə nail olmuşuq. Biz bunu təkcə xarici mərkəzlərdə keçirilən müzakirələrdə yaxşı qiymət almaq üçün etmirik. Biz bunu ona görə edirik ki, bu, ölkəmizi gücləndirir.

Azərbaycanda bu sahədə tam şəkildə şəffaflıq təmin edilib, heç bir fikir ayrılığı yoxdur. Hər bir vətəndaş bilir və yaxud bilə bilər ki, Azərbaycana neftdən nə qədər gəlir gəlib, bu gəlirdən nə qədər faiz gəlib üstünə, nə qədər xərclənib, necə xərclənib. Dövlət Neft Fondundan ayrılan xərclərdən istifadə yalnız parlamentdə müzakirələrdən sonra mümkündür.

Biz şəffaflığı təmin etməklə bugünkü vəziyyətə nail olduq. Bizim gəlirlərimiz artır. Əgər şəffaflıq olmasaydı, mən deyə bilərəm ki, bu gün bu 28 milyard dollar valyuta ehtiyatlarımızı bəlkə də heç görməzdik. Ancaq şəffaflıq və vəsaitdən səmərəli şəkildə istifadə olunması imkan verdi ki, biz bu ehtiyatı yaradaq. Gələcək illərdə bu ehtiyat daha da böyük həcmlərlə ölçüləcəkdir. Vəsaitin idarə olunmasından artıq böyük mənfəət əldə olunur. Təbii ki, vəsaitin həcmi böyüdükcə idarəolunmadan da əldə ediləcək gəlir daha da böyük

rəqəmlərlə ölçüləcəkdir. Vaxt gələcək ki, Azərbaycanın dövlət büdcəsinin müəyyən hissəsi, bax, o vəsaitin idarə olunmasından əldə ediləcək gəlirlər hesabına formalaşacaqdır.

Azərbaycanda sahibkarlığın, özəl sektorun inkişafına dövlət tərəfindən dəstək verilir. Hesab edirəm ki, növbəti mərhələdə həm də bu məsələnin sosial amili nəzərə alınmalıdır. Çünki verilən kreditlər iş yerlərinin açılmasına xidmət göstərir, insanların yaşayış səviyyəsini artırır və bu amil daim diqqət mərkəzində olmalıdır. Çalışmalıyıq o sahələrə, o firmalara kreditlər daha da çox ayrılsın ki, onlar rəqabət qabiliyyətli məhsulu istehsal edə bilsinlər. Həm daxili tələbatı keyfiyyətli məhsullarla təmin etsinlər, həm də ki, Azərbaycanda ixrac potensialı genişlənsin.

Bununla bağlı sənaye potensialının inkişafı üçün əlavə tədbirlərin görülməsi də nəzərdə tutulur. Azərbaycanda sənayeləşmə siyasəti aparılır. Həm dövlət tərəfindən, həm də dövlətin dəstəyi ilə özəl sektor bu işlərə fəal qoşulubdur. İri müəssisələrimiz bərpa olunur. O müəssisələr ki, vaxtilə sovet dovründə tikilib, indi yararsız vəziyyətdədir, onlar sökülür və o ərazilərdə yeni müəssisələr yaradılır. Bu proses xüsusilə Sumqayıt şəhərində çox sürətlə gedir. Sumqayıt vaxtilə kimya sənayesinin inkişafı sahəsində böyük nailiyyətlər əldə etmişdir. Bu gün neft-kimya kompleksinin fəaliyyəti və əlavə planlarımızın həyata keçirilməsi ilə bərabər, Sumqayıt sənaye şəhərinə çevrilməlidir. Orada tikilən texnopark bu istiqamətdə atılan ən vacib addımlardan biridir. Orada artıq bir neçə rəqabət qabiliyyətli müəssisə yaradılır. Biz elə etməliyik ki, Sumqayıtı bu istiqamətdə inkişaf etdirək və Azərbaycanın sənaye mərkəzinə çevirək. İndi Bakıdan Sumqayıta yeni gözəl yol çəkilibdir və məsafə, demək olar ki, qısalıbdır. Sənaye sahəsinin inkişafı üçün Sumqayıtın xüsusi yeri vardır.

Bu il Azərbaycanda «Ekologiya ili» elan edilib və bu sahədə böyük işlər görülüb. Mən çox şadam ki, ağacəkmə təşəbbüsüm Azərbaycan ictimaiyyəti tərəfindən dəstəklənib. Böyük sevinc hissi ilə deyə bilərəm ki, mənə verilən məlumata görə, 9 ayda

Azərbaycanda 6 milyon ağac əkilmişdir. Onlardan 800 mini Bakı və Abşeron yarımadasında əkilmişdir. Bu proses davam edir və əminəm ki, 2011-ci ildə də ekologiya ilə bağlı bütün məsələlər uğurla həll olunacaqdır.

Biz «Ekologiya ili»nin elan edilməsi ilə bağlı bir məqsədi güdürdük ki, bu sahəyə həm ictimaiyyət, həm də dövlət qurumları tərəfindən diqqət daha da artsın və buna nail olduq. Biz bu gözəl təşəbbüsləri növbəti illərdə davam etdirməliyik.

İndi Kür və Araz çayları boyunca qurulan təmizləyici qurğular yüz minlərlə insanın təmiz su ilə təmin olunmasına xidmət göstərir. Çirklənmiş göllərin, Xəzər dənizinin təmizlənməsi, kanalizasiya sisteminin qurulması – bütün bu işlər gələn il də nəzərdə tutulur. Biz elə etməliyik ki, Bakı və Abşeron yarımadasının bütün ekoloji problemlərini tezliklə həll edək, neftlə çirklənmiş gölməçələri qurudaq. Digər göllərdə – hansı ki, keçən müşavirədə bu barədə mən geniş söyləmişdim – təmizlik işləri aparılmalıdır, kanalizasiya sistemi qurulmalıdır. Bir sözlə, bu sahə daim diqqət mərkəzində olmalıdır.

Hesab edirəm ki, Bakı buxtasının təmizlənməsi üçün əlavə ciddi tədbirlər görülməlidir. İndi Bakı bulvarını genişləndirdik və dənizə lap yaxınlaşdırdıq. Bu gün Bakı sakinləri və şəhərimizin qonaqları dənizə tam yaxın olan yerlərdə gəzintiyə çıxırlar. Belə olan halda, əlbəttə ki, buxtanın suyu təmiz olmalıdır. Əfsuslar olsun ki, bu günə qədər də müxtəlif yerlərdən ora axıdılan çirkab suları buxtanın təmizlənməsinə imkan vermir. Ona görə mən göstəriş verirəm ki, yaxın zamanlarda Bakı buxtasının kanalizasiya məsələləri ayrıca işlənilsin. Mən bu göstərişi bir müddət bundan əvvəl ilkin olaraq vermişdim. Müəyyən hazırlıq işləri aparılmışdır. Elə etməliyik ki, biz gələn ildən başlayaraq xüsusi layihə kimi, Bakı buxtasının kanalizasiya sisteminin ən müasir səviyyədə tətbiqinə nail olaq. İşlər gələn ilin əvvəlindən başlamalıdır və tezliklə öz həllini tapmalıdır. Beləliklə, mən əminəm ki, bir neçə ildən sonra Bakı buxtasının suyu tam şəffaf olacaqdır.

Bu il biz böyük təbii fəlakətlərlə, tarixdə misli görünməyən sel və daşqınlarla üzləşdik. Bu həm insanlara böyük əziyyət verdi, eyni zamanda, kənd təsərrüfatına böyük ziyan dəydi. On minlərlə hektar torpağımız suyun altında qalmışdı, minlərlə ev yararsız vəziyyətə düşmüşdü. Ancaq bizim bütün qurumlar çox yaxşı, çox səmərəli işlədilər. Həm dövlət qurumları, həm özəl şirkətlər bu işlərə qoşulmuşdu. Bu bir ümumxalq məsələsi kimi qəbul edildi və bütün xoşagəlməz hallara qısa müddət ərzində son qoyuldu. Ən önəmlisi, bütün insanlar xilas edildi. İndi biz görürük, dünyanın müxtəlif yerlərində yanğınlar, daşqınlar, sellər baş verir və bu, insan ölümü ilə nəticələnir. Ancaq biz bütün insanları xilas etdik. Vaxtından əvvəl bütün tədbirlər görüldü və xilasedicilər, bu məsələ ilə bağlı olan bütün qurumlar çox səmərəli işlədilər.

Mən keçən dəfə də demişdim ki, evlərin bərpa prosesi qış gələnə qədər həll olunmalıdır. Bu sahədə işlər gedir. Artıq Hacıqabul rayonunda ilk evlər təhvil verilmişdir. Mən bilirəm ki, başqa rayonlarda da tikinti işləri gedir. Bu işlər daha da sürətlə getməlidir ki, biz qış gələnə qədər insanları yaxşı evlərlə təmin edək. O da qeyd olunmalıdır ki, tikilən evlər dağılmış evlərdən qat-qat keyfiyyətlidir, genişdir, rahatdır. Dağılmış evlərin böyük hissəsi çiy kərpicdən tikilmişdi. Böyük hissəsi çox kiçik və yararsız vəziyyətdə idi. Həm xarici görünüşü çox bərbad idi, həm də şəraiti yox idi. İndi tikilən evlər daş evlərdir, gözəl evlərdir, bütün şəraiti vardır və əvvəlki evlərdən daha da rahat və genişdir.

Onu da qeyd etməliyəm ki, bütün bu işləri Azərbaycan dövləti öz hesabına etmişdir. Həm də bütün xilasetmə işləri Azərbaycan xilasediciləri tərəfindən görülmüşdür. Bu gün bütün tikinti-bərpa işləri də Azərbaycan dövlətinin hesabına görülür. Bütün bu işlər heç bir yerdən yardım almadan, Azərbaycanın dövlət büdcəsi hesabına görülür. Burada işlər təkcə evlərin tikintisi ilə bitmir. Məktəblər də, yollar da, elektrik və qaz xətləri, su kəmərləri də dağılıbdır. Yəni, bütün infrastruktur yeniləşir və biz bunu bir neçə ay ərzində edirik. Bu

həm böyük texniki məharət, həm də böyük maliyyə resursları tələb edən işlərdir. Dövlət büdcəsinə əlavələr edildi, 300 milyon manat vəsait ayrıldı. Yəni bu onu göstərir ki, Azərbaycan dövləti heç vaxt öz vətəndaşını darda qoymaz.

Bu bir də onu göstərir ki, bizim üçün əsas məsələ Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasıdır, Azərbaycan xalqının maraqlarıdır. Biz indi iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında qurmuşuq və bu bizi gücləndirir. Ancaq bununla bərabər, biz öz işimizi tam bazar iqtisadiyyatı prinsipləri əsasında qura bilmərik. Əgər belə olsaydı, əgər biz işlərimizi sırf bazar iqtisadiyyatı əsasında qursaydıq, onda Azərbaycan dövləti o işlərin birini də görə bilməzdi. Xarici ölkələrdə əgər kiminsə evi uçur, yaxud da ki, təbii fəlakət nəticəsində dağılırsa, o, sığorta şirkətinə müraciət edir. Orada bütün evlər sığortalıdır. O, sığorta pulunu alır, dövlət bir manat xərcləmədən kənarda dayanır. Ancaq bizim evlərin hansı sığortalıdır?! O çiy kərpicdən tikilmiş evlərin hansı sığortalıdır?! Ona görə dövlət bu yükü könüllü şəkildə öz üzərinə götürüb. Bir də onu demək istəyirəm ki, dövlət insanlara qayğı göstərir, eyni zamanda, kompensasiya ödənilir. Kompensasiyanın məbləği, hesab edirəm ki, ziyanın müəyyən hissəsini təmin edir. Ona görə bu, sırf dövlətin xoş niyyətinin təzahürü, xoş niyyətinin əlamətidir və hər kəs bunu qiymətləndirməlidir.

Mən bilirəm ki, ziyan çəkmiş insanların mütləq əksəriyyəti bu minnətdarlıq hissi ilə yaşayır və bu da təbiidir. Hesab edirəm, hamı bilməlidir ki, dövlət bunu öz sosial siyasətinin inkişafı və əlaməti kimi edir və edəcəkdir. Xüsusilə qeyd etməliyəm ki, biz bunu soyuqlar düşənə qədər etməliyik ki, hazırda müvəqqəti yerlərdə yaşayan insanlar tezliklə rahat evlərə köçsünlər. Bununla bərabər, bu halların gələcəkdə qarşısının alınması üçün tədbirlər – sahilbərkitmə, suların idarə olunması işləri də görülür və görülməlidir. İndi biz bu işlərə xarici mütəxəssisləri də cəlb etmişik, yerli mütəxəssislər də bu sahədə böyük təcrübəyə malikdirlər. Elə etməliyik ki, gələcəkdə

bu bəlalardan özümüzü sığortalayaq. Əminəm ki, buna nail olacağıq.

Yol tikintisi sahəsində də böyük uğurlu işlər görülür. Bu yaxınlarda Mingəçevir–Xaldan yolunun bir hissəsinin açılışını qeyd etdik. İpək yolu, demək olar ki, tam hazırdır, müəyyən hissələrdə işlər gedir. İndi Bakıdan qərb sərhədinə qədər gözəl yol çəkilir. Şimal–cənub istiqamətlərində yollar çəkilir, şəhərlərarası yollar, kənd yolları salınır. Bu sahəyə böyük investisiyalar qoyulur və qoyulmalıdır. Biz yola qoyulan vəsaitin nəticələrini regionların inkişafında görürük. Bir neçə ildən sonra Azərbaycanın bütün magistral yolları dünya standartlarına cavab verəcəkdir. Biz şəhərlərarası yollara və xüsusilə indiki şəraitdə kənd yollarına diqqət göstərməliyik, çünki bu sahədə hələ çox iş görülməlidir.

Bütövlükdə nəqliyyat sektorunda bütün proqramlar icra edilir. Bakıda metro tikintisi aparılır. Bu məsələ ilə bağlı yəqin ki, ayrıca müşavirə keçirəcəyik. İşlər gedir və uzunmüddətli proqram hazırlanır. Biz bunu geniş müzakirə etməliyik. Gələn illərin investisiya proqramında metro tikintisinə ayrılacaq xərclər də nəzərə alınmalıdır ki, biz bu işləri maksimum yüksək səviyyədə həll edək. Çünki Bakının əhalisinin sayı artır.

Bakının sürətli inkişafı metronun da inkişafının təmin edilməsi üçün əlavə tədbirlərin görülməsini diktə edir. Biz bunu etməliyik və edəcəyik.

Yaxın zamanlarda Ələtdə yeni dəniz limanının tikintisinə başlamalıyıq. Bu layihə də çox vacibdir. Əlbəttə, bu gün Azərbaycan ərazisindən keçən yüklər mövcud limanlarla nəql edilir, ancaq biz gələcəyə baxmalıyıq. Azərbaycan ərazisindən daha da böyük həcmdə yüklər daşınacaqdır. İlkin hesablamalara görə, xüsusilə Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsi nəticəsində 10 milyon tondan çox yükün nəqli gözlənilir. Gələcəkdə daha böyük rəqəmlər olacaqdır. Bakının beynəlxalq səviyyədə yeni dəniz limanı tikilməlidir. Hazırlıq işləri aparılır. Ümid edirəm ki, yaxın zamanlarda biz bu limanın tikintisinə başlayacağıq. Ondan sonra Bakının

mərkəzində yerləşən liman köçürüləcək və o ərazi istirahət yerləri üçün nəzərdə tutulur. Bakı bulvarının hər iki tərəfə uzadılması layihəsi vardır. İndiki Bakının dəniz limanı insanların istirahəti, gəzintisi üçün yenidən qurulacaq və beləliklə, şəhərimiz daha da gözəlləşəcəkdir.

Bakı bulvarı digər istiqamətə də genişləndirilməlidir, Bayraq Meydanına qədər. Orada artıq işlər görülür. Bayraq Meydanının ətrafında yeni bulvarlar, parklar, istirahət guşələri salınır. Bu işlər tamamlanandan sonra o hissə əhali üçün açılacaq. İndiki Bakı bulvarını Bayraq Meydanı ilə birləşdirmək üçün orada köçürülmələr baş verməlidir. Orada bəzi müəssisələr, obyektlər vardır, onları köçürdəcək, Bakı bulvarını Bayraq Meydanı ilə birləşdirəcəyik. Bayraq Meydanından sonra olan hissə üçün də gələcək illərdə ayrıca layihə hazırlanacaqdır. İndiki bulvar, bəlkə, iki dəfədən də çox böyüyəcək və gözəlləşəcəkdir.

Bakıda yol infrastrukturunun inkişafı üçün tədbirlər görülür. Yol qovşaqları, tunellər, körpülər tikilir. Bu, Bakıda nəqliyyat probleminin həllinə xeyli dərəcədə kömək göstərir. Bu gün Heydər Əliyev Beynəlxalq Aeroportunda Mərdəkan dairəsinə – əslində indi o dairə də yoxdur, amma adlar qalıb: «Mərdəkan dairəsi», «Sabunçu dairəsi», «Əzizbəyov dairəsi» – onların biri də yoxdur, qalmayıb. Yəni biz canımızı dairələrdən qurtardıq. Dairə əvəzinə müasir tunellər, körpülər, yol qovşaqları tikilir. Amma insanlar hələ köhnə qayda ilə «Mərdəkan dairəsi» deyirlər, o cümlədən də mən. Hazırda aeroportdan Mərdəkan istiqamətinə yol çəkilir. Oradan Bilgəh, Kürdəxanı, Pirşağı və Sumqayıta qədər yeni bir yol, əslində yeni bir arteriya, yeni bir damar açılacaqdır. Bu yol səkkiz və altızolaqlı olacaq, ən yüksək standartlara cavab verəcək və beləliklə, Bakının, Abşeronun o yerlərində yerləşən kəndləri bir-biri ilə, şəhərlə və şimal istiqaməti ilə bağlayacaqdır. Orada dairəvi yol da tikilir – cənub və qərb istiqamətini şəhərə girmədən birləşdirəcəkdir. Bu, böyük bir layihədir. Bu yaxınlarda mən orada işlərin gedişi ilə tanış oldum. Bu işlər qrafik üzrə aparılmalıdır.

İlin sonuna qədər sahibkarlığın inkişafı ilə bağlı qalan kreditlər də paylanmalıdır. Bu gün ölkə iqtisadiyyatının 82 faizi özəl sektorda formalaşır. Kreditlərin verilməsi, texnikanın, aqrolizinq, gübrə, toxumçuluq məsələlərinin həlli diqqət mərkəzində olmalıdır. Mən toxumçuluğu xüsusilə qeyd etmək istəyirəm, çünki dediyim başqa məsələlərlə bağlı işlər çoxdan gedir. Bu yaxınlarda Yevlaxda olarkən mən yeni toxumçuluq müəssisəsinin – «Azərtoxum»un açılışında iştirak etdim. Bu çox vacib məsələdir. Çünki Azərbaycanda ilk dəfə belə müəssisə yaradılır.

Mənə verilən məlumata görə, təkcə o müəssisə Azərbaycanın toxuma olan tələbatını 15–20 faiz səviyyəsində təmin edəcəkdir. Mən orada göstəriş verdim ki, o müəssisə daha da genişlənsin və Azərbaycanın başqa yerlərində buna bənzər müasir toxumçuluq kombinatları tikilsin ki, biz özümüzü toxumlarla 100 faiz təmin edək. Əgər biz buna nail olsaq, onda kənd təsərrüfatında, bitkiçilik sahəsində heç bir problem qalmayacaqdır. Bunu etmək üçün göstərişlər verildi. Azərbaycan Dövlət İnvestisiya Şirkəti bu işlərdə iştirak edəcək, vəsait qoyacaqdır. Elə etməliyik ki, gələn il həm mövcud müəssisənin genişlənməsi, həm də ki, yeni müəssisələrin tikintisi ilə bağlı konkret tədbirlər görülsün.

Soyuducu kameralar tikilir. Hər bir fermer bunun xeyrini görür. Taxıl anbarları tikilir. Bir-iki ilə bu sahədə də nəzərdə tutulmuş proqramlar başa çatacaq və beləliklə, bu həm qiymətlərin tənzimlənməsinə xidmət göstərəcək, həm də ki, məhsul xarab olmayacaqdır.

Maldarlıqla, quşçuluqla bağlı ayrıca tapşırıqlar verilmişdir, onlar icra edilir. Quşçuluqda biz hələ tam şəkildə tələbatımızı təmin edə bilmirik. Daxili tələbatı təqribən 70 faiz səviyyəsində təmin edirik. Ancaq ət istehsalında olduğu kimi, 100 faiz təmin etməliyik. İndi konkret layihələr hazırlanır. Ümid edirəm ki, biz bir-iki ilə bu sahədə də tələbatı tam şəkildə təmin edəcəyik. Ölkəyə cins mal-qara gətirilir. Beləliklə, bu sahəyə də böyük təkan verilir.

Energetika sahəsi ilə bağlı bir-iki məsələni də qeyd etmək istəyirəm. Birincisi, qazlaşdırma sahəsində müsbət addımlar atılır. Biz elə etməliyik ki, Azərbaycanın 90 faizi qazlaşdırılsın, həm əhali, həm də ki, sənaye müəssisələri. Bu, qarşıya bir hədəf kimi qoyulub. Bu istiqamətdə işlər görülür, yeni boru kəmərləri, magistral xətlər çəkilir, kompressor stansiyaları tikilir. Bu çox vacibdir. Çünki bizim qaz potensialımız artmaqdadır. Bu gün bizdə olan qaz ehtiyatları daxili tələbatdan və xarici ixrac imkanlarından daha da çoxdur. Yeraltı anbarlara 2 milyard 500 milyon kubmetr qaz doldurulur. Heç vaxt bu olmamışdır. Qaz anbarlarının tutumunu 3 milyard, bəlkə də 5 milyard kubmetrə çatdırmalıyıq, genişləndirməliyik. Amma qazı hər zaman anbarlara doldura bilmərik. Müəyyən həddən sonra o qazı ixrac etməliyik, ya da ki, ondan daxildə istifadə etməliyik. İnsanların sosial məsələlərinin həlli üçün də qazlaşma çox mühüm rol oynayır. Qazlaşdırma prosesi daha da sürətlə getməlidir ki, bu işlər keyfiyyətlə və tezliklə həll olunsun.

İxrac imkanlarımızı daha da genişləndirməliyik. 2010-cu ildə bu sahədə çox vacib addımlar atılmışdır. Biz ixrac imkanlarımızı və ixrac coğrafiyasını da genişləndirdik. Mən qeyd etdiyim kimi, Azərbaycan qazı qonşu ölkələrə nəql edilir. Biz buna gələcəkdə daha da böyük həcmdə nail olmalıyıq. Ümid edirəm ki, bu gün kəşfiyyat aparılan bloklardan yaxın zamanlarda yaxşı xəbərlər gələcəkdir. Xüsusilə biz «Ümid» yatağından yaxşı xəbərlər gözləyirik. «Ümid» yatağının adı özlüyündə bunu tələb edir. Bu yatağın işlənilməsinin xüsusiyyəti ondan ibarətdir ki, uzun fasilədən sonra Azərbaycan Dövlət Neft Şirkəti kəşfiyyat işlərini öz hesabına və öz gücü ilə aparır, böyük, dərin laylarda qazma işlərini yerinə yetirir. İlkin xəbərlər ümidvericidir. Səbirsizliklə gözləyirik ki, «Ümid» yatağında da böyük kəşfiyyatı görək. Belə olan halda Azərbaycanın qaz potensialı daha böyük və önəmli olacaqdır. Həm daxili tələbatın təmin edilməsi, həm ixracın həcminin artırılması üçün «Ümid» yatağında gözlənilən kəşfiyyat mühüm bir hadisə olacaqdır.

Bu gün «Azərenerji»nin prezidenti bərpa olunan enerji mənbələrinin layihəsi ilə bağlı görülən işlər barədə məlumat verdi. Biz bu sahəyə böyük əhəmiyyət veririk. Su mənbələrimizdən, resurslarımızdan bu məqsədlə istifadə etməliyik. Bu il işlər görülür, təməl daşını qoyduğumuz stansiyalar tikilir. Naxçıvandakı Biləv Su Elektrik Stansiyası böyük hadisədir. O, Naxçıvanın enerji potensialını gücləndirəcəkdir. Gələn il bütün başqa rayonlarda kiçik su elektrik stansiyaları tikilməlidir. Büdcədə kifayət qədər vəsait vardır. Bu vəsaitdən səmərəli şəkildə istifadə etməliyik. Bəzi hallarda işlərin yubanmasına bürokratik əngəllər də problem törədir. Əgər bürokratik prosedurlardan tezliklə keçə bilsəydik, bəzi hallarda bürokratiya, süründürməçilik, gərəksiz razılaşdırmalar olmasaydı, xüsusilə ekologiya sahəsində daha da çox işlər görülə bilərdi. Ağac əkmək, yaxud da ki, hansısa çirklənmiş gölü təmizləmək üçün aylarla icazə, razılaşdırma gözləməməliyik. Prezident tərəfindən məsələ qoyulub, tezliklə həll olunmalıdır. Özü də indi bizdə texniki imkanlar, peşəkar mütəxəssislər, hər şey vardır. Biz bu məsələlərə vaxt sərf etməməliyik. O cümlədən, bərpa olunan enerji mənbələrinin yaradılması üçün büdcədə vəsait vardır. Ancaq bu vəsaitdən necə istifadə olunub, indi ona baxmaq lazımdır. Məncə biz orada nəzərdə tutulmuş vəsaitin heç 50 faizini də istifadə edə bilməmişik. Belədir. Ona görə bu dözülməzdir. İl başa çatır. İlin əvvəlindən qarşıya vəzifə qoyulubdur. İndi biz cəmi 3 su elektrik stansiyasında təməl daşını qoyduq. Halbuki, stansiyaların sayı daha da çox ola bilərdi.

Bərpa olunan, yəni günəş enerji növlərinin yaradılması barədə mən ilin əvvəlindən məsələ qaldırdım. Agentlik yaradıldı. Mən başa düşürəm ki, burada təşkilati məsələlər, texniki-iqtisadi əsaslandırma həll olunmalı idi, ancaq il başa çatır. Bizim bir dənə günəş batareyamız var?! Yoxdur. Bir-ikisini mənə göstərdilər, Mərkəzi Seçki Komissiyasının binasının qabağında nümayiş etdirdilər, vəssalam. Azərbaycanda günəş batareyaları istehsal edəcək zavod tikilməlidir. Zavod

tikilsə həm iş yerləri olacaq, həm də ki, yerli istehsal. Amma o vaxta qədər gözləməliyik?! Hesab edirəm ki, bu il ərzində müəyyən yerlərdə günəş batareyalarını quraşdıra bilərdik.

Bütün qurumlar bu məsələlərdə daha da operativ olmalıdırlar. Burada idarələr arasındakı bəzi anlaşılmazlığa son qoyulmalıdır. Bu bizim ümumi işimizdir. Bəzən sürün-dürməçilik, bürokratiya həddindən artıq vaxtımızı alır. Mən istəyirəm ki, hər şey tez həll olunsun, vaxt itirməyək. Əgər hansısa tərəddüd, şübhə varsa, məsələ ciddi şəkildə araşdırılmalıdır. Amma ağacı əkmək üçün, yaxud da ki, bir gölü təmizləmək üçün biz nə qədər vaxt itirməliyik və nə üçün?! Ona görə xahiş edirəm ki, bütün aidiyyəti qurumlar nəticə çıxarsınlar və bürokratik əngəllərə son qoyulmalıdır.

Bir daha demək istəyirəm ki, 2010-cu ilin yekunlarını biz gələn il müzakirə edəcəyik. Ancaq indidən demək olar ki, bu yekunlar uğurlu olacaq, Azərbaycanın uğurlu inkişafını təmin edəcəkdir. Sağ olun.

## QEYDLƏR

**1. YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 5,9-14,113,159,241,283.

**2. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-

ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5,9-11,89,112,113,114,118,131,241,245,248,283,300, 301,305,306,307,310,311,312,320.

**3. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və

İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 9-11,37,241,245,248,277,278,283.

**4. Qafqaz Albaniyası,** A l b a n i y a (Qafqaz) – Şərqi Qafqazda qədim dövlət. İndiki Azərbaycan Respublikasının ərazisini və Dağıstanın cənub hissəsini əhatə edirdi. Təqribən e.ə. IV–III əsrlərdə formalaşdığı ehtimal olunur. Paytaxtı Qəbələ, V əsrdən isə Bərdə şəhəri idi. – 10,12.

**5. Rostropoviç Mstislav** (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının Fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 10.

**6. Üzeyir bəy Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 10.

**7. Dmitri Şostakoviç** (1906–1975) – böyük rus bəstəkarı. XX əsr dünya müsiqi sənətinin klassiki. Şostakoviçin yaradıcılığında simfonik musiqi başlıca yer tutur. Ən kamil əsərlərindən sayılan 7,11,12, 14,15-ci simfoniyalarında həyat və ölüm mövzusu böyük emosionallıqla ifadə olunmuşdur. Bir çox

dünya ölkələrinin milli, elm, incəsənət akademiyalarının Fəxri üzvü olmuşdur. – 10.

**8. Bülbül,** Murtuza Məşədi Rza oğlu Məm-mədov (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. – 10.

**9. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 13,16,48–65,156,168–186,251,272,299,311.

**10. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 13,137,231,234, 285,286,311.

**11. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində

şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 14,211.

**12. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 15,88.

**13. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 15,88ö

**14. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi

Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı.

Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 16,18,64,75,117,118,120,162, 171,173,209,211,220,226–229,242,250,254,255,256,259,264, 267,268,272,305,318.

**15. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 16,237, 295,311.

**16. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir.

2002-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 19,20–21,37.

**17. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekin şəhəridir. – 26,65,66,187.

**18. Hu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002–2012-ci illərdə ÇKP MK-nın Baş katibi, 2003–2013-cü illərdə ÇXR-nın sədri, 2004–2012-ci illərdə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. – 26,66,187.

**19. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridır. – 29,89–114,127,135,156,157,166,172,280,311,322.

**20. Braziliya,** B r a z i l i y a  F e d e r a t i v  R e s p u b l i- k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridir. – 42.

**21. Luis İnasiu Lula da Silva** (d.1945) – 2003–2011-ci illərdə Braziliya Federativ Respublikasının Prezidenti olmuşdur. – 42.

**22. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 120,5 min km$^2$, əhalisi 24,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyan şəhəridir. – 43.

**23. Kim Çen İr** (1941 və ya 1942–2011) – 1994–2011-ci illərdə Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş Komandanı, KXDR-in Dövlət Müdafiə Komitəsinin sədri olmuşdur. «Dahi rəhbər» Kim İr Senin oğlu. – 43.

**24. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 44.

**25. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. – 44.

**26. Vyetnam,** Vyetnam Sosialist Respublikası (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min km$^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 45.

**27. Nquen Minh Çiet** (d.1942) – Vyetnam dövlət xadimi. 2006–2011-ci illərdə Vyetnam Sosialist Respublikasının Prezidenti olmuşdur. – 45.

**28. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 31,8 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 46,202–229.

**29. İslam Kərimov,** İslam Əbduqəni oğlu (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 46, 203–229.

**30. Liviya,** Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi – Şimali Afrikada dövlət. Sahəsi 1.759,5 min km$^2$, əhalisi 6,5 milyon nəfərdir. Liviyanın rəhbər orqanı inqilabi rəhbərdir. Qanunverici orqanı Ümumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripoli şəhəridir. – 47.

**31. Müəmmər əl-Qəddafi** (1942–2011) – Liviyanın dövlət və siyasi xadimi, 1970–2011-ci illərdə Liviyanın prezidenti olmuşdur. – 47.

**32. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 48–65,169,180–185,299.

**33. Mustafa Kamal Atatürk,** Qazi Mustafa Kamal (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» Fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 55,173.

**34. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 55,57,58, 59,73,74,87,104,111,115,123,124,127,133,138,175,182,183, 193,196,197,198,200,205,206,210,212,213,218,221,228,265, 280,215.

**35. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə

etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 55,182–183,196,213.

**36. Avropa Parlamenti,** A v r o p a r l a m e n t – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparlamentin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərar verir. Avroparlament beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 55,182,196,213.

**37. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 58,105, 108,127,197,280.

**38. Sinqapur,** S i n q a p u r  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 km$^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 67–71,304.

**39. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 73,192–201,206,212, 213,229.

**40. Malta,** M a l t a R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 km$^2$, əhalisi 430 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 77.

**41. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a -n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı ər-Riyad şəhəridir. – 78,79.

**42. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı əmiri. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 78.

**43. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1973 min km$^2$, əhalisi 121 milyon nəfərdir. Meksika federasiyadır, inzibati

ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 80.

**44. Felipe Kalderon İnoxosa** (d.1962) – Meksikanın siyasi xadimi. 2006–2012-ci illərdə Meksikanın prezidenti olmuşdur. Prezident seçildikdən sonra narkotik mafiyaya qarşı qətiyyətlə mübarizə aparmışdır. – 80.

**45. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 82,83.

**46. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-cı ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 87,212.

**47. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 89–114,135.

**48. Hüseynqulu Bağırov,** Hüseynqulu Seyid oğlu (d.1955) – iqtisadçı. 2000–2001-ci illərdə Azərbaycan Respublikası Ticarət naziri, 2001-ci ilin may ayından Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. H.Bağırov bir sıra beynəlxalq akademiyaların və assosiasiyaların həqiqi üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 94,190,280.

**49. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən isə Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 94.

**50. Gümrü (Kumayri) –** Qərbi Azərbaycanda əsası 1837-ci ildə qoyulmuş şəhər. Gümrü Azərbaycanın ən qədim şəhərlərindəndir. E.ə. V əsrdə burada yaşayış məskəni olmuşdur. Erkən və orta əsrlərdə iri yaşayış yeri idi və Gümrü adlanırdı. – 102.

**51. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 104,182,195, 206,213.

**52. Avropa İttifaqı** (Aİ) – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir (Danimarka və Böyük Britaniya istisna olmaqla), vahid pul-kredit siyasəti aparılır. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 115,136,140,145,149,150,151,152.

**53. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 116–119,218.

**54. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 116,125.

55. **Qurani-Kərim,** əl-Quran – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 118,119,125.

**56. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon

km$^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 127,133,192–201,238,280,324.

**57. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 127,280.

**58. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 134,323.

**59**. **Rene van der Linden** (d.1943) – holland siyasətçisi. 2005–2008-ci illərdə AŞPA-nın, 2009-2010-cu illərdə Niderland Senatının sədri olmuşdur. – 134.

**60. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 136.

**61. Vayra Vike-Freyberqa** (d.1937) – Latviyanın dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 136.

**62. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi

238,4 min km$^2$, əhalisi 19,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 138–159,249.

**63. Trayan Besesku** (d.1951) – Rumıniyanın siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının Prezidenti olmuşdur. – 138–159,249.

**64. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 137.

**65. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 138–159,234.

**66. Macarıstan,** Macarıstan Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 138–159.

**67. Mixeil Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. – 139–159.

**68. Aida İmanquliyeva,** Aida Nəsir qızı (1939–1992) – görkəmli şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus–ərəb əlaqələri haqqında yazdığı məqalələr keçən əsrin 80–90-cı illərində ona böyük şöhrət qazandırmışdır. Görkəmli alim,

bacarıqlı təşkilatçı 1991-ci ildən ömrünün sonuna kimi Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsində çalışmışdır. – 161.

**69. Nailə Vəlixanlı,** N a i l ə  M ə m m ə d ə l i  q ı z ı (d.1940) – tarixçi-şərqşünas alim. Tarix elmləri doktoru. MEA-nın həqiqi üzvü. Azərbaycan Tarixi Muzeyinin direktoru. Elmi əsərlərində Azərbaycanın orta əsrlər tarixinin mənbəşünaslıq problemləri, regionun Ərəb Xilafəti tərkibində mövqeyi, sosial-iqtisadi münasibətlər, siyasi-mədəni tarix və tarixi coğrafiya məsələlərinə aydınlıq gətirmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 161.

**70. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin Birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf», «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 168,186,192,201,202,229.

**71. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının

«İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 168,186,192, 201,202,229.

**72. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ- l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 168,186,192,201,202,229, 238,325.

**73. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 170,171–177.

**74. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200,0 min km$^2$, əhalisi 6,0 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 176,178,180–185.

**75. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 17,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 176,179,180–185.

**76. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a- s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür.

Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 176,180–185,297.

**77. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 179,180–185, 297.

**78. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 180–185,297.

**79. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 184,275,317.

**80. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 183,212.

**81. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i- k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parla-

mentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 188,238.

**82. Kristian Vulf** (d.1959) – alman siyasətçisi . 2010–2012-ci illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. – 188.

**83. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 189.

**84. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. – 189.

**85. Riçard Morninqstar** (d.1945) – ABŞ Dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi (2009–2012), ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur (2012–2014). – 193.

**86**. **Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 194,200.

**87. Əlişir Nəvai,** N i z a m ə d d i n M i r Ə l i ş i r (1441–1501) – özbək şairi və mütəfəkkiri, dövlət xadimi. Özbək dilində «Xəmsə» yaradaraq Nizami ədəbi məktəbinin ən görkəmli davamçılarından biri kimi, Yaxın Şərqdə şöhrət qazanmışdır. – 211.

**88. Mirzə Uluqbəy**, U l u q b ə y M ə h ə m m ə d T a -r a ğ a y (1394–1449) – özbək astronomu, riyaziyyatçısı, Əmir Teymurun nəvəsi. 1409-cu ildə Səmərqənd hakimi elan edilmiş, atası Şahruxun ölümündən (1447) sonra Teymurçilər sülaləsinin

başçısı olmuşdur. Hələ gəncliyindən elmlə maraqlanmış, ensiklopedik biliyə malik olmuşdur. Onun yaratdığı Uluqbəy rəsədxanasında tərtib edilən ulduz kataloqu dünyada ən yaxşı kataloq olmuş, Oksfordda (1665) nəşr edilmişdir. – 211.

**89. Əmir Teymur,** Teymurləng, Teymur, Topal Teymur (1336–1405) – Orta Asiyanın görkəmli dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi, döyüşlərdə aldığı yaralara görə «Teymurləng» (Topal Teymur) ləqəbi ilə tanınmışdır. Teymurləng üç yürüşündə (1386–87;1392–97; 1399–1404) Azərbaycanda olmuşdur. Əlincə qalası uğrunda 14 il mübarizə aparan Teymurləng buraya 4 dəfə (1387, 1393,1397,1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da məqsədinə nail ola bilməmişdi. – 224.

**90. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament, Konqress və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 230,234,311.

**91. I Xuan Karlos** (d.1938) – 1975–2014-cü illərdə İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. –230.

**92. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli),

4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 236,250–281.

**93. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 241,283.

**94. Mirəsədulla Mirqasımov,** M i r ə s ə d u l l a M i r -ə l ə s g ə r o ğ l u (1883–1958) – cərrah. Azərbaycan Respublikası MEA-nın ilk prezidenti. Tibb elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. İlk azərbaycanlı alim-cərrah. Azərbaycan Respublikasında ilk doktorluq dissertasiyası müdafiə etmiş həkimlərdən və müasir tibb elminin əsasını qoyanlardan biri. Mirqasımovun elmi fəaliyyəti, əsasən, sidikdaşı xəstəliyinin etiologiya, klinika və müalicəsinin öyrənilməsini, irinli peritonitləri, urologiya və cərrahlığın digər aktual məsələlərini əhatə edir. Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin və 5 cildlik «Cərrahiyyə» kitabının müəllifidir. – 242.

**95. Topçubaşov Mustafa bəy** (1895–1981) – cərrah, ictimai və dövlət xadimi. Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. Tədqiqatı əsasən, qarında, başda, döş qəfəsində aparılan cərrahi problemlərə, öddaşı xəstəliyinin müalicəsinə, periferik iflic xəstəliyinə həsr olunmuşdur. Orijinal diaqnostika və cərrahi üsul təklif etmişdir. Dünyada geniş istifadə olunan analgeziya üsulunu ilk dəfə Topçubaşov kəşf etmişdir. – 242.

**96. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının

Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 242.

**97. Abdulla Qarayev,** A b d u l l a İ s m a y ı l o ğ l u (1910–1968) – fizioloq, tibb elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. 1944–50-ci illərdə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. Azərbaycanda eksperimental fiziologiya laboratoriyasının ilk təşkilatçılarından biridir. – 242.

**98. Adilə Namazova,** A d i l ə Ə v ə z q ı z ı (d.1926) – pediatr-kardioloq. Tibb elmləri doktoru, professor, SSRİ Tibb Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Rusiya Federasiyası Tibb Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. SSRİ Ali Sovetinin deputatı olmuşdur. Adilə Namazova ilk dəfə olaraq ürək çəpərinin anadangəlmə qüsurlarının klinik xüsusiyyətlərini öyrənmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 242.

**99. Mirməmməd Cavadzadə,** M i r m ə m m ə d C a v a d o ğ l u (1927–2008) – cərrah-uroloq, tibb elmləri doktoru, professor;

SSRİ TA-nın müxbir üzvü, AMEA-nın akademiki. SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Cavadzadə böyrək polikistozunun orijinal operasiya üsulunu təklif etmiş, böyrək və sidik axarında daş olması hallarında az travma ilə cərrahi əməliyyat aparmışdır. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 242.

**100. Cəmil Əliyev,** C ə m i l Ə z i z o ğ l u (d.1946) – tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Respublika Milli Onkologiya Mərkəzinin direktoru, Rusiya TEA-nın və Azərbaycan MEA-nın akademiki. 1979-cu ildə yazdığı «Dərinin bədxassəli şişlərində plastik operasiyalar» monoqrafiya SSRİ TEA-nın N.N.Petrov adına mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 242.

**101. Əhliman Əmiraslanov,** Ə h l i m a n T a p d ı q o ğ-l u (d.1947) – cərrah-onkoloq, tibb elmləri doktoru, professor. AMEA-nın akademik-katibi. Əməkdar elm xadimi. SSRİ Dövlət mükafatı laureatı, RF Təbiət Elmləri Akademiyasının üzvü seçilmişdir. 1992-ci ilə kimi SSRİ TEA-nın ÜOEMD-də işləyib. 1992–2015-ci illərdə Azərbaycan Tibb Universitetinin rektoru olmuşdur. Klinik onkologiya sahəsində tədqiqatlar aparır. «Onkologiya», «Sümük şişləri», «Bədxassəli sümük şişlərinin xüsusi müalicəsinin proqnozları» kitablarının müəllifidir. Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. – 242.

**102. Vasif Talıbov,** V a s i f Y u s i f o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 250,256,270–273.

**103. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 252.

**104.** ***bp,*** «B r i t i ş h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 282.

**105. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı** – Azərbaycanın ən qədim dram teatrı. Tarixi 1873-cü ildə Bakıda səhnəyə qoyulmuş M.F.Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşası ilə başlanıb. Bu teatr 1880–90-cı illərdə C.Zeynalovun ev tamaşaları, H.Mahmudbəyovun və H.B.Zərdabinin teatr truppaları əsasında yaradılmışdır.

Azərbaycan SSR XKS-nin 1920-ci il 1 iyul tarixli Qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı və buraya bütün teatr truppaları daxil oldu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq müstəqil fəaliyyət göstərməyə başladı. – 283–284.

**106. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 285, 286.

**107. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 292,294.

**108. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min

km$^2$, əhalisi 8,66 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 296.

**109. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriyanın Federal prezidenti olmuşdur. – 296.

**110. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqa şəhəridir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. – 298.

**111. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiya Respublikasının Prezidenti olmuşdur. – 298.

**112. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 71 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 306.

**113. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti; Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru

uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü, İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət, 1797–1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdi. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 317.

**114. İrəvan** – qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 317.

## Şəxsi adlar göstəricisi


**Abasov İsmət** – 236
**Abdullayev Rövnəq** – 94,307
**Abdulov İlqar** – 70
**Abutalıbov Hacıbala** – 168,186,192,201,202,229, 238,325
**Ağaməhəmmədi Əli** – 231
**Axundzadə Məhəmməd** – 286
**Al Səud Abdullah** – 78
**Al Səud Sultan** – 79
**Aleksandr Ata** – 119
**Alışanov Arif** – 215
**Allahverdiyeva Nübar** – 259
**Atatürk Mustafa Kamal** – 55,173
**Amar Şlomo** – 248
**Babayeva Ofelya** – 161
**Bağırov Hüseynqulu** – 94,190,280
**Başmet Yuri** – 12
**Berdiməhəmmədov Qurbanqulu**– 180–185,297
**Besesku Trayan** – 138–159,249
**Berezovski Boris** – 12
**Bokova İrina** – 5,9,11–14
**Boyko Yuri** – 237
**Bradtken Robert** – 127,280
**Bülbül** – 10
**Camalov Əli** – 258
**Cavadzadə Mirməmməd** – 242
**Da Silva Luis** – 42
**Dadli Robert** – 282
**Deys Cozef** – 194
**Eqamberdiyev Tolib** – 215

**Eyyubov Yaqub** – 216
**Əhmədinejad Mahmud** – 285,286
**Əl-Qəddafi Müəmmər** – 47
**Əliyev Aydın** – 38
**Əliyev Cəmil** – 242
**Əliyev Heydər** – 16,18,64,75,117,118,120, 162,171,173,209,211,220, 226–229,242,250,254,255, 256,259,264,267,268,272, 305,318
**Əliyeva Mehriban** – 5,9-11,89,112,113,114,118, 131,241,245,248,283,300, 301,305,306,307,310,311, 312,320
**Əliyeva Zərifə** – 242
**Əmir Teymur** – 224
**Əmiraslanov Əhliman** – 242
**Ərdoğan Rəcəb Tayyib** – 170,171–177
**Əsgərov Cahangir** – 215
**Əzimov Rüstəm** – 216
**Fasye Bernar** – 127,280
**Fekete Vladimir** – 120
**Fişer Hayntz** – 296
**Fradkov Mixail** – 166
**Gəncəvi Nizami** – 14,211
**Gözəlova Safuraxanım** – 131
**Gül Abdullah** – 48–65,169,180–185,299.
**Hacıbəyli Üzeyir** – 10
**Hu Szintao** – 26,66,187
**Hüseynov Talıb** – 130
**Xocayev Alışer** – 215
**I Xuan Karlos** – 230
**İxiilov Semyon** – 119
**İsmayılzadə Zeynəb** – 307
**İmanquliyeva Aida** – 161

**İnoxosa Kalderon** – 80
**Kodırov Rəşitcan** – 216
**Kaydanou Tina** – 133
**Kərimov İslam** – 46,203,229
**Kim Çen İr** – 43
**Kirill (patriarx)** – 119
**Klaus Vatslav** – 298
**Kuziyev Tursunali** – 215
**Qaralov Zakir** – 216
**Qarayev Abdulla** – 242
**Qarayev Əbülfəs** – 40
**Quliyev Elçin** – 19,20–21,37
**Quliyev Qiyas** – 314
**Quliyev Sənan** – 307
**Quliyeva Roza** – 262
**Qrossruk Volfqanq** – 307
**Lavrov Sergey** – 94
**Lazar Berl** – 248
**Levayev Lev** – 245,246,248
**Le Ueri Filipp** – 137
**Li Men Bak** – 189
**Linden Rene** – 134
**Lisin Vladimir** – 322
**Livin Stüart** – 324
**Matlyubov Baxodır** – 216
**Medvedev Dmitri** – 89–14,135
**Medvedeva Svetlana** – 89,113,114
**Mehdiyev Ramiz** – 168,186,192,201,202,229
**Məmmədov Ziya** – 27,29
**Məmmədyarov Elmar** – 94,215,216
**Miller Aleksey** – 94
**Mirziyoyev Şavkat** – 202
**Mirqasımov Mirəsədulla** – 242
**Morninqstar Riçard** – 193
**Namazova Adilə** – 242

**Nəvai Əlişir** – 211
**Nazarbayev Nursultan** – 178,180–185
**Nquyen Minh Çiet** – 45
**Norov Vladimir** – 216
**Obama Barak** – 194,200
**Orban Viktor** – 140–159
**Otunbayeva Roza** – 178,180–185
**Pan Gi Mun** – 195
**Paşazadə Allahşükür** – 116–119,218
**Pirverdiyev Etibar** – 41
**Popov İqor** – 127,280
**Rasizadə Artur** – 168,186,192,201,202,229
**Rəhimov Azad** – 301
**Rəhimov Nicat** – 69
**Rəhmon Emoməli** – 44
**Rostropoviç Mstislav** – 10
**Rozen Cek** – 248
**Rutte Mark** – 323
**Saakaşvili Mixeil** – 139–159
**Semnebi Piter** – 115
**Şaumyan Stepan** – 212
**Şirinov Fərid** – 307
**Şostakoviç Dmitri** – 10
**Talıbov Vasif** – 250,256,270–273
**Topçubaşov Mustafa bəy** – 242
**Trutnev Yuri** – 94
**Uluqbəy Mirzə** – 211
**Usubov Ramil** – 216
**Vəhidi Əhməd** – 285
**Vəlixanlı Nailə** – 161
**Vəliyev Elmar** – 311
**Vike-Freyberqa Vayra** – 136
**Vulf Kristian** – 188
**Yaqubova Mərhəmət** – 129

**Yanukoviç Viktor** – 295
**Zərdari Asif** – 15,88

## Coğrafi adlar göstəricisi

**Afina** – 68
**Almaniya** – 188,238
**Amerika Birləşmiş Ştatları** – 127,133,192–201,238,280, 324
**Ankara** – 180
**Antalya** – 180
**Aralıq dənizi** – 142,210
**Asiya** – 12,54
**Astana** – 180
**Atlanta** – 68
**Avrasiya** – 193
**Avropa** – 12,17,54,139,145,149,154, 155,158,193,240
**Avstriya** – 151,296
**Balakən** – 191
**Belarus** – 234
**Bilgəh** – 232
**Bişkek** – 180
**Braziliya** – 42
**Cənubi Qafqaz** – 76,103,133,145,210
**Corat** – 232
**Çexiya** – 298
**Çin** – 26,65,66,187
**Dağlıq Qarabağ** – 55,57,58,59,73,74,87,104, 111,115,123,124,127,133,

138,175,182,183,193,196, 197,198,200,205,206,210, 212,213,218,221,228,265, 280,215

**Daşkənd** – 180,202–229
**Daşkəsən** – 191
**Fatmayı** – 232
**Fransa** – 127,280
**Gəncə** – 236
**Goradil** – 232
**Göytəpə** – 21
**Gümrü** – 102
**Gürcüstan** – 138–159,234
**Hacıqabul** – 128
**Heydərabad** – 266
**Həzrə** – 34
**Hindistan** – 13
**Horadiz** – 21
**Xankəndi** – 87,212
**Xəzər dənizi** – 96,99,102,103,108,111, 142,143,150,154,185,206, 210,286
**Xızı** – 21
**Xocalı** – 183,212
**Xudat** – 21
**İngiltərə** – 65,238
**İordaniya** – 172
**İraq** – 172
**İran** – 13,137,231,234,285,286, 311
**İrəvan** – 317
**İspaniya** – 230,234,311
**İtaliya** – 311
**Kəngərli** – 254–256,272
**Koreya XDR** – 43

**Koreya Respublikası** – 189
**Kuba** – 234
**Kür çayı** – 128
**Kürdəxanı** – 232
**Qafqaz** – 7,59,96,102,103,108,111, 145,156,204,206,210
**Qara dəniz** – 142,143,210
**Qars** – 65
**Qazaxıstan** – 176,179,180–185
**Qəbələ** – 6–15
**Qətər** – 234
**Qırğızıstan** – 176,178,180–185
**Qusar** – 27–41
**La-Manş** (*boğaz*) – 65
**Latviya** – 136
**Livan** – 172
**Liviya** – 47
**London** – 65,68
**Macarıstan** – 138–159
**Maxta** – 258,273
**Malta** – 27
**Meksika** – 80
**Meyniman** – 128
**Mərdəkan** – 232
**Mərkəzi Asiya** – 150,154,204,205,210
**Mərkəzi Avropa** – 156,210
**Mingəçevir** – 300–310
**Minsk** – 236
**Moskva** – 96,104,108
**Naxçıvan** – 180,181,252,253,261,264
**Naxçıvan Muxtar Respublikası** – 236,250–281
**Nardaran** – 232
**Niderland** – 134,323
**Novxanı** – 232
**Nyu-York** – 192–201

**Ordubad** – 269–277
**Orta Asiya** – 185,210
**Özbəkistan** –46, 202–229
**Pakistan** – 15,88
**Pekin** – 65
**Pirşağı** – 232
**Rumıniya** – 138–159,249
**Rusiya** – 29,89–114,127,135,156, 157,166,172,280,311,322
**Səngəçal** – 21
**Sədərək** – 260–268
**Səudiyyə Ərəbistanı** – 78,79
**Sidney** – 65
**Sinqapur** – 67–71,304
**Sumqayıt** – 232
**Supsa** – 143
**Suriya** – 172
**Şabran** – 27
**Şahdağ** – 39
**Şəki** – 21
**Şəmkir** – 21
**Şərur** – 257–259
**Şuşa** – 87
**Tacikistan** – 103
**Trabzon** – 177
**Türkiyə** – 13,16,48–65,156,168–186, 251,272,299,311
**Türkmənistan** – 176,180–185,297
**Ukrayna** – 16,237,295,311
**Urva** – 41
**Vladiqafqaz** – 135
**Vyetnam** – 45
**Yengicə** – 257,273
**Yevlax** – 311–320
**Yuxarı Zeyxur** – 37

**Yunanıstan** – 172
**Zaqatala** – 21
**Zəngəzur** – 184,275,317
**Zığ** – 17

## MÜNDƏRİCAT

YUNESKO-nun BAŞ DİREKTORU İRİNA BOKOVA
İLƏ GÖRÜŞ

*29 iyul 2010-cu il*.............................................................................5

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QƏBƏLƏ
RAYONUNA SƏFƏRİ

*29 iyul 2010-cu il*.............................................................................6

QƏBƏLƏ İKİNCİ BEYNƏLXALQ MUSİQİ FESTİVALININ
TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*30 iyul 2010-cu il*.............................................................................9

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*2 avqust 2010-cu il* .......................................................................15

«AKKORD» QRANİT-MƏRMƏR ZAVODUNUN
AÇILIŞI MƏRASİMİ

*9 avqust 2010-cu il* .......................................................................16

XƏTAİ RAYONUNDA YENİDƏN QURULAN PARKDA
YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*10 avqust 2010-cu il* .....................................................................17

AZƏRBAYCAN SƏRHƏDÇİLƏRİNİN PEŞƏ BAYRAMI
ƏRƏFƏSİNDƏ DÖVLƏT SƏRHƏD XİDMƏTİ
AKADEMİYASININ AÇILIŞI MƏRASİMİ

*10 avqust 2010-cu il* .....................................................................18

AZƏRBAYCAN PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN NİTQİ

*10 avqust 2010-cu il ........................................................................22*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

*12 avqust 2010-cu il ........................................................................26*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QUSAR RAYONUNA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ BAKI–RUSİYA FEDERASİYASI SƏRHƏDİ YOLUNUN ÜZƏRİNDƏ YERLƏŞƏN ŞABRAN DAİRƏVİ YOLU VƏ KÖRPÜ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*12 avqust 2010-cu il ........................................................................27*

QUSAR RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*12 avqust 2010-cu il ........................................................................32*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA

*16 avqust 2010-cu il ........................................................................42*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

*16 avqust 2010-cu il ........................................................................43*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*16 avqust 2010-cu il ........................................................................44*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MİNH ÇİETƏ

*16 avqust 2010-cu il* ........................................................................................*45*
ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*16 avqust 2010-cu il* ........................................................................................*46*

LİVİYA İNQİLABININ LİDERİ, BÖYÜK LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

*16 avqust 2010-cu il* ........................................................................................*47*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*16 avqust 2010-cu il* ........................................................................................*48*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞÜ

*16 avqust 2010-cu il* ........................................................................................*49*

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*16 avqust 2010-cu il* ........................................................................................*50*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*16 avqust 2010-cu il* ........................................................................................*52*

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*16 avqust 2010-cu il* ........................................................................................*53*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*16 avqust 2010-cu il* ........................................................................................*61*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

*27 avqust 2010-cu il* ........................................................................................*66*

SİNQAPURDA KEÇİRİLƏN YENİYETMƏLƏRİN
I YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ
İDMANÇILAR VƏ MÜTƏXƏSSİSLƏRLƏ GÖRÜŞ

*30 avqust 2010-cu il ......................................................................................67*

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ
MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI
SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN
RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*31 avqust 2010-cu il ......................................................................................72*

MALTA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA

*1 sentyabr 2010-cu il......................................................................................77*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ
ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN
ƏBDÜLƏZİZ AL SƏUDA

*1 sentyabr 2010-cu il......................................................................................78*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ
NAZİRİN MÜAVİNİ,
MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ
ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*1 sentyabr 2010-cu il......................................................................................79*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

*1 sentyabr 2010-cu il......................................................................................80*

DÖVLƏT BAYRAĞI MEYDANININ TƏNTƏNƏLİ AÇILIŞI
MƏRASİMİ

*1 sentyabr 2010-cu il ......................................................................................81*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*3 sentyabr 2010-cu il ........................................................................88*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*3 sentyabr 2010-cu il ........................................................................89*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*3 sentyabr 2010-cu il ........................................................................90*

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*3 sentyabr 2010-cu il ........................................................................92*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*3 sentyabr 2010-cu il ........................................................................94*

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*3 sentyabr 2010-cu il ........................................................................95*

RUSİYADAN ÖLKƏMİZƏ QANUNSUZ GƏTİRİLMİŞ İKONALAR VƏ İNCƏSƏNƏT ƏSƏRLƏRİNİN PREZİDENT DMİTRİ MEDVEDEVƏ TƏQDİMETMƏ MƏRASİMİ

*3 sentyabr 2010-cu il ......................................................................106*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*3 sentyabr 2010-cu il ......................................................................107*

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN XANIMLARI İLƏ BİRLİKDƏ «İÇƏRİŞƏHƏR» DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU VƏ DƏNİZKƏNARI MİLLİ PARKLA TANIŞLIĞI

*3 sentyabr 2010-cu il.........................................................................113*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 sentyabr 2010-cu il.........................................................................115*

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR SÜFRƏSİ MƏRASİMİ

*6 sentyabr 2010-cu il.........................................................................116*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*6 sentyabr 2010-cu il.........................................................................125*

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*6 sentyabr 2010-cu il.........................................................................126*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*7 sentyabr 2010-cu il.........................................................................127*

KÜR ÇAYININ DAŞMASI NƏTİCƏSİNDƏ YARANAN TƏBİİ FƏLAKƏT ZAMANI HACIQABUL RAYONUNUN MEYNİMAN KƏNDİ ƏRAZİSİNDƏ EVLƏRİ DAĞILAN VƏTƏNDAŞLAR ÜÇÜN YENİ TİKİLƏN MƏNZİLLƏRİN VERİLMƏSİ MƏRASİMİ

*7 sentyabr 2010-cu il.........................................................................128*

ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOU İLƏ GÖRÜŞ

*8 sentyabr 2010-cu il* ........................................................................ *133*

NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*8 sentyabr 2010-cu il* ........................................................................ *134*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*10 sentyabr 2010-cu il* ...................................................................... *135*

LATVİYANIN SABİQ PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ

*13 sentyabr 2010-cu il* ...................................................................... *136*

DÜNYA BANKININ VİTSE-PREZİDENTİ FİLİP LE UERU İLƏ GÖRÜŞ

*13 sentyabr 2010-cu il* ...................................................................... *137*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ TRAYAN BESESKU İLƏ GÖRÜŞ

*13 sentyabr 2010-cu il* ...................................................................... *138*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*13 sentyabr 2010-cu il* ...................................................................... *139*

MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ GÖRÜŞ

*14 sentyabr 2010-cu il* ...................................................................... *140*

AZƏRBAYCAN, GÜRCÜSTAN, RUMINİYA VƏ MACARISTANIN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ DÖRDTƏRƏFLİ GÖRÜŞÜ

*14 sentyabr 2010-cu il ......................................................................141*

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

*14 sentyabr 2010-cu il ......................................................................147*

DÖVLƏT BAŞÇILARI DƏNİZKƏNARI MİLLİ PARKDA, «İÇƏRİŞƏHƏR» DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ FƏVVARƏLƏR MEYDANINDA

*14 sentyabr 2010-cu il ......................................................................159*

BAKIDA 132-134 NÖMRƏLİ TƏHSİL KOMPLEKSİNİN YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*15 sentyabr 2010-cu il ......................................................................160*

MDB ÖLKƏLƏRİNİN KƏŞFİYYAT XİDMƏTLƏRİ VƏ TƏHLÜKƏSİZLİK ORQANLARI RƏHBƏRLƏRİ MÜŞAVİRƏSİNİN BAKIDA KEÇİRİLƏN XI İCLASINDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*15 sentyabr 2010-cu il ......................................................................165*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜPKİYƏYƏ SƏFƏRİ

*15 sentyabr 2010-cu il ......................................................................168*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*15 sentyabr 2010-cu il ......................................................................169*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*15 sentyabr 2010-cu il*............................................................................*170*
AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ QURULMASI HAQQINDA BİRGƏ BƏYANNAMƏNİN İMZALANMASINDAN SONRA DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*15 sentyabr 2010-cu il* ............................................................................*171*

QIRĞIZISTAN RESPUBLİKASININ KEÇİD DÖVRÜ PREZİDENTİ ROZA OTUNBAYEVA İLƏ GÖRÜŞ

*15 sentyabr 2010-cu il*............................................................................*178*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*16 sentyabr 2010-cu il* ............................................................................*179*

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ X ZİRVƏ TOPLANTISI

*16 sentyabr 2010-cu il* ............................................................................*180*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

*17 sentyabr 2010-cu il*............................................................................*187*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KRİSTİAN VULFA

*17 sentyabr 2010-cu il*............................................................................*188*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

*17 sentyabr 2010-cu il*............................................................................*189*

«AZƏRBAYCAN YAŞIL DÜNYA NAMİNƏ»
DEVİZİ ALTINDA KEÇİRİLƏN BEYNƏLXALQ
EKOLOGİYA SƏRGİSİ İLƏ TANIŞLIQ

*17 sentyabr 2010-cu il ........................................................................190*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM
ƏLİYEVİN ABŞ-a İŞGÜZAR SƏFƏRİ

*22 sentyabr 2010-cu il........................................................................192*

ABŞ DÖVLƏT KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ
RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞ

*22 sentyabr 2010-cu il ........................................................................193*

BMT BAŞ MƏCLİSİNİN 65-ci SESSİYASININ AÇILIŞI
MƏRASİMİ

*23 sentyabr 2010-cu il ........................................................................194*

ABŞ PREZİDENTİ BARAK OBAMA İLƏ GÖRÜŞ

*24 sentyabr 2010-cu il ........................................................................200*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM
ƏLİYEVİN ÖZBƏKİSTANA RƏSMİ SƏFƏRİ

*27 sentyabr 2010-cu il ........................................................................202*

ÖZBƏKİSTAN PREZİDENTİNİN İQAMƏTGAHINDA RƏSMİ
QARŞILANMA MƏRASİMİ

*27 sentyabr 2010-cu il ........................................................................203*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN
TƏKBƏTƏK GÖRÜŞÜ

*27 sentyabr 2010-cu il ........................................................................204*

AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*27 sentyabr 2010-cu il ........................................................................208*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*27 sentyabr 2010-cu il ........................................................................215*
AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*27 sentyabr 2010-cu il ........................................................................217*

ÖZBƏKİSTAN SENATININ BİNASI İLƏ TANIŞLIQ

*27 sentyabr 2010-cu il ........................................................................222*

MÜSTƏQİLLİK MEYDANI KOMPLEKSİ İLƏ TANIŞLIQ

*27 sentyabr 2010-cu il ........................................................................223*

FORUMLAR SARAYI İLƏ TANIŞLIQ

*27 sentyabr 2010-cu il ........................................................................224*

«HƏZRƏTİ-İMAM» MƏSCİD KOMPLEKSİ İLƏ TANIŞLIQ

*27 sentyabr 2010-cu il ........................................................................225*

HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*27 sentyabr 2010-cu il ........................................................................226*

İSPANİYA KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*28 sentyabr 2010-cu il.........................................................................230*

İRANIN BİRİNCİ VİTSE-PREZİDENTİNİN İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ ƏLİ AĞAMƏHƏMMƏDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 sentyabr 2010-cu il* ........................................................................*231*

HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU–MƏRDƏKAN DAİRƏSİ–BİLGƏH QƏSƏBƏSİ ƏRAZİSİNDƏ AVTOMOBIL YOLLARININ GENİŞLƏNDİRİLMƏSİ VƏ TİKİNTİSİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*29 sentyabr 2010-cu il* ........................................................................*232*

«CASPİAN AGRO–2010» III BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI, ƏRZAQ EMALI VƏ QABLAŞDIRMA SƏRGİSİ İLƏ TANIŞLIQ

*30 sentyabr 2010-cu il* ........................................................................*234*

UKRAYNA  RESPUBLİKASININ YANACAQ VƏ ENERGETİKA NAZİRİ YURİ BOYKO  İLƏ GÖRÜŞ

*30 sentyabr 2010-cu il* ........................................................................*237*

BAKININ NİZAMİ RAYONUNDA SALINACAQ PARKIN VƏ BURADA YARADILACAQ MUSİQİLİ FƏVVARƏNİN ƏRAZİSİ İLƏ TANIŞLIQ

*30 sentyabr 2010-cu il*.........................................................................*238*

BAKI ŞƏHƏRİNƏ GƏTİRİLƏN YENİ AVTOMOBİLLƏRƏ BAXIŞ

*30 sentyabr 2010-cu il*.........................................................................*240*

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN TƏDRİS-TERAPEVTİK KLİNİKASININ AÇILIŞI MƏRASİMİ

*1 oktyabr 2010-cu il*.............................................................................*241*

BAKININ XƏTAİ RAYONUNDA YƏHUDİ UŞAQLAR ÜÇÜN «XABAD-OR-AVNER» TƏHSİL MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*4 oktyabr 2010-cu il*.............................................................................*245*

YƏHUDİ MƏKTƏBİNİN AÇILIŞI MÜNASİBƏTİLƏ RESPUBLİKAMIZA GƏLƏN YƏHUDİ İCMALARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*4 oktyabr 2010-cu il.......................................................................................147*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*5 oktyabr 2010-cu il.......................................................................................249*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*5 oktyabr 2010-cu il .......................................................................................250*

KƏNGƏRLİ RAYON MƏRKƏZİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI

*5 oktyabr 2010-cu il.......................................................................................254*

ŞƏRUR RAYONUNUN YENGİCƏ KƏND ORTA MƏKTƏBİNİN YENİ BİNASININ AÇILIŞI

*5 oktyabr 2010-cu il .......................................................................................257*

SƏDƏRƏK RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞI

*5 oktyabr 2010-cu il .......................................................................................260*

ORDUBADDA BİLƏV SU ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*5 oktyabr 2010-cu il .......................................................................................269*

MƏHDUD FİZİKİ İMKANLI İNSANLAR ÜÇÜN HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ YARADILAN REGİONAL İNFORMASİYA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*5 oktyabr 2010-cu il.......................................................................................277*

ATƏT-in MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN DAĞLIQ QARABAĞ ƏTRAFINDAKI ƏRAZİLƏRDƏ QİYMƏTLƏNDİRİCİ MİSSİYASININ ÜZVLƏRİ, ATƏT-in

MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*6 oktyabr 2010-cu il...........................................................................280*

*bp*-nin İCRAÇI DİREKTORU ROBERT DADLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2010-cu il ..........................................................................282*

AZƏRBAYCAN DÖVLƏT AKADEMİK MİLLİ DRAM TEATRININ BİNASININ ƏSASLI YENİDƏNQURMA VƏ BƏRPADAN SONRA AÇILIŞI MƏRASİMİ

*7 oktyabr 2010-cu il...........................................................................283*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN MÜDAFİƏ NAZİRİ ƏHMƏD VƏHİDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 oktyabr 2010-cu il.........................................................................285*

İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, PREZİDENTİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİN BAŞÇILIQ ETDİYİ HEYƏT İLƏ GÖRÜŞ

*11 oktyabr 2010-cu il.........................................................................286*

DÖVLƏT NEFT ŞİRKƏTİNİN YENİ İNZİBATİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*12 oktyabr 2010-cu il .........................................................................287*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

*13 oktyabr 2010-cu il.........................................................................295*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ

*13 oktyabr 2010-cu il.........................................................................296*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU
BERDİMƏHƏMMƏDOVA

*13 oktyabr 2010-cu il.........................................................................297*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

*13 oktyabr 2010-cu il.........................................................................298*
TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*13 oktyabr 2010-cu il.........................................................................299*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
MİNGƏÇEVİR ŞƏHƏRİNƏ SƏFƏRİ

*14 oktyabr 2010-cu il.........................................................................300*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEVLAX
ŞƏHƏRİNƏ SƏFƏRİ

*14 oktyabr 2010-cu il.........................................................................311*

AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİ ÜZRƏ ATƏT-
in MÜŞAHİDƏÇİ MİSSİYASININ RƏHBƏRİ VOLFQANQ
QROSSRUKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*16 oktyabr 2010-cu il.........................................................................321*

RUSİYA FEDERASİYASI OLİMPİYA KOMİTƏSİNİN FƏXRİ
PREZİDENTİ VƏ ATICILIQ ÜZRƏ AVROPA
KONFEDERASİYASININ SƏDRİ İLƏ GÖRÜŞ

*16 oktyabr 2010-cu il.........................................................................322*

NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB MARK RUTTEYƏ

*18 oktyabr 2010-cu il.........................................................................323*

ABŞ-ın MALİYYƏ KATİBİNİN MÜAVİNİ STÜART LİVİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2010-cu il*.......................................................................................*324*

PAYTAXTA GƏTİRİLMİŞ KOMMUNAL XİDMƏT GÖSTƏRƏN MÜXTƏLİF NƏQLİYYAT VASİTƏLƏRİNƏ BAXIŞ

*19 oktyabr 2010-cu il*.......................................................................................*325*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN 2010-cu İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ

*20 oktyabr 2010-cu il*.......................................................................................*327*

YEKUN NİTQİ .......................................................................................*336*

QEYDLƏR.......................................................................................*349*

*Şəxsi adlar göstəricisi*.......................................................................*377*

*Coğrafi adlar göstəricisi*...................................................................*381*

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompyuter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61,
dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.